DÜNYA ƏDƏBİYYATI

ŞOTA RUSTAVELİ



# Pələng dərisi geymiş pəhləvan

Ш6(2)
R88

ŞOTA RUSTAVELİ

240635

# PƏLƏNG DƏRİSİ GEYMİŞ PƏHLƏVAN

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"AVRASİYA PRESS"
BAKI-2006

*Bu kitab "Ş.Rustaveli. Pələng dərisi geymiş pəhləvan. Dünya ədəbiyyatı kitabxanası, 100 cilddə, 19-cu cild" (Bakı, Yazıçı, 1988) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır.*

Tərcümə edənlər: **Səməd Vurğun**
**Məmməd Rahim**
**Süleyman Rüstəm**

**899.9691-dc22**
**AZE**
**Şota Rustaveli. Pələng dərisi geymiş pəhləvan.** Bakı, "Avrasiya Press", 2006, 232 səh.

Gürcü ədəbiyyatının görkəmli nümayəndəsi Şota Rustavelinin yeganə əsəri olan "Pələng dərisi geymiş pəhləvan" poeması əsrlərdir ki, şeir və sənət aləmində yaşamaqdadır. Dünya ədəbiyyatı xəzinəsinin qiymətli incilərindən olan bu poema XII əsr gürcü ictimai-siyasi həyatını, bədii təfəkkür tərzini, xalqın istək və arzularını, adət və ənənələrini, nəhayət, qədim gürcü dilini yaşadan misilsiz qəhrəmanlıq və məhəbbət dastanıdır. Bu gün də "Pələng dərisi geymiş pəhləvan" oxucuların çox sevdiyi əsərlərdəndir.

**ISBN10 9952-421-32-8**
**ISBN13 978-9952-421-32-3**

"AVRASİYA PRESS", 2006

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## ŞOTA RUSTAVELİ VƏ ONUN "PƏLƏNG DƏRİSİ GEYMİŞ PƏHLƏVAN" POEMASI

Gürcü xalqının milli iftixarı, dahi şairi və mütəfəkkiri Şota Rustavelinin adı dünya ədəbiyyatı tarixində şərəfli yer tutur.

Homer – Elladanın, Nizami – Azərbaycanın, Dante – İtaliyanın, Şekspir – İngiltərənin, Servantes – İspaniyanın, Puşkin – Rusiyanın rəmzi olduğu kimi, Rustaveli də Gürcüstanın mənəviyyat zirvəsidir. Bu ölməz adların hər biri bəşəriyyət tarixində yalnız əbədiyyətə qovuşmuş şöhrətli şair adı deyil, həm də bütöv bir xalqın mənəvi xəzinəsinin, bədii təfəkkürünün parlaq təzahürüdür.

Şota Rustavelinin adı bizim xalqımız üçün, xüsusilə doğma və əzizdir. Bu böyük söz ustadı, Azərbaycan xalqının şeir dühası Nizami Gəncəvi ilə bir dövrdə yaşamış və öz böyük müasiri kimi orta əsr dünyasında humanizm, azadlıq, qardaşlıq və dostluğun carçısı olmuşdur.

Hələ keçən əsrdə məşhur gürcü alimi Platon İoseliani Ş.Rustaveli yaradıcılığından bəhs edərkən yazırdı: "O, keçmişin sadəcə dahi şairi deyil, ümumiyyətlə mütərəqqi poeziyanın əbədi, canlı, sönməz və ilhamverici nümunəsidir".

Şota Rustaveli XII əsrin sonu, XIII əsrin əvvəllərində yaşayıb-yaratmışdır. Şairin həyatı haqqında çox az məlumat qalmışdır. Bu haqda məlumat verən əsas məxəz onun poeması, daha doğrusu, poemanın başlanğıcı və nəticəsidir. Başlanğıcdan məlum olur ki, şair öz poemasını hökmdar Tamaraya ithaf etmişdir. Gürcüstan XII əsrdə Tamaranın hakimiyyəti illərində siyasi, iqtisadi və mədəni cəhətdən inkişaf etmiş güclü bir feodal dövləti idi.

Tamara dövründə gürcü dövlətinin möhkəmləndiyini, elm və mədəniyyətin yüksəldiyini görən şair onun daxili və xarici siyasətini bəyənmiş, onu bir dövlət xadimi kimi yüksək qiymətləndirmişdir. Çariça Tamara elm və mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərinə havadarlıq edir, xüsusən ədəbiyyat və sənətin inkişafına böyük qayğı göstərirdi. Təsadüfi deyildir ki, XII əsr gürcü ədəbiyyatında Şavteli,



Çaxruxadze, Tmoqveli, M.Xoneli kimi məşhur şairlər yetişmiş, "Amiran-Darecaniani" kimi qəhrəmanlıq eposu yaranmışdır. Lakin bütün bu şairlər arasından Rustavelinin əzəmətli heykəli yüksəlmiş və dünya şöhrəti qazanmışdır.

Səkkiz əsrdən çoxdur ki, Ş. Rustaveli yeganə əsəri – "Pələng dərisi geymiş pəhləvan" poeması ilə şeir və sənət aləmində yaşamaqdadır. Dünya ədəbiyyatı xəzinəsinin qiymətli incilərindən olan bu poema XII əsr gürcü ictimai-siyasi həyatını, bədii təfəkkür tərzini, doğma xalqın adət və ənənələrini, istək və arzularını, nəhayət, qədim gürcü dilinin gözəlliyini yaşadan misilsiz sənət əsəridir.

"Pələng dərisi geymiş pəhləvan" poeması əsrlər boyu gürcü xalqının sevimli kitabı, kədər və sevincinin ortağı olmuşdur.

Böyük gürcü yazıçısı və ictimai xadimi İ.Çavçavadze onu "müqəddəs kitab" adlandırmışdı. Təsadüfi deyildir ki, hələ keçmişlərdə gürcü anaları gəlin gedən qızlarına onu xoşbəxtlik rəmzi kimi cehiz, döyüşə gedən oğullarına qəhrəmanlıq və qələbə rəmzi kimi qoşmuşlar.

Poema hər şeydən əvvəl böyük məhəbbət dastanıdır. Onun əsas süjet xətti Tinatinlə Avtandilin, Tariyellə Nəstan-Darecanın saf məhəbbəti və bununla əlaqədar hadisələr üzərində qurulmuşdur. Hələ əsərin başlanğıcında şair eşqin qüdrətindən, məhəbbətin insan həyatına istiqamət verən bir qüvvə olmasından söhbət açır və məhəbbət haqqında öz fəlsəfi fikirlərini şərh edir. Şair insanın ali hissi olan həqiqi həyat eşqini təqdir edir. Belə məhəbbət insanı yüksəldir, onu nəcib əməllərə sövq edir, qəhrəmanlığa çağırır.

Aşiq gərək sadiq olsun, pozulmuşdan aşiq olmaz!

Rustavelinin təqdir etdiyi bu eşq Tariyel, Nəstan-Darecan, Tinatin və Avtandilin surətində öz əksini tapmışdır. Şairin aşiq qəhrəmanları dərin idraka, saf əxlaqa, zəngin mənəviyyata malikdirlər. Məhəbbət insan həyatının mənasıdır. Məhəbbət insanları nəcib işlər görməyə, hünər göstərməyə, dost yolunda fədakarlığa ruhlandırır.

"Pələng dərisi geymiş pəhləvan" poemasında məhəbbətlə yanaşı dostluq, sədaqət əsas insani keyfiyyətlər kimi tərənnüm edilir. Bəzi tədqiqatçılar poemada dostluğun məhəbbətdən üstün olduğunu gös-

tərirlər. Bəlkə də bunda bir həqiqət vardır, çünki dost yolunda candan keçmək çətinliklərdə dosta həyan olmaq Rustaveli qəhrəmanlarının əsas qayəsidir. Əgər poemanın qəhrəmanlarında bu hisslər olmasaydı, məhəbbət də qələbə çala bilməzdi.

Dost əzabı əzabımız, köksü ona gərməlidir,
Eşqi körpü eyləməli, qəlbi qurban verməlidir.
Yarın dərdi öz dərdimiz, aşiq onu sürməlidir,
Dost dərdinin meydanına dərdim deyə girməlidir.

Bir-birini böyük məhəbbətlə sevən Avtandillə Tinatin ayrılığa qatlaşaraq Tariyelin, o gözüyaşlı pəhləvanın dərdinə şərik olur və sevgilisinə çatmaqda ona kömək edirlər. Avtandil dosta kömək naminə öz gözəl Tinatinindən, doğma yurdundan uzaq düşüb, Tariyelə axıra qədər sadiq qalır, onun müsibətinə şərik olur, nəhayət, onu sevgilisinə qovuşdurur.

Şairin qəhrəmanları müxtəlif xalqların nümayəndələridir. Avtandil və Tinatin ərəb, Tariyel və Nəstan-Darecan hindli, Firidun isə mülkixəzanzarlıdır (xəyali ölkə). Şair onların hər birinə böyük rəğbət bəsləyir və sevə-sevə təsvir edir. Başqa-başqa xalqlara mənsub olmalarına baxmayaraq, bu qəhrəmanları eyni məqsəd, eyni amal birləşdirir. Birgə səylə onlar ədalətsizliyə və şər qüvvələrə qələbə çalırlar.

Rustaveli böyük bir ilhamla xalqların, millətlərin qardaşlığını tərənnüm edir. Şairin müxtəlif millətlərə mənsub qəhrəmanları öz aralarında dostluq yaratmaqla kifayətlənmir, təmsil etdikləri xalqları bir-birinə yaxınlaşdırmağa çalışırlar.

Ş.Rustavelinin təsvir etdiyi ölkələrin adları müxtəlif olsa da, poemada XII əsr Gürcüstanın konkret tarixi şəraiti əks olunmuşdur. Şair haradan və kimdən danışırsa danışsın, fikri, xəyalı həmişə öz torpağında olmuş, gürcü təbiətini, gürcü xalqına xas olan nəcib sifətləri tərənnüm etmişdir.

"Pələng dərisi geymiş pəhləvan" poeması bütövlükdə vətənpərvərlik ideyası ilə aşılanmışdır. Rustavelinin bütün qəhrəmanları – istər şah, istər sərkərdə, istərsə də qaragözlü, qaratelli gözəllər olsun, hamısının qəlbi vətən eşqi, vətən məhəbbəti ilə döyünür. Tariyel də,



Avtandil də, Firidun da, Nəstan-Darecan da, Tinatin də öz vətənlərini alovlu məhəbbətlə sevirlər, onun uğrunda həlak olmağa hazırdırlar. Parsadan qızı Nəstanı Xarəzmşah oğluna verməyi qərara alarkən Nəstan və Tariyeli öz talelərindən artıq Hindistanın taleyi düşündürür. Vətənin yad əllərə keçməyini istəməyən Tariyel Parsadana məktubunda yazır:

Rəvadırmı Xarəzmşah hökmdarlıq etsin bizə,
Mən dururkən bir özgəsi şahmı olsun ölkəmizə?

Rustaveli poeziyası humanist poeziyadır. Poema insan qüdrətinin, insan ləyaqətinin təntənəsinə həsr edilmişdir. İnsan öz taleyinin sükançısıdır. O yaxşı yaşayış, gözəl həyat, şəxsi səadət uğrunda mübarizə etməli, daim nəcib işlər görməli, dosta-yoldaşa sadiq olmalı, yüksək amallarla yaşamalıdır. İnsana böyük məhəbbət, onun idrakına, qüvvəsinə inam Rustaveli humanizminin əsas xüsusiyyətləridir.

Yüksək insani hisslər, məhəbbət, sədaqət, dostluq, vətən eşqi, qəhrəmanlıq himni olan "Pələng dərisi geymiş pəhləvan" poeması zamanın imtahanlarından ləyaqətlə çıxaraq, bu gün də öz bədii qiymətini saxlamışdır. Bu poema çoxdan Gürcüstan sərhədlərini aşaraq dünyanın hər yerinə yayılmışdır. İndi onu öz doğma dilində oxumayan mədəni xalq az tapılar. Poema dəfələrlə rus, polyak, macar, ingilis, alman, italyan, monqol, yapon, ispan, çin və s. dillərə tərcümə edilmişdir.

Gürcü ədəbiyyatının bu ölməz abidəsi Azərbaycan dilinə də tərcümə edilmişdir. Poema 1936-cı ildə böyük şairimiz Əhməd Cavad, 1937-ci ildə xalq şairləri S.Vurğun, M.Rahim, S.Rüstəm tərəfindən bütövlüklə tərcümə edilmişdir. Ş.Rustavelinin əsəri tərcümədə öz gözəlliyini, sadəliyini, ahəngini saxlamışdır və orjinalda olduğu kimi yüksək bədiiliyi ilə seçilir.

Ərəbistan torpağında şah Rostevan hökmdarmış,
Ədalətli, mərhəmətli, möhtəşəmmiş, bəxtiyarmış.
Pəhləvanlar, qəhrəmanlar hörmətini saxlayarmış,
Üzü gözəl, sözü gözəl, böyük adı, sanı varmış.

Bu misraları ilk oxuduğun andan yadda saxlamamaq mümkün deyil. Bundan aydın, bundan sadə, bundan gözəl və bundan ulu necə demək olar? Bu tərcümə Səməd Vurğunundur. Şair ana dilimizin zəngin xəzinəsindən mənalı sözlər seçib, öz payına düşən hissəni yaradıcılığına xas olan ülvi sadəlik, yüksək bədiilik, təbiilik və axıcılıqla dilimizdə səsləndirmişdir.

Əsər bütövlükdə hər üç şair tərəfindən böyük məhəbbətlə Azərbaycan dilinə çevrilmiş və təsadüfi deyildir ki, Azərbaycan oxucusunun sevimli kitablarından biri olmuşdur.

"Pələng dərisi geymiş pəhləvan"ı gələcək nəsillər də sevəcəklər, çünki onda "həqiqi böyük sənətin cazibə qüvvəsi" var.

***Dilarə Əliyeva***



# PƏLƏNG DƏRİSİ GEYMİŞ PƏHLƏVAN

## BAŞLANĞIC

Kim ki, bütün kainatı xəlq eləmiş sənətiylə,
O varlığın fövqündədir öz ilahi qüdrətiylə.
Vermiş bizə – insanlara bu dünyanı nemətiylə,
Yer üzünün sultanları yaşar onun surətiylə.

Qadir Allah! Hər bir cismin öz şəklini sən çəkmisən,
Köməyim ol, mənə güc ver, qoy məhv edim iblisi mən.
Aşiqlərin ehtirası qəbrə qədər bədənimdən
Soyumasın, bu surətlə günahımı bağışla sən!

Qılınc vuran, qalxan tutan, ox süzdürən bir aslana,
Al yanaqlı, qara saçlı Tamaraya – o sultana
Tərif demək cürət istər, yaraşarmı bilməm mana?
Ona baxmaq, şəkər kimi ləzzət verir hər insana.

Tərif edək Tamaranı axıdaraq göz yaşları,
Əzəl başdan qəzəl deyib mədh etmişəm o dildarı.
Mürəkkəbim şəvə göllər, qələmim göl qamışları...
Bunlar, duyan ürəkləri deşəcəkdir nizəvarı.

Əmr etdilər Tamaranın sağlığına dastan deyim,
Qaşlarına, saçlarına, ləblərinə min can deyim,
Büllurlardan, yaqutlardan yonulmuşa mərcan deyim,
Qurşunlardan tökülmüşə daş əridən zindan deyim...

Bir xoş lisan, bir ustalıq, bir qəlb gərək indi mana,
Sən qüvvə ver mənə, Tanrım, mən ruh verim bu dastana.
Kömək duraq Tariyelə, hörmət gərək pəhləvana,
Bir-birinə sadiq olan bu üç gözəl qəhrəmana.

Tariyelin eşqinə biz gəlin tökək göz yaşları,
Ona bir tay yaranmışmı, gözəllikdə deyin, barı.
Mən Rustaveli, könlüm evi anar haman şahsuvarı,
İnci kimi şerə düzdüm dildə gəzən nağılları.

Mən Rustaveli, bir eşq üçün can qoymuşam bu əsərə,
Mən məcnunam orduların sərkərdəsi bir dilbərə.
Məhəbbətin dərmanı yox, üz tutsam da təbiblərə,
Ya can versin canan mənə, ya tapşırsın quru yerə.

Bu bir İran dastanıydı, dolaşardı dildən-dilə,
Nadir olan inci kimi o gəzərdi əldən-ələ,
Onu gürcü dilində mən şerə saldım bilə-bilə,
Qiymət verər nazlı canan zəhmətimə indən belə.

Gözüm yenə baxmaq istər gözlərimi kor qoyana,
Məcnun könlüm çöllər gəzir, görən sayır bir divana.
Yara deyin: yandı cismim, barı ruhum gəlsin cana,
Qorxuram ki, sözüm yetməz bu üç nəfər qəhrəmana.

Tale kimə nə yazmışsa, razı qalsın qismətindən,
İşçi işdən yorulmasın, əsgər də öz cürətindən,
Aşıq eşqi dərk eləsin, inciməsin möhnətindən,
Kənar dursun qoy özünün, başqasının töhmətindən.

Nə zamandır ariflərin töhfəsidir bizə şeir,
İlahi bir qüdrəti var, göydən bizə nemət enir...
Ruhu yüksək oxucular dinlədikcə nəşələnir,
Çünki şeir, uzun olan mətləbləri qısa deyir.

Hər bir atın hünərini uzaq sürən mənzil kəsər,
Oyunçunun düz atdığı topundadır yalnız hünər,
Şairin də qüdrətini bildirəcək böyük əsər,
Fəqət söhbət düyün düşsə qalmayacaq sözdə kəsər.

Bu zamanda nəzər yetir sən şairə, sənətkara;
O bilməsə gürcü dili, şerin günü keçər qara.
Nitqi gödək olan şair, nə söyləsin nazlı yara,
Onda hünər olarmı ki, qanad versin xəyallara...

Bil ki, şair adlanılmaz iki ya üç şeir yazan,
Gəlib şair cərgəsinə soxulmasın lovğalanan,
O bir neçə şeir yazıb uydursa da yalan-palan,
"Mənəm" deyib qatır kimi utanmayır inadından.



İkincisi, xırda-xuruş şeir yazan şair də var,
Sözlərində nə təsir var, nə onları könül duyar.
Məncə bu cür şairlərin gənc ovçuya bənzəri var,
Aslan üstə gedə bilməz, varıb çöldə qurd-quş qovar.

Üçüncü tip şeirlər də yarar kefə, ziyafətə,
Əyləncəyə, yoldaşlığa, nazik keçən zərafətə.
Xoşdur bizə qulaq asmaq: aydın olan hər söhbətə,
Şair deyil ev tikməyən ölməz böyük bir sənətə.

Şeir yazan zəhmətinin qiymətini bilsin gərək,
Məcnun kimi bir dilbərin xəyalilə ölsün gərək,
Bütün qəlbi, rübabilə bir cananı bəzəyərək,
Yalnız onu tərifləsin sinəsində çarpan ürək.

İndi deyim qoy özümdən, birdir mənim ilk sevgilim,
O ad mənim şöhrətimdir, onunladır ayım, ilim.
O, ömrümü qaplan kimi doğrasa da dilim-dilim,
Yalnız onu inci kimi yerə düzür mənim dilim.

Söhbət açım ilk sevgidən, o ilahi məhəbbətdən,
Onu demək çox çətindir, yüksəkdədir bu sənətdən.
O göydədir, yerdə deyil, uca durur təbiətdən,
Ona çatmaq istəyənlər çəkinməsin hər möhnətdən.

Bu ilk eşqi nə aqillər, nə ariflər idrak edər,
Dil yorulur, qulaqlarda heç qalmayır zərrə kəsər.
Mən dediyim yer eşqidir, göydəkindən yoxdur əsər,
Yardan iraq düşən Məcnun bu ilk eşqə yanıb gedər.

Hər aşiqi ərəbcədə "məcnun" deyə çağırırlar,
Yardan ayrı düşənlərdə nə huş qalır, nə də qərar.
Bir parası ilahi bir vüsal üçün göyə uçar,
Gözəllərə pərvanə tək qanad çalan düşkün də var.

Aşiq gərək günəş kimi baxanda göz qamaşdıra,
Arif ola, zəngin ola, pəhləvan tək igid dura,
Səbri, dili, şüurilə rəqiblərə zərbə vura,
Aşiq bunsuz aşiq deyil, bağlansa da qəlbi tora.

Məhəbbət ki, zərif şeydir, dərk olunmaz eşq ilə yar,
Məhəbbət ki, bambaşqadır, zinalıqdan yaşar kənar.
Məhəbbətlə zinalığın arasında uçurum var,
Sözlərimə qulaq verin, qarışmasın bu anlaqlar.

Aşiq gərək sadiq olsun, pozulmuşdan aşiq olmaz!
Ona hicran üz verəndə qoy inləsin könlündə yas.
Dözsün bütün fələkətə gözlərində min bir niyaz.
Ruhsuz eşqə nifrətim var, nə opüşmək, nə işvə-naz!

Bu, məhəbbət adlanmasın, başqa şeydir eşqin yeri!
Beləsinə lazım olur, bu gün biri, sabah biri.
Böylə bir eşq oyun kimi əyləndirir körpələri,
Aşiq gərək bu dünyadan əl götürüb atsın yeri...

Ali bir eşq hər dərdini, möhnətini gizli tutar,
O daima təklik sevər, qəmlərini yalqız udar,
Uzaq gəzər, uzaq durar, uzaq ağlar, uzaq yanar.
Sevər canan cəfasını ürəyində min ahu-zar...

Aşiq gərək söyləməsin öz sirrini bir insana,
Düşkün-düşkün ah çəkərək qıymasın ki, yar utana.
Eşqi üzə salmayaraq dil tökməsin dörd bir yana,
Yar yolunda bütün zillət bir kef kimi gəlsin ona.

Öz eşqini faş edənə aqil olan inanarmı?
Bundan onun məşuquna və özünə xeyir varmı?
Yarı sözlə vuran aşiq! Bu da eşqə etibarmı?
Yar qəlbini yaralayan, deyin, aşiq adlanarmı?

Mən heyranam: neçin insan öz eşqini salır dilə.
Onu dərdə qərq edəni ləkələyir bilə-bilə,
Sevməyirsə, neçin onu yad etməyir nifrət ilə,
Ürəkdən də qiymətlidir hər fəna söz hər səfilə.

Eyib deyil hər aşiqə axıtsa da göz yaşları,
Məcnun olsa, yuva salsa saçlarında çöl quşları.
Hicran vaxtı çıxarmasın xəyalından nazlı yarı,
Qoy duymasın sevgisini yer üzünün insanları.



## ƏRƏB PADŞAHI ROSTEVAN HAQQINDA İLK HEKAYƏ

Ərəbistan torpağında şah Rostevan hökmdarmış,
Ədalətli, mərhəmətli, möhtəşəmmiş, bəxtiyarmış.
Pəhləvanlar, qəhrəmanlar hörmətini saxlayarmış,
Üzü gözəl, sözü gözəl, böyük adı, sanı varmış.

Bircə qızı varmış onun ulduzların ilk sirdaşı,
O qız meydan oxuyarmış aya qarşı, günə qarşı,
Huşu başdan uçurarmış bulud zülfü, kaman qaşı,
Onu tərif etsin gərək ariflərin qələmdaşı.

Tinatindir onun adı – oxucular bilsin gərək,
Qız boy atıb parıldadı yanaqları çiçək-çiçək.
Vəzirləri çağırdı şah, özü sakit əyləşərək
Mehriban bir söhbət açdı o vüqarlı, o saf ürək.

“Bir məsləhət verin, – dedi, – bu gün işim düşmüş sizə,
Bir qızılgül solub gedir ayrılığa dözə-dözə.
Əvəzində təzə güllər, yasəmənlər çıxır üzə,
Bu qaranlıq gecələrdə günəş doğmuş üstümüzə.

Dövranımı keçirmişəm, yaman dərddir bu qocalıq.
Bu gün, sabah ömrü başa vurmalıyam mən də artıq.
Öz yerini bir işığa tapşırmalı hər qaranlıq –
İndi mənim övladıma keçməlidir hökmranlıq”.

Cavab verdi vəzirləri: “Qocalmışam demə, aman!
O qızılgül qurusa da, yenə xoşdur bizə, inan!
Ətri artır, rəngi belə gözəlləşir qabaqkından,
Ulduz aça bilərmi heç bədirlənmiş aya meydan?

Demə, şahim! Solmamışdır bizim gülün rəngi hələ,
Xoşdur sizin tədbiriniz bizə ziyan versə belə.
Sizinkidir hər məsləhət, nə etiraz indən belə:
Padşahlığı tapşır ona – o gün üzlü qərənfilə,

Hakim qadın olsa belə – yaratmışdır Allah onu,
Sizsiz də biz danışırdıq onun layiq olduğunu.
Bir günəşdən biçilmişdir o qızdakı hüsnün donu,
Aslanların nə erkəyi, nə dişisi! Birdir sonu".

Avtandilsə orduların sınanmış bir komandanı,
Göydəki gün, göydəki ay olmuş onun bir heyranı.
Hələ gəncdir, büllur kimi safdır onun polad canı,
Tinatinin kirpikləri əsir almış o aslanı.

Hey məhəbbət oxuyardı ürəyinin dodaqları,
Ona hicran üz verəndə solardı gül yanaqları.
Tutuşardı qəm oduna görən kimi o dildarı,
Əzəl gündən aşiqləri yaxır eşqin alovları.

Qızın padşah olmağını o hökmdar verdi xəbər,
Avtandilin gözlərində aşıb-daşdı səadətlər...
Dedi: "Onu tez-tez görüb, söyləyərəm gəl, ey dilbər,
Bu çəkdiyim ağrılara öz əlinlə çarə göstər".

Ərəbistan torpağına əmr verdi o hökmdar:
"Öz qızımı padşah qoydum, bilsin bunu bütün diyar.
Qoy hamıya şölə salsın günəş kimi bu gülüzar,
Gəlsin bütün tərifçilər, bir də bütün duaçılar".

Gəldi ərəb əyanları bu dəvətə birər-birər,
Milyon ordu sərkərdəsi o Avtandil – o şiri-nər,
Bir də Sokrat, vəzirlərin içindəki bir dilavər
Şah taxtını düzəldərək: " qiyməti yox" söylədilər.

Tinatini öz atası şah taxtına çıxardı bax,
Başına da çələng qoydu ata qəlbi şadlanaraq.
Əsasını verdi qıza, günəş kimi qız yanaraq,
Təzə şahlıq paltarından alışdı bir şölə çıraq.

Sonra qıza hökmdarlar, cahangirlər çox əydi baş,
Xeyir-dua söyləyərək çəkildilər yavaş-yavaş.
Sonra sinclər və şeypurlar qoparmışdı bir iğtişaş,
Yel vurduqca dönür saçı, gözlərindən axırdı yaş.



Utanırdı oturmağa atasının taxtında qız,
Gül yanağı islanırdı ağladıqca qoşa ulduz.
Padşah dedi: "Valideyni övlad əvəz edir yalnız,
Bunsuz sinəm alışardı, məhv olardım bəlkə vaxtsız.

Qızım, – dedi, – axıtma gəl, sən bu qədər göz yaşları,
Bil ki, sənə mən verirəm ölkədəki bütün varı,
Ərəbistan torpağının sənsən bu gün hökmdarı,
İdrakısan, ciddi yaşa, yüksəkdə tut ixtiyarı!

Günəş ki, bir işıq verir qızılgülə və peyinə,
Sən də bir bax insanların güclüsünə, zəifinə.
Səxavətin olsa, qızım, yad da baxar sən deyənə,
Su da axır dənizlərə, dənizlərdən qalxır yenə.

Sərv Ədənin ziynətidir – səxavət də padşahlığın,
Bil ki, hörmət mərdlərədir, səxavətə sən də sığın.
Bu dünyada kef qalacaq, var toplama yığın-yığın,
Nə paylasan səninkidir, bir itkidir saxladığın".

Atasının öyüdünə qız baş əyir itaətlə,
Qulaq asır hər sözünə, söhbətinə o diqqətlə.
Padşah yeyir, içir, gəzir, ruhu gülür səadətlə,
Günəş baxır Tinatinə göy üzündən rəqabətlə.

Qızsa sadiq müəllimi dəvət etdi öz yanına:
"Bağladığın xəzinəmin möhrünü aç, gətir mana.
Şah qızına nə çatırsa hüzurumda sayıb sana".
Saysız, sonsuz xəzinəni qız payladı dörd bir yana.

Uşaqlıqdan yığdığını payladı qız dövlətindən,
Varlını da, yoxsulu da razı saldı nemətindən.
Dedi: " Atam nə demişsə ona əməl edirəm mən,
Heç kəs güdüb gizləməsin xəznəsini burda qəsdən".

Əmr elədi: " Gedin bütün xəzinələri açın bir-bir,
Mehtərbaşı! İlxıları, sürüləri qovla gətir!"
Gətirdilər, qız payladı səxavətdən doymadı bir,
Quldur kimi xəzinədən ordu nişan qoymadı bir!



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Xəzinələr hərb zamanı türk varı tək oldu talan,
Boylu ərəb atlarına yüklənərək oldu rəvan.
Qızın geniş səxavəti boran kimi əsdi haman,
Nə bir kişi, nə bir qadın qaytarmadı boş oradan.

Ziyafətdir, süfrələrdə içki, meyvə həddən aşır,
Əsgərlərin, əyanların sayı burda aşıb-daşır,
Şah basını sallayaraq, sifətində qəm oynaşır,
"Ona bu gün nə olmuşdur?" – deyə məclis pıçıldaşır.

Günəş üzlü Avtandilsə bu məclisə bir dildardır,
Duruşunda pələnglərin, aslanların şəkli vardır,
Vəzir Sokrat yanındadır, hər ikisi bəxtiyardır,
Bir-birinə: "Nə olmuş ki, şahın ruhu tarımardır".

Danışırlar: "Görünür ki, şahın dərdi, fikri çoxdur,
Burda onun ürəyinə toxunacaq söz ki, yoxdur.
Sokrat, gedək bir soruşaq desin neçin şah soyuqdur,
Açaq onun ürəyini, başımıza bir böyükdür"...

Avtandillə Sokrat durub şaha tərəf vardılar bax,
Hərəsi də öz əlində bir stəkan dolduraraq,
Hüzurunda diz çökdülər, gülərüzlə baş vuraraq.
Vəzir Sokrat sinəsini açdı birdən varaq-varaq.

Dedi: " Şahim, söylə nədir üz-gözünü saran qubar,
Əldən getdi xəzinəniz, dərdlənməyə haqqınız var.
Bu dövləti mərd qızınız dağıtdı lap diyar-diyar,
Nahaq onu şah qoydunuz, çox böyükdür bu ixtiyar".

Padşah onu dinləyərək, gülümsədi ona qəlbən,
Vəzirdəki cəsarətə heyrətlənib dedi həmən:
"Yaxşı dedin, vəzir Sokrat, cavabından utanma sən,
Yalançıdır bu dünyada məni xəsis güman edən.

Sən saydığın deyil vəzir dərdim, qəmim, gətir yada:
Yaxınlaşır qocalığım, gənc günlərim getdi bada.
Bir nəfər də görməyirəm hələ bizim el-obada,
Müharibə hünərimi öyrənərək bilsin o da.



Yalnız qızım öyrənmişdir bu sənəti məndən inan.
Mən fələkdən oğulsuzam, gəlib keçir fani dövran,
Nə olardı, öz oğlumla ox atsaydım zaman-zaman,
Öz şəyirdim Avtandildir yenə mənə az oxşayan".

O pəhləvan dinlədikcə sözlərini hökmdarın
Yaraşıqlı dodaqları qımışırdı narın-narın.
Ağ dişləri işıqlatdı qucağını səhraların,
Padşah sordu: "Nə gülürsən, sıxır məni bu rəftarın".

Yenə dedi: "Nə gülürsən, söylə görüm məndə nə var?"
Pəhləvansa ehtiramla: "Əvvəl söz ver, ey namdar,
Acıqlanma, qəzəblənmə ürəyimi desəm aşkar,
Bir ədəbsiz sayıb məni rüsvay etmə diyar-diyar".

Cavab verdi: "Yox demərəm sənə ağır bir söz belə".
Günəş üzlü Tinatinə and da içdi bilə-bilə.
Bu vədədən sonra həmən, cürət gəldi Avtandilə,
Dedi: "Şahim, ox atmaqda öyünmə gəl indən belə.

Mən qulunuz Avtandiləm, sənətimdir nişançılıq,
Şahid tutaq əsgərləri, mərcə girək gəlin açıq;
"Vuruşmada tayım yoxdur" – söyləməyin artıq-artıq.
Qoy top olsun, bir də meydan münsifimiz bizim artıq".

"Qoymaram ki, bu meydanda mənə üstün gələsən sən,
Bayaq dedin: atışarıq, dönüb qaçma bu sözündən;
Təcrübəli pəhləvanlar şahid olsun bizə həmən,
Çöl göstərər təriflərə sən layiqsən, ya da ki, mən".

Avtandilsə razılaşdı şərt-şürut kəsildi bax,
Mehribanca gülüşdülər uşaq kimi şadlanaraq,
Mərc gəldilər, şərt qoydular, kim uduzsa, assın qulaq:
Üç gün başı açıq gəzsin, istəyimiz budur ancaq".

Şah əmr etdi: "On iki qul qoy atlansın bu meydana,
Haman qullar ox verərək kömək dursun burda mana,
On iki qul əvəzində bir Şərməddin bəsdir sana,
Vurduğumuz heyvanları düz saysınlar və mərdana".

Şah əmr etdi ovçulara: "Tez dolanın səhraları,
Axtarın ki, hayandadır heyvanların çoxlu yeri".
Gəlin! Gəlin! Söyləyərək dəvət etdi əsgərləri,
İçki bitdi, kef qurtardı, şad buraxdı hər nəfəri.

Səhər tezdən gənc Avtandil salamladı hökmdarı,
Alışmışdı gözlər kimi onun yaqut yanaqları.
Başında bir qızıl çalma, gözlərində şah vüqarı,
Hökmdara gedək dedi, süzdü ağ at tərlanvarı.

Silahlandı, geyindi şah, atlanaraq çıxdı ova,
Ortalığa alınmışdı bütün səhra, bütün oba,
Dağılmışdı əsgər çölə heyvanları qova-qova,
Kaman qalır, ox atılır, qan udurdu darğın hava.

Şah əmr etdi: "On iki qul gəlib çıxsın qoy ortaya
Ox gətirsin, kaman versin biz atdıqca saya-saya.
Heyvanların yarasını və oxları alsın saya".
Ov heyvanı hər tərəfdən doldu böyük bir səhraya.

Vəhşi heyvan sürüləri, axın-axın doldu düzə,
Maral, keçi, çöl eşşəyi, dağ keçisi çıxdı üzə.
Suverenlə vassalına baxdıqca xoş gəlir gözə,
Kamanından ayrılan ox uçur göydə süzə-süzə.

Tutur günün qabağını atlıların toz-dumanı,
Düzlər boyu axıb gedir heyvanların qızıl qanı.
Qullar alıb verir yenə boşa çıxan ox-kamanı,
Yaralanmış heyvanların yerindəcə çıxır canı.

Sürüləri qova-qova onlar çölü keçdi daha,
Hey qırdılar heyvanları, xoş getmədi bu Allaha,
Çöl qızardı lalə kimi, onlar batdı min günaha,
"Sərv ağacı" söylədilər Avtandilə baxa-baxa.

Beləliklə haman çölü keçdi bizim qəhrəmanlar,
Yetişdilər bir çaya ki, sahilində qayalıq var.
At girməyən bir ormana tez sığındı o heyvanlar.
Onlar qaldı baxa-baxa dallarınca biixtiyar.



Bir-birinə gülə-gülə: "Mən qalibəm" söylədilər,
Mehriban bir yoldaş kimi durub söhbət eylədilər.
Yavaş-yavaş qullar belə gəlib çıxdı birər-birər.
Şah əmr etdi: "Düz söyləyin, kimə çatır bizdən hünər?"

"Sizə sözün doğrusunu deyəcəyik açıq-aşkar,
Parça-parça kəssəniz də bu gün bizi, ey hökmdar.
Avtandilin sizdən artıq ustalığı, hünəri var.
Oxundan sağ qurtulmadı bu səhrada onun şikar.

Yüz iyirmi heyvan ölmüş atdığınız bu oxlardan,
Avtandilsə iki onluq sizdən artıq vurdu haman.
Bir oxu da boş çıxmadı, gördüyümüz deyil yalan,
Sizin oxun çoxlarını biz palçıqdan yığdıq, inan".

Bu xəbərdən incimədi o hökmdar zərrə belə,
Şəyirdinin hünərinə çox şad oldu gülə-gülə.
O sevirdi Avtandili – aşiq idi bülbül gülə,
Artıq onun nə qüssəsi, nə dərdi var indən belə!

Atdan düşüb hər ikisi çəkildi bir kölgəliyə,
Əsgərlərin sayı burda sığmayırdı yerə, göyə.
On iki qul dayanmışdı gözlərini döyə-döyə,
Onlar çayı, qayalığı süzürdü can deyə-deyə.

## ƏRƏB PADŞAHININ PƏLƏNG DƏRİSİ GEYMİŞ PƏHLƏVANI GÖRMƏSİ

Gördülər ki, çay üstündə ağlayır bir yad pəhləvan,
Köhlən atın cilovundan yapışmışdır o qəhrəman.
İncilərlə bəzənmişdir yəhər, yüyən, qılınc, qalxan,
Qan ağlayır dərdli qəlbi, yaş süzülür yanağından.

Xallı pələng dərisini geyinmiş bir şahsuvardır,
Papağı da bu dəridən, onun könlü tar-mardır.
Əlindəsə qoldan yoğun, dəmirli bir qamçı vardır,
Dedilər ki: "Yaxın gedək, görək bu nə ecazkardır".

O ağlayan pəhləvanla bir qul getdi danışmağa,
Pəhləvansa həzin-həzin ağlayırdı başaşağa.
Ağlayırdı, büllur yaşlar gözlərindən yağa-yağa,
Qul yanına yaxınlaşdı, ancaq qaldı baxa-baxa.

Qul dil aça bilmədi heç, heyrət aldı ruhunu bax!
Baxdı-baxdı qəhrəmana, sonra qəlbi toxtayaraq
Söylədi ki: "Şah əmr edir"... Yaxınlaşdı ona, ancaq
Ağlayırdı o qəhrəman, düşünürdü bizdən uzaq.

Burda qulun dediyindən xəbərsizdi o pəhləvan,
Xəbərsizdi orduların göndərilmiş çağrışından,
Ah çəkərək, uf deyərək sinəsində o alışan,
Yanan qəlbi döyündükcə, göz yaşına qarışdı qan.

Onun fikri uzaqlarda qoşur canan vüsalinə,
Qulsa ona şah əmrini yaxınlaşıb dedi yenə.
Qəhrəmansa hey ağlayır, baxmayırdı qul deyənə,
İslanırdı göz yaşından yanaqları dönə-dönə.

O dinmədi, qul qayıdıb əhvalatı dedi bu an
Rostevana: "Onun sizlə işi, sözü yoxdur, inan.
Günəş kimi gözlərimi kor elədi o qəhrəman,
Cavabımda bir söz belə çıxarmadı heç ağzından".

Bu xəbərdən acıqlanıb heyrət aldı hökmdarı,
Tez, on iki qul ayırıb yola saldı ona sarı.
Əmr etdi ki: "Əlinizdə hazır tutun silahları,
Hüzuruma sağ gətirin orda duran tək şikarı".

Qullar ona yaxınlaşdı, parıldadı tez silahlar,
Pəhləvansa göz açaraq, sinəsindən qopdu ahlar,
Baxıb gördü dörd yanını almış ordu qatar-qatar,
Bircə dəfə "Aman!" deyib danışmadı o şahsuvar.

Əlləri ilə axıb gedən göz yaşını silə-silə,
Tez oxunu, qalxanını düzəldərək aldı ələ.
Ata mindi – o qulları heç almadı saya belə,
Başqa səmtə üz tutaraq köhlən atı döndü yelə.



Pəhləvanı tutmaq üçün qullar xeyli can atdılar,
Şaşıraraq bir-birini ayaqladı o atlılar.
Pəhləvanın gözlərində alov kimi yandı vüqar,
O qulları qamçısıyla vurub yıxdı diyar-diyar.

Şah Rostevan: "Tutun!" – deyə qəzəbləndi birdən-birə,
Pəhləvansa baxmayaraq onu qovub gələnlərə,
Arxasından çatanları meyit kimi sərdi yerə,
Rostevanı odlandırdı gözlənməyən bu mənzərə.

Nəhayət şah Avtandillə atlanaraq düşdü yola.
Dağ gövdəli o qəhrəman çapırdırdı sağa-sola.
Atı ceyran, özü günəş, çölə şəfəq sala-sala:
Gördü onun arxasından yetişmişdi şah az qala.

Köhlənini qamçılayıb çapırdaraq keçdi düzdən,
Göz yumulub açılınca yoxa çıxdı gözümüzdən.
Yermi yedi, göymü uddu, o atlını iraq üzdən;
Axtardılar, almadılar sorağını yoldan, izdən.

Bu dağ mənim, o dağ sənin, axtardılar diyar-diyar,
O div kimi yoxa çıxdı, nə izi var, nə tozu var.
Ordu matəm içindədir, inildəyir yaralılar,
"Səadətin sonu buymuş!" deyir bizim o hökmdar.

"Görünür ki, Allaha xoş getməmişdir səadətim,
Artıq məni yaxalamış qara günüm, fəlakətim,
Ürəyimdən vurdu məni, yox təbibim, təbabətim;
Yenə onun hökmündədir, son ümidim, qənaətim".

Bunu deyib o hökmdar öz atını sürdü geri,
Heç kim səni çağırmadı, aha döndü nalələri.
Dağılışdı birər-birər başındakı ov əsgəri,
Üz tutaraq "Aman Allah!" söyləyirdi bəziləri.

Girdi yataq otağına dərdə düşmüş o hökmdar,
Avtandil də yanındaydı, oğul kimi hörməti var.
Dağılışdı məclis əhli, ürəklərdə bir intizar,
Ərqənun da susdu artıq, durdu süzən oyunçular.

Tinatin də atasının bu dərdindən olub halı,
Gəlib durdu qapısında – şölə saldı gül camalı.
Xəznədardan soruşdu ki: "O yatırmı, xoşmu halı?"
Cavab aldı: "Dərdi çoxdur, dəyişmişdir lap əhvalı".

"Avtandildir hökmdarın hüzurunda tək oturan,
Pozmuş şahın əhvalını o gördüyü yad pəhləvan,
Qız dedi ki: "İndi gedim, görüşməyə deyil zaman,
Atam məni xəbər alsa, söylə getdi elə bu an".

Bir az sonra şah soruşdu: "Deyin görüm qızım hanı?
Odur mənim səadətim, dövlətimin ağ mərcanı".
"O indicə getdi burdan, qaralmışdı qızın qanı
Sizi qəmgin eşidərək uçdu könül xanimanı".

Şah əmr etdi: "Haydı çağır, dözməyirəm hicranına,
Neçin getdi deyin ona, o ömrümün sultanına.
Gəl dərdimi dağıt, quzum, mən möhtacam dərmanına.
Gəl başımdan keçənləri bir-bir açıb deyim sana".

Tinatin də itaətlə durub yenə gəldi həmən,
Bədirlənmiş bir ay kimi işıq saldı o gül bədən.
Öpdü qızı, əzizlədi atacığı sordu: "Nədən,
Neçin mənim hüzuruma çağrılmamış gəlməyirsən?"

Qız söylədi: "Ey hökmdar, acığınız tutan zaman
İgidlər də qorxusundan gəlib keçmir yanınızdan.
Sönər sizin nərənizdən göydə günəş və kəhkəşan,
Acıqdansa, öz yoluna salmalıdır işi insan".

"Gözəl quzum, nazlı balam, bu gün fikrim çox olsa da,
Səni görmək təsəllidir, dərdlərimə bu dünyada.
Bütün qüssəm, bütün qəmim bir səninlə gedir bada,
Əlac göstər sinəmdəki bu naləyə, bu fəryada.

Bu gün çöldə mən rast gəldim qəribə bir pəhləvana.
Yayılmışdı şəfəqləri yerə, göyə dörd bir yana,
Bilmədim ki, dərdi nədir, nə düşünür yana-yana,
Görüşümə gəlmədi bir, qəzəbləndim mən də ona.



Məni görcək ata mindi, göz yaşını silib getdi,
Arxasınca göndərdiyim orduları o məhv etdi.
İnsan kimi ötüşmədən, bir div kimi gözdən itdi,
Xəyal gəlir, yuxu gəlir o gördüyüm mənə indi.

Allah mənə nə vermişsə indən belə zəhrimardır,
Keçdi ömrün xoş günləri, bu gen dünya mənə dardır.
Artıq mənə ömür yükdür, gör nə yazıq günüm vardır,
Bir də gülməz yazıq baxtım, könlüm evi tar-mardır".

Qız söylədi: "Ey hökmdar, bağışlayın, deyim sizə,
Nə Allah, nə tale ilə nahaq yerə durma üzə.
Qadir Allah mehribandır, mərhəmətlə baxır bizə,
O adildir, xeyirxahdır, bir köməkdir köməksizə.

Budur mənim məsləhətim hökmdarlar hökmdarı!
Dilə gəlməz, çox genişdir torpağının hüdudları.
Dörd tərəfə adam göndər yoxlasınlar hər diyarı.
İnsanmıdır, xəyalmıdır ondan xəbər gəlsin, barı.

Əgər canlı bir bəşərsə gördüyünüz o qəhrəman,
Şübhəsiz ki, görmüş olar yer üzündə onu insan.
Yoxsa, sizin nəşənizi dağıtmışdır qara şeytan,
Burax dərdi, unut qəmi, öz kefini pozma bir an".

Carçıları dəvət edib dörd tərəfə göndərdilər.
Əmr olundu: "Çətinliyə sinə gərin birər-birər.
Gəzin bütün yer üzünü, görün hanı o şiri-nər,
Məktub yazın ölkələrə getmək çətin olsa əgər".

O carçılar pəhləvanı gəzdi bir il çıraq-çıraq,
Ancaq yenə almadılar o itkidən bir səs, soraq.
Yer üzündə bir insan da onu gördüm demədi bax,
Yorğun, arğın qayıtdılar özlərini danlayaraq.

Qullar dedi: "Ey hökmdar, gəzdik yeri qarış-qarış.
Sən gördüyün pəhləvandan bu dünyada iz qalmamış
Görünür ki, yer üzündə o qəhrəman yurd salmamış,
Əfv et bizi, ey şahımız, düşün başqa bir axtarış".

Padşah dedi: "Doğru imiş qız balamın dedikləri,
Aldatmışdır məni şeytan, doğru demiş gözəl pəri.
Düşmanımmış göy üzündən yerə enmiş o sərsəri,
İndən belə tərk edirəm başımdakı dərdi-səri".

Başlanıldı kef məclisi, oyunçular, xanəndələr
Hər tərəfdən toplaşaraq gəlib çıxdı birər-birər
Hədiyyələr payladı şah, budur cürət, budur hünər!
Bir insan da yaranmamış səxavətdə ona bənzər!

Avtandilsə bir köynəkdə tək oturmuş yatağında,
Qarşısında bir ərqənun, nəğmə, şərqi dodağında.
Tinatinin zənci qulu durub onun qabağında
Deyir: "Sizi tuba boylu, gözləyir öz otağında".

Avtandilə qanad verdi gözlədiyi bu şad xəbər,
Bahalı bir xələt geyib o sevindi dünya qədər!
Onunla tək görüşəcək o gül üzlü nazlı dilbər,
Səadətdir, sevgilinlə tək oturub dursan əgər.

Avtandilə baxın, gedir, gözlərində min bir vüqar,
Çıxacaqdır qarşısına axtardığı o nazlı yar.
Tək oturub qubarlanır şimşək kimi yanan nigar,
Aya, günə çıxma deyən bir hüsnü var, camalı var.

Dikəlmişdir şux məmələr sinəsində şiş nar kimi
Çalmasının qiyməti yox, rəngi gülür bahar kimi.
Dəlib keçir bağrımızı kirpikləri oxlar kimi,
Dolanmışdır ağ boynuna qara zülfü şahmar kimi.

Pərişan bir ay kimiydi rübəndinin altında qız,
Avtandilə əyləş dedi bulud altdan baxan ulduz.
Qul qonağa kürsü verdi, sevgililər qaldı yalqız,
Bir-birinə məhəbbətlə gözlər baxdı ixtiyarsız.

Oğlan dedi: " Dilim yoxdur, nə söyləyim sən dildara,
Ay günəşə rast gələndə solar, gedər boşluqlara,
Qalmamışdır başda huşum, çəkilirəm sanki dara,
Özün danış öz dərdini, bəlkə tapaq biz də çara".



Mehriban qız nəzakətlə cavab verdi pəhləvana:
"Hərçəndi ki, indiyədək gəlməmisən bu eyvana,
Çox təəccüb eyləmə ki, lazım oldun bu gün mana,
Əvvəl açıb deməliyəm azarımı bütün sana:

Yadındamı ova çıxdın sultanımız Rostevanla,
Qarşılaşdın ağlar gözlü, qərib gəzən pəhləvanla,
Fikrim onun yanındadır, ricam budur başla-canla
Axtar onu, tapıb gətir, döyüşsən də asimanla!

Hüzurumda olmamışdır nə bir sözün, nə söhbətin;
Ancaq məni çox axtarmış sənin dilsiz məhəbbətin...
Göz yaşların dolu kimi, yavrususan əziyyətin,
Sən məhəbbət əsirisən, dustağısan bu möhnətin.

Mənə qulluq göstərməyə iki səbəb vardır inan:
Birincisi budur ki, sən bir misilsiz pəhləvansan.
İkincisi məcnunumsan, bu doğrudur, deyil yalan!
Axtar bütün yer üzünü, gör hardadır o pəhləvan.

Artar sənə məhəbbətim dediyimi etsən əgər,
Get əsir tut o iblisi, incitməsin məni qəmlər,
Çiçəklənsin ümidimin bənövşəsi səhər-səhər,
Sonra qayıt, sən günəşə aslan kimi sifət göstər!

Üç il onu axtararaq əziyyətə dözməlisən,
Tapsan əgər, qalib kimi şad xəbərlə gəlməlisən,
Yox, tapmasan, o xəyalmış, inanaram sözünə mən,
Yenə məni qönçə kimi saf görərsən qarşında sən.

And içirəm, atıb səni gedə bilsəm başqa ərə.
Həsrət qalsın bu gözlərim günəş üzlü bir səhərə,
Yolum düşsün cəhənnəmdə alov saçan atəşlərə,
Qoy öldürsün eşqim məni qurban olum bir xəncərə".

Pəhləvansa cavab verdi: "Sən ey günəş üzlü dildar!
Sən ki, canlı həqiqətsən, sənə qarşı nə şübhəm var!
Mənə ölüm ayağında həyat verdin, sən ey nigar!..
Nə buyursan öz qulunam, məndə yoxdur bir ixtiyar.

Səni günəş yaratmışdır yer üzündə böyük Tanrı,
Camalına səcdə qılır göy üzünün ulduzları.
Mərhəmətin ölçüsüzdür, layiqmiyəm ona barı...
Sən ki, varsan, solmayacaq gəncliyimin bu gülzarı".

Onlar yenə and içərək əhdi-peyman bağladılar,
Şirin söhbət aləmindən o gün qaldı bir yadigar.
Avtandilin dərdlərini çox ovutdu nazlı nigar,
Ağ dişləri parıldadı şimşək kimi diyar-diyar.

Uzatdılar bu söhbəti sevgililər bilə-bilə.
Büllur üzlər bir-birini çox oxşadı gülə-gülə.
"Səni görən başdan olar, bir nəzər sal Avtandilə,
Odlarına alışaraq yandı bağrım, döndü külə" –

Deyib, çıxdı o pəhləvan, dözməsə də bu hicrana.
Məcnun kimi boylanırdı arxasına yana-yana.
Göz yaşları dolu kimi axırdı gül yanağına,
Onun qəlbi ovçu kimi bağlanmışdı o ceyrana.

Öz-özünə: "Solacaqdır ayrılıqdan yanaqları,
Artıq mənim büllur canım, kəhrəbadan oldu sarı.
Ah, neyləyim, uzun müddət mən görməsəm o dildarı,
Yar yolunda candan keçib birdəfəlik ölsəm barı!"

O söykəndi yatacağa axdı yenə göz yaşları,
Külək vurmuş qovaq kimi dörd büküldü şax vüqarı.
Mürgülədi yuxusunda, yaxın gördü nazlı yarı.
Diksinərək göyə çıxdı sinəsinin ahu-zarı.

Bu hicrana qısqanaraq yaxdı könül varağını,
İnci kimi göz yaşları islatdı gül yanağını,
Səhər tezdən bəzənərək, götürdü yar-yarağını,
Ata minib salamladı hökmdarın durağını.

Sultanının hüzuruna göndərərək bir nökəri
Dedi: "Şaha get ərz elə əvəzimdə bu sözləri:
Oxlarına əsir gördüm bu dünyada göyü, yeri,
Yaxşı desən, çatdıraram hüdudlara bu xəbəri.



Gedib bütün hüdudları gəzəcəyəm vuruşaraq,
Tinatinin şahlığını eşidəcək yaxın-uzaq,
Düşmənimiz ağlayacaq, dostumuzsa şad olacaq.
Alarsınız salamımı, hədiyyəmi qucaq-qucaq".

Ona böyük bir təşəkkür yetirərək o hökmdar
Dedi: "Hərbdən qayıtmazsan, səndə aslan hünəri var;
Bu ağıllı məsləhətin qalacaqdır bir yadigar.
Uğur olsun! Ah neyləyim, uzun sürsə bu intizar!.."

Pəhləvansa baş əyərək durdu şahla o üz-üzə:
"Layiqmiyəm bu tərifə? Minnətdaram, şahım, sizə.
Kəsəcəyəm qaranlığı, dönsə aydın bir gündüzə,
Sağ qayıdıb, şad baxaram sizin o saf üzünüzə".

Padşah onu qucaqlayıb oğul kimi öpdü haman,
Ona bənzər nə bir ustad, nə bir şəyird vardı, inan!
Pəhləvansa durub getdi, qanadını gərdi hicran
Doluxsundu bu hicrana yumşaq qəlbli mərd Rostevan.

Baxın gedən qəhrəmana, döndü atı bir ağ yelə,
İyirmi gün yol gedərək o gəlmədi bir an dilə.
Yer üzünün şöhrətidir – yaxşı baxın Avtandilə,
Xəyalından ayrılmadı Tinatini bir an belə.

Gəlib çıxdı padşahlığa, çox sevindi o padşahlıq,
Hədiyyələr verdi ona əyanları artıq-artıq.
Günəş üzlü itirmədi öz vaxtını burda artıq,
Ona baxan insanların gözlərindən axdı şadlıq.

Onun sərhəd ayağında möhtəşəm bir şəhəri var,
Dövrəsində baş qaldırır quş qonmayan dik qayalar.
Üç gün orda ova çıxdı gözlərində şadlıq-vüqar
Şərməddini məsləhətə dəvət etdi o şahsuvar.

Qul Şərməddin, yuxarıda dediyimiz o qəhrəman
Avtandillə bir böyümüş, sadiq olmuş ona hər an.
Açmamışdı dərdlərini Şərməddinə o pəhləvan,
İndi ona söhbət açdı Tinatinin son andından.

"Ah, Şərməddin, utanıram hüzurunda doğrudan mən.
Mənim bütün işlərimin tək gəlmisən öhdəsindən,
Ancaq yenə indiyədək göz yaşımdan xəbərsizsən,
Odlarına yandığımdan xoş üz gördüm bu gün, bilsən!

Mən məhəbbət xəstəsiyəm, Tinatindir can şüarım,
Onun yaqut yanağına axdı sıcaq göz yaşlarım.
İndiyədək bilməmişdir bu sirrimi sirdaşlarım,
Nə bəxtiyar bir insanam, ümid verdi o dildarım".

Dedi: "İtmiş pəhləvanı axtarıb tap qayıt yenə,
Vədəm budur, sözüm budur çatacaqsan diləyinə.
Bir sevgilim sənsən inan, yetəcəyəm köməyinə!"
O lütfkar əllərilə məlhəm qoydu ürəyimə.

"Birincisi: mən vassalam, şaha qulluq edəm gərək,
Vassal sadiq olmalıdır şücaətlər göstərərək.
İkincisi: nə dərdim var! Güldü mənə nazlı mələk,
Kişi qaçmaz fəlakətdən, od töksə də göydən fələk".

"Düzü, yaxın bir dostumsan, bu vassallar içində sən.
Ricam budur: dinlə məni, bir səfərə çıxıram mən.
Orduların üzərində əvəzimdə sərkərdəsən,
Səndən başqa bir insana etibarım yoxdur, bilsən!

Sənə qalır ordularım, başçılıq et gəl onlara,
Əvəzimdə məktub da yaz tez-tez böyük hökmdara.
Hədiyyələr göndər ona – günəşüzlü, nazlı yara,
Onlar dözüb tab gətirsin bu amansız intizara.

Döyüş vaxtı, ov zamanı çalış sən də mənə bənzə,
Üç il mənim bu sirrimi gizli tutub salma səsə.
Sağ qayıtsam, tuba boylum batmayacaq artıq yasa,
Qayıtmasam ağla məni, bağrına od basa-basa.

O vaxt yetir hökmdara gözlənməyən bu xəbəri,
Ölməyimi danış ona gözlərində qəm əsəri.
De ki, artıq mən də keçdim ölüm adlı son səfəri...
O gün payla fəqirlərə qızılları, gümüşləri.



Köçüb getsəm bu dünyadan unutma can yoldaşını,
Xatirinə tez-tez gətir yaman günlər sirdaşını,
Rəhmət oxu ruhuma gəl, yırt sinəni, çat qaşını.
Ana kimi həzin-həzin axıt odlu göz yaşını".

Qul Şərməddin dinlədikcə bu pərişan hekayəti,
İnci kimi göz yaşından oxunurdu şikayəti.
Dedi: "Sənsiz neyləyirəm bu dünyada səadəti,
Əlac nədir, gedəcəksən, sağ başa vur səyahəti!

Neçin məni vəzir qoydun öz yerində, ey şiri-nər,
Varmı mənim bir qüdrətim, məharətim sənə bənzər.
Kaş beşiyim yer olaydı, niyə düşdün sən dərbədər,
Qoy yanınca mən də gedim, ağır keçər sənə səfər".

Pəhləvansa cavab verdi: "Dediklərim deyil yalan,
Məcnun gərək yalqız olsun səhraları gəzən zaman.
Əziyyətsiz düşməz ələ qiymətli bir inci, inan,
Parça-parça didilməli hər vəfasız, dönük insan.

Bil ki, mənim bu şənimə layiq oldun bu yerdə sən.
Bu "hamilik" yalnız sənin gələ bilər tunc əlindən.
Gözlə bizi hüdudlarda yurd salmasın qarı düşmən,
Bir Allahın köməyilə bəlkə də sağ qayıtdım mən.

Bir nəfərə gələn bəla gələ bilir yüz nəfərə,
Təklik mənə ziyan verməz xoş görünsən fələklərə.
Üç il sonra qayıtmasam qismət oldum bil ki, yerə
Tut yasımı sərkərdə qal bu orduya, bu əsgərə".

## AVTANDİLİN ÖZ VASSALLARINA MƏKTUBU

Siz ey mənim dərs aldığım, dərs verdiyim qəhrəmanlar!
Sadiqsiniz, unudulmaz verdiyiniz imtahanlar.
Hər arzumu kölgə kimi izlədiniz bir zamanlar,
Oxuyun bu fərmanımı sizə yeni bir sözüm var.

Avtandiləm, sözüm budur, sizin olsun geniş torpaq,
Bu fərmanı öz əlimlə mən yazıram varaq-varaq.
Qısaca bir müddət üçün nəğmələrə yad olaraq,
Yeməyimi baş barmağım və kamanım çıxaracaq.

Vətəni tərk etməyimə darıxmasın nə dost, nə yar,
Bu il mən bir səyyah kimi gəzməliyəm diyar-diyar.
Ancaq sizə yalvarıram, sizdən bircə təmənnam var:
Padşahlığı dağıtmasın mən gəlincə yabançılar.

Şərməddinsə əvəzimdə üstünüzdə böyük qalsın,
Ölməyimi, qalmağımı zaman-zaman xəbər alsın.
Qızılgülü soldurmayıb, üstünüzə şölə salsın,
Caniləri əzsin, yıxsın, ölümcül bir zərbə çalsın.

Bilirsiniz böyütmüşəm onu qardaş və oğul tək,
Siz, Avtandil sayın onu, hər hökmünə baş əyərək.
Təhlükələr üz verəndə mənim kimi olsun gərək
Öz vaxtında qayıtmasam, matəm tutun qəm yeyərək...

Tamamladı fərmanını şirin dilli o şahsuvar,
Hazırlaşdı tək getməyə gözləmədən bir tərəfdar.
Qızıl kəmər bağlayaraq, gözlərində min bir vüqar
Düşdü yola, gözləyirdi çöldə onu nişançılar.

Əmr etdi ki: "Gedin burdan, qalmalıyam tərəfdarsız".
Qullarını buraxaraq, təkcə qaldı – o sayğısız.
Köhlənini qamışlıqdan çapırdaraq getdi yalqız,
Xəyalında Tinatini – o sevdalı, o nazlı qız.

Çöllər boyu çapırdaraq uzaqlaşdı ordulardan,
Onu görə bilirdimi yer üzündə canlı insan?
Bir Allahın köməyilə yaşayırdı o qəhrəman.
Tinatinin xəyalilə dərdlənirdi zaman-zaman.

Əsgərlər ov qurtarınca, onun dalınca vardılar,
Tapmayınca gün üzlünü bu həsrətdən saraldılar.
Şadlıqları qəmə döndü, dillərində min ahu-zar,
Kimin atı yeyindisə onu gəzdi diyar-diyar.



"Ah, ey aslan, əvəzində Tanrı kimi təyin edər!"
Hər tərəfə car çəkərək axtardılar birər-birər.
Hankı səmtə üz qoymuşsa, alınmadı ondan xəbər.
Ürəyindən vurulmuş tək qan ağladı bütün əsgər.

Şərməddinsə üz tutaraq vəzirlərə, əyanlara!
Avtandilin məktubundan söhbət açdı tez onlara.
Ürəkləri qılınc kimi bu bəd xəbər yara-yara,
Sinə yırtıb üz cırdılar, ağlayaraq şahsuvara.

Hamı dedi: "Məşəqqətdir onsuz bizə bu güzəran,
Lakin onun şöhrətinə burda səndən başqa insan
Layiq deyil, hər əmrinə hazır durur bütün əyan"
Onlar, bizim bu vassala boyun əydi bu zamandan.

## AVTANDİLİN TARİYELİ AXTARMAĞA YOLA DÜŞMƏSİ

Dionislə müdrik olan Yezdradan bir yadigar:
Gül layiqdir göz yaşına vursa onu boz şaxtalar.
Ürək yanar bir gəncə ki, yaqutlara bənzəri var,
Vətənindən əl götürüb, qərib gəzir diyar-diyar.

Bax Avtandil dörd nəfəsə qalib gəldi bu çöllərə,
Ərəbistan hüdudunu aşıb keçdi yad ellərə,
Həsrət qaldı Tinatinə, günəşüzlü o dilbərə,
Onsuz dedi: "Gözlərimdə qan ağlayır hər mənzərə".

Qar və qırov soldurunca qızılgülün yarpağını,
Qəlbə sancmaq istəyirdi arabir öz yarağını.
Dedi: "Tale yüz elədi ömrümün qəm varağını,
Bir də könlüm almayacaq nəğmə və ney sorağını".

Gül solduqca günəşüzlü Tinatinin hicranından,
Öz könlünə "səbr et" deyə, dözdü dərdə zaman-zaman,
Qərib-qərib ellər gəzib dolaşdıqca könül viran,
Yolda kimə rast gəldisə güldü dostluq, güldü peyman.

Axtarışda göz yaşları axıb getdi dənizlərə,
Yastığı qol, yatağı yer, çox uzandı quru yerə.
Dedi: "Səndən ayrılalı, ey sevgilim, birdən-birə,
Könlüm quşu yanındadır ölüb getsəm mən bir kərə".

O, dünyanı başdan-başa dolaşdıqca yorulmadı,
Göy altında ayağının dəymədiyi yer qalmadı.
Nə yazıq ki, gəzdiyindən xəbər verən heç olmadı.
Üç sənəyə üç ay qaldı, könlü bir gün durulmadı.

O qorxunc bir yerə düşdü, nə bir nəfəs, nə bir insan,
Ona bir ay görünmədi bir kəs adəm övladından.
Ah, nə Ramin, nə də ki, Vis bu dərdi çəkməmiş bir an,
Xəyalından ayrılmadı gecə-gündüz nazlı canan.

Uca bir dağ zirvəsində tutdu ötərgi bir qərar:
Burdan bir çöl başlanır ki, yeddi günlük mənzili var.
Dağın zümrüd ətəyindən şırıl-şırıl bir çay axar,
Körpüsüz də keçmək olur, hər tərəfi sıx ormanlar.

Dərindən bir köks ötürdü, dağ başına dırmanaraq,
Hesabladı möhlətini ikicə ay qalmış ancaq.
"Birdən sirrim açılarsa!" – deyib qəlbi əsdi zağ-zağ.
Bu dünyada hansı canlı dönüb bir də yaranacaq...

Fikrə getdi, yuva saldı gözlərində düşüncələr!
"Geri dönsəm boş getməzmi keçirdiyim uzun səfər?
Ulduzuma nə sifətlə görünərəm alsa xəbər!
Sorağına düşdüyümdən nə bir səs var, nə bir əsər.

Qayıtmasam, indən belə, daha da çox gəzəm gərək,
Gəzdiyimin sorağını almamışam indiyədək.
Möhlət keçər, Şərməddinsə gözlərindən yaş tökərək
Varar şahın hüzuruna, əhvalatı söyləyər tək.

Ölməyimi xəbər verər, tapşırmışam özüm bunu,
Bəd xəbərdən ağlayarlar, hıçqırarlar il uzunu;
Arsız-arsız qayıtmaqla səfərimin bitər sonu".
Ağlayaraq düşündükcə bu fikirlər boğur onu.



"Aman, Tanrım, niyə məndən əsirgədin mərhəməti,
Neçin keçdi səhrada boş bir bəndənin səyahəti?
Candan aldın hər şadlığı, qəlbə yığdın hər möhnəti,
Bilməyəcək bu göz yaşı, bu ayrılıq şikayəti".

Sonra dedi: "Səbir xoşdur" qoy ölməyim vaxtdan əvvəl
İnləmə sən, yazıq qəlbim öz vaxtında gəlsin əcəl.
Sənsiz neylər göz yaşlarım, aman Tanrım, imdada gəl!
Qədər bizə nə yazmışsa yalnız odur hökmü-əzəl".

Yenə dedi: "Ölüm xoşdur arsız-arsız sürünməkdən,
Günəş üzlü Tinatinə qara üzlü görünməkdən.
Sorsa səndən Tariyeli hazırmısan cavaba sən?"
Bu xəyalla gəlib keçdi ağaclığın ətəyindən.

"Göy altdakı canlıları yoxlamışam birər-birər.
O insandan bu günədək tapmamışam mən bir əsər.
Doğru imiş, sözün düzü, onu bir div zənn edənlər,
Əbəs axır göz yaşlarım, ağlamağım verməz səmər!"

Bax Avtandil dağdan aşıb keçdi çaydan, ağaclıqdan,
Ruhu qəmə qərq olurdu qamışlıqlar dinən zaman.
Qüvvətindən, vüqarından qalmamışdı canında can,
Qara bığlar büllur üzə yaraşırdı zaman-zaman.

Qayıtmağı qərarladı, ürəyində qəm ruzgarı,
Atı sürdü çöl uzunu, mənzil aldı gözəvarı.
Bir ay keçdi, bir insan da görünmədi ona barı,
Ovlamadı rast gəldiyi o yırtıcı heyvanları.

Avtandili vəhşilərə tay etsə də çəkdiyi ah,
Adəm oğlu olduğundan, açıb yemək istədi bax,
Rüstəm qollu qoç Avtandil oxuyla bir quş vuraraq,
Atdan düşdü açıqlığa, qamışlıqda yaxdı ocaq.

Şişlik bişib qurtarınca atı çəkdi bir otlağa!
Gördü altı atlı gəlir çapırdaraq sola, sağa,
Dedi: "Bunlar şübhəsiz ki, bənzəyirlər bir qaçağa;
Hardan layiq olacaqlar xeyir bir söz danışmağa".

Qarşıladı gələnləri, əldə oxu və kamanı.
İki nəfər aparırdı bir saqqalsız növcavanı.
O başından yaralanmış, şüuru yox, axır qanı,
Aparanlar bərk ağlaşır, qurtarmaqda gəncin canı.

"Ay qardaşlar, siz kimsiniz mənə qaçaq gəlirsiniz!"
"Sakit olun, dərdimiz var, bizə kömək göstərin siz.
Heç olmasa, şərik olun qüssəmizə bəhanəsiz,
Bir ağlayaq, bir zarıyaq, ağlar günə qalmışıq biz".

Avtandil tez yaxınlaşdı yazıqlarla danışmağa,
Onlar dindi gözlərindən odlu yaşlar yağa-yağa:
"Üç qardaşıq, səfər etdik yurdumuzdan çox uzağa
Xətada bir şəhrimiz var, möhtəşəmdir bənzər dağa.

Xəbər tutduq bir oylaqdan yaraqlanıb çıxdıq ova,
Ordu bizi yola saldı dumanlandı tozlu hava.
Gəlib çatdıq bir sahilə, orda bir ay saldıq yuva,
Qırdıq saysız heyvanları dağda-daşda qova-qova.

Biz üç qardaş üstün gəldik orda bütün ovçulara.
Sonra da öz aramızda bəhsə çıxdıq qızdı ara.
Hər birimiz "mənəm" dedi atdığını vura-vura,
Heç bilmədik kim haqlıdır, qəlbimizə düşdü qara.

Bu gün maral dərisiylə yola saldıq əsgərləri,
Dedik: "Qardaş kim düz atsa onun vardır ov hünəri.
Qoy yalqızlıq aydın etsin igid olan hər nəfəri,
Nişan alıb yerə sərək öz gözümüz görənləri".

Hər üçümüz malik idik üç nəfər ox gəzdirənə;
Əsgərlərə dağılmağı əmr elədik, dönüb yenə
Ağaclıqda, çuxurluqda nişan aldıq dönə-dönə.
Oxumuzdan bir quş belə qalxammadı göy üzünə.

Birdən-birə çıxdı üzə qaşqabaqlı bir pəhləvan,
Altındakı köhlən at da yeriyirdi rəvan-rəvan.
Xallı pələng dərisinə bürünmüşdü o qəhrəman,
Ona bənzər bir gözəllik görməmişdir hələ insan.



Gözümüzü qamaşdırdı gözlərində çaxan şimşək.
O da yerin günəşiydi göy üzünün günəşi tək.
Onu tutmaq istədik biz, cürət etdik buna gerçək,
Bu səbəbdən inləyirik damla-damla yaş tökərək.

"Böyük qardaş mənəm", – dedim, – qoyun gəlim öhdəsindən.
Orta qardaş: "Bəyənmişəm, – dedi, – onun atını mən".
Kiçik dedi: "Tək basaram"; razılaşdıq buna qəlbən,
Yaxınlaşdıq atlıya biz, o gedirdi altda köhlən.

Qızılgülə bənzəyirdi onun yaqut dodaqları.
O mənalı gözlərini döndərərək bizə sarı.
Gəlib keçdi saymazyana; sərt danışan adamları
Qamçısıyla vurub keçdi, əyilmədi şax vüqarı.

Bizim kiçik qardaş onun qarşısına çıxdı bu an,
Üzərinə atılaraq cəsarətlə dedi: "Dayan!"
Qılıncını çıxarmadı öz qınından o qəhrəman,
Qardaşımı qamçıladı, təpəsindən açıldı qan.

Bir qamçının zərbəsiylə qüvvətini o göstərdi,
Qardaşımı birdən-birə meyit kimi yerə sərdi,
Gözümüzün qabağında vüqarlanıb sinə gərdi,
Gözdən itdi saymazyana, gəl sən də duy bizim dərdi.

Qayıtmadı o bir daha, getdi sakit, ağayana,
O ay kimi, günəş kimi gedir, baxın, yana-yana".
Avtandilə göstərdilər tək atlını yana-yana,
Qara bir at görünürdü o da günəşlə yan-yana.

Avtandilin göz yaşları kəsildi bax birdən-birə,
Qürbət eli bu müddətdə gəzməyirdi əbəs yerə.
İnsan oğlu çatan kimi qəlbindəki diləklərə,
Keçən dərdi anlayacaq, unudacaq o bilmərrə.

Söylədi ki: "Qardaşlarım, bir yuvasız qəribəm mən,
O pəhləvan sorağilə qürbət oldu mənə vətən.
Siz açdınız müşkülümü, saçınıza düşməsin dən,
Tanrım sizi uzaq tutsun hər bəladan, işgəncədən.

Mən ki, yetdim muradıma, artıq oldum sirdaşınız,
Bir Allahdan istəmişəm inciməsin qardaşınız.
Odur mənim sığnacağım! Gedin qalın orda yalqız,
Qoyun xəstə rahatlansın, dincəliniz siz qayğısız".

Qəhrəmanım öz atını məhmizlədi deyib bunu,
İpsiz, bağsız şahin kimi qanad açdı yol uzunu.
Aya-günə bənzədərdi görən onun şad üzünü,
Bu səbəblə o söndürdü sinəsinin qəm közünü.

Öz-özünə danışırdı görüşməyin qaydasından:
"Ağılsız bir söz söyləsəm əsib coşar o qudurğan.
Çətinlikdən çıxmaq üçün yol tapmalı aqil insan.
Öz qəlbinin nizamını pozmamalı o heç zaman.

O ağlını itirərək çəkilmişdir öz qınına.
Odur ki, bir bəşər belə buraxmayır yaxınına.
Ona tərəf yaxınlaşsan, düşəcəyik qan qırğına,
Ölüm deyə qəsd edəcək ya o mənə, ya mən ona".

O deyirdi: "Nahaq yerə dərdim çəkir məni dara.
Dünyada bir canlı yox ki, sığınmasın bir diyara.
Baş götürüb hara getsə, qapansa da divarlara,
Ağıllı bir tədbir töküb tapmalıyam ona çara".

Tam iki gün dolaşdılar gah irəli, gah da geri.
Ac qarına, yorğun-arğın qoymadılar ayaq yeri.
Bir an belə dayanmadan axıtdılar alın təri.
Gözlərimdən axan yaşlar çox islatdı boz çölləri.

Gündüz gəzib axşam üstü qayalığa rast oldular.
Qayalığın ətəyindən çay axırdı xumar-xumar.
Sahildəki qamışların nə hesabı, nə sayı var,
Ağacların zirvəsinə göz çatmayır, gözəl diyar!

O pəhləvan çaydan keçib mağaraya yaxınlaşdı.
Avtandilsə ağaclığa girib atdan yerə aşdı.
Bir ağaca dırmanaraq ona baxdı, dərdi daşdı,
Pəhləvansa bir mənzilə yol gedirdi gözü yaşlı.



Ormanlığı keçib çatdı qayalığa o pəhləvan,
Qara xəzli kürk geyinmiş bir qız çıxdı mağaradan.
Gözlərindən gedən yaşlar dənizlərə axdı haman.
Pəhləvan da düşüb atdan qucaqladı qızı bu an.

"Əsmət bacım, baxtımızın qayıqları dəydi daşa,
Pərvanə tək sirr uğrunda oda yandıq başdan-başa".
Deyib, vurdu sinəsinə qız az qaldı donub çaşa,
Sarıldılar gözlərindən axıb gedən qanlı yaşa.

Saçlarını yoldu onlar, qalınlaşdı seyrək meşə;
Bu gənclə qız qucaqlaşdı, lənət deyib o gərdişə.
Dağlar, daşlar dilə gəldi sinəsini deşə-deşə.
Avtandilin qəlbi isə düşdü dərin bir təşvişə.

Qız bu dərdə səbr edərək, yumdu qəmin dodağını,
Atı çəkdi mağaraya, düşürdü yar-yarağını.
Sonra açdı pəhləvanın müharibə qurşağını,
Bütün günü biz görmədik onların al yanağını.

Avtandili heyrət aldı: "Necə tapım bu sirri mən!
Qız dünənki paltarında çıxdı çölə səhər tezdən.
Təmizləyib çarğatilə köhlən ata vurdu yüyən,
Yaraqları kirimişcə yığışdırdı o gül bədən.

Görünür ki, o pəhləvan bir yerdə çox dayanmazmış.
Qız saç yolub sinə cırdı gözlərindən axdı yağış.
Qucaqlaşıb öpüşdülər nələr dedi bu ağlayış,
Dərdə düşdü Əsmət yenə gül üzündə bozardı qış".

Bax Avtandil bir də süzdü qəhrəmanı gizli-gizli.
O günəşə bənzədirdi burma bığlı Tariyeli.
Qoxlayırdı qızılgülü yayıldıqca səhər yeli,
Onun aslan görünüşü heyran qoydu Avtandili.

Dünən gəldiyi bir yolla o atını sürdü yenə,
Qamışlı bir çayırlıqdan çıxdı çölün lap düzünə.
Avtandili heyrət aldı, inanmadı öz gözünə.
"Allah yaxşı yetirmişdir!" o söylədi öz-özünə.

Bundan gözəl bir vücudu xəlq etmişmi heç yaradan?
Qızı tutub, sormalıyam desin kimdir bu qəhrəman.
Mən də qıza macəramı danışıram nişan-nişan,
Nə mən ona ox ataram, nə o məni alar nişan.

O ağacdan yerə düşüb atını da açdı bağdan,
Minib sürdü, mağaranı açıb gördü ta uzaqdan.
Qızsa çıxdı, yaş tökərək o gül üzdən, gül yanaqdan,
Elə bildi geri dönmüş al yanaqlı o qəhrəman.

Qız gördü ki, bənzəməyir gələn atlı pəhləvana,
Tez dönərək haray saldı dağa, daşa və ormana.
Avtandil bir kəklik kimi aldı onu caynağına.
Düşdü qızın harayından qayalıqlar həyəcana.

Qız ona baş əyməyərək: "Burax dedi, məni burax".
Qaraquşun pəncəsindən kəklik kimi çırpınaraq
Harayladı Tariyeli, Tariyelsə ondan uzaq...
Avtandil də diz çökərək yalvarırdı bir qulsayaq.

Dedi: "Qorxma, özünə gəl, mən ki, canlı bir insanam,
Neçin soldu gül yanağın bənövşə tək nazlı sonam!
Söylə kimdir sərv boylu o pəhləvan, söylə anam!
Qorxma məndən, ağlama gəl, vəhşi deyil, hal duyanam".

Ağlayaraq şikayətlə köks ötürüb dindi gözəl:
"Ağıllısan burax məni, ağılsızsan, bir ağla gəl!
Peyman açıb söz söyləmək asan deyil, öyrən əvvəl,
Bir də bil ki, sirr verməram doğrasan da məni əl-əl".

Yenə dedi: "Ey pəhləvan, yalvarma gəl üzündə qəm,
İstədiyin bu dastanı yaza bilməz yazsa qələm.
Sən bir dəfə "söylə" desən, mən yüz dəfə "yox" deyərəm.
Gülüş xoşsa ağlamaqdan, mənə kefdən xoşdur ələm".

"Qız, bilmirsən mən nəçiyəm çəkmiş başım nə sitəmlər.
Çox gəzmişəm onu, lakin tapmamışam ondan əsər.
Səni tapdım, bezsən belə sözlərimdən nazlı dilbər,
Əl çəkmərəm utanma gəl, ondan mənə ver bir xəbər".



Söylədi qız: "Bu nə haldır, de mən kiməm, de sən kimsən?
Günəş məndən uzaqdadır, şaxta kimi gəl kəsmə sən.
Uzun söhbət zəhlə tökər sənə gödək deyirəm mən,
Neyləsən də bir söz belə çıxmayacaq daş dilimdən".

Oğlan yenə diz çökərək çox yalvardı haman qıza.
Cana gəldi yalvarmaqdan bu dilsizə, ağızsıza.
Acığından az qaldı ki, gözlərindən qan yaş-sıza!
Birdən qızı saçlayaraq bıçaq çəkdi qıza-qıza.

Dedi: "Səni buraxmaram gəl incitmə məni yenə,
Doğrudanmı göz yaşların axacaqdır dönə-dönə?!
Vallah, səni qəhr edərəm uyuşmasan mən deyənə.
Tanrım özü bais olar düşmənimin ölümünə".

Qız dedi ki, "Səmərəsiz bir xəyala düşdün bu dəm.
Öldürməsən sağ qalaram, mən canlıyam və bütünəm,
Neçin açım sənə sirri madam ki, mən öləcəyəm,
Ölüb getsəm başsız qalıb, nə danışa biləcəyəm".

Yenə dedi: "Ey pəhləvan, hardan gəldin, de kimsən, kim?
Öz arzumla məni burdan itirsən də ilim-ilim,
Dəyərsiz bir məktub kimi doğrasan da dilim-dilim.
Bil ki, sənə bu sirləri açmayacaq canlı dilim.

Bu meydanda hansı igid ölməyindən can qoruyar?
Can qurtarar birdəfəlik gözlərimdən yaş quruyar.
Bu dünyanın gözlərimdə bir çöp qədər qiyməti var,
Sən kimsən ki, həqiqəti deyim açıq və aşikar".

"Yox, bu yolla bu qız mənə deməyəcək bir söz belə.
Əlverişli bir yol tapıb tutmalıyam başqa dilə".
Deyib qızı buraxaraq kənar durdu bilə-bilə. –
Dedi: "Vicdan boğur məni, sərt davrandım qız, səninlə!"

Oturmuş qız, bulud kimi tutulmuşdu ay qabağı,
Avtandilsə bir tərəfdə, yoxdur deyib danışmağı.
İslanmışdır göz yaşından qızılgülün al yanağı,
Qızın ona qəlbi yanıb əsdi birdən gül dodağı.

Gözlərindən od ələdi, ona baxıb yana-yana.
Ancaq bir söz söyləmədi yenə bu yad pəhləvana.
Qızın sakit olmağını gətirərək bir bahana,
Yenə durub diz çökərək boyun əydi o tərlana.

Oğlan dedi: " Artıq yola gəlməyirsən gözəl niyar,
Boynu buruq yetim kimi yad qalmışam biixtiyar.
Amandır keç günahımdan, hüzurunda təqsirim var.
Qayda budur müqəssiri yeddi dəfə bağışlarlar.

Rəftarımın əvvəlində çox incitdim səni, mələk!
Ancaq yenə hicranzədə bir aşiqə hörmət gərək.
Nə həmdəmim, nə arxam var, dar günümdə yoxdur kömək,
Nəyim vardır? Sənin olsun sinəmdəki çarpan ürək!"

Qız igiddən eşidincə məhəbbətin xoş sözünü,
Sinəsindən ahlar çəkdi, çox danladı öz-özünü.
Gözlərindən sellər axdı, çulğaladı qəm üzünü,
Fələk açdı Avtandilin muradının kor gözünü.

Oğlan duydu, eşq sözündən qızın rəngi oldu dümağ,
Şübhəsiz ki, bir aşiqçin o inləyir ağlayaraq.
"Aman bacım, loğmanlar da eşq əhlini anlayaraq
Acıyırlar, aşiqlərə ölüm xoşdur, taleyə bax!

Mən aşiqəm, mən məcnunam, yükdür mənə zalım həyat,
Öz günəşim tapşırdı ki, pəhləvanı axtar, heyhat!
Dolaşdığım bu yerlərdə buludlar da açmaz qanad,
Qəlbinizi bağlı gördüm, şahid olsun qoy kainat!

Müqəddəs bir surət kimi o qəlbimə düşdü əzəl,
Səadətə göz yumaraq, məcnun kimi onu əl-əl
Axtarıram, azadlıq ver, ya da məni əsir et gəl!
İstər yaşat, istər öldür, dərdim üstə bir dərddə gəl".

Bu dəfə qız pəhləvanla xoş danışdı əvvəlkindən:
"Artıq uyarlı bir üsul, bir dil tapdın söhbətə sən.
Düşmənçilik saldın bayaq aramıza bilməm nədən,
İndi əziz bir dostunam, bacından da artığam mən.



Madam ki, sən ən nəhayət gəlib çıxdın məhəbbətə,
Bundan belə hüzurunda mən hazıram hər hörmətə.
Bir dost kimi şərik olub səni yaxan bu möhnətə,
Mən uğrunda ölsəm belə yol verməərəm ədavətə.

Dinlə! Bütün mən deyənə qulaq assan indən belə,
Axtardığın o insanı alacaqsan bil ki, ələ.
Yoxsa, bir şey çıxmayacaq göz yaşların dönsə selə,
Bu dünyadan şikayətlə baş götürüb köçsən belə".

Pəhləvan ərz elədi ki: "Bir nağıla bənzədi bu –
İki nəfər harayasa getdiyi vaxt yol uzunu
Biri düşdü boş quyuya, arxadakı görüb bunu
Yaxınlaşıb haray çəkdi, çox çağırdı o dostunu.

Dedi: "Yoldaş, yerində dur gözlə məni burda bir an,
Getdim kəndir tapım tezcə, çəkim səni bu quyudan".
Quyudakı gülümsəyib ona baxdı heyran-heyran:
Dedi: "Necə, səni qoyub getməyimə varmı imkan?"

İndi, bacım əlindədir boğazımın o kəndiri,
Mənə burda göz dağları çəkdirsən də diri-diri
Mən məcnunam, əlindədir bu dərdimin hər tədbiri.
Ölüm var ki, dönüm yoxdur, qayıtmaram burdan geri".

Söylədi qız: "Ey pəhləvan, xoşa gəlir mühakimən,
Ariflərin tərifinə doğrudan da layiqsən sən.
Çox iztirab keçirmisən sən olalı tərki vətən,
Yetəcəksən məqsədinə sözlərimə qulaq versən.

Bu yerlərdə o igiddən bir sor-soraq almaq olmaz,
Onun özü nəql etməsə başqasına inanılmaz.
Bəlkə özü gəlib çıxa, heç darıxma, gözlə bir az,
Ağlama, gəl sən bu qədər gözlərində min bir niyaz.

İndi sənə adımızı, eşit, deyim birər-birər,
O divanə pəhləvana, bil, Tariyel söyləyirlər.
Öz adımsa, bil Əsmətdir, sinəmdəki bu atəşlər
Ahlarıma qarışaraq tüstülənir axşam, səhər.

Daha bir söz deyəmmərəm, sözün düzü, bundan səva,
Gövdəsilə düşmənləri ruhdan salır, yatır dava.
Ov ətilə dolanıram, o da çıxmış bu gün ova,
Bilməyirəm haçan gələr, nə göstərir görək hava...

İndi sənə yalvarıram, gözlə onu, bir az dayan,
Gəlib çıxar dərdini mən eyləyərəm ona bəyan.
Sizi tanış eləyərəm, olarsınız siz mehriban,
Özü söylər əhvalatı, eşidərsən, ey pəhləvan".

Pəhləvansa qız deyənə varlığilə razılaşır,
Dinləyirlər axan çayı, pərdə-pərdə aşıb daşır.
O sahildən bir ay doğur ona baxan göz qamaşır,
Tariyeldir ay dediyim, bu ad ona çox yaraşır.

Qız dedi ki: "Ey pəhləvan, imdadına yetdi Tanrı,
Lakin gözə görünmə gəl, içəridə gizlən barı.
Yer üzündə bir nəfər də baxa bilməz ona sarı,
Bəlkə mənim qılığımdan sönsün onun acıları".

Avtandili qız tələsik gizlədi daş mağarada,
O qəhrəman endi atdan parıldadı ox havada,
Hey ağlaşdı bacı-qardaş yenə qəmlər uda-uda,
Avtandilsə seyr edirdi qəlbi isti bir duyğuda.

Göz yaşları büllur üzü döndərdi bir kəhrəbaya,
O pəhləvan çox ağladı, bürünmüşdü qız qaraya.
Yar-yarağı qız çıxarıb, atı çəkdi mağaraya,
Kirpikləri bir bənd çəkdi artıq gözdən axan çaya.

Avtandilsə pəncərədən boylanırdı onlara şən,
Qız bir pələng dərisini Tariyelə verdi həmən.
O, dəriyə dirsəklənib inləyirdi yenə qəlbən,
Qanlı yaşlar süzülürdü onun uzun kipriyindən.

Qız ocaqla məşğul olub, sönən közü tez üflədi,
Zənn etdi ki, o qəhrəman xoşlayacaq bişmiş əti.
Bir parçacıq kəsən kimi turşutdu lap sir-sifəti,
Çeynəmədən tüpürdü tez, yox iştahı, yox qüvvəti.



O söykənib mürgülədi, tez oyandı fəqət yenə,
Şüurunu itirərək aldı onu dəhşət yenə.
Vurdu daşla və ağacla öz başına, sinəsinə,
Qız üzünü cıra-cıra baxdı ona dönə-dönə.

Qız soruşdu: "Nə oldu ki, tez qayıtdın, söylə nə var?"
Cavab verdi: "Ova çıxmış bir padşaha oldum düçar.
Orduları səngər kimi dağıtmışdı o hökmdar,
Ovlaqları hər tərəfdən bürümüşdü ov qovanlar.

İnsanları görən kimi dərdə düşdüm alışaraq,
Görünmədim gözlərinə, tez özümü tutdum iraq.
Qaçıb girdim meşələrə ağarmışdı rəngim dümağ,
Dedim onlar çəkilsələr mən çıxaram burdan sabah".

Axdı yenə yazıq qızın göz yaşları sərin-sərin,
Dedi: "Sən bu meşələrdə ənisisən vəhşilərin.
Görmək belə istəmirsən surətini bir bəşərin,
Öz əlinlə öz qəbrini sən qazırsan dərin-dərin.

Sən ki, bütün yer üzünü seyr elədin başdan-başa,
Neçin yenə rast gəlmədin bir həmdəmə, bir sirdaşa?
Ki, o baxıb acıyaydı gözlərindən axan yaşa,
Ölsən, sənin sevgilin də öz ömrünü vurmaz başa".

O dedi ki: "Gözəl bacım, sənin qəlbin müqəddəsdir,
Mənim dərdim əlacsızdır, bütün ömrüm quru səsdir.
Yaranmamış bir insanı axtarmaq da boş həvəsdir,
Ruhum uçmuş bədənimdən, ölüb getsəm mənə bəsdir.

Mən özümə yaxın bir qəlb, bir müsahib gəzsəm belə,
Tanrı mənə bu dünyada yaratmamış sirdaş hələ.
Səndən başqa bu dünyada rast gəlmədim əhli-dilə.
Gözəl bacım, bölüşürəm dərdlərimi bir səninlə".

Qorxa-qorxa söylədi qız: "Yalvarıram, qızma mana,
Çünki Tanrım vəzir qoymuş bu qürbətdə səni mana.
Qoy qalmasın bir yaxşılıq ürəyimdə yana-yana,
Sən həddini lap azmısan, olsan belə çox mərdana".

Pəhləvansa cavab verdi: "Açıq söylə qəlbini sən,
Allah özü yaratmamış, hardan tapım sirdaşı mən?
Tanrım məni bədbəxt qoydu, nələr gəlir boş əlimdən,
Doğrudan da vəhşiləşdim çöllər oldu mənə vətən".

Qız təkrarən: "Yordu səni eylədiyim məsləhətlər,
İndi sənə canı bağlı bir qəhrəman versəm əgər,
Açsa sənin könlünü o söhbətiylə axşam, səhər,
Gəl and iç ki, o qəhrəman görməyəcək səndən xətər".

"Şad olaram görsəm onu, söylə gəlsin tez yanıma,
And içirəm sevgilimə, öz əhdimə, peymanıma.
Xatirinə toxunmaram söz verirəm inan sana,
Onu sevib oxşayaram, qardaş olar burda mana".

Qız qalxaraq getdi haman pəhləvanı gətirməyə,
"O hirslənməz, arxayın ol, möhkəm dayan" – deyə-deyə.
Gəldi qonaq, Tariyelsə ona baxıb, "bəh, bəh!" deyə,
Heyran oldu Avtandilə, günəş rəngli, ay üzlüyə".

Bir-birilə iki günəş qarşılaşdı burda, nə qəm!
Mən onları bədirlənmiş parlaq aya bənzədirəm.
O xoşsifət qəhrəmanlar üz-üzəcə gəldiyi dəm,
Yeddi göyə oxşadılar, yoxdu özgə müqayisəm.

Yad olmağa baxmayaraq öpüşdülər qardaş kimi,
Qızılgüllər açılanda diş ağardı daş-qaş kimi.
Sarıldılar bir-birinə ayrı düşmüş sirdaş kimi,
Sarıldılar həsrət çəkən bir can kimi, bir baş kimi.

O pəhləvan Avtandilin əllərini sıxdı bərk-bərk,
Əyləşdilər bir yerdəcə həzin-həzin yaş tökərək.
Dindi Əsmət, o hal duyan, o səmimi, o saf ürək:
"Canınıza qəsd etməyin, sönərsiniz bir günəş tək".

Qırov düşdü, Tariyelin ağardı al yanaqları,
Avtandilə dedi: "Tez ol sirrini aç söylə, barı,
Söylə kimsən, haralısan, nə gəzirsən bu diyarı?
Ölüm belə qaçır məndən, mən getsəm də ona sarı".



Avtandilsə şirin-şirin kəlmələrlə dindi haman:
"Sən, ey Aslan, ey Tariyel, görürəm ki, mehribansan.
Mən saraylar qoyub gəldim – vətənimdir Ərəbistan,
Bil ki, dərdim məhəbbətdir, alovlanır bağrımda qan.

Hökmdarın qızına mən aşiq olub gəldim dinə,
İndi o qız bir padşahdır, baş əyilir hər hökmünə.
Bir gün məni sən görmüsən, xatirinə gətir yenə,
Yadındamı sən qulları qırıb tökdün dönə-dönə?

Gəzən görüb çöldə səni yaxınlaşdıq biz yanına,
Hökmdarım qəzəbləndi baş əydikdə fərmanına.
Hay vermədin bizim haya, gəlib keçdin saymazyana,
Dalınca biz qoşun saldıq, boyandı çöl qızıl qana.

Şaqqıldatdın öz qamçını, dağ bir yana, daş bir yana,
Vurub tökdün o çöllərə leş bir yana, baş bir yana.
Sonra da bir xəyal kimi nəzərlərdən qaçdın yenə,
Heyran-heyran baxdı qoşun, dağlar-düzlər aşdın yenə.

Bu dar gəldi hökmdara, ərköyündür hökmdarlar,
Əmr verdi, adam salıb gəzdi səni diyar-diyar.
Ancaq xəbər gətirmədi səndən nə gənc, nə ixtiyar,
İndi məni göndərmişdir günəş üzlü nazlı nigar.

Əmr etdi ki: "Yoxa çıxmış günəşi tap bu gün, yarın,
Yalnız o vaxt baş tutacaq qəlbindəki arzuların.
Dedi üç il göz yaşları tökməlisən narın-narın".
Söylə dözmək mümkündürmü həsrətinə o dildarın?

Ancaq səndən almamışdım indiyədək bir səs-soraq,
Sənə kobud ağız açan qaçaqları gördüm bayaq.
Lap ölümcül eyləmisən birisini bərk vuraraq,
Qardaşları nəql elədi əhvalatı, gözdən iraq..."

Tariyelsə xatırladı o vuruşma meydanını.
Dedi: "Yaxşı yadımdadır insanların axan qanı.
Ov zamanı gördüm səni, gördüm sizin hökmranı.
Ağlayırdım mən o zaman yad edərək bir cananı.

İstəyiniz nəydi məndən indi açıb deyin, barı,
Bir orduyla o vaxt tuta bilmədiniz bir şikarı.
Məni əsir almaq üçün göndərdiniz o qulları,
Əvəzində qırıb tökdüm o qəhrəman oğulları.

Ətrafıma baxar-baxmaz gördüm gəlir o hökmdar,
Ona mən əl qaldırmadım, məmləkətin qaydası var.
Bir söz belə, söyləmədən gözünüzdən oldum kənar,
Atım uçdu xəyal kimi, bundan başqa nəyə oxşar.

İndi mənə həyat verir bu xeyirxah, xoş sifətin
Boyun ər-ər, üzün günəş, var qolunda şücaətin.
Bənzəyirsən qəhrəmana, keçmiş ola hər möhnətin,
Tanrı gözdür hər bəndəyə, qoy var olsun məhəbbətin".

Avtandil: "Yox, arif gərək tərif edə səni, inan,
Neylədim ki, tərifinə layiq olam, ey pəhləvan?
Göy üzündə şəfəqlənən bir günəşin timsalısan,
Fəlakətin göz yaşından dəyişirmi heç qəhrəman?

Bu təsadüf son qoyacaq sinəmdəki dərdi-dilə,
O dilbərin xidmətindən çəkinərəm bilə-bilə.
Yaqut daha gözəl olur hər minadan, bir səninlə
Qalacağam ölənədək, budur yolum indən belə".

"Ah, nə qədər sənin qəlbin mənə qarşı lütfkardır,
Bu ülfətə, mehrə qarşı könlüm evi tar-mardır.
Aşiqlərdən aşiqlərə can yanğısı yadigardır,
Hicranına səbəb olsam əvəzində nəyim vardır?

O mələyin deməsilə gəzdin məni bu dünyada,
Ən nəhayət gəlib tapdın bu gördüyün mağarada.
Mən də açıb desəm sənə gəzdiyim düşüb oda,
Yanar canın dönər külə, tüstülənər boş havada".

O qurtarıb sözlərini yandı yenə alışaraq,
Dedi: "Əsmət, yanımdasan, o zamandan yanar çıraq.
Qurtaran ki, deyil, quzum, sinəmdəki düyünlü dağ.
İndi məni oda yaxır bu pəhləvan ağlayaraq.



Yaranmamış bir canlını, insan oğlu hardan tapar!
Yanar qəlbim bu dərd ilə, ürəyimdən alov qopar.
Nicat yoxdur, qəfəsdəyəm, qurtuluşa ümidmi var?
Budur, saman yastığımdır, yorğanımsa yapıncılar.

O günəş ki, bir Allahın surətidir əzəl gündən,
Onun iki töhfəsinə nail oldum bu gün bilsən.
Sevgililər qovuşacaq, səbəb mənəm, şadam qəlbən,
Onların da odlarına başdan-başa yanmaram mən".

Dönüb dedi pəhləvana: "Bir ölümdən qaçmaz insan,
Ya bir qardaş, ya bir bacı peymanına girən zaman.
Allah birin yaşatmasa, həyat olmaz başqasından,
Dinlə məni, nə çəkmişəm deyim sənə, ey qəhrəman.

Əsmət, dedi, yanımda dur, su da gətir əyləş sayaq,
Huşum getsə, ayılt məni sən sinəmdə su ataraq.
Ölüb getsəm, ağla məni, ey zülmətdə yanan çıraq,
Öz əlinlə qəbrimi qaz, beşik olsun mənə torpaq".

Hekayətə başlamadan yaxasını açdı dərhal,
Bulud almış günəş kimi o qaraldı, sanki maşal.
Dişləri də kilidlənib uzun bir vaxt kəsilən lal,
Sonra birdən nalə çəkdin, gözlərinə gəldi xəyal!

"Sən ey məndən uzaq düşən ilk sevgilim, gözəl mələk!
Həyatımın ümidisən, xəyalımsan dünyada tək.
Ey cənnətdə bitən ağac, səni yıxdı hansı külək,
Neçin yanıb qurtarmadın, ey odlara yanan ürək!"

## TARİYELİN ÖZ BARƏSİNDƏ AVTANDİLƏ HEKAYƏ ETMƏSİ

Dinlə məni, diqqət yetir, çox dərdlidir hekayətim,
Nə qələmə, nə də dilə gəlməyəcək şikayətim.
Sevgilimlə getdi bütün o gəncliyim, səadətim,
Yar yolunda sövdəgərəm, budur mənim fəlakətim.

Hamı bilir Hindistanın yeddi böyük şahlığı var,
Onların da altısında Farsadandı baş hökmdar.
Cürətinə, dövlətinə baş əyirdi bütün şahlar,
Aslan boylu, günəş üzlü, döyüşlərdə bir namdar.

Yeddinci şah mənim atam, Saridandı onun adı,
Qarşısında düşmənlərin açılmazdı qol-qanadı.
Hər tərəfdən hörmət gördü, altında boz köhlən atı,
Bütün ömrü ovda keçdi, qəmli vaxtı heç olmadı.

O sevməzdi yalqızlığı, tapdalardı hər diyarı,
Öz-özünə dedi bir gün: "Zəbt elədim hüdudları.
Keçdi mənə düşmənlərin saysız yeri, saysız varı,
İndi gedib Farsadana verəcəyəm ixtiyarı".

Farsadanın hüzuruna elçisini göndərdi tək,
Tapşırdı ki: "Hindistanın hakimisən, sən ey fələk.
Şad oluram öz qəlbimi sənə bir qul göndərərək,
Sənə sadiq çırpınacaq sinəmdəki bu saf ürək".

Bu xəbərlə sevinc üstdən sevinc gəldi Farsadana,
Sıfarişi bu oldu ki, şükür olsun yaradana
Ki, düşmüsən sən bu fikrə, hakim ikən Hindistana.
Gəl, qardaşım, atam kimi min bir büsat qurum sana.

Admirallıq rütbəsinə təyin oldu atam haman,
Hindistanda hər admiral adlanılır baş komandan.
Dövlət üçün məsləhətdən yanılmazdı atam bir an,
Az qalmışdı şahlar şahı adlanılsın o Saridan.

Hökmdarı heyran qoydu atamdakı böyük hünər,
Dedi: "Yoxdur bir admiral yer üzündə ona bənzər,
Düşmanları döyüş vaxtı təslim etdi ər oğlu ər,
Nə mən ona bənzəyirəm, nə də mənə başqa bəşər..."

Kral ilə kraliça görməmişdi övlad gerçək,
Ordularda dərdlənərdi bəzən dəhşət keçirərək.
Mən olunca daş olaydı, dedi o şah – təmiz ürək,
Qanı bizim nəsildəndir oğul sayam bunu gərək.



O gündən ki, onlar məni oğulluğa ad etdilər,
Ordulara, ölkələrə bir sərkərdə böyütdülər.
Ariflərdən mən öyrəndim şahlıq nədir birər-birər,
Aslan kimi yaşa doldum, parıldadım günəş qədər.

Əsmət! Danış, söhbətimdə bir artırma varmı səncə?
Beş yaşımda bir gül kimi çiçəkləndim qönçə-qönçə.
Aslanları sərçə kimi qırıb tökdüm bircə-bircə,
Farsadanın oğul dərdi əriyərək çıxdı heçə.

Əsmət! Solğun camalımın şahidisən dünyada sən,
Gözəllikdə yarışardım dan yeri tək günəşlə mən.
Görən baxıb deyərdi ki, hədiyyədir bu cənnətdən,
İndi onun kölgəsiyəm, ayrı düşdüm o nemətdən.

Kraliça boylu düşdü mən çatanda beş yaşına,
O qız doğdu (bunu deyib o qərq oldu göz yaşına,
Əsmət tezcə su gətirib səpdi onun döş-başına.)
Qız o vaxtdan bənzəyirdi ayın, günün sirdaşına.

Söz tutmayır indi dilim, tərifləyim onu barı,
Bu şad xəbər sevindirdi yaxın, uzaq hər diyarı.
Şahlar gəlib salamladı, təbrik etdi hökmdarı,
Hədiyyələr aldı o gün böyük şahın orduları.

Məktub, məktub arxasınca töküldükcə çıxdı dizə,
Hindistanın hər yerindən elçi gəldi o gün bizə.
Ay da, gün də şadlanırdı göy üzündə süzə-süzə,
Qonaqların o şadlığı sığmayırdı vəsfə, sözə.

Təvəllüddən sonra məni qızla qoşa saxladılar,
Hələ o vaxt günəş kimi şölə saldı diyar-diyar.
Kral ilə kraliça baxdı bizə tən barabar,
İndi deyim qoy adını eşit kimdi nazlı nigar...

Deyib qızın acığını bihuş oldu o qəhrəman,
Avtandil də çox ağladı, alov çıxdı yaxasından.
Qız su səpdi, ağla gəldi yenə bizim o pəhləvan,
Dedi: "Dinlə, könlüm evi çoxdan uçub oldu viran.

Bil ki, Nəstan-Darecandı söylədiyim qızın adı,
Yeddi yaşda nə ağlına, nə hüsnünə tay olmadı.
O gülüzlüm, aybənizlim bir an belə qaralmadı,
Ürək almas olsa belə hicranına tab qalmadı.

Qızın yetkin zamanında hərbə hazır bir əsgərdim,
Padşah ona varisi tək göz olardı, mən görərdim.
Sonra məni öz atama qaytardılar, artdı dərdim.
Aslanları pişik kimi oynadardım, öldürərdim.

Padşah qıza bürc tikdirdi, tək yaşadı o xuraman,
Yəşəm daşı və yaqutdan qurulmuşdu taxti-rəvan,
Qarşısında gül bağçalar, fəvvarələr rəvan-rəvan...
Orda ömür keçirərdi məni dərdə salan canan.

Gecə-gündüz buxurdandan rayihələr yüksəlirdi.
Qız da kölgə düşən kimi bağçalara çəkilirdi.
Davar, şahın dul bacısı Kacetindən gətirildi,
Padşah, qızı böyütməyi bu zamandan ona verdi.

Bütün saray başdan-başa al qumaşdı, al məxmərdi,
Gözəl pəri bizdən uzaq, sarayında tək gəzərdi.
Əsmət onun yanındaydı nərdtaxtası bütün zərdi,
Şux qaməti Havun dağda bitən sərvə çox bənzərdi.

Gəlib çatdım on beş yaşa, padşah məni sevdi qəlbən,
Gecə məni evə belə buraxmazdı gözlərindən.
Qüvvətdə bir aslan idim, gözəllikdə günəşdim mən,
Top oynadıb ox atmaqda ad qazandım hər tərəfdən.

Nə bir heyvan, nə də bir quş oxlarımdan qurtulmazdı,
Meydan başı top atmaqda yenə mənə tay olmazdı.
Evə gəlsəm, ziyafətdən könül bir an yorulmazdı,
Həyatımdan ayrı düşdüm, büllur üzlüm belə yazdı.

Atam köçdü bu dünyadan, düşdü qara torpaqlara,
Farsadanın nəşəsini tamam pozdu bu macəra.
Bu matəmin ağır səsi bayram oldu yağılara,
Düşmənimiz çox şad oldu, dostumuzsa geydi qara.



Bütün bir il ayrılmadım bu matəmin can yasından,
Gecə-gündüz çox ağladım hönkürərək zaman-zaman.
Saray əhli hökmdardan xəbər verdi mənə haman,
Şah dedi ki: "Bəsdir, oğlum! Çıx bu matəm otağından.

Bu itkiyə biz daha çox ağlayırıq yana-yana.
Yüz xəzinə bağışlayıb, matəmi at dedi mana.
Atanın hər hüququnu tapşırıram artıq sana,
Sən admiral olmalısan oxşayaraq öz atana!"

Yanıb-yanıb külə döndüm bu həsrətin çırağından,
Saray əhli gəlib məni çıxardı yas otağından.
Hindistanın hakimləri ziyafətlər qurub, inan,
Ata kimi dönə-dönə öpdülər ay qabağından.

Sonra mənə taxtlarının yanındaca yer verdilər,
Atamın da qulluğundan danışdılar birər-birər.
Mənsə dedim: " Hanı məndə atamdakı böyük hünər!"
Etirazım boşa çıxdı, mənə hörmət göstərdilər.

Unutmuşam qalmışını, illər gəlib keçdi heyhat!
Necə deyim bu tarixi, çox ağırdır bu əhvalat.
İnsanlara bir yaxşılıq göstərməmiş fani həyat.
Bu gün belə yaxır məni aldandığım şirin büsat".

## TARİYELİN AŞİQ OLMASI

O bir az da ağlayaraq gəldi yenə nitqə, sözə:
"Bir gün, şahla ovdan sonra qayıdaraq evimizə,
O əlimdən tutub dedi: "Bir baş çəkək bizim qıza".
Dilim yenə söz tutur ah, qəlbimdən qan sıza-sıza.

Nə gözəldi girdiyimiz o bağçanın mənzərəsi,
Qıy vururdu əlvan-əlvan quşlarının ötgün səsi.
Çimmək üçün şırıl-şırıl səpilirdi fəvvarəsi,
Qapılardan asılmışdı naxış-naxış ev pərdəsi.

Bu bağçanın barıları zümrüddəndi başdan-başa,
Şah atından düşdü yerə bürcə getdik biz birbaşa.
Gəbələrlə bəzənmişdi, saray demə, bir tamaşa!
Könül, söylə sən bu dərdlə dönmədinmi hələ daşa!

Dönüb mənə: "Turaclardan qıza gətir", – söylədi şah.
Əməl etdim, o gündən də dərdə düşüb alışdım, ah!
Dünya mənə nələr etdi, heç keçmədi günüm gümrah,
Neçin qəlbim nizələrlə deşilmədi, aman Allah!

Bilirdim ki, şah gözləyir günəş üzlü o dildarı,
Padşah özü daxil oldu, mən keçmədim hökmdarı.
Bu həsrətlə sızıldadı ürəyimin şah damarı,
O Əsmətə buyurdu ki, məndən alsın turacları.

Əsmət qapı pərdəsini qaldıraraq çıxdı bu an,
Qızı görüb oda düşdüm, gözlərimdən çıxdı duman.
Verdim ona turacları, könlüm evi qaldı viran,
Yazıq canım! Vulkan kimi sönməmişsə o zamandan.

Aya, günə çıxma deyən o işıqdan yoxdur əsər!
Deyib qəlbi keçindi bax, oda yanar pərvanələr...
Pəhləvanla Əsmət o dəm ağlaşaraq söylədilər:
"Qəhrəmanlar yıxan əldə qalmamışdır indi kəsər".

Əsmət ona tez su səpdi, Tariyel də gəldi huşa,
Dili bir söz tutmayırdı, qəm ürəkdə coşa-coşa.
İslandıqca qara torpaq gözlərindən axan yaşa,
"Yazıq günə qaldım" – dedi, dərdi başdan aşa-aşa.

Uyma, könül, bu dünyanın gəlib keçən nemətinə!
Düşəcəksən bir gün onun hicranına, möhnətinə,
Arif gərək heç uymasın bu aləmin ləzzətinə,
Dinlə mənim dastanımı sağ-salamat qalsam yenə.

"Onlar aldı turacları, mənsə qaldım şaşıraraq,
Bihuş olub düşdüm yerə, rəngim oldu kağızdan ağ.
Ayrıldıqda nələr gördüm, naləyə bax, fəryada bax!
Xadimələr haray çəkir dörd yanıma toplaşaraq.

Sonra böyük bir salonda mən yatırkən xəstə-xəstə,
Kral ilə kraliça ağlayırdı asta-asta,
Özlərini çırpırdılar dayanaraq başım üstdə,
Çağırdılar mollaları, "cin" dedilər bu xüsusda.



Gözlərimi açan kimi heyrət aldı hökmdarı,
Qucaqlayıb: "Oğlum, oğlum, bircə kəlmə danış barı!"
Dinməmişdi, aldı məni bir dəhşətin sərt ruzgarı,
Bihuş oldum, qanla doldu ürəyimin damarları.

Sonra məni möminlər də bürümüşdü dörd bir yandan,
Oturmuşdu onlar bütün dizlərinin üstə Quran.
"Cin vurmuşdur" deyirdilər uyduraraq min bir yalan,
Üç gün nəfəs alammadım, dayanmışdı qəlbimdə qan.

Baxıb düşkün vücuduma heyran oldu təbiblər də,
Çox düşünüb bilmədilər ki, düşmüşəm hansı dərdə.
Dəli kimi danışardım öz-özümə gülüb hərdən,
Kraliça ağladıqca lap dolardı dənizlər də.

Nə ölüydüm, nə də diri, üç gün qaldım orda bilsən,
Sonra yenə huşa gəlib sual etdim öz-özümdən:
"Nə olmuşdur sənə, aman" – şübhələndim öz-özümdən.
"Mənə səbir ver deyərək" çox yalvardım Tanrıya mən.

Bir Allaha yalvararaq gözlərimdə min bir niyaz,
Qalxmaq üçün güc istədim, səbr istədim ondan bir az.
Öz evimə gedim, dedim, burda yatsam yaxşı olmaz!
Öz yerinə gəldi qəlbim, boş getmədi bu iltimas.

Mən ayağa duran kimi gəldi şahın adamları,
Çatdı ona bu şad xəbər, yüyürdü tez mənə sarı.
Kraliça, başıaçıq gördüm bizim hökmdarı,
O Allaha şükr edirdi, kirimişdi başqaları.

Oturdular sağ-solumda, ət suyundan içirərək,
Dedim: "Mənim hökmdarım, bərkimişdir canda ürək.
İndi ata minib yenə çaya, çölə baxan gərək".
Atım gəldi, şah özü də yola çıxdı mənimlə tək.

Atlanaraq gəlib çıxdıq o meydana, o sahilə,
Sonra məni ötürdü şah öz evimə gülə-gülə.
Halım yenə xarablaşdı, göz yaşlarım döndü selə,
Ölsəm, dedim birdəfəlik, nə yaşamaq indən belə.

Göz yaşımdan büllur üzüm döndü sarı zəfərana,
On min bıçaq ürəyimi boyamışdı qızıl qana.
Bu aralıq bir dalandar girdi yataq otağına,
Öz-özümə: "Bəlkə taza bir xəbər var" – dedim, mana!

Əsmətdən bir nökər gəldi, dedim: "Söylə, görək nə var!"
Bir məhəbbət məktubunu verdi mənə o dalandar.
Oxuduqca heyran oldum, ürəyimə düşdü odlar,
Heç Əsmətdən gözləməzdim, gəldi mənə bu sevgi ar...

Saldı məni təəccübə o qızdakı açıq cürət!
Ona cavab verməyərək susmaq olmaz dedim əlbət.
Kəsər məndən ümidini o dərd bilən gözəl Əsmət.
Cavab yazdım mən Əsmətə, cavabımda vardı hörmət.

Keçdi günlər, yazıq qəlbim alışaraq döndü közə,
Məşqə çıxan əsgərlərlə gəlmədim mən heç üz-üzə.
Ayaqlarım yer tutmadı, doğrusunu deyim sizə,
Dolanıram bu dünyanı möhnətinə dözə-dözə.

Vec olmadı təbiblərdən, gözlərimə çökdü zülmət,
Bir insan baş çıxarmadı nədir məni yaxan möhnət.
Öz qolumdan qan aldılar, eyləmədim bir şikayət,
Bu əmrə də boyun oldum, ta ki, sirrim qala xəlvət.

Qan qolumdan süzüldükcə, mən yatırdım yerimdə tək,
Birdən gəldi öz nökərim, söylə, dedim, nə var görək!
"Əsmətdən bir nökər gəlmiş". Dedim onu otağa çək,
Ürəyimdə düşündüm ki, neçin məni sevsin gərək.

Nökər yenə kağız verdi, mən oxudum yavaş-yavaş,
Məktub mənə tez gəl deyir, donmasınmı gözümdə yaş?
Cavab verdim: "Sən haqlısan bu heyrətə nazlı sirdaş,
Bil hazıram qulluğunda mənim qəlbim deyil ki, daş!"

Dedim: "Könül, səni çox da yandırmasın bu intizar,
Admiralam, hökmdaram, Hindistanda hörmətim var.
Bu əhvalat hind əhlinə bir an belə olsa aşkar,
Məni burda, qonşuluqda yaşamağa heç qoymazlar".



Təzə xəbər tutmaq üçün adam gəldi hökmdardan,
Kral bilmək istəyirdi axıtdımmı qolumdan qan.
Dedim: "Bəli, şah əmrinə mən tabeyəm hər bir zaman,
Bu gün, sabah hüzurunda hazır olar baş ilə can".

Gəldim şahın sarayına, o söylədi: "Artıq saqın!"
Yar-yaraqsız mindim ata, ova çıxdıq, mənzil yaxın.
Tərlanları şığıtdıqca, turac göydən axın-axın
Donub düşdü, nəşəsi var nişan alıb ox atmağın.

O gün çöldən qayıdaraq evimizdə kefə daldıq,
Müğənnilər, çalğıçılar sənətindən ləzzət aldıq.
Hökmdarın göstərdiyi səxavətdən razı qaldıq,
İncilərdən, daş-qaşlardan o payladı artıq-artıq.

Mənsə yenə sıxılırdım dərd əlində dustaq kimi,
Anıb qızı, alışırdı qəlbim yanar bir dağ kimi.
Tay-tuşlarım yığışmışdı dərdlərimə ortaq kimi,
Başım kefdə əriyirdim səssizlikdə çıraq kimi.

Qulağıma asta-asta pıçıldadı xəzinədar:
"Sizi görmək niyyətilə qadın gəlmiş, ey admiral.
Ariflərin tərifinə layiq olan bir hüsnü var".
Dedim: "Özüm çağırmışam, o birisi evə apar".

Qalxdım, bütün qonaqlarım hazırlaşdı "gecdir", – deyə,
Dedim: "İndi qayıdaram, tələsməyin tez getməyə".
Xidmətçini orda qoyub, ürəyimi yeyə-yeyə,
Açdım yataq otağını, girdim özüm içəriyə.

Qadın məni qarşılayıb ayağıma düşdü birdən,
Dedi: "Sənin hüzuruna tapşırıqla gəlmişəm mən".
Heyrət məni qucaqladı, ayaqlarım uçdu yerdən,
Dedim: "Neçin ciddi deyil, aşiq olmuş bu gülbədən!"

Qadın dedi: "Bu gün könlüm yanır namus və ismətdən,
Hüzuruna gəlməyimi güman etmə məhəbbətdən.
Ancaq gizli saxlayırsan insanlardan sirrini sən,
Layiqmiyəm bilməm buna, qoy etiraf edim qəlbən".

Qalxıb dedi: "Məni bura göndərmişdir sizin canan,
Xanımların tərəfindən nə söyləsəm ona inan.
Bu cürətlə onun qəlbi fəxr edərək yaşar hər an,
Gətirdiyim bu məktubsa sizə söhbət açsın ondan".

## NƏSTAN-DARECANIN ÖZ AŞİQİNƏ YAZDIĞI BİRİNCİ MƏKTUB

Varaqladım o məktubu, yandı könlüm narın-narın.
Günəş yazır: "Ey aslanım, açılmasın yaraların,
Mən səninəm, həlak olma, qoy sınmasın şax vüqarın,
İndi Əsmət deyər bir-bir sözlərini o dildarın.

Bu göz yaşı, bu acizlik sevgimidir söylə görək,
İgid olan yar yanında qəhrəmanlıq etsin gərək.
Bütün Xəta yurdu bizə bac verirkən ətək-ətək.
İndi onlar baş qaldırır mümkündürmü buna dözmək?

Mən əvvəldən deyirdim ki, yalnız sənə gedim ərə,
Ancaq macal tapmamışdım görüşməyə mən bir kərə.
Üç gün əvvəl gördüm səni bihuş idin, bu mənzərə
Çox acıydı, sonra bildim nə olmuşdur şiri-nərə.

Doğrusunu deyim sənə, ey qəhrəman, məni dinlə.
Xətalılar ilə vuruş, hünər göstər o yad elə.
Nahaq yerə axıtma gəl şəbnəmləri qızılgülə.
Günəşinəm, işıqlansın könlün evi indən belə".

## TARİYELİN ÖZ SEVGİLİSİNƏ İLK MƏKTUBU

Əsmət cəsur danışdıqca xəyallarım çoğuyardı,
Könlüm quşu yuvasında min bir dastan oxuyardı,
Vuran qəlbim öz-özünü ora-bura toxuyardı,
Üzüm büllur, yanağımda yaqutların rəngi vardı.



Sevgilimin məktubunu oxuyaraq öz gözümlə,
Cavab yazdım: "Yaraşammaz günəş sənin ay üzünlə,
Məndən xəcil olmayasan, fəxr edəsən öz-özünlə,
Doğrudan da cana gəldim, ruhə gülən bir sözünlə".

Dedim: "Əsmət, bundan başqa söz tutmayır bu gün dilim,
Söylə mənə günəş kimi işıq saldı o sevgilim.
Mən sağaldım, hər əmrinə can deməsəm, nazlı gülüm,
Qoy yalançı desin mənə səni sevən yurdum, elim".

Əsmət dedi: "Qulaq asın, budur qızın məsləhəti
Bir nəfər də bilməməli aramızda bu söhbəti.
Qoy saraya gəlib getsin sanki sevir o Əsməti,
Bu eşqimi gizli tutsun, unutmasın sədaqəti".

Bu idraklı məsləhətdən könlüm evi işıq aldı,
Onun böyük vicdanına günəş belə heyran qaldı.
Əsmət qızdan danışdıqca könül min bir hava çaldı,
Utanaraq sevgilimdən günəş batdı, ay qaraldı.

Əsmət üçün daş-qaşlardan tökdüm qızıl bir fincana.
Cavab verdi: "Gözüm toxdur, təşəkkürlər olsun sana".
Yalnız kiçik bir üzüyü o taxaraq barmağına,
Bilərziyim çoxdur dedi, bu yadigar qalsın mana".

Əsmət getdi, könlüm evi can qurtardı sitəmlərdən,
Söndü məni yaxan odlar, azad oldum o qəmlərdən.
Yenə döndüm öz kefimə, söhbət açdıq sənəmlərdən,
Tay-tuşumla nəşələndik, hədiyyələr payladım mən.

## TARİYELİN XƏTALILARA MƏKTUB YAZMASI VƏ ADAM GÖNDƏRMƏSİ

Kağız yazıb yola saldım xətalılar üstə haman:
"Hindistanın padşahına göz olmuşdur bir yaradan.
Ona tabe, ac ruhları o doydurur zaman-zaman,
Kim itaət göstərməsə, inciməsin hökmdardan.

Qardaşımız bir də cənab! İncimərik yəqin sizdən,
Əmrimizi alan kimi bizim yurda gəlin tezdən.
Gəlməsəniz biz gələrik, inciməyin o vaxt bizdən,
Görüşsəniz yaxşı olar, qan axmamış elinizdən".

Ora adam göndərərək vüqarlandım gülə-gülə,
Salonumda kefə daldım, söndü yanğım, gəldim dilə.
Fani həyat bir an üçün şad keçindi əməlimlə.
Ah, iyrənir indi məndən çöldə qurdlar, quşlar belə.

Öncə gəzmək istədimsə, şüurumu toxtadaraq,
Tay-tuşumdan ayrılmadım, qızdı məclis, büsata bax!
Ancaq yenə xəyalların pəncəsində könül dustaq
Zarıyırdı, fani ömrə qalmamışdı məndə maraq.

Bir gün döndüm mənzilimə sarayından hökmdarın,
Gözlərimdən qaçdı yuxum xəyalilə o nigarın.
Əlimdəydi məktubu da o savadlı, nazlı yarın,
Gələn nökər nəsə dedi qulağına dalandarın.

Əsmət mənə yazmışdı ki: "Gözün aydın, ey qəhrəman,
Gəlməyini tələb edir ürəyinə oxlar atan".
Boynumdakı qəm zənciri zəiflədi şadlığımdan,
Bu nökərlə yola düşdüm, dayanmadım evdə bir an.

Girdim yarın bağçasına gözlərimdə min intizar,
Əsmət məni qarşıladı gülümsəyib xumar-xumar.
Dedi: "Sənin ürəyindən tikanları çıxardı yar".
İndi buyur seyr et onu, gör nə hüsnü, cəlalı var!"

Güclə ağır bir pərdəni qaldıranda qız yuxarı.
Bəzəmişdi şah taxtını Bədəxşanın yaqutları.
Taxt üstündə yanan gördüm günəş kimi o dildarı,
Ah, o qara gözlərilə boylanırdı mənə sarı.



Çox dayandım hüzurunda, danışmadı bir söz belə,
Mehribanca baxdı mənə, baxışları gəldi dilə.
Əsmət ilə danışdılar, Əsmət mənə gülə-gülə:
"O danışa bilmir indi", – yandı bağrım, döndü külə.

Pərdəni tez qaldıraraq yola saldı məni Əsmət,
Dedim: "Tale, nə tez bitdi gətirdiyin bu səadət?
Sən ki, mənə ümid verdin, nədir yenə bu fəlakət?
Yenə yaxıb yandıracaq ürəyimi zalım möhnət".

Əsmət mənə ruh verirdi, gəlib keçdik haman bağdan,
Söyləyirdi: "Aç könlünün quşcuğunu burax bağdan.
Unut dərdi, qapıl kefə, nə çıxacaq saralmaqdan,
Gördüyün qız vüqarlıdır, danışmadı utanmaqdan".

"Bacım, səndən gözləyirəm məlhəm yazıq ürəyimə.
Budur sənə yalvarıram, məni yetir diləyimə.
Tez-tez mənə məktub göndər, yetiş darda köməyimə,
Nə eşitsən özümə yaz, məndən onu heç gizləmə".

Atlanaraq döndüm evə göz yaşlarım yağa-yağa,
Ölü kimi bihuş düşüb tək uzandım yatacağa.
Büllur canım, yaqut üzüm döndü sarı bir boyağa,
Deyirdim ki, gün doğmasın zülmət məni boğa-boğa.

Gəlib çıxdı elçilərim, incitmişdi xətalılar,
Bizə cavab göndərmişdi o yerdəki baş hökmdar:
"Qorxmayırıq hücumlardan, uçan deyil bizim hasar,
Kimdir sizin sultanınız, bizim yerdə nə haqqı var!"

## XƏTA PADŞAHININ TARİYELƏ CAVAB YAZMASI VƏ TARİYELİN ORDU TOPLAMASI

Mən Ramazan, hökmdaram, sözüm budur Tariyelə,
Məktubuna heyrət etdim, təklifini verdim yelə...
Bu cürətlə sən nəçisən?! Mən hakiməm bir çox elə,
Bir də ucuz məktubunla baş ağrıtma indən belə!..

Əmr verdim sərkərdələr yığsın bütün orduları,
Ulduzların sayı qədər hindli qoşdu mənə sarı;
Yaxın-uzaq kim vardısa gəldi vətən oğulları,
Döldurdular o çölləri, o dağları, o yolları.

Onlar evdə dayanmadan, yeyin-yeyin yüyürdülər,
Keçirdim öz gözlərimdən orduları birər-birər.
Çox xoşuma gəldi düzü onlardakı duruş, hünər,
Atlarının yeyinliyi və Xarəzmi əsləhələr.

Qaldırdım şah bayrağını yarı qızıl, yarı qara,
Əmr verdim səhər tezdən yola düşsün ordulara!
Mən özümə ağlayırdım, çəkilirdim sanki dara:
"Gedəmmərəm, bir baxmasam günəş üzlü o dildara".

Gəldim evə, dərdə düşdü sinəmdəki dalğın ürək,
Şırıl-şırıl göz yaşlarım tökülürdü şəlalə tək.
Qara baxtım kim bilir ki, mənə nələr göstərəcək,
Nə lazımmış ağılsıza dərmədiyi bir gül, çiçək...

Gəldi birdən bir xidmətçi, mən sarsıldım bu heyrətdən,
Yazıq mənə, dərdli mənə kağız verdi o Əsmətdən:
"Günəş səni dəvət edir, nə çıxacaq sənə dərddən,
Dayanma gəl, bu yaxşıdır ağlamaqdan, şikayətdən".

Bu xəbərdən çox şad oldum, yenə coşdu qəlbimdə qan,
Qaranlıqlar düşən kimi bağa girdim darvazadan.
Yenə Əsmət, haman yerdə qarşıladı məni o an,
Gülüb dedi: "Aybənizli yol gözləyir, gəl, ey aslan!"

Baxdım, gözəl qurulmuşdu yar evinin eyvanları,
Gördüm yenə o ay kimi bədirlənmiş nazlı yarı.
Yaşıldonlu oturmuşdu xalçasında şahlarvarı.
Sifət gözəl, qamət gözəl, o, bir dünya bəxtiyarı...

Girib durdum kənardaca, ürəyimin odu söndü,
İşıqlandı könlüm evi, şəfəqli bir günə döndü.
O dincələn mələksima, günəşdən də saf göründü,
Əvvəl məndən yaşınaraq, bir an üçün mənə döndü.



O, Əsmətə buyurdu ki: "Admirala söylə, əyləş",
Qız yanına yastıq qoydu, cüt əyləşdi ayla günəş.
O gün güldü qara bəxtim, səadətə yarandım əş,
Yenə sağam, danışıram, yandırmayır məni atəş.

Canan dedi: "O gün sənlə danışmadım, nigaransan,
Çöldə bitən çiçək kimi soldurmasın səni hicran.
Yorulmuşdun, gözlərindən yaş yerinə axdıqca qan,
Mən özümü toxtaq tutdum, qayda budur, ey qəhrəman!

Qadın kişi qarşısında davranmalı şah vüqarla,
Ancaq yenə dinmək xoşdur, nə ki, qalmaq intizarla.
Üzüm gülür, lakin içim alışmışdı alovlarla,
Qız göndərib həqiqəti açdım sənə ixtiyarla.

O gündən ki, tanış olub bu dünyada görüşdük biz,
Bağlanmışdır bir-birinə bu sevdalı qəlblərimiz.
Mən səninəm! And içirəm, andım təmiz, qanım təmiz,
Yalan desəm qoy məhv olum, Tanrı məndən qoymasın iz.

Dayanma, get, xətalılar torpağına hücum başla,
Bir Allahdan istəmişəm yenə qayıt canla, başla.
Çəkim yenə həsrətini gözlərimdən axan yaşla,
Ver qəlbini, al qəlbimi, gün keçirək bu sirdaşla.

Bu dünyada görməyirəm bir insan da sənə bənzər.
Bu Allahın gözlənilməz nemətidir bilsən əgər.
Gördüm səni güldü üzüm, qaçdı zülmət, doğdu səhər,
Səninkiyəm, nə qədər ki, udmamışdır məni yerlər".

Sonra qoyub alnımızı, biz and içdik bir Qurana,
Bu and açıq bildirdi ki, qız da vurğun olmuş mana.
"Başqasını sevsəm, – dedim, – vəfasızlıq etsəm sana,
Tanrı məni məhv eləsin, sönüm şam tək yana-yana".

Xeyli durdum qarşısında, şirin keçdi bizə söhbət,
Meyvələrdən yeyə-yeyə dil açmışdı bu xoş ülfət.
Sonra durdum, ağlayırdım gözlərimdə zalım möhnət,
Camalından işıq aldı ürəyimi boğan zülmət.

Ayaqlarım getməyirdi büllur üzdən uzaqlara,
O gün könlüm şadlığından bənzəyirdi dik dağlara.
Güvənirdim günəş kimi şəfəq saçan gözəl yara,
Qaya qəlbim arsız-arsız yenə dözür intizara.

Səhər tezdən atlanaraq dedim: "Çalın şeypurları!"
Dilə gəlməz bir hal aldı ordumuzun düz qatarı.
Xətalılar torpağına üz döndərdim aslanvarı,
Ayaqladı dağı, daşı yurdumuzun orduları.

Hindistanın sərhəddini gəlib keçdi bizim ordu,
Qarşımızda xan Ramazın bir elçisi boyun burdu.
Gətirdiyin xoş xəbərdən ürəyimiz sakit vurdu:
"Sizin Hindin keçiləri didib yeyər bizim qurdu".

Sonra mənə xan Ramazdan hədiyyələr gətirərək,
Dedilər ki: "Yalvarırıq, qırma bizi, aman, əl çək.
Başımızı girov qoyub, and içirik sənə gerçək,
Səninkidir var-yoxumuz, uşağımız, qansız keçək!

Verdiyimiz o cavaba peşimanıq, əfv et bizi,
Üstümüzə ordu çəkib bürümə dörd yanımızı.
Beş-on nəfər igidlə gəl, tökmə bizim qanımızı,
Verək sənə qalaları, şəhərləri, canımızı".

Mənsə bütün vəzirləri dəvət etdim məsləhətə,
Dedilər ki: "Gəncsən hələ, sən qulaq as nəsihətə.
Düşmənimiz hiyləgərdir, alışmışdır xəyanətə,
Sizi görüb öldürsələr dözmək olmaz fəlakətə.

Gəlin yalnız igidlərə varıb gedək biz qabağa,
Ordu gəlsin arxamızca əyilmədən sola, sağa.
And içsinlər qoy Allaha, can atsalar barışmağa,
Bu olmasa hücuma keç, gözünüzdən od yağa-yağa".

Doğru imiş deyirlər ki, heç yaxşılıq getməz hədər,
Elçilərdən biri qalıb mənə gizli verdi xəbər:
"İstəyirəm əvəz verəm boynumdadır minnətiniz
Vəfasızlıq olar, indi uzaq gəzsəm sizdən əgər.



Atanızın az da olsa üzərimdə minnəti var,
Sizə qarşı xəyanət var, gəldim deyim, ey şahsuvar.
Sizin gözəl boyunuzu meyit görsəm könlüm ağlar,
Dinlə sakit deyim bütün bu hiylədən ol xəbərdar.

Bil ki, sənə tor qurmuşlar, aldanma gəl nahaq yerə,
Yüz min əsgər gizlənmişdir hücum üçün birdən-birə.
Otuz min də gizlənərək qoyulmuşdur başqa yerə,
Fəlakətdir! Əl atmasan bir çarəyə, bir tədbirə.

Səni sözə tutacaqdır hiyləsiylə o hökmdar,
Xəlvətdəsə əsgərlərə silahlanmaq vermiş qərar.
Orduları dörd yanını tutacaqdır sanki hasar,
Min nəfərin hücumuna bir nəfərdə gücmü çatar!"

Bu mehriban insana mən sağ ol dedim ürəyimdən:
"Başım əldə sağ qalarsa, hörmətimi görərsən sən,
İndi dur get öz yerinə yoldaşların bilməmişkən,
Səni yaddan çıxararsam oxqay deyib gülməyim mən".

Sonra, açıb ağartmadım mən bu sirri bir insana,
Nə yazmışsa qədər, odur, sığınmışam, – dedim, – ona.
Geri adam göndərərək bu əmri də verdim ona:
"Dağı, daşı ayaqlayıb tez yetişsin ordu mana".

Səhər tezdən elçilərə bir şad xəbər göndərərək,
Bildirdim ki, mən gəlirəm, Ramaz da tez gəlsin gərək.
Yarım gün də fəlakətdən çəkinmədi azad ürək,
Nə fərqi var, gizlənsəm də öz hökmünü verər fələk.

Qalxdım bir dağ zirvəsinə, gördüm ki, toz qopdu çöldən,
Dedim: "Yəqin şah Ramazdır bu tor qurub, sakit gələn.
Ancaq qılınc və oxumdan qalmayacaq bir sağ bədən,
Əsgərlərə bildirdim ki, böyük tədbir tökmüşəm mən.

Vəzirlərin məsləhəti çox xoş gəldi o gün bizə,
Xəbər verdim: "Ey şah Ramaz, sağ yaşamaq xoşdur sizə...
Daş hasarlar neyləyəcək bizim böyük qəsdimizə,
Bircə dəstə döyüşçümlə, gələcəyəm mən üz-üzə!"

Üç yüz seçmə pəhləvanla hazırlaşıb düşdüm yola,
Ordu qaldı, biz tərpəndik çapırdaraq sağa-sola.
Dedim: "Gəlin siz arxamca izlərimi bula-bula.
Nə zaman ki, kömək dedim, ordu gərək hazır ola".

Üç gün getdim, bir adam də gəlmədi yenə haman xandan,
Yenə gözəl əlbəsələr gətirmişdi mənə nişan.
Dedi: "Tez gəl yaxınıma, arxayın ol, ey qəhrəman,
Hədiyyələr verəcəyəm görən kimi səni, inan".

Yenə dedi: "Şübhəsizdir bu sözlərim, gəl, ey gözüm!
Qarşılamaq istəyirəm bu gəlişinlə səni özüm".
Dedim: "Vallah mən hazıram nə buyursan, yoxdur sözüm,
Oğlun kimi görüşməsəm qara olsun mənim üzüm".

Ordan atı çapırdaraq gəlib çıxdım bir ormana,
Yenə xanın elçiləri baş əydilər orda mana...
Hədiyyə tək gələn atlar bənzəyirdi bir ceyrana,
Dedilər ki: "Doğrudan da həsrət çəkir şahlar sana!"

Xan deyir ki: "Özüm onu qarşılamaq fikrindəyəm,
Səhər tezdən gələcəyəm qoy çəkməsin nə dərd, nə qəm".
Mənsə gələn elçiləri alaçığa çəkdim o dəm,
Çox mehriban qarşıladım, olaq – dedim gəlin həmdəm.

Göstərilən hər yaxşılıq unudulmaz bu dünyada,
Elçilərdən bir nəfəri mənə xəlvət dedi orda:
"Mən sizə çox minnətdaram, əvəzini çıxım burda,
Buraxmaram sizi yalqız, düşsəm belə yanar oda.

Dedim: "Gəlin, qardaşlarım, xainlərlə hesablaşaq,
Əlləriniz soyumasın, sellər kimi aşıb daşaq.
Şah yolunda şəhid olan fələklərlə yaşayacaq,
Gəlin! Vuruş meydanıdır, nə üçündür bu yar-yaraq!"

"Silahlanın!" əmri verdim odlu səslə əsgərlərə.
Zirehlidən, çiyinlikdən geyib qoşduq cəbhələrə.
Cərgələdim onları mən bel bağladım bir hünərə,
Düşmənimi tuşqul oxum parçaladı səkkiz yerə.



Yaxınlaşdıq, onlar bizi əsləhəli görən zaman,
Yenə təzə bir xəbərlə elçi gəldi Ramaz xandan:
"Bu ki, böyük xəyanətdir, harda qaldı bizim peyman!
Siz müsəlman gəlirsiniz, töküləcək yenə də qan".

Mən elçiyə cavab verdim: "Biz bilirik hiylənizi,
Sizin məxfi söhbətiniz ayıltmışdır artıq bizi.
Qanun üzrə döyüşməyə çağırıram bu gün sizi,
Qılıncımı bu hərb üçün qaldırmışam sözün düzü".

Gedən elçi dönüb geri, qayıtmadı bir xəbərlə.
Tüstü verib, ordusunu düzdü düşmən cərgələrlə.
İki yandan meydançaya tərpəndilər min əsgərlə,
Bir Allahın köməyilə yenə çıxdım mən zəfərlə.

Silahdaşdan nizə aldım, geydim başa dəmir papaq,
Hücum! – deyə, coşdu könlüm, tərlan kimi şığıyaraq.
Bir cıdırlıq meydanı mən atla süzüb keçdim də bax,
Bölük-bölük əsgərlərlə düşmən baxdı şaşıraraq.

Yaxınlaşdım, bu dəlildir söylədilər baxıb mana,
Bir ah çəkib – gəlin! – dedim, – açıq girək bu meydana.
Bir vuruşda iki nəfər mən boyadım qızıl qana,
Nizə sındı, qılınc aldım, alqış onu yaradana!

Şığıyaraq qanad çaldım kəklik tutan çalağan tək,
Vurub yıxdım leş-leş üstə, dodağımı çeynəyərək.
Kimi tutub atdımsa da canı göydə çıxdı gerçək,
İki qabaq cərgəni mən məhv elədim buradaca tək.

Bürüdülər dörd yanımı, qızdı meydan, qızdı ara,
Kimi vursam o bənzədi külək vurmuş yarpaqlara.
Aşırmalı torba kimi atdan düşdü torpaqlara,
Görən məni baş götürüb teylənirdi uzaqlara.

Axşam üstü düşmənlərin növbətçisi çəkdi haray:
"Gedin, artıq dayanmayın" – göy töküldü sanki lay-lay.
Yol tozlandı, aman dedik, zəhmətimiz çıxdımı zay,
Doğrudanmı düşmən gəlir on minlərlə alay-alay!

Sən demə ki, gələn bizim dalda qalan əsgərlərdi,
Gecə-gündüz dayanmadan bizə çatan nəfərlərdi.
Dağa, düzə sığmadılar, tale bizə nə göstərdi,
Şeypurların gur nərəsi zəfərlərdən xəbər verdi.

Düşmən görüb ordumuzu qorxdu bizdən, qaçdı bizdən,
Ancaq qovub qoymadıq ki, genisinlər gözümüzdən.
Atdan saldım şah Ramazı... Ordu keçdi dağdan, düzdən,
Biz onları əsir aldıq, öldürmədik ancaq qəsdən.

Ordumuzun dal qanadı əsir aldı qaçanları,
Sıxışdırıb meydançadan kənar saldıq biz onları.
O yuxusuz gecələrin qisasını aldıq barı,
Sağ-salamat əsirlərin yüksəlirdi ahu-zarı.

Dincəlməkçin düşdük atdan müharibə çölündə biz,
Mən əlimdən yaralıydım, görünürdü, bu, şübhəsiz.
Məni tərif etmək üçün bütün ordu gəldi təmiz,
Söz olmadı tərif üçün, fəxr eləsin qoy ölkəmiz!

Bir insana kifayətdi mənə qarşı olan hörmət.
Məni öpür, oxşayırdı dodaqlarda min məhəbbət.
Müəllimim əyanlarsa ağlaşırdı mənə fəqət,
O vurduğum yaralardan onları da aldı heyrət.

Bu yad eli talan üçün əsgər saldım dörd bir yana.
Onlar dolu qayıtdılar, acımadım mən düşmana.
Səhraları başdan-başa boyamışdım qızıl qana.
Şəhərlərin qapısını düşmən özü açdı mana.

Mən Ramaza söylədim ki: "Fəndləriniz çatdı bizə,
Əvəzində əsirimsən, bu dərs olsun indi sizə.
Qalaları bərkitmə, ver, qan çıxmamış burda dizə,
Yoxsa barmaq arasından baxammaram hiylənizə".

Ramaz dedi: "Artıq məndə nə qüvvə var, nə ixtiyar,
Əyanlardan birisini qaytar mənə, ay bəxtiyar!
Xəbər verim, sənə keçsin qaldırdığım dik qalalar,
Olsun sənin öz dövlətin bizim ölkə, bizim diyar".



Şah Ramazı bir əyanla yola saldı pəhləvanlar,
Əmr verdim hakimləri hüzuruma çəksin onlar.
Aldım bütün borclarını, baha durdu axan qanlar,
Bizə düşən xəzinənin nə hesabı, nə sayı var.

Mən Xətanı dolaşaraq gəzən zaman gözəvarı,
Tapşırıldı o gün mənə xəzinənin açarları.
Xalqa dedim: "Heç qorxmayın, mənəm şahlar lütfkarı,
Bir günəşəm! – lakin istim əritməyir dağda qarı..."

Öz gözümdən keçirərkən xəzinələri başdan-başa!
Heyran oldum rast gəldiyim hər inciyə, hər daş-qaşa.
Bir köynəklə bir çalmaya çox eylədim mən tamaşa,
Mən görəni sən də görsən az qalardı ağlın çaşa.

Anlamadım bu nə maldır, işləmişlər onu nədən?
Bu Allahın hikmətidir söyləyirdi gəlib-gedən.
Nə parçadan, nə yundandı, gərək onu görəydin sən,
Sanki odda bərkimişdi, heyran idim bu sirrə mən.

Bu, hədiyyəm olsun, – dedim, – günəş üzlü nazlı yara,
Bundan başqa hədiyyələr yola saldım bizim çara.
Xəzinələr yükləmişdim dəvələrə, qatırlara,
Gedib çatdı xeyir xəbər bizim böyük hökmdara.

## TARİYELİN XƏTA TORPAĞINI ZƏBT ETDİKDƏN SONRA HİND PADŞAHINA MƏKTUB YAZMASI

Mən yazıram: "İqbalınız açılmışdır, ey hökmdar!
Mənə hiylə qurmaq üçün hazır imiş xətalılar.
Ancaq yenə oxlarımdan qurtulmadı tülək, şikar,
Şah əsirdir, qayıdıram bol dövlətim, əsirim var.

İşlərimi sahmanladım, qayda qoydum hər bir yerə,
Bir dövlətin xəzinəsin talan etdim haqlı yerə.
Dəvələrim yetişmədi, yük bağladım öküzlərə,
Hər tərəfdən alqış qopdu göstərdiyim bu hünərə".

Şah Ramazı əsir kimi qatdım bizim o karvana,
Gəldim şahın hüzuruna, bizim doğma Hindistana.
Mənə qarşı olan tərif sığan deyil bir dastana,
Şah yaramı bağlayaraq, afərinlər dedi mana.

Ağ çadırlar qurulmuşdu o gün bizə meydanbaşı,
El toplaşıb nəşələrlə boylanırdı mənə qarşı.
Hökmdarın ziyafəti bürümüşdü dağı-daşı,
Baxdı mənə, vüqarlandı ölkəmizin hakim başı!

O gecəni başa vurduq bir nəşəylə, ziyafətlə,
Səhər girdik şəhrimizə qazanılmış səadətlə.
Şah əmr etdi: "Əsgərləri toplayın da ləyaqətlə,
Aldığınız əsirlərə gərək baxam fəxarətlə".

Şah Ramazı gətirərək verdim bizim bu sultana,
Bir uşağa baxır kimi o mehriban baxdı ona.
İkiüzlü o xaini mən gətirdim bu meydana –
Budur şərəf, budur namus mənəm deyən qəhrəmana.

Hökmdarım, xan Ramazı əzizləyib qonaqladı,
Şirin-şirin söhbət edib, hörmətini çox saxladı.
Səhər məni çağıraraq ata kimi qucaqladı:
"Razısanmı düşmanının azad olsun qol-qanadı?"

Dedim: "Allah müqəssirin keçə bilər günahından,
Siz də əsir köməksizə hörmət edin, ey pəhləvan!"
O, Ramaza üz tutaraq: "Əfv edirəm sizi bu an,
Ancaq bir də hüzurumda belə durma, aciz insan!"

Şah, Ramaza tapşırdı ki, versin bizim ziyanları,
Məxmər qumaş, min Xətaur bağışlasın bizə, barı.
Bəzəndirdi şah Ramazı yurdumuzun hökmdarı,
Sonra onu yola saldı yanında öz əyanları.

Ramaz, dərhal diz çökərək çox yalvardı bizim şaha,
Dedi: "Mənim xəyanətim xoş getmədi bir Allaha.
Asın məni, xain çıxsam sizə qarşı mən bir daha"
Dəstəsini çəkib getdi, çıxdı azad bir sabaha.



Bir gün səhər adam gəldi bizim böyük hökmdardan.
Tapşırmışdı təngə gəldim bu üç aylıq intizardan.
Sənsiz ki, zövq almayıram nə gəzməkdən, nə şikardan.
Bir gəl yenə ova çıxaq, bu mümkünsə, ey qəhrəman.

Gəldim şahın sarayına, oynaşırdı tazıları,
Qızılquşlar doldurmuşdu o həyəti, o hasarı.
Hazırlaşıb durmuşdu şah, gözəlliyi günəşvarı,
Bu gəlişim doğrudan da sevindirdi hökmdarı.

Arvadının qulağına şah söylədi məndən xəlvət:
"Hərbdən sonra Tariyelə baxmaq verir ruha ləzzət.
Ona baxan insanların ürəyindən qaçır zülmət,
Gecikdirmə, əməl eylə, xeyirlidir bu məsləhət.

Bir qərara gəldim sənsiz, açım deyim sənə artıq,
Bilirsən ki, qızımıza keçməlidir hökmdarlıq.
Qoy insanlar bu gün görsün bizim qızı burda açıq,
Al yanına, gözlə bizi, gələcəyəm alnım açıq!"

Ov eylədik çöllər boyu dolaşaraq diyar-diyar,
Qarışmışdı çalağanlar, qızılquşlar və tazılar.
Tez qayıtdıq, uzaqlara çox keçmədi o hökmdar,
Ov etməyin, ox atmağın doğrudan da səfası var.

Məni görmək istəyənlər yığışmışdı dağa-daşa,
Gətirdiyim qafdan məni bəzəmişdi başdan-başa.
Şehli gülə bənzəyirdi, gözəlliyim bir tamaşa:
Doğrudan da görənlərin az qalırdı ağlı çaşa.

Xətalılar şəhərində gətirdiyim çalmanı mən,
Vücuduma dolamışdım, şaşırırdı məni görən.
Şah atından düşdü yerə, bir salona girdi həmən,
Sevgilim də buradaydı, alışmışdı o gülbədən.

Bəzəmişdi vücudunu bir narıncı ipək paltar,
Arxasında xadimələr dayanmışdı qatar-qatar.
İşıq idi başdan-başa o küçələr, o otaqlar,
Parlayırdı inci dişlər, qızarırdı gül yanaqlar.

Yaralanmış bağlı əlim asılmışdı boyunumdan,
Görcək məni kraliça, durdu dərhal o saf vicdan.
Öpdü məni oğlu kimi, sığalladı o mehriban,
Dedi: "Bundan sonra sənə tab gətirməz heç bir düşman...

Onlar məni öz yanında oğul kimi oturtdular,
Qabağımda günəş kimi yanmadaydı o nazlı yar.
Gizli-gizli baxışırdıq, yaman dərddir bu intizar,
Gözüm qızdan ayrılanda dünya mənə gəlirdi dar.

Padşahlara layiq olan bir kef qurduq orda haman,
Bu gün belə o nəşələr getməmişdir damağımdan.
Firuzədən, yaqutdandı əlimdəki qədəh, fincan,
Bu məclisdən bir nəfər də buraxmayın! – dedi,– sultan.

Ah, o gözəl məclisdəcə canan məni görəndə şad,
Hər baxdıqca, könlüm quşu qəfəslərdən oldu azad.
Dayan, dedim, coşğun ürək! İnsanlardan tut ehtiyat,
Sevgilimin üzündədir bütün varlıq, bütün həyat!

Müğənnilər susdu artıq hökmdara baş əyərək.
Şah arvadı: "Oğlum, sənə təşəkkürlər edək gərək.
Biz xoşbaxtıq düşmənimiz qara geymiş yaş tökərək,
Bu dünyanın yaraşığı yaratmışdır səni fələk.

Adət üzrə təzə paltar verməliydik qəhrəmana,
Ancaq bundan vaz keçirik, çox yaraşır qaftan sana.
Yüz xəzinə götür bizdən, bu halaldır pəhləvana,
Özün tikdir nə istəsən, düşmən qalsın yana-yana".

Pıçıldaşdı məclis yenə, ucaldı ney, nəğmə səsi,
Liraların, arfaların incəlirdi xoş nəğməsi.
Kraliça durub getdi, döndü göyün mənzərəsi,
Səhərədək dil açmışdı könüllərin kəmənçəsi.

Qüvvətimiz qalmamışdı birdən iki badə içək,
Getdim yataq otağına gicəlmişdim şaşqınlar tək.
Əsir idim, alışmışdı sinəmdəki yalnız ürək,
Andım onu, günəşüzlüm açılmışdı çiçək-çiçək.



Nökər gəlib hüzuruma verdi mənə bir xoş xəbər:
"Bir duvaqlı qadın sizi gəlib sorur, ey şiri-nər!"
O saatda mən tanıdım, əsdi qəlbim yarpaq qədər,
Əsmət idi məni soran, göndərmişdi bizim dilbər.

Çox sevindim bu gəlişə, söz açacaq dedim yardan,
Öpdüm onu, qoymadım ki, baş endirsin mənə bir an,
Sonra tutub əllərindən, əhval tutdum o dildardan,
Soruşdum ki, nə var, nə yox, nə kefdədir bizim tərlan!

Başqa bir söz alma dilə, ondan danış mənə yalnız,
Cavab verdi: "İnan mənə sevir səni sevdiyin qız.
Dikilmişdir yollarına həsrət çəkən qoşa ulduz,
Əmr etdi ki, görüm sizi, gətirmişəm sizə kağız".

## NƏSTAN-DARECANIN ÖZ AŞİQİNƏ MƏKTUBU

Baxdım yarın məktubuna günəşüzlüm yazır ki: "Sən
Ən bahalı daşlar kimi açıq, şəffaf görünürsən.
Hərbdən sonra, at belində seyrə daldım hüsnünü mən,
Haqlı axır göz yaşlarım, danlamasın gəlib-gedən.

Heç olmasa inləyərək tərif edə səni dilim,
Lakin sənsiz nitqim, sözüm bağlanmışdır, ey sevgilim.
Sən aslanın bağçasıdır yanaqlarım, qızılgülüm.
And içirəm günəşə ki, səndən başaq yox sevgilim.

Gözlərindən qan axsa da, əbəs yerə deyil göz yaşların,
Bundan belə ağlama gəl, sönsün dərdin, intizarın.
Qoy dostların, düşmənlərin eşitsin ki, mənəm yarın,
O çalmana bürü məni, olsun sənin yadigarın.

Bəzədiyin o çalmanı göndər mənə bir yadigar,
Şad olarsan görüb məni, qoy bəzənsin sevdalı yar.
Əvəzində bilərziyim səndə qalsın ey şahsuvar!
Həyatında bu gecədən görünməmiş bir zövq apar".

Burda qopdu vəhşi kimi Tariyelin fəryadları,
Dedi: "Budur, sevgilimin o bilərzik yadigarı!"
Bilərziyə qiymət qoyan tapılmazdı gözəvarı,
Öpdü onu yazıq aşiq, getdi ağlı, ixtiyarı...

Məzardakı mərhum kimi bihuş olub düşdü yerə,
Sinəsini yumruqladı, meydan oldu sitəmlərə!
Əsmət qanlı yaş tökərək yenə düşdü o qəmlərə.
Qız yenə də su səpirdi, nə acıydı o mənzərə!

Avtandil də inləyirdi baxıb bihuş Tariyelə,
Əsmətciyin göz yaşları yandırırdı daşı belə,
Qız su səpdi, Tariyelsə yavaş-yavaş gəldi dilə:
"Yenə sağlam, tale içir al qanımı bilə-bilə!"

Rəngi qaçmış durub baxdı şaşqın-şaşqın dörd bir yana.
Yanağının qızılgülü bənzəyirdi zəfərana.
Uzun bir vaxt dinəmmədi, acığından yana-yana:
"Neçin yenə sağam" – deyə, söylənirdi yaradana...

Dinlə dedi Avtandilə: "Huşum başda olmasa da,
Eşit sevgi dastanımın tarixini bu dünyada.
Gözəl dostluq, mehribanlıq gedən deyil bil ki, bada.
Yenə sağam, salamatam vəhşi kimi mağarada.

Əsmət gəldi ümidləndi xəyalımın viran bağı,
Aldım yarın məktubunu həyatımın dərdli çağı.
Tez qoluma keçirərək gətirdiyi o qolbağı,
Verdim qara çalmanı mən, gülsün yarın can otağı.

## TARİYELİN SEVGİLİSİNƏ CAVAB MƏKTUBU

Cavab yazdım: "Ey sevgilim, ey günəşim, yandıqca sən,
İşığından könlüm evi can qurtarır bu zülmətdən.
Gördüm səni, məndə əsər qalmamışdır şücaətdən,
Hüzurunda nə qulluqla çıxacağam xəcalətdən.



Bir vaxt məni yaşadaraq, ayırmadın qəlbi candan,
Könül sənin əsirindir bu günədək o zamandan.
Taxdım sənin qolbağını öz qoluma, nazlı canan,
Dilim yoxdur deyəm sənə şadlığımı, mənə inan!

İstədiyin çalma budur, baxıb məni gətir yada,
Küləcə də göndərirəm, əvəzsizdir bu dünyada.
Gəl yanıma, imdad elə, yaxma məni yanar oda.
Səndən özgə kimim vardır, sənsiz ömrüm gedər bada".

Qız qayıtdı, mənsə getdim dərhal şirin bir yuxuya,
Sevgilimi gördüm orda, canım düşdü min qorxuya.
Mən oyandım o getmişdi, sanki gəmim batdı suya,
Ah, o gecə yatammadım hicran dərdi duya-duya.

Səhər günəş doğar-doğmaz yenə məni çağırdılar,
Gecikmədim bir an belə bilirdim ki, nə məqsəd var.
Oturmuşdu kraliça, üç nəfərlə baş hökmdar,
Məni görüb: "Əyləş", – dedi ehtiramla o namdar.

Onlar dedi: "Qocalmışıq, əmri budur Tanrımızın,
Keçib getdi cavan ömrü qocamızın, qarımızın.
Oğlumuz yox, günəş kimi şöləsi var bizim qızın,
Oğul sayıb, fəxr edirik şöhrətiylə bu ulduzun.

İndi bizim qızımıza özü kimi bir tay gərək,
Tacımızı, taxtımızı indən belə ona verək.
Bizim kimi hakim olsun hücumlara döş gərərək,
Düşmən qılınc çəkəmməsin, hayqıranda o qoç pələng".

Dedim: "Çıxmaz qəlbinizdən oğul dərdi, oğul sözü,
Ancaq bizə işıq saçar qızınızın günəş üzü.
Kim oğlunu versə sizə çox şad olar onun özü,
Mən nə deyim, sizinkidir hər məsləhət, sözün düzü".

Biz başladıq məsləhətə, yazıq qəlbim qaldı dona,
Öz-özümə: "Yaraşmaz ki, mən etiraz edim buna".
Şah söylədi: "Xarəzmşah öz oğlunu versə mana,
Çox xoş olar, nə bir əvəz, nə də bir tay vardır ona".

Görünür ki, qabaqcadan bu qərara gəlmiş onlar,
Baxışırdı razılıqla kraliça və hökmdar.
Mənsə bir söz söyləmədim, xəyalımda nazlı nigar,
Könlüm yanıb külə döndü, gözlərimdə son intizar...

Kraliça buyururdu ki: "Xarəzmşah qadir sultan,
Onun oğlu kürəkənim olsa tayı yoxdur, inan".
Ah, əlimdən nə gəlirdi, dondu yazıq qəlbimdə qan,
Razılaşdım bu təkliflə, ruhum quşu çıxdı candan.

Xarəzmşah hüzuruna onlar adam göndərərək:
"Varissizdir bizim dövlət, böylə yazmış qanlı fələk,
Bircə, gözəl qızımız var, artıq ona bir tay gərək,
Ver oğlunu bizim qıza, iki dövlət olsun kömək".

Gedən elçi bir çalma da xələt alıb döndü geri.
Xarəzmşah şadlığından alqışladı göyü, yeri.
O dedi ki: "Güldü bizə bir Allahın nəzərləri,
Olsun bizim övladımız dediyiniz gözəl pəri".

Yenə adam göndərdilər nişanlı gənc gəlsin deyə,
Yalvardılar: "Gecikmə gəl, uyuş bizim təvəqqəyə"
Top oyundan yorğun düşüb yatmaq üçün gəldim evə,
Sinəmdəki dərdin ahı duman olub qalxdı göyə.

Bəzən dərddən bıçaqlamaq istəyirdim qəlbimi mən,
Bir gün yenə gəldi nökər mən vüqarla əyləşmişkən.
Kağız verdi, göz gəzdirdim, yazılmışdı: "Sərv bədən
Əmr edir dayanmadan hüzuruna tez gələsən".

Şadlığımdan qanad açıb atlanaraq gəldim bağa,
Gördüm Əsmət dayanmışdır sığınaraq bir bucağa.
Baxdım ki, qız pərişandır, gözündən yaş yağa-yağa,
Burda məni gözləyirdi, dayanmışdı baş aşağa.

Baxdım ki, qız qəzəblidir, dünya mənə göründü dar,
Qabaqkı tək gülməyirdi məni görcək əski dildar.
Bir söz belə danışmadan dayanmışdı ağlar-ağlar,
O qəlbimə bir ox vurdu, bu gün belə yarası var.



Qız uçurdu xəyalımı yelkən kimi uzaqlara,
Girdik yarın qalasına, baxınca gül yanaqlara.
O ayüzlüm dayanmışdı buludları yara-yara.
Ürək yenə don qalmışdı, parlayırdı o aypara.

Aya, günə bənzəməzdi işıq saçan nazlı mələk,
Mən verdiyim çalmadaydı yanaqları çiçək-çiçək.
Haman yaşıl örpəkdəcə öz taxtında əyləşərək,
Tökülmüşdü gün üzünə göz yaşları şəlalə tək.

Pələng kimi əyləşmişdi qorxunc üzlə, vüqar ilə,
Nə gün, nə ay yarışardı o sərvboy nigar ilə.
Əsmət mənə yer göstərdi, mən oturdum o yar ilə,
Qalxdı birdən qaşqabaqlı, dilə gəldi qubar ilə:

"Nə cürətlə gəldin yenə, dayanmadan sözündə sən,
Andı pozan, əhdi pozan daşürəkli bir kimsəsən.
Tanrım sənə qənim olar qisasını alar həmən".
Dedim: "Cavab nə söyləyim bilmədiyim bir işə mən.

Nə söyləyim, nazlı yarım, öyrənməmiş həqiqəti
Söylə, nədir xəstə üzlü bir məcnunun qəbahəti?"
Cavab verdi: "Mənmi deyim işlədiyin xəyanəti?
Yanır bütün ciyərlərim, ayaqladın məhəbbəti!

Bilirsən ki, öz oğluna alır məni Xarəzmşah,
Sən razılıq söyləmişsən yetirmədən əhdi başa.
İlk andımı pozdun mənim, görüm qəlbin dönsün daşa,
Allah etsin cəza verim xain çıxan bir sirdaşa.

Yadındamı göz yaşların isladırdı səhraları,
Sənə dərman tapammadı təbiblərin var hünəri.
Bir igid ki, çürük çıxdı, yoxdur onun burda yeri,
İndi baxaq kim yanacaq atəşlərə diri-diri.

Mən deyirəm, hər kim olsa hakim bizim Hindistana,
Burda mən də bir rəhbərəm, ola bilməz bir bahana.
Sən ki, bunu anlamadın, nə söyləyim artıq sana?
Məsləhətin özün kimi yalan gəlir indi mana.

Mən durduqca Hindistanda yoxdur sənə bir güzaran,
Burda qalsan bil ki, ruhun çıxacaqdır varlığından.
Əl açsan da göy üzünə, mənə bənzər yoxdur insan".
Danışdıqca Tariyelin sinəsindən qopdu fəğan.

Dedi: "Qızı dinlədikcə ümidimin yandı şamı,
Yenə gözüm baxdı ona, xumarlandı yaz axşamı.
Hələ sağam, ölməyirəm gözlərimdə vüsal kamı,
Fani dünya yas elədi keçirdiyim o bayramı.

Gördüm başım üzərində dayanmışdır açıq Quran,
Allah deyib aldım onu, sevgilimə döndü o an.
Dedim: "Məni yandırmısan, günüm batmış, nazlı canan!
Sənə cavab verməliyəm, hələ qalmış canımda can.

Söylədiyim bu sözlərdə hiylə varsa zərrə belə,
Qoy gözlərim həsrət qalsın aya, günə indən belə.
Haqq divan qur, yaman bir iş görməmişəm inan hələ".
Cavab verdi: "Nə bilirsən, durma danış səliqəylə".

Yenə dedim: "Ah, ey günəş, mən andımı pozsam əgər,
Qoy başıma od ələsin ildırımlar və şimşəklər.
Səndən özgə kim parlayar gözlərimdə günəş qədər,
Nə yaşamaq, doğradıqca ciyərimi bu nizələr!

İnan, məni məsləhətçin çağırmışdı o hökmdar,
Gördüm onlar xeyir işə qabaqcadan vermiş qərar.
Mən etiraz etsəm, dedim, onlar məni cahil sanar,
Toxta, dedim, yazıq qəlbim, razılıq ver, nə çarə var!

Mən qadağan edəmməzdim, anlamadı şah Farsadan,
Bilmədi ki, hökmdarsız qala bilməz bu Hindistan.
Yalnız mənəm layiq buna, nə çıxacaq başqasından.
Bilməyirəm heç nəçidir, nəyə gəlir gələn oğlan.

Dedim: "Bundan bir şey çıxmaz, başqa bir yol axtarım mən.
Öz-özümə deyindim ki, xəyallarla qərq olma sən".
Ürək dedi: "Vəhşi kimi çöllər olsun sənə vətən,
Mən səndən əl çəkərmiyəm sən məndən üz döndərməsən?"



Qəlbi satdım bir qəlb üçün, sinəm evi oldu bazar,
Qızılgülü dondurdu, indi qızdı o yağışlar...
Ətrafında qızıl mərcan, inci dişlər qatar-qatar...
Dedi: "Kaş ki, bilməyəydim həqiqəti, ey şahsuvar!

Səni dönük, bir vəfasız sayammaram sözün düzü,
Qəlbində var bir Allaha sadiq olan vicdan sözü.
Gəl atamdan istə məni, Hindistanın gülsün üzü,
Nə kürəkən, nə izdivac! Hakimiyyət öpsün bizi!"

Qəzəblənmiş cavan məni əzizlədi birdən-birə,
O ay kimi, günəş kimi boy göstərdi sanki yerə.
Yaxınına çəkdi məni, baxdım-baxdım o dilbərə,
Danışdıqca su səpdirdi sinəmdəki atəşlərə.

O deyirdi: "Aqil gərək tələsməsin, ey şahsuvar,
Öz bəxtindən inciməsin nə qədər ki, qüdrəti var.
Gənci yurda buraxmasan padşah sənə acıqlanar,
Dava qopar, viran qalar bu Hindistan, doğma diyar.

Ancaq gənci sən buraxsan, o evlənər mənə, bəlli,
Döyər bizim başımıza hicran dərdi ikiəlli.
Bu onlara bayram olar, bizə qalmaz bir təsəlli,
İranlılar şah olmasın, məsələnin budur həlli.

Dedim: "Allah eləsin ki, o gənc sənə olmasın ər,
Onlar hində girən kimi vəziyyətdən allam xəbər.
Anladaram rəqibə ki, nədir qüvvət, nədir hünər,
İnan, bir toy tutaram ki, canlarından qalmaz əsər".

Dedi: "Qadın, qadın kimi düşünməli, bir qayda var,
İstəmirəm artıq-artıq qan tökəsən, ey şahsuvar.
Onlar gəlsə gənci öldür, ordusuna dəymə zinhar!
Doğruluğun qarşısında quru ağac yarpaqlanar.

Get, aslanım, yaranmısan qəhrəmanlar qəhrəmanı,
Qoşunsuz get, xəlvətcə get, öldür gələn o oğlanı.
Ordusunu qırma onun, zənn edərək çöl heyvanı,
Vicdanıma ağır gələr o günahsız insan qanı.

Öldür onu, sonra danış atamla ki, ey hökmdar!
Mən qoymaram Hindistanı parçalasın iranlılar.
Bir qarış da yer verməгəm, öz haqqımdır doğma diyar,
Yoxsa bütün şəhərini qoyacağam mən tarımar.

Bir də gizli eşqimizi açıb salma hələ sözə,
Bu surətlə tədbirinin doğruluğu çarpar gözə.
Padşah sənə yalvaracaq, yaxaracaq düşüb dizə,
Mənsə sənə yar olaram, dövlət çatar ikimizə".

Çox xoş gəldi o gün mənə bu məsləhət, bu xoş qərar,
Qılınc ilə hədələdim düşmənimi diyar-diyar.
Sonra qalxdım, gedim deyə, əyləş dedi nazlı nigar,
Qucaqlaşmaq istəsəm də qollarımda qüvvəmi var?..

Bir az qaldım, yenə durub yola düşdüm, Məcnun kimi,
Əsmət getdi qabağımca, göz yaşlarım Ceyhun kimi.
Dərdim yenə minə çıxdı, könlüm dərdə vurğun kimi,
Ayaqlarım getməyirdi xəstə düşmüş yorğun kimi.

## XARƏZMŞAHIN OĞLUNUN HİNDİSTANA TOY ÜÇÜN GƏLMƏSİ VƏ TARİYEL TƏRƏFİNDƏN ÖLDÜRÜLMƏSİ

Adam gəldi, xəbər verdi varid olan nişanlıdan;
Eyvah, nələr eyləyəcək, bixəbərdir o, Tanrıdan.
Qəzəb nədir, kədər nədir, bilməyirdi şah bu zaman,
Baxdı mənə, otur deyə yer göstərdi o yaxından.

Şah: "Üzümə gülür mənim bu gün yer, göy, həyat, – dedi,
Şirin gəlsin, toy qurulsun, başlanılsın büsat, – dedi,
Adam yolla, gətirilsin, daş-qaş, cavahirat, – dedi, –
Səxavətlə paylaşdıraq, cahan qalsın qoy mat, – dedi, –

Adam saldım cavahirat gətirməyə dörd bir yana,
Gənc nişanlı daxil oldu bizim doğma Hindistana,
Biz onları pişvaz etdik, yer-göy gəldi ruha, cana,
Cəm olunca ləşkərimiz sığmaz oldu bir cahana".



Şah əmr etdi: "Çadır qurun, bəzədilsin bütün hər yer,
Gənc nişanlı rahat olsun, gözətləsin qoy bir qədər.
Sənsiz onu qarşılasın sərkərdələr, döyüşçülər,
Sənsə burda gözlə onu, özün getmə, qal müxtəsər".

Çadır qurduq meydançada al qumaşdan, al atlasdan.
Gəldi çıxdı bir xoş səhər gənc nişanlı, endi atdan.
Çıxdı onun pişvazına saray əhli yaşlı, cavan,
Ləşkərimiz cərgə-cərgə oldu, durdu dörd bir yandan.

Çalışmışdım, yorulmuşdum, evə döndüm ki, bir müddət
Yatım azca yornuq alım, gəldi sadiq köləm, fəqət,
Qabaqladı, kağız verdi: "Bu nə haldır, bu nə qəflət?
Tez gəl! Sənə əmr eyləyir çinar boylun", – yazır Əsmət.

Mən atımdan düşməyərək çevrildim bir göy quşuna,
Gəlib çıxdım, Əsmət yenə qan-yaş tökür çöl daşına.
Soruşdum ki, "Nədən belə rəvac verdin göz yaşına?"
O söylədi: "Yanan sənə, küllər tökər öz başına".

Girdim evə, gördüm onu nazbalışa yaslanırkən.
Günəş nədir? Dövrəsinə nur saçırdı o gülbədən,
"İgid, – dedi, – boş durarmı, döyüş vaxtı, yoxsa ki, sən
Eşqə xain hiyləgərsən, səhv etmişəm sevgimdə mən?"

Qəm çulğadı varlığımı, məyus oldum döndüm geri,
Ayrılarkən dedim: "Mənə kim var rəqib, gəlsin bəri!
Məgər qadın təhrik edər hərbə cəsur cəngavəri?"
Evə döndüm: "Şahzadənin torpaq olsun", – dedim yeri.

Əmr elədim: "Hərb etməyə hazır olun!" yüz nəfərə,
Atlanaraq yola çıxdıq, vida etdik biz şəhərə;
Nələr etdim alaçıqda, söyləyərmi dil bir kərə,
Mən öldürdüm nişanlını, qan tökmədən əsla yerə.

Bıçaq çəkib tez çadırın atlasını kəsdim, həmən,
Daxil oldum, nişanlını çəkib saldım yerlərə mən.
Bir sütuna çırpdım, başı parçalandı, bu hal birdən
Yatanları oyadanda qaçdı qaçan, qopdu şivən.

Xəbər tutub tez ardımca qoşun düşdü dörd bir yana,
Zərbə vurdum, izləyənlər vida etdi şirin cana.
Şəhərim möhkəm bir qaladır, yol verməz o bir düşmana,
Gəlib çıxdım sağ-salamat, qərq olmadım mən al qana.

Mən bir nəfər yolladım ki, igidlərim tutsun xəbər:
"Gəlsin mənə arxa duran hayan çıxan varsa əgər!"
Sübhə kimi izlənirdim, çıxdı günəş, doğdu səhər,
Qatil mənəm bilən kimi qaçdı ordu, sərkərdələr.

Mən oyandım səhər tezdən quşlar kimi şəfəqlə bir,
Baxdım şahın elçiləri birbaş mənə tərəf gəlir.
Şah söyləmiş: "Mən ki, sənə ata oldum, Allah bilir,
Neçin məni sən eylədin bu vaxtımda dərdə əsir?

Neçin qıydın şahzadəyə, bu günahsız insana sən?
Neçin mənə bildirmədin ki, aşiqsən Nəstana sən?
Bu dünyanı gözlərimdə çevirdin bir zindana sən?
Dost qalmadın öz atana, qıydın əhdü-peymana sən!"

Cavab verdim elçilərə: "Ey Hindistan tacidarı,
Mən poladam, neylər mənə yer üzünün alovları?
Ədaləti doğrultmalı hər ölkənin hökmdarı,
And içirəm, qızınızın olmamışam giriftarı!

Sən bilirsən Hindistanda çoxlu şah var, hökmdar var!
Mən sonuncu bir şahzadə, sən sonuncu bir tacidar.
Öldü şahlar, şahzadələr, tale oldu bir sənə yar,
Səndən sonra ancaq mənim olmalıdır doğma diyar.

Yox sözümdə yalan, qəsəm səxavətli ömrünüzə!
Tanrı ancaq övlad deyə bir qız əta etmiş sizə.
Rəvadırmı Xarəzmşah hökmdarlıq etsin bizə,
Mən dururkən bir özgəsi şahmı olsun ölkəmizə?



Mən qızını sevməyirəm, özgəsinə ver Nəstanı,
Ancaq verməm yad əllərə doğma yurdum Hindistanı.
Kim girirsə rəqabətə axar bil ki, qızıl qanı,
Öldür məni, imdad üçün çağırarsam yad insanı".

## TARİYEL NƏSTAN-DARECANIN İTMƏSİ XƏBƏRİNİ EŞİDİR

Mən salamat yola saldım elçi gələn adamları.
Odlanırdım, qəhr olurdum görmədikcə nazlı yarı.
Düzəngahda ucaltmışdı boşluqlara möhkəm barı,
Qalasına çıxıb baxdım göz yetirib çöllər sarı.

Gördüm qarşı düzdən gəlir bir cüt yolçu, çıxdım çölə,
Yanaşdılar, baxdım gələn bir qadındır, bir də kölə.
Yazıq Əsmət qan içində gəlib çıxdı ölə-ölə,
Nə bir salam verdi mənə, nə də ki, o gəldi dilə.

Mən görüncə gendən onu könül düşdü fəlakətə,
Dedim: "Nədən qəhr oluruq, nədir səbəb zəlalətə?"
O inlədi, qan-yaş töküb başlayaraq şikayətə:
"Tanrı, – dedi, – küsmüş bizə, qaldıq həsrət kəramətə!"

Yaxınlaşıb: "Nə var, – dedim, – doğrusunu söylə mənə!"
Alovlandı, alovlandı, coşdu, əsdi dönə-dönə.
Bir söz deyə bilmədi heç, göz yaşları tökdü yenə,
Çöhrəsinin qızıl qanı axdı mərmər sinəsinə.

O söylədi: "Səndən gizli söz saxlayan olsun dəni,
Bağışlarsan günahımı sevindirsəm əgər səni.
Yalvarıram, insaf elə, doğra məni, öldür məni,
Qurtar ağır işgəncədən bu dünyadan əl üzəni.

Xarəzmşaha – nişanlıya dəyən kimi səndən zaval,
Şah sıçradı öz yerindən çöhrəsində qəzəb, məlal.
Fərman verdi: "Tutun!" – deyə, – tutmaq səni oldu mahal,
Şah başladı şikayətə, bəzən susdu etdi xəyal.

"Hey axtardıq, tapılmadı" – ərz etdilər hökmdara,
Şah dedi ki: "Məlun niyə o qəlbimə vurdu yara.
Aşiq olmuş günəş qıza, yox taqəti intizara,
Qan-yaş tökər görcək onu, baxar, gəlməz təngə, zara.

And içirəm öz başıma, xain bacım ölsün gərək,
Qız yolunda azmış buna Davar bais olmuş demək,
Bu şaşqınlıq nələr ona vəd eləmiş cəzb edərək,
Qərarına əməl etsin, haqq yolilə şah gedərək".

Qəzəblənib, şah başına nahaq yerə and içməzmiş,
And içdimi, dünya gəlsə, qərarından vaz keçməzmiş.
Gedib biri bu fərmanı demiş, Davar işi sezmiş,
O Davar ki, sehr eləyib yeddi qatlı göyü gəzmiş.

Dinsiz, yolsuz biri gedib demiş Davar olmuş agah:
"Ki, həmşirəm ölsün", – deyə qət elədi, and içdi şah.
Davar demiş: "Tanrı bilir, işləmədim heç bir günah,
Mən qisasa əl atmaram, gözləyərəm ondan pənah".

Sən gördüyün halındaydı gözəl xanım, nazlı mələk,
Yaraşırdı xeyli ona ərmağanın – zərli örpək.
Davar yaman ağlayırdı, yana-yana dil deyərək,
Söyləyirdi: "Nəstan, sənin heç gülməsin üzün gərək!

Neçin yazıq nişanlını öldür dedin Tariyelə,
Neçin mənim həyatımı kül eləyib verdin yelə!
Şah qardaşım qıymaz mənə, nahaq yerə salmaz dilə,
Görüm səni sevgilinə çatmayasan bundan belə".

Deyib cumdu Davar qıza, sellər kimi çağlayaraq.
Vurdu, saldı torpaqlara, döyəclədi şaraq-şaraq,
Nəstan ancaq inildədi, ah çəkərək, ağlayaraq,
İmdadına yetişməyən Əsmət baxdı könlündə dağ.

Rostevanın həmşirəsi Davar döydü xeyli qızı.
Sehrbaza oxşar iki qul gələrək uğursuzu –
Bir qayığa mindirdilər, o günəşi, o ulduzu
Böylə əsir elədilər, ürəyində ağır sızı...



Pəncərənin qabağından qayıq keçdi, qız yoxaldı,
"Öz canıma özüm qıyım!" – deyib Davar bıçaq aldı.
Qaldıraraq sinəsinə, uf deməyib çaldı-çaldı!
Al qanlara boyanaraq torpaqlara düşdü qaldı!

Matmı qaldın vücudumu nizələrdə görməyincə?
Bəd xəbərlər elçisinə ölüm lazım, ölüm məncə!
Öldür məni yalvarıram, yetər bu qəm, bu işgəncə",
Deyim Əsmət öz qəlbini boşaldırdı istəyincə.

Dedim: "Qıyım nədən sənə, gözəl bacım, bir düş başa,
Yar qayğısı çəkməliyəm, gətir məni ağla, huşa!
Gəzib onu, üz tutaram, yerdə yelə, göydə quşa,
Dərd əlindən könül döndü sərt qayaya, soyuq daşa.

Qəm sarsıtdı vücudumu, titrətməyə tutuldu can,
Öz-özümə: "Ölmə, dedim, kama çatar həsrət qalan.
Axtar onu, dərbədər ol, gəz çölləri, ellər dolan,
Dedim, vaxtdır gəlsin bəri bəd günümdə həmdəm olan!"

Evə girdim, silahlandım, mindim ata, çıxdım yola,
Yüz altmış qoç qəhrəmanla... Gözdən itdi şəhər, qala.
Ötürdülər dostlar bizi, söylədilər: "Uğur ola!"
Gəldim dəniz kənarına, ağlayaraq mindim sala.

Yarıb keçdim dalğaları, nəzər saldım göy dənizə,
Axtarmamış bir sal belə buraxmadım, gəzə-gəzə.
Hey dolandım çılğın kimi, bir çıxmadı baxtım üzə,
Tanrı küsmüş bəndəsinə, nifrət elər demək bizə.

Hər saatım ilə döndü, ömür sürdüm mən bu sayaq,
Sevgilimdən röyada da bir olmadı verən soraq.
Öldü bütün adamlarım, sən qədərin cövrünə bax!
Tanrımızın əmri budur: mən istəyən olmayacaq!

Səfər yordu axır məni, tərk elədim dənizləri,
Qəzəbliydim, dinləmirdim vəzirləri, kənizləri.
Qullar məndən ayrıldılar, soldu lalə bənizləri,
Ancaq Tanrı bu dünyada tək buraxmaz heç bizləri.

Həmdəm olub qaldı mənə Əsmət, bir də cüt kölə,
Yalnız onlar bəzən məni təskin üçün gəldi dilə.
Çıxdım yarın sorağına, xəbər yox bir zərrə belə,
Qəm sevincim oldu mənim, göz yaşlarım döndü selə.

## NURƏDDİN-FİRİDUNUN HEKAYƏTİ VƏ DƏNİZ QIRAĞINDA TARİYELİN ONUNLA GÖRÜŞMƏSİ

Bir yol çıxdım səyahətə, sahil boyu, göylər qara,
Yaxınlaşdım bağça-bağlı, sal qayalı bir diyara.
Yaxşı olar deyirdim ki, rast gəlməyim insanlara,
Bir ağacın kölgəsinə gəlib çıxdım vara-vara.

Mən yuxladım, qullarımsa çörək kəsdi, süfrə saldı,
Dərd oyatdı yazıq məni, qəm əlindən dil qaraldı.
Könül çoxdan nə bir yalan, nə bir doğru xəbər aldı,
Göz yaşlarım çağladıqca dağda, daşda izi qaldı.

Ağlayırkən səs eşitdim, dönüb gördüm bir qəhrəman
Nərə çəkir at üstündə, sahil boyu çapır yaman.
Axır sınmış qılıncından, yarasından torpağa qan,
Söyür kinlə, şikayətlə deyir: "Namərd düşmən, dayan!"

İndi mənim altımdakı şəvə rəngli bu at ilə,
Həm acıqlı, həm qəzəbli o çapırdı dönüb yelə.
Maraqlandım, çağır dedim, tez yollandım mən bir gölə,
Soruş dedim: "O aslanı hirsləndirən nədir belə!"



Ondan cavab almayınca, tez atıma oldum süvar,
Çapdım onu qabaqladım, dedim: "Bir dur, söylə nə var?
Nədən belə qəzəblisən, gözəl çapar, igid çapar?"
O xoşlayıb qəlbən məni, at saxladı, tutdu qərar.

Baxdı mənə: "Allah, – dedi, – mən heyranam bu ərlərə!"
Sonra: "Qulaq as, söylədi, başımdakı dərdi-sərə.
Qoç aslanı keçi saydım, səhv elədim nahaq yerə,
Xain çıxdı onlar mənə, hücum etdi saldı girə".

Söylədim ki: "Gəl, sakit ol, düş atından dur, bir dayan!
Qorxu bilməz döyüş günü zərbə yeyən qoç qəhrəman".
Danışırdıq biz bir ata-oğul kimi çox mehriban,
Gözəllikdə görməmişdim onun kimi mən bir cavan.

Qullarımın arasında çox bilən bir həkim vardı,
Əlac etdi qəhrəmana, yarasından ox çıxardı.
Ağrısını tez kəsərək məlhəm qoydu, həmən sardı,
Mən soruşdum: "Kimsən, de bir, qanlın hansı bədəfkardı?"

İgid dedi: "Kimsən, özün şöhrətindən ver bir soraq,
Dərd əlindən şam kimisən, saralmısan üzdən iraq.
Gül üzünü soldurdumu yar həsrəti, dərdi-fəraq?
Tanrımızın əmri bumu, sönür şölə çəkən çıraq?

Yaxınlarda bir ölkə var, adlanır Mülkixəzanzar,
Mən Nurəddin-Firidunam həmən yurda bir hökmdar.
Siz də mənim diyarımda tutmusunuz indi qərar,
Torpağımın hər küncünün bir səfalı cənnəti var.

Babam böldü yerlərini, sağkən özü bu dünyada,
Düşdü mənə ətrafını dalğa döyən bir göy ada.
İndi əmim tutdu onu, övladları döndü yada!
Hücum etdi xain kimi, yaralandım vuruşmada.

Ürəyimdə ov həvəsi alovlandı bu gün səhər,
Min rəng çalan öz adama gəldim, igid döyüşçülər.
Ətrafımda: "Gözətləyin burda məni" verdim xəbər,
Beş tərlançı götürərək göy dənizə etdim səfər.

Tez yanaşdım bir körfəzə, mehribandı qılınca qın,
Əqrəbamdan qorxub nədən söyləyəydim qəlbə: "Saqın!"
Onlar qorxdu, mən qıy vurub ov dalınca etdim axın,
Etinasız baxdı onlar, seyr eləyib uzaq, yaxın.

Üzlərində hər birinin qəzəb, nifrət oxunurdu,
Dörd yanımı çulğaladı zəncir kimi yağı, ordu.
Əmim, bir də oğlanları bir qayıqda otururdu,
Hücum deyə əmr olmuşdu, yalın qılınc bərq vururdu.

Mən onların nərəsini eşidirdim açıq-aşkar,
Eyvah, yaman gündə, dedim, tora saldı tərlanı sar.
Sala mindim, kəsdi yolu zalım düşmən etsin şikar,
Can atdılar ki, qərq olum, baş tutmadı əsla bu kar.

Elə bil ki, hücum edən ordu deyil dalğalardı,
Qərq etməyə qanlım məni, dörd yanımı sardı, sardı.
Qılınc vurdum, düşmənləri balıq kimi qılınc yardı,
Mən sığındım şəmşirimə, qılınc sındı, ox qurtardı.

Söylədim ki: "Aman, atım, sıçra suya dəryanı keç,
Apar dosta doğru məni, düşmənləri gur suda seç!
At sıçradı dalğalara, adamlarım qalmadı heç,
İzlənirkən dönüb geri mən vuruşdum düşmənlə gec.

Qoy dünyasında olan olsun Tanrımızın istəyincə,
Yerdə qalmaz əsla anım, qüvvəm çatar buna məncə.
Bezar olsun düşmən gərək həyatından gündüz-gecə,
Mən çağırıb qarğaları verəcəyəm kef, əyləncə".



Çox bəyəndim pəhləvanı, sevimlidir bu qəhrəman,
Dedim ki: "Heç tələsmə, dur, bir qulaq as, gəl bir dayan.
Gedək bircə qisas alaq döyüşdükcə zaman-zaman,
Hər ikimiz cəngavərik, neylər bizə qan düşman.

Mənim, dedim, başım çəkmiş bu dünyada xeyli zaval!
Söyləyərəm həyatımı vaxt olarsa tamam, kamal".
Cavab verdi: "Sevindirər mənliyimi xeyli bu hal,
Səndən ötrü baş qoyaram, ola bilməz özgə xəyal!"

Gəlib çıxdıq Firidunun gözəl, kiçik durağına,
Qabaqladı ordu onu, üz qoyaraq torpağına.
Döyəcləyib özlərini qapandılar ayağına,
Hey öpdülər, sarıldılar qılıncına, yarağına.

Onlar məni xoşladılar, göstərdilər çox mərifət,
Söylədilər: "Ömrə bahar bəxş eləyən sənsən, əlbət".
Çıxıb gəzdik paytaxtı biz, çox gözlədi o məmləkət,
Bəzəkləri daş-qaş idi, geydikləri ipək xələt.

## TARİYELİN KÖMƏYİ VƏ FİRİDUNUN DÜŞMƏNƏ QƏLƏBƏ ÇALMASI

Günlər keçdi, yenə sağlam at çapdı o, düzdə, yalda,
Qayıq, əsgər hazırladıq, keçən günlər qaldı dalda!
Görən dedi: "Sən qalib ol döyüşlərdə, ixtilalda".
Qoy söyləyim nə zərbələr vurdu yada çalhaçalda.

Düşmən gözəl vuruşmağa geyinmişdi dəmir paltar;
Səkkiz qayıq çıxarınca qarşımıza gur dalğalar,
Mən birini ayağımla qərq elədim, çəkib avar,
Qalanları arvad kimi qaçıb şivən qopardılar.

Yan aldığım bir qayığı qamarladım qaçan yerdə,
Basdım, suya qərq elədim, batdı qoşun ləpələrdə!
Qalan qaçdı, liman deyə, aman deyə, düşdü dərdə,
Şücaətim yaman heyrət oyatmışdı görənlərdə.

Süvarilər hücum etdi biz sahilə çıxan kimi,
Coşdu yenə kəc vuruşlar bir dalğalı ümman kimi,
Çinar boylu qoç Firidun bir alıcı tərlan kimi,
Ov üstünü alır, vurur, məhv edirdi aslan kimi.

Övladlarıyla birlikdə əmisini yıxdı yerə,
Amansızca əllərini kəsdi saldı birdən-birə,
Qolu bağlı qabağında əzab verdi üç nəfərə,
Fərəh verdi dəstəsində hər bir igid cəngavərə.

Qaçan qaçdı, qalan öldü, biz döyüşdə zəfər çaldıq,
Tərlan kimi yuvasında vurduq sarı, şəhər aldıq;
Daş tullayıb düşmənlərin qılıncını vurub saldıq,
Aldığımız qəniməti aparmağa aciz qaldıq.

Daş-qaşları şah Firidun möhürlədi birər-birər,
Əsir etdi əmisini, övladların çaldı zəfər,
Yarpaq kimi qabağında əsdi onun bu üç nəfər,
Baxan mənə söylədi ki, xoş yaranıb igid ər-ər!

Çox sevindi şəhər əhli görününcə gur dəstəmiz,
Kömək etdi əl açana, hər ürəyi, qəlbi təmiz.
Tərifləndik mən, Firidun, at üstündə keçdikcə biz,
Söylədilər: "Qan ağlatdı düşmənlərə qüvvətiniz".

Onlar mənə şahlar şahı, əfradıma əyan deyə,
Başladılar mədh etməyə, alqış səsi qalxdı göyə.
Qəmgin idim, gül dərməyən könül düşmüşdü qüssəyə,
Nələr çəkdim, bu dünyada dilim varmaz heç deməyə.



## FİRİDUN, NƏSTAN-DARECANIN BAŞINA GƏLƏNLƏRİ TARİYELƏ XƏBƏR VERİR

Ova çıxdıq bir dəfə mən, şah Firidun – o gülbəniz,
Gəlib çatdıq bir yerə ki, görünürdü ordan dəniz,
Dilə gəldi o söylədi: "Haman burdan bir dəfə biz
Nələr gördük bu dəryada, nəql edərəm istəsəniz!"

Rica etdim Firidundan o başladı əhvalata:
"Bir yol düşdü ov könlümə dayanmayıb mindim ata,
– Atım suda ördək olur, quş yox ona göydə çata –
Bir quzğuna nəzər saldım sığınanda o qanada.

Nəzər saldım dalğalara, baxar kimi göy çəmənə,
Ta uzaqdan bir şey gəlir, yaxınlaşır gördüm mənə,
Nə ox çatar, nə ildırım gələn şeyin sürətinə,
Artıq baxa bilməyərək öz-özümə sordum: "Bu nə?"

Quşmu gələn, heyvanmıdır dərk eyləmək xeyli mahal,
Bir az keçdi, baxdım ipək yelkən açmış quş kimi sal,
Adamlar da görünürdü yox sözümdə zərrə xəyal,
Oturmuşdu o qayıqda günəş mənzər bir mahcamal.

Yetişdilər bir sahilə, qatran kimi bir cüt qara
Qul çıxardı gözəl qızı köməkləşib tez kənara.
Qalın şəvə hörükləri tökülmüşdü omuzlara,
Günəş onun hüzurunda söndü, girdi buludlara.

Sevincimdən səbirsizdim, durmamışdım yerimdə mat,
Rəngi qaçmış gözəl gülü sevdim, əldən getdi səbat.
Dedim ki, biz gəl onları qabaqlayaq, ay qara at,
Səndən yaxa qurtarmadı bu dünyada bir zihəyat.

Mən atımı məhmizlədim, qamışlığa girdi atım;
Onlar qabaq düşdü yenə, cəhd etdimsə mən hey çatım,
Batan günə bənzəyirdi gedən dilbər, matdım-matdım
Baxdım onun dalısınca, yaman təlx oldu ovqatım".

O qurtardı öz sözünü, od qalandı şirin cana,
Mən yıxıldım atdan yerə, köhlənimdən düşdüm yana,
Vücudumu bələşdirdim yanağımdan axan qana.
Məndən özgə baxan varmış, eyvah, dedim o canana!

Səbəb oldum Firidunun bu halımla heyrətinə,
Mən aşiqəm qəhrəmanın rəftarına, şəfqətinə,
Sakit etdi o könlümü, heyran oldum xislətinə,
İnci kimi göz yaşları süzdü, axdı sifətinə.

O söylədi: "Kül eləsin həyatımı çərxi-fələk!
Mən neylədim, bir insanın gül qəlbini qırdım demək".
Cavab verdim: "Qəm yemə sən bundan ötrü, gedən mələk,
Yar mənimdir, dolanıram arxasınca dünyanı tək".

Mən söylədim macəranı ağlayaraq için-için,
O, ərz etdi: "Gördüyümü dedim sənə, eyvah, neçin!
Sən qüdrətli Hindistana hökmdarsan ürəyi çin,
Atıb gəldin səltənəti torpağıma bir iş üçün.

Tanrı, dedi, versə kimə sərvə bənzər bir qaməti,
Bil ki, ondan edər uzaq bir gün dərdi, fəlakəti.
İldırım tək asimandan enər lütf, səxavəti,
Qəmlər dönər nəşə olar, artar insan səadəti".

Firidunla ağlaşaraq geri döndük kor-peşiman,
Dedim ona: "Səndən özgə yoxdur mənə arxa, həyan.
Tək yarandın yer üzündə, sən günəşsən, nurun əyan,
Bir umacaq hiss edərmi sənin kimi dostu olan!

Əgər zaman versə aman mən də sənə dost olaram.
Məsləhət ver indi mənə, dinləməyə hazır varam.
Sevinməsə Nəstan əgər üzə çıxmaz köhnə yaram,
İstəyimə mən çatmasam xoş gün olsun ömrə haram".

Cavab verdi Firidun ki: "Bəxtiyaram bundan belə,
Lütfü-kərəm gətirmisən ölkəmizə əzmin ilə.
Bundan böyük bir inayət gətirmərəm əsla dilə,
Əmr səndən, əməl məndən, sən hökmdar, mən bir kölə.



Əzəl gündən bir limandır hər gəmiyə bu məmləkət,
Hər gün təzə xəbər-ətər öyrənirik bundan, əlbət.
Əlaclardan hali olur bizim diyar, bizim bu səmt,
Bəlkə sənin dərdin belə burda tapdı şəfa, şəfqət.

Qayıqçılar göndərərik bilməsinlər dərin, dayaz,
Axtarsınlar, gətirsinlər hilalını, o sərvinaz,
Həsrətində üzülmə gəl, səbirli ol, gəl sən bir az,
Bu dünyada sevinc qalib gəlməyən bir qəm tapılmaz".

Həmən saat adamlara fərman verdi ki: "Tez varın,
Çıxın yola bir ümmanı dalğa-dalğa hey axtarın!
Tapın, vadar edin qızı qoy o sevsin öz dildarın,
Yerdə qalmaz haqqı-sayı hər qəhrəman fədakarın.

Gəzin bütün qayıqları dolaşdıqca diyar-diyar,
Xəbər tutun ondan, görün baş yastığa harda qoyar".
Ümid mənə təskinlikdi, yüngülləşdi iztirablar,
Ondan ayrı sevinc duyan könül etdi özündən ar.

Şah Firidun məndən ötrü təxti-rəvan qurdurdu tez,
Söylədi ki: "Qafil idim, könül deyir, səhvini sez!
İnsan olan köməyini səndən əsla əsirgəməz,
Qul kəsilər hər əks sənə, istəsən var, dünyanı gəz!"

Gəl mətləbi uzatmayaq, hər tərəfdən gəldi gedən,
Yorğun-arğın qayıtdılar, tapılmadı o gülbədən.
İçlərində xəbər bilib görünmədi bir fəxr edən,
Qövr eylədi dərdim yenə, qan-yaş axdı gözlərimdən.

Yenə çərxi-fələk etdi bu dünyanı başıma dar,
Dilim tutmaz halım deyim, şahid buna pərvərdigar.
Onsuz aləm gözlərimə zülmət oldu, göründü tar,
Könül məhrum əyləncədən, qəm ruhumda tutdu qərar.

Yardan nə bir xəbər aldım, nə dil tapdı cananını,
"Getməliyəm, artıq, – dedim, – gözləyirəm fərmanını!"
Şah eşidib bu sözləri tökdü gözdən al qanını,
Söylədi ki: "Tərk eyləyir sevinc dünya mehmanını".

Hey əlləşdi saxlamağa, baş tutmadı tədbir adı,
Gəldi ordu hüzurumda durdu məlul, əl bağladı.
"Qoy yolunda candan keçək" – söyləyərək qucaqladı.
Öpdü məni sərkərdələr həm ağlatdı, həm ağladı.

Cavab verdim: "Bu ayrılıq məgər gəlir asan mənə,
Neyləyim ki, nazlı yarsız dünya olur zindan mənə.
Gəzməliyəm o əsiri, gəl-gəl deyir canan mənə,
Qərarımdan daşınmaram, üz vurmasın bir can mənə".

Şah Firidun naçar qalıb yaxın gəldi, bax bu atı
Verib dedi: "Günəş mənzər, sərv qamət, bu sovqatı
Apar məndən, yel sürətli, quş kimidir var səbatı
Amansızdır döyüş günü, davamlıdır qol-qanadı".

Sonra çıxdı ötürməyə, hey ağlaşdıq yol uzunu,
Ayrılarkən hıçqıraraq öpdü məni, mən də onu,
Ağlayaraq canı dildən yandı ordu görüb bunu,
Sanki ata salır yola qürbət elə öz oğlunu.

Firidundan ayrılaraq çıxdım yenə axtarmağa,
Dəniz keçdim, quru gəzdim, gah dırmandım qarlı dağa,
Yardan xəbər vermədilər, baxdım sola, baxdım sağa,
Çılğın kimi üz-gözümdən yırtıcılıq yağa-yağa.

Bir gün, dedim, ey Tariyel, yetər, gəzdin sən dərbədər,
Heyvanların arasında keçdi bəlkə dərdi-kədər,
Qullarıma, bu Əsmətə yeddi-səkkiz kəlmə əsər
Eləyici sözlər dedim: "Yordum sizi dedim, yetər.

İndi artıq varın, gedin, öz dərdimi çəkim özüm!
Yanmayın siz əhvalıma axıdarkən qan-yaş gözüm".
Əsər etdi hər birinə oxdan iti qəmli sözüm,
Söylədilər: "Bu sözləri dinləməyə varmı dözüm?

Səndən özgə bir hökmdar qoy olmasın qismət belə,
Ancaq sənin mərhəmətin kölgə salsın üstümüzə.
Baxsın daim gözlərimiz pərəstişə layiq sizə,
Bəzən tale pəncəsində fərli dönər bir fərsizə".



Mən onları qovlamadım, sözlərinə asdım qulaq,
Tərk elədim durağımı, uçrum aşdım, keçdim bulaq.
Maral, keçi sığnaqları oldu mənə xoş sığınaq,
Bəzən dərə, bəzən təpə gəzdim yarı axtararaq.

Rast gəldiyim bu div yurdu görməmişdi insan üzü,
Toppuz, qılınc işə düşdü, qan boyadı yaşıl düzü,
Öldü divlər, adamlarım, yalnız açdım mən gündüzü,
Yenə tale pəncəsində qoparıldı yaram gözü.

Yer sarsıldı məhvərindən əl atınca div toppuza,
Göy titrədi nərələrdən hətta günəş batdı toza.
Su başında sərv ağacı əsdi, döndü yanıq saza,
Vurdum öldü qarşı çıxan, heç baxmadım çoxa-aza.

O zamandan, əziz qardaş, yaşayıram bu qürbətdə,
Gah bayılar, gah qan ağlar, ömr edirəm bu surətdə.
Sevgilimin dərdi yaman yer eyləmiş bu Əsmətdə,
Başqa bir yol yoxdur mənə, ölməliyəm mən, əlbəttə.

Oxşatmışam öz yarımı xoş yerişli xallı şirə,
Dərisindən paltar geyib əl atmışam bu tədbirə,
Əsmət onu tikən zaman huşdan oldu birdən-birə,
Qıya bilməm şirin cana, qılınc parlar nahaq yerə.

Sevgilimin tərifində sənətkarlar aciz qalır,
İtkinimi düşündükcə gündən-günə qəm çoxalır.
Heyvanların arasında ölüm belə məskən salır,
Könül haqqın dərgahından ölüm dilər, baxıb dalır.

Döyəcləyir üz-gözünü, güllər yolur o pəhləvan,
Büllur qırır qızıl, yaqut solğun sarı kəhrəbadan.
Əsmət olur dərd əhlinə təskin verən, qəlbi yanan,
Baxıb ona Avtandilin yaş süzülür yanağından.

Sakitləşən Avtandilə ərz elədi o qəhrəman:
"Mən yarıtdım, dostum səni, özüm nakam, gözüm nadan,
Budur ömrün sərgüzəşti, dünya mənə oldu zindan.
Sən geri dön, gecikmə gəl, intizardır cana canan".

Cavab verdi igid: "Hicrə yox dözməyə bil taqətim,
Ayrılarsan eşqim sönər, keçər zövqüm, səadətim.
Burax səni qızdırmasın doğru sözüm, cəsarətim,
Nə xeyri var, ölüm gəlsin, bitsin, desin, əsarətim.

Əgər bir gün görsə təbib öz üzünün rəngi solur,
Əcəl yeli həyatının bağçasından güllər yolur,
Başqa həkim çağırtdırar, dərdi söylər, çarə bulur,
Gendən baxan yaxşı görür, məsləhəti doğru olur.

Gəl qulaq as sözlərimə, zəka ömrün can yoldaşı!
Yüz qat fikir verməlisən, bir qat deyil, olma naşı!
Xeyir verməz əgər könül sərtliyində keçsə daşı,
Görməliyəm atəşinə dolandığım qələmqaşı.

Axtarıram mən yarımı, baş verərəm bu ərkana,
Bildiyimi ərz elərəm birər-birər Nəstancana.
İnan mənə, qoy Tanrı da şahid olsun bu peymana,
Sədaqətdən ayrılmayaq, döndərməyək bağrı qana!

Söz ver sən də qardaşına, ayrılma gəl bu diyardan,
And içirəm tez dönərəm, əl çəkərsən ahu-zardan.
Tək qalmısan, ya mən ölləm, qurtararsan ya bu dardan,
Sevindirrəm axır səni xəbər verib o dildardan".

Tariyel dedi: "Necə oldu sevdin məni, verdin könül?
Çətin dözər ayrılığa sənin kimi sarı bülbül.
Qovuşaydıq bir də belə, ey sərvi boy, ey təzə gül.
Mən heç səni unudaram, olan işmi? Mümkün deyil!

Əgər məni, ey sərvi boy, xatırlasan boylanaraq,
Mən gəzmərəm ceyran kimi, cüyür kimi gözdən iraq.
Xain çıxsam sənə, Tanrı qəzəb etsin ömrümə, ah!
Mən səninlə olan zaman bilməyirəm nədir fəraq".

And içdilər, əhd etdilər, çox mehriban o loğmanlar,
Dərd əlindən yaqut dönər kəhrəbaya, duyan anlar.
Ünsiyyətlə, məhəbbətlə, alovlandı qəhrəmanlar,
Ayrılmadı axır gecə gözəl dostlar, pəhləvanlar.



Ağlamaqdan Avtandilin gözlərində yaş qalmadı,
Səhər durdu, öpdü onu göz qalmadı, qaş qalmadı.
Kim deyir ki, qoç Tariyel huşdan olub çaş qalmadı,
Ağladıqca islanmayan dağ qalmadı, daş qalmadı.

Əsmət onu ağlayaraq, oxşayaraq yola saldı,
Diz çökərək qabağında çox yalvardı, vədə aldı.
Döndü solğun bənövşəyə, qəm gölünə sona daldı,
İgid dedi: "Sizdən qeyri yad etməli kimim qaldı!

Tez dönərəm, unutmaram, bacım, səni, həm bu yeri,
Ancaq sən də buraxma gəl uzaqlara cəngavəri.
İki aydan sonra əgər qayıtmasam, işdir, geri,
İnanın ki, tükənməzdir Avtandilin dərdi-səri".

Ayrılarkən qəhrəmanın var sevinci söndü, bitdi!
Yoldu tökdü öz gülünü, əllərini cırdı, diddi.
Al qanını tökdü yerə, heyvanları sirab etdi,
Yelə döndü, at çaparaq uzun yolu qısa etdi.

## AVTANDİLİN TARİYELDƏN AYRILARAQ ƏRƏBİSTANA QAYITMASI

Varid oldu o yurduna, gülümsədi Ərəbistan,
Batdı sevinc dəryasına tərk olunmuş ordu, əyan.
Söylədilər Şərməddinə: "Gözün aydın, sərvi-rəvan,
Nəşəmizi qəm eyləyən gəlib çıxdı, oldu bəyan".

Vəzir çıxdı pişvazına, Avtandili qabaqladı,
Əllərindən öpdü, əziz qəhrəmanı qucaqladı.
Gözlərinə inanmadı, sevincindən hey ağladı:
"Bu vüsala layiqmiyəm, Allah", – deyib əl bağladı.

İgid öpdü vəzirini, təşəkkürlər etdi nisar,
"Minnətdaram Tanrıya ki, qəm etmədi dostumu xar".
Avtandilə hörmət, izzət göstərdi hər layiq kübar,
Şadlıq etdi böyük-kiçik, ürəyindən sildi qubar.

Onlar gəlib Tinatinlə varid oldu imarətə,
Bütün əhli-saray gəldi Avtandili ziyarətə.
O sevinclə cavab verdi bu məclisdə hər halətə,
Şair aciz qələm çalsın bu şadlığa, şətarətə.

O söylədi gördüyünü birər-birər Şərməddinə,
Hansı yolla rast gəlmişdi Tariyelə – parlaq günə.
Gözlərini sıxıb durdu, ağlamadı dönə-dönə:
"Onsuz, – dedi, – yerim olsa saray daxma, eh, fərqi nə?!

Şərməddin də dilə gəldi, zövq alaraq rəhbərindən,
"Xəbər tutan yoxdur, – dedi, – sənin gizli səfərindən".
Bütün günü rahatlandı, nəşə yağdı nəzərindən,
Gün doğanda yola düşdü o qalxaraq öz yerindən.

Kef etmədi artıq, yarın vüsalına o müntəzir,
Avtandilin gəlişini getdi xəbər versin vəzir.
Onca günlük yolu getdi üç günlüyə, durmadı bir,
Gözləyirdi günəş ilə bəhsə girən yarını şir.

Əmr elədi: "Get, söylə ki, ey qüdrətli şah Rostevan!
Cəsarətlə, ehtiyatla eyləyirəm indi bəyan,
Heç sayırdım mən özümü tapılmadıqca pəhləvan,
Öyrənmişəm, qayıtmışam, bilsin şahım, bilsin əyan".

Vəzir gəlib baş endirdi ulu, qadir Rostevana,
Ərz elədi bildiyini qəhrəmandan hökmrana:
"Hüzuruna gələr, – dedi, – izin versən pəhləvana",
Şah söylədi: "Mən istəyən oldu, Tanrı şahid buna".

Xəbər verdi Tinatinə hali etdi o gündüzü:
"Avtandilin gəlir, – dedi, – söyləyəcək var çox sözü".
Qız çevrildi bir günəşə, güldü qəlbi, güldü gözü,
Xələt verdi Şərməddinə, dəstəsinə bir-bir özü.

Şah atlandı çölə çıxdı, qarşıladı öz şirini,
Bir təşəkkür saydı onun Avtandil bu tədbirini,
Çox mehriban, gülərüzlə qucdu onlar bir-birini,
Əyanlar da kef elədi taxdı qına şəmşirini.



O görüncə öz şahını hörmət üçün atdan endi,
Şah Rostevan öpdü onu, könlü, gözü xeyli şəndi,
Qəbul etdi sarayına, qəhrəmanı çox bəyəndi,
Sevindilər, əhli-saray bayram etdi, el bəzəndi.

Aslanların ər aslanı o sərkərdə, o şahsuvar,
Günəşlərin günəşinə eyləyirdi hörmət izhar.
Büllur, əqiq, gül öz incə şəfqətini etdi nisar,
Yerdə deyil, mavi göydə ömr etməli o nazlı yar.

Məclis qurdu Avtandilə, şah oturdu özü başda,
O baxdıqca ata eşqi əks olundu gözdə, qaşda,
Sübhə kimi çalğı səsi kəsilmədi dağda, daşda,
Dirhəm kimi mirvarilər paylanıldı hər şabaşda.

Hamı getdi öz evinə qurtarınca şirin şərab,
Əyan-ərkan dağılmadı, gözlənildi yenə adab.
Avtandilə şah Rostevan xoş sifətlə etdi xitab,
Tariyeldən soruşduqca, şaha igid verdi cavab:

"Mat qalmayın danışdıqca, mən ah çəksəm böylə əgər,
Gözəllikdə yoxdur tayı, tək yaranmış günəş mənzər.
Bir qırpımda hər baxanı salar çölə, huşdan elər,
Tikanlıqda, heyhat, o gül tez saralar, solub gedər".

Dözülməz bir qəza-qədər dəm çəkdirər tez insana,
Büllur dönər zəfərana, qamış dönər bir tikana.
Yada saldı Tariyeli bağrı döndü qızıl qana,
Nələr çəkmiş o zavallı, nəql eylədi yana-yana:

"Saldırmışdır o divlərdən bir mağara, etmiş cidal,
Darecanın qulluqçusu tutmuş onu, sevməz cəlal.
Bir pələngin dərisindən paltarı var, üstü xal-xal,
Hər gün onu od yandırar, bir şiddətlə verər zaval".

Nəql eylədi macəranı o bir özgə məlahətlə,
Günəş yurdu o dünyadan dilə gəldi hərarətlə.
Qəhrəmana: "Gül dərmisən, söylədilər sədaqətlə,
Sən irmisən qoçaqlığa göstərdiyin şücaətlə".

Çox sevindi bu sözlərə qulaq asıb o gülbədən,
Gah yeməkdən, gah içməkdən yorulmadı, bəlli nədən,
Avtandili çağırmağa adam getdi, gəldi gedən,
Hansı dillə qəhrəmanın sevincini söyləyim mən.

Gülərüzlə gəlib çıxdı yar yanına sərvi-rəvan,
Aslanların arasında bənzi solğun o bir aslan,
Şəfəq saçan, ləkə bilməz bir yaqutdur o pəhləvan,
Öz qəlbini bir qəlb üçün qurban etmiş, bilir cahan.

Qəm-qüssəsiz, əzəmətlə oturmuşdu o sevgili,
Cənnətlərin ər-ərini sirab etmiş Fərat seli.
Büllurunu, yaqutunu bəzəmişdi əqiq teli,
Mən yox, onu tərif üçün gərək min bir Homer dili.

O dilbərə qəhrəmanla tuş oturmaq verirdi dad,
Qəm dağılıb tarac olmuş, Avtandil şad, Tinatin şad.
Məğrur-məğrur dinirdilər, ləyaqətlə onlar azad,
Qız soruşdu: "Tapıb onu qoydunmu sən dünyada ad!"

Cavab verdi Avtandil ki: "Kam alarsa kim dünyada,
Keçən günün qəmlərini o salmasın gərək yada.
Bir sərvi ki, cahan nəhri suvarmışdır, yetib dada,
Mən tapmışam o ər-əri, at çapmışam oddan-oda.

Qızılgülə bənzər sərvi qəm cəzana gətirmişdir,
O, şişəylə ülfət edən büllurunu itirmişdir.
Mən yanıram, çünki onu od yandırıb bitirmişdir,
Huşdan edib dərd aşiqi bu mələmə yetirmişdir".

Nələr çəkmiş bu müddətdə o söyləyib gəldi dilə,
Arzu-kama çatdığından nəql eylədi qönçə gülə.
"Onun, – dedi, – sevgisi yox insanlığa bircə gilə,
Heyvanların arasında göz yaşları dönmüş selə.

Necə deyim əhvalını, düşməzsiniz əsla başa,
Görsən onu bu dünyada, başqa bir şey gəlməz xoşa.
Gözlərini qamaşdırar, kirpiklərin batar yaşa.
Ümid qalmış bənövşəyə, gül düşübdür qarlı qışa".



Söylədikcə bildiyini bədənində coşdu qanı,
"Aslan kimi mağaradır onun, – dedi, – aşiyanı,
Çox qayğılı bir gözəldir, adı Əsmət, yaxşı tanı,
Ağlamağa vadar edər, tale hər bir yaşayanı".

Tinatinin hilal kimi bədr elədi parlaq üzü,
Elə bil ki, arzusuna qız yetişdi, çatdı özü,
"Sevindirim qəhrəmanı!", belə oldu ilkin sözü,
"Necə məlhəm qoysam, – dedi, – qopar yarın dərin gözü".

İgid dedi: "Diqqətsizə kim inanar bu dünyada?
"Dost yolunda həyatını o qorxmayıb saldı oda.
Söz vermişəm, vəd etmişəm gərək olam dosta fəda,
And içmişəm günəşimə, insanlığa, etiqada".

Dost əzabı əzabımız, köksü ona gərməlidir,
Eşqi körpü eyləməli, qəlbi qurban verməlidir.
Yarın dərdi öz dərdimiz, aşiq onu sürməlidir,
Dost dərdinin meydanına dərdim deyə girməlidir.

Günəş üzlü söylədi ki: "Güldü arzum, xoş niyyətim,
Döndün geri sağ-salamat mənim ruhum-ülviyyətim,
Çiçəklənib ürəyində körpə eşqim, məhəbbətim,
Şəfa tapdı odlu dilim, o, dünyada deyil yetim.

Bəzən tale rəftar edər ömrümüzlə külək kimi,
Günəş çıxar, bəzən də göy guruldayar fələk kimi.
Keçdi kədər, gəldi sevinc gülümsədi çiçək kimi,
Sevinməli, saqi, cahan nəşə paylar dilək kimi.

Xoşdur, dönük çıxmayırsan əhd etdiyin bir iqrara,
Dosta qarşı dost olmayan düşsün görüm ahu-zara.
Qəhrəmana imdad elə, o layiqdir, dərman ara,
Mən bəxtiyar bəs neyləyim, həsrət qalsam günəş yara?"

O söylədi: "Yeddi dərdim səkkiz oldu, nazlı dilbər,
Üfləməklə donmuş suyu qızdırmaqmı olar məgər?
Sönüb gedən bir günəşi, qucub öpmək nəyə dəyər,
Səndən ayrı hicran qəmi kaman kimi qəddim əyər.

Vay halıma, dərbədərəm, ömrüm yanan pərvanədir,
Könül hicran oxlarına nə müddətdir nişanədir,
Gün qaraldı, keçdi zaman, indi axır zəmanədir.
Öz yarından sirr gizləyən aşiq deyil, divanədir.

Başa düşdüm hər sözünü qopan kimi dodağından,
Qızılgülü cəfa çəkib qopararlar budağından.
Günəşim ol, nura boya dünyanı ay qabağından,
Ümid verən bir yadigar ver ayrılan otağından".

Şirin dilli, mərhəmətli, şəfqəti bol qoç Avtandil
Bülbül kimi Tinatinə – öz yarına açmışdı dil.
Qız mirvari verdi ona: "Qubarını, – söylədi, – sil".
Ulu Tanrı, yarısınlar onlar görüm nəsil-nəsil.

Büllur ilə gözəl yaqut öpüşündən xoş nə vardır,
Sərvə yaxın bir şümşada bağban olan bəxtiyardır.
Sevinc vermək seyr edənə yaxşı əməl, yaxşı kardır
Yardan ayrı bir aşiqin var qisməti ahu-zardır.

Onlar baxdı bir-birinə, gül rəngləri qaçdı yenə,
Ayrılarkən, qəhrəmanın dərd başından aşdı yenə.
Tinatinin göz yaşları dərya kimi daşdı yenə:
"Qanım içən dünya nədən doymaz", – dedi, – coşdu yenə.

Yola düşdü o qəhrəman, qan ağlayıb cırdı yaxa,
Eşq əhlinin ağlamaqdan qəlbi dönüb olub yuxa.
Cahan mülkü zülmət olar əgər günəş çıxsa yoxa,
Torlanmışdı onun gözü yar dalınca baxa-baxa.

Yenə qanlı göz yaşları yanağından axdı-axdı,
"Ömrə, – dedi, – günəş yarım təskin verməz gör nə vaxtdı,
Qara qaşlar almas dilə xəncərini yaman taxdı,
Yarı görmək arzu-kamı alov olub məni yaxdı.

Dünən görən zənn edərdi cənnətdəki gövhər məni,
Bu gün tale pəncəsində doğramışdır xəncər məni.
Od çulğadı can evini, bil ki, o kül edər məni,
Bu dünya bir əfsanədir, bir gün yelə verər məni".



Söylədikcə o bunları gözdən qanlı yaş tökürdü,
Ləngər vurur dərya kimi inildəyir, ah çəkirdi.
Yar həsrəti sinəsini dağıdırdı, hey sökürdü,
Bükər bizi ağ kəfənə, tale görün necə kürdü...

Evə döndü o qəhrəman, hey ağladı yatağında,
Xəyalən öz cananını seyr elədi qabağında.
Qırov çökmüş otlar kimi pəjmürdəlik yanağında,
Gün çəkildi, nə tez gül saraldı budağında:

"Lənət olsun qəlbimizə, o xilqətən acgöz doğar,
Dərdə dözər günlərimiz səadətlə hey yarışar.
Görə bilməz bu dünyanı, təbiətən kor yaranar,
Nə Allahdan xof eyləyər, nə hakimdən qorxusu var".

O söyləyib qəlbə kəskin sözlərini, sonra aldı,
Tinatinin yadigarı cavahirə daldı, daldı.
Yarın inci dişlərinə oxşayana nəzər saldı,
Öpdü onu ağlayaraq, göz yaşında düşdü qaldı.

Səhər tezdən Rostevandan bir elçiylə xəbər gəldi,
Yola düşdü qoç Avtandil, tez eylədi səfər gəldi,
Əyanlara onun halı şirin gəldi, şəkər gəldi,
Rostevan şah ova çıxır, təbil, şeypur, ləşkər gəldi.

Mən bu günü yazım necə? Rostevan şah düşdü yola,
Qulaqları kar elədi təbilçilər çala-çala
Göy üzünə toz qaldırdı uçan tərlan, qaçan tula,
Ovladılar, qan tökdülər, dırmandılar düzdən yala.

Qayıtdılar ovdan geri, vida edib, göy ovlağa,
Sevinc ilə dönürdülər yanlarında knyaz, ağa.
Rostevan şah dəstəsiylə girdi zəngin alaçığa,
Çalğı coşdu, səs ucaldı boşluqlara dalğa-dalğa.

Hökmdarla o qəhrəman oturmuşdu yan-yanaşı,
Yaqut dodaq arxasında diş andırar dürr daş-qaşı,
Əyanların məclisidir, arif gərək, deyil naşı,
Tariyeldən xəbər tutur hər danışan kəlməbaşı.

Evə döndü o qəhrəman yenə kinli, qəlbi yara,
Məhəbbətdən başqa hər şey gözlərində-zülmət, qara,
Gah uzanar, gah oturur, yata bilmir o biçara,
Könül sözə qulaq asmaz, əgər insan düşsə dara.

O söylədi: "Neyləyim ki, ömür olsun qəmdən iraq,
Səndən ayrı, ey sərvi boy, qəlbi yaxar dərdi-fəraq,
Görən səni fərəh tapar, sənsiz sönər yanan çıraq,
Qoy yuxuda gözüm səni heç olmasa görsün ancaq".

Ağlayırdı o böyləcə, könlü-gözü yenə kövrək,
Söyləyirdi səbir hikmət mənbəyidir, bilsin ürək.
Dərdə əlac olmaz, əgər səbr olmasa ömrə dirək,
Səadəti arzu edən dözsün ağır dərdə gərək.

Könül, sən də ölmə nahaq, gəl dünyaya yaxşı yanaş,
Qiyamətdir dost yolunda qurban, deyə verilsə baş.
Yandığını bilməsinlər, tökmə gözdən torpağa yaş,
Yaxşı deyil, nadan olma, gəl eyləmə sevgini faş.

## AVTANDİLİN ROSTEVAN PADŞAHDAN İCAZƏ ALMASI, VƏZİRİN SÖHBƏTİ VƏ XAHİŞİ

Ata mindi o qəhrəman, düşdü yola səhər tezdən:
"Tanrı, – dedi, – gizli saxla eşqimi hər yaman gözdən.
Çarə elə ürəyimə, əsirgəmə səbri bizdən",
Vəzir deyib, yelə döndü, keçdi dağdan, keçdi düzdən.

Xəbər tutdu Şərməddin də, həmən düşdü əl-ayağa:
Günəş doğdu eyvanıma deyil, – dedi, qarlı dağa!"
Təzim etdi üz-gözündən şəfqət nuru yağa-yağa,
Bu qaydadır hörmət olar alicənab bir qonağa.



Səxavətlə qarşıladı, xoş söz dedi Avtandilə,
Çin xalısı sərdi yerə, ev bəzətdi gülə-gülə.
İgid evi nurlandırdı, günəş şəfəq saçdı çölə,
O söylədi: "Qərbin yeli ənbər saçdı yurda, elə".

Huş başından uçdu hər kim nəzər saldı, qəhrəmana,
Huşsuzluğu şərəf saydı öz-özünə, baxan ona,
Ağladılar, fəryadları əks elədi asimana,
Əmr olundu dağıldılar, yalqız qaldı əhli-xana.

Hamı getdi öz yerinə, sakitləşdi qul, qaravaş,
O söylədi Şərməddinə: "Sayılırsan hər işdə baş,
Hər fərmanda əlin vardır, şahımızla bağrın badaş,
Çarə elə dərdlərinə, tərk eləsin ömrü təlaş.

Dərd odlayır vücudumu ayrılalı pəhləvandan,
Arzu, hicran vurğunuyam, oxlanmışam dörd bir yandan.
Dost yolunda qurban deyər, o qəhrəman, keçər candan,
Fərəh tapıb kim xoşlamaz, keçər belə qəhrəmandan.

Şanə-şanə oldu könül, dostun çəkib fərağını,
Səbri qəlbi talan edib, yoxla ömrün varağını,
O günəşlər nurlandırar bu dünyanın torpağını,
Yandırmışdır məndə Əsmət qardaşlığın çırağını.

And içmişəm ayrılarkən öz andımı yad eylərəm,
Gəlib sizi görrəm, – dedim, – dostluğumda ad eylərəm.
Axtararam günəşimi, qəmgin qəlbi şad eylərəm,
İndi gəldi getmək çağı, yana-yana dad eylərəm.

Öyməyirəm öz-özümü, gözlər məni o dağlar da,
Getmədikcə odlanıram, ondan ayrı könül darda.
Vaz keçmərəm divanədən, mötəbərəm bu iqrarda;
Əhdə dönük çıxanların ömrü keçər ahu-zarda.

Get saraya, əhvalımı eylə bəyan hökmdara,
And içirəm şah başına, gərək dostu dost axtara.
Eyləməsin yoldan məni, könül gəlməz onsuz kara,
İzin istə, dada yetiş, qoyma yanım, eylə çara.

Söylə: "Sənə dua etsin insan oğlu torpaq sanı,
Mən əzablar çəkib, gördüm elə bil ki, o dünyanı.
Çinar boylu, bir ad oldu, büryan etdi şirin canı,
Hakim oldu mənliyimə Hindistanın qəhrəmanı.

Onsuz mənə, ulu şahım, mümkün deyil xoş yaşamaq,
Yararmıyam, bir düşünün, o qəlbimi etdi dustaq.
Əgər ona kömək etsəm sizinkidir şərəf, bu haqq,
Bacarmasam, sağ qalmaram, əhdim yerdə qalmayacaq.

Mən gedərsəm qəzəblənmə, kədərlənmə gəl sən barı.
Tanrı bilən yaxşı olur, xoşdur onun hər rəftarı,
Bir gün yenə dönsün qulun, həyatından yaxşı yarı,
Qayıtmasam, hökmünü sür, tabe eylə üsyankarı".

İgid dedi: "Sözlərimi eyləyirəm mən ixtisar,
Get saraya, niyyətimi ulu şaha eylə nisar,
Cürətli ol, izin istə, bu uğurda yalvar, yaxar,
Min qızılı götür məndən, rüşvət kimi eyləmə ar".

"Rüşvətini qoy bir yana, – vəzir dedi gülə-gülə, –
Yol göstərdin bu kafidir, mən sarayda gəlib dilə
Niyyətini şaha desəm, yaxşı düşün bir fikr elə,
Öylə töhfə verər ki, o, görməmişdir dünya hələ.

And içirəm şah başına, o buraxmaz canımı sağ,
Qızılların deyil, mənə qismət olar qara torpaq,
Bu dünyada candan şirin bir şey yoxdur, olmayacaq,
Mən bu işə girişmərəm doğransam da varaq-varaq.

Fayda verməz belə bir iş, baş tutarmı belə dilək,
Şah danlayar bil ki, məni ya öldürər, hirslənərək,
Söyləyir ki: "Ona öyüd eyləyəydin özün gərək,
İş başladın fərsiz kimi, haqqın budur cəzanı çək".

Tutaq ki, heç hirslənməyib izin verdi şah Rostevan,
Nədən olsun ləşkərimiz günəşindən ayrı yanan!
Əgər getsən qüvvətlənər, hücum eylər qarı düşman,
Tədbiriniz işə keçməz, ola bilməz sərçə tərlan".



İgid dedi ağlayaraq: "Şirin cana qıymaq gərək,
Vəzir, yəqin bilməyirsən nədir sevgi, nədir sevmək.
Bilsən nədir dostluq, iqrar, daşa dönməz səndə ürək,
Bilirsənsə dostluq nədir, söylə inad bəs nə demək?

Günəş döndü, niyə döndü? Batdı getdi diyar-diyar,
Gəlin tutaq biz əl ona, o bizləri nura boyar.
Kim bilir ki, könül yanar neçin, nədən ləzzət duyar,
Axmaqların söhbətinə kim hirslənməz, qiymət qoyar.

Nə xeyrim var bu halımda ordumuza, Rostevana,
Bir çılğınam, göz yaşlarım axar gedər dörd bir yana
Yaxşı olar mən gedərsəm, imtahandır and insana,
Kim tab edər, Tariyelin dərdi düşsə əgər cana.

Əgər dözsəm bu halıma sınsın belim, dönsün yaya,
Əvəzimdə dəmir dönər muma, deyil sərt qayaya.
Çatmaz onun göz yaşına eşqim dönsə Ceyhun çaya,
Dada yetiş; dada yetib əvəz verrəm haqqı saya.

Əgər izin verməsə şah, bil, gedərəm mən xəlvəti,
Eşqə layiq olan qəlbim var, yanmağa ləyaqəti,
Qovmaz səni məndən ötrü yoxsa sənə bir hiddəti,
Keç yolumda həyatından, əsirgəmə sədaqəti".

Vəzir dedi: "Atəşinə yandım, bağrım dopdolu qan,
Göz yaşına nəzər salmaq sayılmasın çox da asan.
Gah danışmaq xeyir verər, gah dinəndə iş pozarsan,
Öldürsə də söyləyərəm, olsun fəda uğrunda can".

Vəzir dərhal ata mindi, saray deyib qanad çaldı,
Gəldi şahın hüzuruna, şah vəzirə nəzər saldı.
Qorxdu vəzir söz deməmiş öz yerində dondu qaldı,
Onu fikrə qərq eyləyən döyüş deyil, bir xəyaldı.

Şah baxdı ki, vəzir gəlib, dilsiz, qəmli, tənha durur,
"Nə tutqunsan, nə var", – dedi, – xəbər aldı məğrur-məğrur,
O söylədi: "Bir şey yoxdur, tərk eləmiş qəlbi sürur,
Şad xəbərlər verməyənin, sən haqlısan, boynunu vur.

Qüssə mənim qəmlərimə artırmayır bir zərrə xal:
Mən qorxuram, hərçənd ki, elçiyə yox xətər, zaval.
Avtandilin izin istər, keçmək üçün eylər xəyal!
Bir şey deyil Tariyelsiz onca dünya, cahi-cəlal".

Söyləyirkən o bunları qorxusundan əsdi zağ-zağ,
"Sözlərimdən bilin,– dedi, – nə haldadır indi qoçaq!
Qəhrəmanın göz yaşından sirab olur çöl, dərə, dağ.
Sən haqlısan qəzəblənib itil desən, gözdən iraq".

Qulaq asdı şah vəzirə, tutqunlaşdı qaşqabağı,
Dəhşət yağdı üz-gözündən, soldu birdən gül yanağı.
Qışqırdı ki: "Nə cürətlə çəkdin mənə çarpaz dağı,
Böylə xəbər verər şaha dost yox, ancaq düşmən, yağı.

Bəd xəbərdən kim sevinər, tez gələrək verdin xəbər,
Satqın, xain bir insandan kim mənə çox ziyan verər?
Dilin necə rəva bildi, şah yanında danışdı şər?
Yaramazsan vəzirliyə, yox ağıldan səndə əsər.

Padşahına xoş gəlməyən bir əməldən insan qaçar,
Bir insan ki, gicliyindən sarsaqlayıb nağıl açar,
Gərək mənim qulaqlarım o dinəndə olaydı kar,
Yeri vardır fərman verib etsəm indi ömrünü xar.

Avtandilin tərifindən gəlməsəydi elçi bu gün,
Sənə bir toy tutardım ki, alışardı yerin, göyün.
Afərinlər olsun sənə, iş tutmusan fəxr et, öyün!"
Qəzəbləndi şah, damarlar çöhrəsində düyün-düyün.

Qəzəblənib bir kürsünü Şərməddinə birdən çıxdı,
Kürsü dəydi ağ divara, hirs qovurdu şahı, yaxdı:
"Nə cürətlə bu sözləri danışırsan", – dedi, – baxdı.
Şərməddinin kağız kimi ağ üzündən yaşlar axdı.

Yazıq vəzir tez əkildi, baxılmadı xoş üzünə,
Parçalandı qəlbi yaman, kədər qondu üz-gözünə.
Dili rüsvay etdi onu, hiddətləndi şah sözünə,
Bəzən insan zərbə vurar düşmən kimi öz-özünə.



"Günahımdan artıq, – dedi, – Allah nələr göstərəcək,
Hökmdara ağ olanlar şöhrətli də olsa gerçək
Mənim kimi tale ona qara günlər göstərəcək,
Bu nə işdir ki, mən tutdum, günüm qara etdi fələk".

Rüsvay olmuş qəmli vəzir, öz atını çapdı çölə,
Gəlib çıxdı, görən kimi ərz elədi Avtandilə:
"Razı qaldım sizdən necə, saldın məni ağza, dilə,
Ağlım itib, dərd əlindən sərgərdanam indən, belə".

O istədi Avtandildən vəd olunmuş rüşvətini,
Qəribədir, yenə aldı öz əvvəlki xislətini
Yağlanmasa vali əgər, artıracaq hiddətini,
Cəhənnəmdə belə rüşvət göstərər öz qüvvətini.

"O dünyanı həyatına bir görüşdə eylədi dar,
Nələr söydü, nələr dedi, etdi yaman ömrünü xar.
Ağıl getdi, namus getdi, vəzirində qalmadı ar,
Təəccübdür, öldürmədi, səbir verdi pərvərdigar.

Mən bilirdim neyləyirəm, özüm dedim yavaşca bax,
Hirslənəcək Rostevan şah, düşün bunu yaxşı qabaq.
Kim qədərin qəzəbindən baş qurtarıb çıxdı qoçaq,
Uğrunda ölüm xoşdur, çəkdiklərim deyil nahaq".

Şanlı igid söylədi ki: "Qərar tutmaz burda könül,
Bir damla yaş axtarmağa çıxar yola sarı bülbül.
Bülbül ağlar, dərdə düşər, başlayınca solmağa gül,
Qəlbi necə təskin etsin həll olmasa əgər müşkül!

Onsuz, bilin, Avtandildə qalmamışdı tabu-rəvan,
Düşməliyəm səhralara öz yoluma olub rəvan.
Bu halımda vuruş deyir qanlımızla şah Rostevan,
Narazını azad etmək məsləhətdir saxlamaqdan.

Hirslənsə də padşah yenə, ərz etməli ona bir də,
Bəlkə duydu nədən ötrü könül düşdü ağır dərdə.
Umudumu qırsa əgər, dayanmaram bu yerlərdə,
Ölsəm əgər, qismətim də solub getsin pərdə-pərdə".

O qurtardı söhbətini, nahar vaxtı çatan kimi,
Məclis qurdu Avtandilə vəzir, qəlbə yatan kimi,
Avtandilsə bəxşiş verdi səxavətli insan kimi,
Dağıldılar, igid gəldi evə günəş batan kimi.

O götürdü xəzinədən yüz min qızıl bəri başdan,
Üç yüz ipək top ayırdı zərxaradan, al-qumaşdan,
Əqiq, yaqut, almaz aldı, bir xəzinə baha daşdan,
O bunları yola saldı Şərməddinə qaravaşdan.

Dedi: "Söylə ki, ey vəzir, yollayıram sənə sovqat!
Zənn eləmə ödəyirəm öz borcumu, xayır, heyhat!
Avtandilin sağ dönərsə, əgər aman versə həyat,
Uğurunda can qoyaraq eyləyəcək dünyanı mat".

Misilsizdir o qəhrəman, şəni sığmaz ağza-dilə,
Mehribandır səxavətdə bərabəri yoxdur hələ
İnsan oğlu, həmcinsinə ömrün boyu yardım elə,
Qohum, qardaş yaman gündə əvvəl gərək dada gələ.

## AVTANDİLİN QAÇMAZDAN ƏVVƏL ŞƏRMƏDDİNLƏ SÖHBƏTİ

Günəşüzlü: "Bu gün, – dedi, – könlüm, gözüm bəxtiyardır,
Ümidimin doğdu günü, elə bil ki, ilk bahardır.
Bu gün mənə göstərəcək, vəzir necə fədakardır".
Ey oxucu, sən onları tərifləsən yeri vardır.

O söylədi: "Rostevan şah peşman etdi könlü, gözü,
Bilməz nələr çəkdiyimi, qoparıldı yaram közü,
Onsuz mənə həyat yoxdur, evdə qalsam, gəzsəm düzü,
İnsafsızlıq eləyəni bağışlamaz Tanrı özü".



Dosta qarşı dostluğunu üç şərt ilə eylə sübut,
Ayrılığın at daşını, dostunla ol, vüsalı tut.
Var-yoxundan keç yolunda, simicliyi burax, unut,
Çöllərə düş, bəd günündə imdad elə, yalvar, ovut.

O söylədi: "Boş danışıq fayda verməz, gəlməz kara,
Parçalanan bir qəlb üçün gedim gəzim dərman çarə,
Yanımdasan madam hələ gəl qulaq as, əhdə yara.
Əməl eylə tapşırığa, mən gedərkən uzaqlara.

Tərk etmərəm qəhrəmanı dünya alt-üst olsa əgər,
Hər yalançı, xain çıxan Allahına şükr eyləyər.
Mənsə onu görməyəndə cavan ömrüm qəmlər yeyər,
Nəşə gedər, qüssə gələr, dil yas tutar, matəm geyər.

Bacardıqca öz şahına sədaqətlə eylə xidmət,
Mehriban ol, əyilmə heç, ömrün boyu düz yolla get,
Gözlə mənim kaşanəmi sən orduma rəhbərlik et,
Bu vaxtadək diqqətlisən, göstər yenə hünər, diqqət.

Amansız ol düşmənlərə, gözlə, qoru sərhədləri,
Yaxşılıq et təbəələrə, incitmə heç bir nəfəri,
Bil, mükafat verrəm sənə sağ-salamat dönsəm geri,
Boşa getməz, inan buna, hər tökdüyün alın təri".

Ağlayaraq vəzir dedi: "Sənsiz min dərd tapar məni,
Qorxum budur qəm ləşkəri talan eylər, çapar məni,
Qanlı fələk pəncəsindən, imdad eylə, qopar məni,
Yalvarıram, gərək ollam, gəl özünlə apar məni.

Kim gətirər belə uzun bir səfəri xəyalına,
Suverenlər bəd ayaqda həmdəm olur vassalına,
Səndən ayrı fikr eyləyən əriməzmi öz halına".
İgid dedi: "Mümkün deyil, rəvac vermə məlalına.

Mehribansan mənə qarşı, ola bilməz şübhə, xəyal,
Zalım fələk silahlanıb həyatımla eylər cidal,
Özgə kim var ləyaqətli – evdə qalsın, göstər misal,
Gəl ağlama, təsəlli tap, yurdu qoru, sən evdə qal.

Aşiq olan dolanmazmı səhraları divanə tək,
Sevdazadə qan-yaş töküb yanmalıdır pərvanə tək,
Nəsibidir gəzmək onun, gərək çıxsın cevlanə tək,
İnan buna, qəbul eylə sözlərimi dürdanə tək.

Sev, xatırla həyatımı mən düşərkən hicranlara,
Nə qorxum var bu dünyada, əyilmərəm düşmanlara.
Oğul gərək qəmgin deyil, gülər çıxsın meydanlara,
Nifrət olsun əskik işdən utanmayan insanlara.

Mən əməksiz bar yığmadım bu dünyada qucaq-qucaq,
Əyləncədir dost yolunda başdan keçib ömür qoymaq,
İzin verdi öz günəşim, nə ləngimək, nə dayanmaq,
Mən evimi tərk edərəm, ayrılmaram ondan ancaq.

Vəsiyyəti Rostevana apar çatdır özün sabah,
Yazdım ona: "Qayğı bəslə şəyirdimə, ey ulu şah!"
Mən ölərsəm qıyma cana, gəl işləmə sən də günah,
Ağla ki, olsun qismətin bir göz yaşı, bir də ki, ah".

## AVTANDİLİN GİZLİ QAÇARKƏN ROSTEVAN ŞAHA VƏSİYYƏTNAMƏ YAZMASI

Vəsiyyəti belə yazdı: "Şahım, yaşa torpaq sanı,
Mən çıxıram gizli yola, soraqlaşıb dörd bir yanı.
Tapmalıyam ürəyimi atəşlərdə yandıranı,
Bağışla gəl, Tanrı sevər bəndəsini, pak insanı.

Xoşlayarsan cürətimi, yox sözümdən zərrə boya,
Tək buraxmaz dostu kimsə verməmişsə ağlı zaya.
Əflatunun bu sözləri salınmalı qızıl suya:
"İki şeydir ruha, cana ziyan verən: yalan, riya".



Fəlakətin mənbəyidir hiylə qurub, yalan demək,
Qardaşımdan çox sevdiyim bir dostuma imdad gərək.
Fəlsəfədən ya ürfandan öyrənirik çəkib əmək
Ki, ömrümüz müqəddəslər cərgəsində açsın çiçək.

Nələr yazmış eşqə dair bu dünyanın loğmanları,
Eşqi tərif eyləmişlər, çiçəklənmiş imanları,
Vəcdə gəlib söyləmişlər: "Eşq ucaldır insanları",
İnan buna, zordur ancaq başa salmaq adamları.

Qüvvət verib Tanrı mənə, yağı bilsin qoy bu sözü,
Kömək elər bəndəsinə bəd ayaqda Tanrı özü,
Hər varlığı, hər yoxluğu nizamlayan odur, düzü,
İstəyərsə tez döndərər yüzə biri, bir yüzü.

Tanrımızın istəyindən kənar çıxmaq mümkün deyil,
Əsirgərsə gün nurunu solar gedər bənövşə, gül.
İnsan incə şey görəndə, fərəhlənər dərhal könül,
Ondan ayrı düşsəm əgər ömrüm yanıb olmazmı kül!

Gəl bağışla Avtandili olmuşsa da əmrinə ağ,
Neyləsin ki, o biçarə, ömrü olmuş əhdə dustaq,
Dərmanıdır təkcə səfər, yoxsa görməz ömrünü sağ,
Azad olsan kifayətdir, nə kaşanə, nə çöl, nə dağ!

İnsan əbəs dərdə düşüb öz-özünə verməz cəza,
Onsuz da ki, əzəl gündən öz hökmünü vermiş qəza.
Mötəbər ol, gəzmə qan-yaş gözlərindən sıza-sıza,
Yazılmışmı bu dünyada cürət edib kim var poza.

Tanrımızın hər istəyi öz hökmündə qalacaqdır,
Çevrilmərəm külə, bir gün geri dönnəm, sözüm sağdır.
Yenə gözüm şad, möhtəşəm hökmdara dalacaqdır,
Layiq olsam əgər ona, bu bir şərəf olacaqdır.

Töhmət edən olsa, məni öldür, de ki, alçaq, dəni,
Ulu şahım, ayrılığım qərq etməsin dərdə səni.
Xain çıxıb, tək buraxsam o gözləri yol çəkəni,
O dünyada görüş günü yaxşı rüsvay eylər məni.

Ziyan görməz dost düşünən, fikr eləyən, dostu duyan,
Görünməsin gözlərimə xain çıxan, şənə uyan.
Baxtı gülən hökmdara olmalıyam mən də hayan,
Nanəcibidr vədə verib, dost yolunu yolda qoyan!

Ər deyildir, qorxub deyən: "Döyüş yaman dəhşətlidir".
Beləsindən bir toxucu arvad daha cürətlidir.
Təmizlikdə ad qazanan qüdrətlidir, qüvvətlidir,
Bu dünyada bircə şərəf, bir də namus qiymətlidir.

Sal qayalı, daşlı yollar, keçməliyəm dar cığırlar,
Ola bilməz əngəl ona, ölüm gələr ömrü talar.
Cavan, qoca, güclü, zəif bu ölümdən bir pay alar,
Alçaqlıqla yaşamaqdan, şərəflə öl, adın qalar.

Ulu şahım, qulaq verin ərz eləyim bircə-bircə,
Ölməyini fikr etməyən səhv iş tutur xeyli, məncə,
Əcəl çıxıb gəzər bizi, bilməz gündüz, bilməz gecə,
Görüşməsək bir də, inan, ömrüm olar qəm, işgəncə...

Varlıqları yox eyləyən əgər bir gün qıysa mənə,
Dostlar soyuq vücudumu tutmasalar ağ kəfənə,
Atam, anam ağlamasa üzərimdə dönə-dönə,
Yanar qəlbin, böylə xəbər gəlib çatsa bir gün sənə.

Onda payla mənim bütün dövlətimi, sərvətimi,
Qullarımı azad eylə, yarıt bütün rəyyətimi.
Qızıl, gümüş bağışlayıb, güldür ağlar hər yetimi,
Onlar dua eylər mənə, artırarlar rəhmətimi.



Xəzinədə nəyim varsa, götür, sərf et ətək-ətək,
Yetimlərçin ev tikdirib, çaylar üstdən daş körpü çək.
Payla mənim dövlətimi, heyran burax dünyanı tək,
Səndən başqa atəşimi kim tapılar söndürəcək.

Xəbər alıb Avtandili, boş yerə sən etmə soraq,
Açdım könül dəftərini hüzurunda varaq-varaq.
Şeytan mənim can evimə girə bilməz yol taparaq,
Gəl bağışla günahımı, qoy sönməsin yanan çıraq.

Yalvarıram, Şərməddini incitmisən, könlünü al,
Bu il onun həyatını çulğamışdır dərdü-məlal,
Öyrənibdir o lütfümə, sən də onun qeydinə qal,
Qoy axmasın göz yaşları yanağından Ceyhun misal.

Vəsiyyəti qurtarıram, budur sözüm can təlaşda,
Ulu şahım, gəzməliyəm səndən iraq dağda, daşda.
Qəmgin olma, sezilməsin dərdü-ələm gözdə, qaşda,
Xoşbəxt olun, qalib çıxın düşmənlərlə hər savaşda".

Vəsiyyəti yazıb verdi, şimşək kimi çaxdı yenə,
Qövr eyləyib, dərd qəlbini qəhrəmanın yaxdı yenə,
Səndən özgə bir kəsim yox, deyib ona baxdı yenə,
Qucaqladı Şərməddini, göz yaşları axdı yenə.

## AVTANDİLİN DUA ETMƏSİ VƏ GİZLİ YOLA DÜŞMƏSİ

Dua edib söylədi o: "Ey yeganə qadir Allah,
Gah insana cəza verən, bağışlayan günahı, gah,
Dərk olunmaz, vəsf olunmaz, ey şahların hakimi şah,
Cəfa verdin, şəfa da ver, ömrüm səndən umar pənah.

Ərşi, fərşi xəlq eyləyən, yerin, göyün hökmdarı!
Sən qəlbimdən atəşini gəl söndürmə onun, barı.
Tale məndən ayrı salıb günəş üzlü nazlı yarı,
Sən yaratdın məhəbbəti, göydə varı, yerdə varı.

Kərim Allah, kömək elə, başlayıram səyahətə,
Yetir dostun imdadına, salma məni zəlalətə,
Tufanlardan, şeytanlardan ömrü çıxar səlamətə,
Sağ dönərsəm, qurban kəsib başlayaram ibadətə".

Dua etdi o beləcə, mindi ata bol ağladı,
Baxdı ona Şərməddin də, yandı səhra, kol ağladı.
Dağı dəldi göz yaşları, daşda saldı yol, ağladı,
Ağasından ayrı düşən ovunmadı, qul ağladı.

İgid çıxdı səyahətə, gəlin onu izləməyək,
Kaşanəyə qapanmışdan, Rostevandan, – şahdan deyək
Səhər durdu od saçaraq, dərd əlindən qəlbi kövrək,
Əmr elədi vəzir gəlsin, vəzir gəldi titrəyərək...

## ROSTEVAN ŞAH AVTANDİLİN GİZLİ GETMƏSİNDƏN XƏBƏR TUTUR

Ehtiramla vəzir gəldi hökmdara endirdi baş,
Şah soruşdu: "Nə söylədin dünən mənə? Bir qara daş
Kimi çökdü can evinə həyəcan, kədər, qüssə, təlaş.
Söydün səni, çıxıb getdin qəlbin sınıq, gözündə yaş.

Arzusunu dedin onun, söydüm səni, nədir bu kar!
Düz demişlər: "Ömrü qəzəb dərdləndirər, elər qubar".
Bildiyini yaxşı düşün, aqilliyin dalınca var,
Dünən nələr dedin, bir də söylə bu gün, elə təkrar"!

Vəzir dedi hökmdara nə vardısa yana-yana,
Dilə gəldi şah Rostevan belə cavab verdi ona:
"Mən yəhudi Levi olum, deyilsənsə bir divana,
Bu xüsusda söz açma heç, doymamısan əgər cana!"

Çıxdı vəzir Avtandili çox axtardı, yoxdu əsər,
Ağlayaraq qullar dedi: "İgid gizli etdi səfər".
O söylədi: "Mən qorxuram, kimdə cürət varsa əgər,
Daxil olsun hüzuruna, hökmdara versin xəbər".



Şah, vəziri dönməyincə tez yolladı bir nəfəri,
Öyrənincə hadisəni, qayıtmadı qul da geri:
Şübhələndi şah Rostevan, artdı qəmi, dərdi-səri,
Yəqin dedi gizli qaçıb yüz nəfərin bərabəri.

Dərdi böyük hökmdarın çoxdu fikri, xəyalatı,
Bir ah çəkdi naləsindən yandı göyün yeddi qatı.
"Gəlsin, – dedi, – qoy həyasız nəql eyləsin əhvalatı".
Vəzir gəldi solğun, sarı, saxlayaraq ehtiyatı.

Matəm geyib yaslı kimi dərdli vəzir girdi zala,
Şah soruşdu: "Çevrildimi gün qərarsız bir hilala?"
Ərz elədi Şərməddin ki: "İgid düşüb gizli yola,
Artıq günəş atdı bizi, dünya oldu nursuz qala".

Şah çığırdı bir dəhşətlə: "Eyvah,– dedi, – bu nə hicrət?
Qamətinə, oğlum, mənim kor gözlərim qaldı həsrət".
Üz-gözünü cırmaqladı, görən şahı etdi heyrət:
"Batan günəş, hara getdin, edərmisən bir də ovdət?

Sən hakimsən öz-özünə, səyyah bilməz heç kəs səni,
Mən neyləyim, qəm evimə hücum eylər, talar məni.
Yetim qaldım, vay halıma, imdad elə, qadir qəni,
Dillər təsvir edərmi heç belə ağır qəm çəkəni?

Görməliyəm bir də səni sevinclərlə ovdan dönən,
Çinar boylum, gül üzünə həsrət qaldım, deməli, mən.
Səsin gəlməz qulağıma, ruhdan ayrı düşdü bədən,
Nəyə lazım bu təxtü-tac eldən ayrı düşəndə sən.

Mən bilirəm uzaqlara getsən belə, ey qəhrəman,
Bəsləyəcək həyatını ac qoymayıb oxla kaman.
Bəlkə Tanrı eləmədi bələliklə bağrını qan,
Kim göz yaşı tökər mənə sənsiz qalsa bir gün atan?

Yayıldıqca qəmli xəbər, hər tərəfə getdi çatdı,
Saray əhli saqqal yolub, yanaq cırıb, üz qanatdı.
Döyəclədi öz-özünü, yaxa cırdı, qana batdı,
Onlar dedi: "Layiq bizim zülmətə ki, günəş batdı".

Əyanları gördükdə şah qəmgin yasa batdı, durdu:
"Məhrum etdi günəş bizi öz nurundan" – deyib sordu:
"Nələr etdik biz ona ki, atdı bizi, doğma yurdu,
Sərkərdəsiz qaldı, demək, Ərəbistan, şanlı ordu".

Ağlayanlar yoruldular, dilə gəldi şah Rostevan:
"İgid təkmi çıxdı yola, var yanında ya pəhləvan?"
Qorxa-qorxa qul Şərməddin məktub alıb gəldi bu an,
Ağlayırdı, elə bil ki, üzmüşdülər canı, candan.

Ərz elədi: "Bu məktubu tapdım onun otağından,
Ağlayaraq nökər-nayıb gül yolarkən yanağından.
Yalnız gedib igid, umub pənahını yarağından,
Öldür məni, insaf elə, qurtar cavan fərağından".

Oxunuldu vəsiyyəti, başladılar ahu-zara,
Şah əmr etdi: "Qoşunlarım əlvan deyil, geysin qara!"
Xəbər verin dua üçün yetimlərə, yoxsullara,
Bəlkə onun bu düşdüyü dərdə Tanrı etsin çara".

## AVTANDİLİN İKİNCİ DƏFƏ YOLA ÇIXMASI VƏ TARİYELLƏ GÖRÜŞMƏSİ

Ay günəşdən ayrılanda süzüb gedər boşluqlara,
Vəslə yetsə, elə bil ki, pərvanədir düşər nara,
Gün olmasa gül yaşamaz, lalə hara, zülmət hara!
Nazlı yarı görməyəndə qövr eyləyər köhnə yara.



Başlayıram qəhrəmanın səfərindən indi sözə,
O, gedirdi ağlayaraq, bağrı-başı dönüb közə.
Axtarırdı öz yarını hey günəşi süzə-süzə,
Göz çəkərsə huşdan olur, yıxılırdı geniş düzə.

Bəzən nitqi kəsilirdi, dözülməzdi dərdi-səri,
Göz yaşları andırırdı çağıldayan Dəclələri,
Qoy dağılsın dərdim deyə, çevrilirdi bəzən geri,
Baş alaraq gedirdim at hansı yana, yox xəbəri.

O söylədi: "Səndən ayrı susan gəlsin min lənətə,
Aparmısan ağlı, huşu, könül istər vəslə yetə.
Ağlar səni axtarıram, yox taqətim bu həsrətə,
Nə xoşdur ki, aşiq olan tabe olsun məhəbbətə!

Bu dərbədər gəzməklə mən çıxarmıyam xoş zamana,
Bilsəydim ki, hirslənməzsən, qəsd elərdim şirin cana.
Hirslənərsən meyitimə, qəltan olsam qızıl qana
Qoy göz yaşım boğsun məni dönüb coşqun bir ümmana.

Dörd yanımdan qəm oxları canı dələr, dildən keçər,
Cərgə-cərgə hindu kirpik cəllad olub qanım içər,
Şəhla gözlər ömrü neçin sünbül kimi doğrar, biçər,
Gözlər, qaşlar, inci dişlər niyə mənə min dərd verər.

Ah, ey günəş, sən ki, nurlu bir gecədən yaranmısan,
Vahid qüvvə saymış səni ta əzəldən bəri insan.
Göy üzündə səyyarələr tabesində zaman-zaman,
Gəl döndərmə taleyimi, ayrı salma dostu dostdan.

Filosoflar baxıb sənə Tanrı dedi, düşdün dilə,
Zəncirlənmiş bir dustağam, yardıma gəl, çarə elə.
Axtarıram yaqutumu, bir şişə də keçməz ələ,
Mən ki, vəslin təşnəsiyəm, vurdu hicran, saldı çölə".

Əriyirdi o şam kimi, ağlayırdı göz yarına,
Hey çapırdı yol uzunu, yetişməyə tez yarına:
Şər düşəndə baxıb göyə yollayırdı söz yarına,
Ulduzları dindirirdi oxşadaraq öz yarına.

Söyləyirdi boşluqları süzən nurlu hilalına,
Səbəbkarsan aşiqlərin hər dərdinə, məlalına.
Səndə dərdlər dərmanı var, Tanrımızın cəlalına
And verirəm, kömək elə, yetir yarın vüsalına.

Qəm bürüyüb gündüz onu, gecə gözlər aşiq aya,
Çay görəndə atdan enər, göz yetirər axan çaya.
Çöhrəsinin göllərindən qanlar qatar hər dalğaya,
Minər yenə öz atına, keçər gedər dağ-daş, qaya.

Sərvi qamət ağlayaraq yol gedirdi, birdən durdu,
Qayalıqda kaman çəkib, bir keçini atıb vurdu,
Soydu onu, od qaladı, bir an içrə ocaq qurdu,
Yeyib yola düşdü yenə, üzündən qəm oxunurdu.

Qəhrəmanın sözlərini söyləməyə qüdrət hanı?
Necə yazım at çaparaq yollar boyu ağlayanı?
Çöhrəsindən qopardığı qızılgülün yoxdu sanı,
Yaxınlaşdı mağaraya, sevincindən coşdu qanı.

Əsmət onu görən kimi qanlı yaşlar tökdü durdu,
Huş başından uçdu yenə, həyacanla qəlbi vurdu.
Qoç Avtandil endi yerə, öpdü onu, tez oturdu,
Dost gəlişi bayram olar, el içində məsəldi bu.

Soruşdu ki: "Cənabınız nə haldadır, deyin görək!"
Əsmət döndü buludlara, yanağından yaş süzərək
Dedi: "Səndən sonra o da çıxıb getdi, qalmadı tək,
Nigaranlıq üzür məni, gözləyirəm dərd çəkərək".

Elə bil ki, Avtandili oxladılar, batdı yasa:
"İgid belə etməz" – dedi, – sözü oldu xeyli qısa:
"Mən Tariyel deyib gəldim, məmləkətlər basa-basa,
Dönükdüsə, əhdi-peyman etməyəydi heç olmasa.

Mən ki, onsuz gün bilmədim, dərdə dözdüm, çəkdim cəfa,
Dönük çıxdı bəs o nədən, göstərmədi əhdə vəfa.
Döş gərmədi iztiraba, çıxıb gəzdi zövqü-səfa,
Mən nə deyim tale adlı mərhəmətsiz biinsafa!"



Əsmət dedi: "Sən haqlısan sözlərində, ey qəhrəman,
Tərəfkirsən!" – deyib məni töhmət etmə, saqın, aman.
Ərz eləyim əhdə vəfa elər ancaq qəlbi olan,
Onun qəlbi parçalanıb, var köksündə bir laxta qan.

Düşüncəmiz, şüurumuz qəlbimizlə bağlı möhkəm,
Könül getsə, baş götürüb onlar gedər qədəm-qədəm.
Qəlbə vida edən gəzər gözləri yaş, kirpiyi nəm,
Bilməyirsən odlar onu hansı atəş, hansı ələm!

Sən haqlısan, haqlı olur dosta qarşı dost töhməti,
Ancaq onun deyilməli deyil dərdi, müsibəti.
Yumşaq ürək parçalanar başlayarsa dil söhbəti,
Fələkzədə, mənə bəlli onun dərdi, fəlakəti.

Əzabının bərabəri yox dünyada əzab hələ,
Nəql eləsə insan deyil, qorxar dağlar, daşlar belə.
Elə bil ki, gözlərindən çağıldayır Fərat, Dəclə,
Gendən baxan döyüşməyi yaxşı duyar seyri ilə.

O yollandı səhralara hicr əlindən odlanaraq,
Dedim səndən Avtandilə mən nə yolla verim soraq?
Cavab verdi: "Məndən ona bir fayda yox, gəzsin ancaq
Bu yerləri ardımca qoy, könül düşməz burdan iraq.

And içmişəm, söz vermişəm, müti ollam bu iqrara,
Dönnəm geri öz vaxtında, çəkilsəm də əgər dara.
Ölsəm, məni ah deyərək, dost quylasın qoy məzara,
Sağ qalarsam heyran olsun, desin yazıq baxtı qara!"

O gedəndə günəş batdı, zülmət oldu dağlar başı,
Ağladıqca səhraları sirab etdi gözüm yaşı,
Məcnun kimi ah çəkirəm, ahım dəlir dağı, daşı,
Nə bədbəxtəm, əcəl belə üz çevirməz mənə qarşı.

Axtaranlar Çində haqlı söz yazılı bir daş bulur,
O söz budur: "Dost itirən öz-özünə düşmən olur".
Güldən gözəl bir qəhrəman zəfəran tək indi solur,
Axtar onu, imdadını əsirgəmə, aman, nolur!"

İgid dedi: "Mən görürəm çox haqlısan sözündə sən,
O dustağa nə etmədim eşqin çılğın əsiri mən.
Suya cuman maral kimi üz döndərib qaçdım evdən,
Gəzdim onu, axtarmamış qoymadım bir çayır, çəmən.

Büllur bədən, yaqut dodaq, sədəf dişli bir nazlı yar
Qoyub gəldim, nə sevgilim, nə mən oldum şən, bəxtiyar.
Mürəbbilər incik salıb, tutmamışam eldə qərar,
Şəfqət, hörmət göstərdilər könül qırdım, etdim fərar.

Ərəb şahı tərbiyəçim, qüvvətlidir, var qüdrəti,
Xoşlar məni oğul kimi, haqdan gəlir bol neməti.
Qaçdım ona ağ olaraq, tərk elədim hər şəfqəti,
Günahkaram, gözləmirəm Tanrımızdan mərhəməti.

Mən bunları ancaq onun xatirinə etdim özüm,
Aldatmadım qəhrəmanı, birdir gecəm, həm gündüzüm.
Sərgərdanam, atəşinə yanmaqdayam, budur sözüm,
Ağlamaqdan kor olsunmu indi mənim onsuz gözüm".

Sonra dedi: "Bu söhbəti qoyaq, bacım, bir yana gəl,
Könül aqil insanların sözlərinə etsin əməl.
Gəzim onu, ya mən üstün çıxım, ya da zalım əcəl,
Asi olsam nə mənası, bu yazılıb ömrə əzəl".

Deyib susdu, göz yetirib süzdü yolu, otaqları,
Atlanaraq keçdi həmən meşələri, bulaqları.
Əsən ruzgar dondururdu çöldə yaqut yanaqları,
Söylədi ki, nədən solur ömrün yaşıl yarpaqları!

Şikayətə gəlib dedi: "Neyləmişdim, pərvərdigar!
Baxtım qara, dostdan uzaq, gəzməkdəyəm diyar-diyar.
İki dostun ayrısıyam, qabağımda uçurumlar,
Ölsəm əgər nə qəm, axır bir gün əcəl ömrə qıyar".



## AVTANDİLİN TARİYELİ AXTARMASI VƏ AH-ZAR ETMƏSİ

Dost bir gülün dəstəsiylə zərbə vurdu qəlbimizə,
Dönük çıxdı iqrarına, yalan satdı yaman bizə,
Ah, ey tale, ondan ayrı sevinc gülməz bir də üzə,
Töhmətli dost, biabır dost görünməyir nədən gözə.

Mən heyranam bu dünyanın qəmli olan insanına,
Dərdli dəmlər ağlayanın xeyri varmı öz canına?
Kəc fələyin, oğul kimi girməlidir, meydanına,
Gəzim sərvi, günəş qızı, sadiq könül fərmanına...

Çıxdı dostun sorağına o qəhrəman gözü yaşlı,
Hey axtardı, hey çağırdı, gecə-gündüz dağlar aşdı.
Gur meşədən, göy dərədən, sazlı çöldən soraqlaşdı,
Üç gün gəzdi, tapılmadı o zavallı başı daşlı.

Söylədi ki: "Neyləmişəm, ulu Tanrı, axı sənə?!
Cəza üstdən cəza verdin, qəzəbləndin dərdli mənə...
Hakim sənsən, məhkum mənəm, yalvarıram dönə-dönə,
Öldür məni, nə olar ki, yetir əziz nemətinə".

## AVTANDİLİN TARİYELİ ŞİR VƏ PƏLƏNGİ ÖLDÜRMÜŞ HALDA TAPMASI

Rəngi qaçmış o pəhləvan ağlayırdı, düşünürdü,
Vadiləri seyr etməyə öz atını dağa sürdü,
Qamışlığın ətəyində şəvə rəngli bir at gördü,
"Yəqin odur, söz yox buna! – deyib dağdan baş götürdü.

Bir deyildi şətarəti, mindi, varıb endi dağı,
İşıq gəldi gözlərinə qızıllaşdı al yanağı.
Öldü qəmlər birdəfəlik, sevinməyin gəldi çağı,
Qasırğadan seçilmədi çatarkən o, dağ aşağı.

Qəm çulğadı vücudumu görən kimi Tariyeli,
Sağ yanında qanlı qılınc, öldürülmüş aslan vardı.
Sol yanında cansız pələng, qana batmış qalxan vardı,
Sinəsini parçalayan alov vardı, vulkan vardı.

Huşsuz idi, əllərilə qucduğu şey – qara torpaq,
Ölüm ona yaxınlaşmış, həyat ondan xeyli uzaq.
Cəhd elədi ayıltmağa, çıxdı yaddan töhmət, qınaq,
Söylədi ki: "Avtandiləm, oyan, qardaş, dur sözə bax".

Əllərilə sildi onun sonsuz axan göz yaşını,
Baş ucunda əyləşərək tez qurutdu göz, qaşını.
"Unutdunmu yoxsa, – dedi, – Avtandili – qardaşını?"
O bir cavab vermədi heç, tərk etmişdi huş başını.

Nəql etdiyim həqiqətdir, yazdım onu bu dastana,
Gözlərini sildi həmən, igid gəldi ağla, cana.
Görən kimi Avtandili qucaqladı yana-yana,
And içirəm, rast gəlməyib dünya belə bir insana!

O söylədi: "Sözdən dönən iqrarsızlar dönsün daşa,
Ölməmişəm, əhdə vəfam sağlığımda gəldi başa.
Qoy mən qıyım öz canıma, sən geri dön, azad yaşa,
Ancaq məni basdır yerə, yem olmayım qurda, quşa".

İgid dedi: "Kimdir eşqə tutulmayan bu dünyada,
Pərvanə tək kim yanmamış, kim düşməmiş belə oda.
Ancaq verməz həyatını sənin kimi bir kəs bada,
Şeytan yoldan etmiş səni, gəl eləmə ömrü fəda.

Sən aqilsən, gəl qulaq as aqillər də belə deyər:
"Ər dünyada ər olmalı, olmamalı bir ağciyər.
Fəlakətlər çəksə insan dönər daşa, dil bərkiyər,
Bəzən insan öz ağlının bəlasından qəmlər yeyər".

Sən aqilsən, ancaq işi görməyirsən loğmanvarı,
Həmdəmindir səhraların ən yırtıcı heyvanları.
Ağlayaraq getsən əgər, tərk eləsən insanları,
Yəqin bil ki, ələ düşməz ömrün əziz dövranları.



Kim sevməmiş, kimin qəlbi eşqə qurban verilməmiş?
Yar yolunda huşdan olub kim müztərib görülməmiş?!
Kim deyər ki, ayrılıqdan sonra vəslə irilməmiş,
Bu dünyada qızılgüllər heç tikansız dərilməmiş.

Bir yol güldən soruşdular: "Kimdir səni xoş yaradan?
Qəribədir, tikanlısan, dərilməzsən çox da asan".
Gül söylədi: "Hər şirinçin bir acını dadmalısan,
Vəslin zövqü olardımı olmasaydı həsrət, hicran?

Sorğusuna cavab verdi cansız güldən insan belə:
Əmək çəkib tər tökməsən sevinc gəlməz bil ki, ələ.
Şeytan işi uğurludur, bir söyləyən yoxdur hələ,
Qərib tale neylədi ki, başlamışsan bu nisgilə?

Gəl qulaq as sözlərimə, düşək yola, doyma cana,
Əməl etmə öz fikrinə, boyun əymə öz ağlına.
Sevmədiyin bir işi et, sevdiyindən çəkil yana,
Xeyirlidir, uğurludur, dediklərim, inan buna".

O söylədi Avtandilə: "Yandı könlüm oldu kabab,
Divanəyəm, təvanım yox, sözlərinə verim cavab.
Neçin asan gəlir sənə bu çəkdiyim dərdü-əzab,
Əcəl gəlir, xoş dəmlərim yaxınlaşır, edir şitab.

Duaçıyam ölən gündə, yalvarıram bu halətlə,
Ayrı düşdük bu dünyada, ömür sürdük zəlalətlə.
O dünyada biz qovuşaq, deyib gülək hərarətlə,
Dostlar, məni siz basdırın, can verirəm bu niyyətlə.

Aşiq olan yaxşı görür can ayrılır cananından,
Mən sevinclə yaxlaşıram, yaxınlaşır nazlı canan.
Ta gəlincə üz-üzə biz göz yaşımız olur rəvan,
Məsləhət al, ancaq könül istəyənə qol qoy, dolan.

Budur qəti söyləyirəm, əmək çəkmə, mən dərbədər,
Getməliyəm bu dünyadan, tərk et məni, qoy bir qədər
Rahat ölüm, bil ki, ömrüm bir kimsəyə verməz səmər,
Ruhum ruhlar aləminə uçub getmiş, pərvaz edər.

Nələr dedin, nə deyirsən bilməyirəm mən ki, haşa;
Ayrılıram bu dünyadan, ömür gəldi çatdı başa.
Cahan zindan olur mənə, baxdıqca bu dağa, daşa,
Getməliyəm gözüm yaşı axan yurda, sən qal, yaşa!

Aqil belə etməz dedin, bir yaxşıca fikr elə gəl,
Huş olsaydı məndə əgər, dediklərim düzdür, əzəl
Gündən bəri gül yaşamaz gün olmasa, başlar xəzəl,
Tərk et məni, əzab vermə, yaxınlaşır artıq əcəl!"

Yenə nitqə gəldi yanan Avtandilin dil-dodağı:
"Boş sözlərim neylər sənə mən bilirəm, sözüm sağı,
Yaxşı deyil, öz-özünə kəsilmə gəl qanlı yağı,
İşıq düşməz kainata bulud olsa ay qabağı.

Sözlərimi dinləməyə yoxdur səndə həvəs demək,
Bilmədim ki, səndən ötrü çəkdiklərim boş gedəcək.
Əcəl xoşsa, söz demirəm, qoy açmayıb solsun çiçək,
Lakin mənim ürəyimdə qalmasın bu arzu, dilək.

Mən yarımdan, gül üzünə kirpikləri kölgə salan,
Qabağında hinduları şahmar kimi yatıb qalan
Şux nigardan ayrılmışam; ərəb şahı, bir mehriban
Hökmdardan ayrılmışam, öz yoluma olub rəvan.

Sənsə geri qaytarırsan dərdli məni, peşman məni,
Zəncirlənmiş əsirinəm, dur bir dolan göy çəməni.
Min atına, könül belə arzulayır görsün səni,
Ayrılarkən heç olmasa aparmayım qəm-qüssəni".

O dil tökdü öz dostuna, başlanıldı yalvar-yaxar,
Söylədi ki, bir at çapsan qüssə qaçar, qəm dağılar.
Kirpiyini endirərək razı oldu igid çapar,
Öz dostunun sözlərinə boyun əydi, verdi qərar.

Sən istəyən olsun, – dedi, – sür atımı, gətir bəri,
O mindirdi öz atına köməkləşib cəngavəri.
Yol getdilər, bol getdilər baxdı önə, baxdı geri,
Fərəhləndi seyr etdikcə gəl-gəl deyən düzənləri.



Əyləndirib Tariyeli göstərirdi o dağları,
Min bir sözlə açılırdı gözəl mərcan dodaqları.
Gəncləşərdi qart qocalar eşitsəydi qulaqları,
Dağda bitən lalə kimi allanardı yanaqları.

Əlacının təsirini tez Avtandil gördü, qandı,
Gül yanağı sevincindən alovlandı, alovlandı,
O dərdlərin dərmançısı bir həkimdi, bir loğmandı,
Aqilanə sözlər dedi, büryan oldu, aharlandı.

Yol uzunu ortalıqda qızışınca şirin söhbət,
O soruşdu Tariyeldən: "Gəl bu sirri sən bəyan et,
Yar töhfəsi bu qolbağa çoxmu səndə sevgi, hörmət?
Cavab versən sualıma razı qallam səndən əlbət".

Cavab verdi Tariyel ki: "Yar qəlbimi, diləyincə
Gör ki, qolbaq həyatımdır, ağlayıram gündüz, gecə.
Səbəb odur, dünyalarca dəyəri var onun məncə,
Onsuz verər dünya mənə cəhənnəmi bir işgəncə".

O söylədi: "Mən də səndən gözləyirdim bunu ancaq,
Zənn etmə ki, bu cavabın tərəfimdən mədh olacaq.
Əsmətdənsə, yaxşı olar itirilsə qızıl qolbaq,
Sən işində yanılırsan, bircə düşün, fikr elə, bax!

Hazırlamış zərgər onu, bir neçə gün çəkmiş əmək,
Nə ağlı var, nə bir dili, nə köksündə vuran ürək.
Sən Əsməti heç sanırsan, bu haqsızlıq olsa gərək,
O Nəstanın yoldaşıdır, sənin bacın, arxan demək.

Əsmət sənin köməkçindir, həyatınçın pərvanədir,
Sevgilinlə görüşməyə səbəbkar o dürdanədir.
Nəstan ondan ədəb görüb Əsmət üçün divanədir,
Sən atırsan zavallını, məgər qırıq peymanədir?!"

O söylədi Avtandilə: "Sən doğrusan, sözlərin haqq,
Baxar mənə, anar qızı o zavallı, ömrü dustaq.
Sən söndürdün atəşimi, istəməzdim mən yaşamaq,
Madam sağam, gedək ondan üzr istəyək, əhval tutaq".

Avtandillə razılaşıb öz yoluna oldu rəvan,
Qələm gözəl tərifini bitirməyə aciz, inan,
Dişlər inci, gül dodaqlar qızılgüldən daha xəndan,
Əgər şirin dil töksələr ilan çıxar yuvasından.

O söylədi Tariyelə: "Qəlbi etdim sənə qurban,
Gəl qoparma köz yaramı, sən eləmə bağrımı qan,
Həkim neylər, öz dərsini öyrənməsə təlim alan,
Xeyri varmı insanlığa bir xəzinə qalsa pünhan?

Qəm yeməkdə nə fayda var, gəzmə candan doya-doya,
Binəsib yox gedən əsla bu dünyadan o dünyaya!
Gül günəşi gözlər, durar günlərini saya-saya,
Tanrı kərəm etsə xoş gün, qalibiyyət düşər paya".

O: "Sözlərin Tariyelçin bir dünyaya dəyər, – dedi,
İnsan sevər nəsihəti, ağlı olsa əgər, – dedi,
Sən bilirsən qəm ordusu ömrü talan edər, – dedi,
Haqq verməsən bu halıma mat qalmaram məgər? – dedi.

Mum odlanar, bu qaydadır, odlanmağa var adəti,
Kim deyər ki, mən görmüşəm suda belə əlaməti,
Qəmgin insan özgə üçün tapar yenə cəsarəti,
Bilməzmisən ömrün solur, gedir zövqü şərarəti".

## TARİYELİN PƏLƏNGLƏ ŞİRİ NECƏ ÖLDÜRDÜYÜNÜ AVTANDİLƏ NAĞIL ETMƏSİ

Bir qulaq as nələr çəkdim mən ömrü kəm, baxtı qara,
Sən aqilsən, həqiqəti sözlərimdən özün ara!
Gözətlədim hey gəlmədin, tab qalmadı intizara,
Tərk elədim mağaranı, sürdüm atı səhralara.



Qamışlıqdan keçib gəldim at üstündə mən bu yerə,
Baxıb gördüm ki, rast gəldi bir sevimli aslan şirə,
Onlar bir cüt aşiq kimi yollandılar bu dikdirə;
Az keçmədi heyran oldum mən onlara birdən-birə,

Gəlib çıxdı yanıma at mehribanca şir aslanla,
Seyr elədim mən onları bir nəşəli həyacanla;
Aslan şirin xidmətində dayanırdı başla, canla,
Birdən-birə qarşıladı dost-dostunu min üsyanla.

Fərəh saçıb gəlirdilər onlar qoşa, yavaş-yavaş,
Bilməm nədən qızışdılar, başlanıldı dava-dalaş.
Qadın cinsi qorxaq olur, bəd ayaqda şir qaldı çaş,
Qaçdı çölə, yelə döndü dalısınca o qəlbi daş.

Qəzəbləndim mən aslana, görən kimi bu rəftarı,
Ər cürəti gülünc olur – təhqir etsə nazlı yarı.
Hücum etdim, zərbə vurdum, qılıncımla böldüm yarı,
Tez öldürdüm, qoy əzabsız təslim olsun, dedim barı.

Vəcdə gəldim birdən-birə atdım yerə tez şəmşiri,
Xatırlayıb sevgilimi, qucaqlayıb öpdüm şiri,
Üz-gözümü cırmaqlamaq oldu onun ilk tədbiri.
Qəzəbləndim, vurdum öldü, dedim sən də qalma diri.

Çox çalışdım təskin olsun, əmək çəkdim, getdi bada,
Qəzəbləndim vurdum öldü, baş bədəndən oldu cüda.
Sevgilimlə dalaşdığım günlər gəlib düşdü yada.
Heyran olma, bir göz yaşı qismətimsə bu dünyada.

Budur ömrün müsibəti, mənim baxtım belə gəldi,
Mat qalma sən, qəm sonası pərvaz etdi gölə gəldi.
Xoşdur, dedi, əcəl məni pusdu, axır çölə gəldi.
Ağladıqca o qəhrəman dağlar, daşlar dilə gəldi.

## TARİYELLƏ AVTANDİLİN MAĞARAYA GƏLMƏLƏRİ VƏ ƏSMƏTİ GÖRMƏLƏRİ

Avtandil də baxdı ona hönkür-hönkür ağladı o,
"Qardaş,– dedi,– səbr elə gəl hicrana döz, davamlı ol!
Dərdi verən Tanrımızın şəfqəti bol, rəhməti bol.
Əgər hicri xoşlasaydı verməzdi heç vüsala yol.

Eşq əhlinin ömrü keçər qara gündə, fəlakətdə,
Müsibətlər ilkin gələr, şadlıq doğar nəhayətdə.
Sevgi ömrü yaxlaşdırır qəbr evinə məlamətdə.
Ömür sürən gülər axır, cahil qalmaz cəhalətdə".

Ağlayaraq yola düşdü o pəhləvan Avtandillə,
Əsmət gördü dostlarını, vəcdə gəldi canı dillə,
Çıxdı döşə o pişvaza, göz yaşları axdı çölə,
Öpüşdülər, ağlaşdılar, mehribanlar incə belə.

Əsmət dedi: "Ey şöhrəti dilə sığmaz pərvərdigar,
Hər şey sənsən, səndən bizim ürəyimiz nurla dolar.
İnsan ağlı tərifində aciz olar, sönük qalar.
Hicr əlindən mən ağları öldürmədin, rəhmətin var".

Cavab verdi Tariyel ki: "Tale bizi dərdə saldı,
Ağ gün verdi özgələrə, qara günlər bizə qaldı,
Dünya haman bu qanunla ömür verdi, ömür aldı.
Sən yazıqsan, lakin mənə ölüm böyük bir cəlaldı.

Hansı susuz calar suyu, varkən ağlı öz başında,
Mən heyranam, çünki susuz çalxanıram göz yaşında.
Su həyatdır, qurutmazlar, sel çağlayar dağ başında,
İncim itdi, gülüm getdi, mən didərgin gənc yaşında".

Elə bil ki, Avtandilə gözəl yarı baxdı gendən.
O söylədi: "Yaşayarmı könül ayrı düşsə səndən;
Həyat sönər gözlərimdə düşsəm uzaq bil ki, səndən,
Ah, bir xəbər verəydilər xoşladığım yara məndən!



Gün batanda gül deyərmi solmalıyam baxıb aya?
Söylərmiyik bu nə qəmdir üstümüzə saldı saya.
Ah, ey ürək, davamlı ol çevril sən də sal qayaya,
Bəlkə yarı gördün yenə, vermə ömrü nahaq zaya!"

Sakit oldu onlar yenə, qövr elədi, dil közərdi,
Əsmət dəxi odlanmışdı, öz-özündən bixəbərdi,
Bir pələngin dərisindən mağaraya xalı sərdi,
Oturdular, hər birinin vardı deyiləcək dərdi.

Görüşməyin şərəfinə onlar bir məclis qurdular,
Ət qızardı, bir süfrənin dövrəsində oturdular.
Tariyelə – taqətsizə, ye, söyləyib üz vurdular,
Udmaq üçün hər tikəni yoxdu onda heç iqtidar.

Xoş söhbətdən insan oğlu ləzzət alar, qüvvət alar,
Məsləhətə qulaq verən xeyir görər, qismət alar,
Sönər güclü yanğı bir az, can bərkiyər, nemət alar,
İmkan tapıb əzabından bəhs eləyən ləzzət alar.

Yenə axşam qovuşdurdu igidləri, aslanları,
Könül açdı bir-birinə bu dünyanın mehmanları,
Səhər tezdən başladılar yenə köhnə dastanları,
Təkrarlayıb gətirdilər dilə əhdi-peymanları.

Nitqə gəldi Tariyel ki: "Dost yolunda çox cəfaya
Sinə gərdin, əvəz versin Tanrı özü haqqı-saya.
And içmişəm, and içirəm, qəsəm olsun günə, aya,
Könül gedən dosta qarşı can atacaq dost qalmaya.

Yanmağıma bais olma, insaflı ol, sözüm budur,
Can evimdə söndürülməz bir atəş var, uzaqda dur.
Odlanarsan yaxın gəlsən, bu dünyanın qanunudur,
Get yurduna, gözlər səni nazlı günəş, sevimli nur.

Əlacsızdır dərdim, çətin çarə elər Tanrı belə,
Eşidənlər bilsin ki, mən bir Məcnunam, düşdüm çölə,
Bir zamanlar aşiq kimi tanınardım yurda, elə.
Fələk vurdu Məcnun etdi, mən o gündən düşdüm dilə".

Dilə gəldi Avtandil də, öz dostuna etdi xitab,
Həkimanə sözlər dedi, arifanə verdi cavab:
"Qadir Allah ot göyərdər, can yaradar, eylər savab,
Bir şəfanı verməkdə o acizmi, ey xanə-xərab?!

Onda neçin xəlq eləmiş Tanrı bizi bu dünyada?
Həsrət qoyub yar hüsnünə, camalından etmiş cüda.
Bircə baxın eşq əhlinə, düşər daim oddan oda,
Sən yarınla birləşməsən, öldür məni, olum fəda.

Ər dünyada cəfa çəksin, sinə gərsin dərdə gərək,
Özgə söhbət lazım deyil, həyat sürsün qəm çəkərək.
Amansızdır xəsis dünya, var Tanrıda yumşaq ürək,
Sözlərimə gəl qulaq as, inad etmə, ondan əl çək.

Gəl qulaq as söyləyənə, nəsihətli hər kəlmə zər,
İzn istədim gəlmək üçün, izin verdi nazlı dilbər;
Dedim: "Qəlbi o döndərdi külə, yoxdur dildən əsər,
Kar verməram artıq sənə, getməliyəm, söz müxtəsər!"

O söylədi: "Sən qoçaqsan, davranırsan əjdər kimi,
Yaxşılıq et qəhrəmana Tinatinə edər kimi".
Çıxdım yola sərxoş deyil, ayıq gözlü ərlər kimi,
İndi onun hüzuruna qayıdımmı bifər kimi?

Gəl qulaq as sözlərimə, danışıram sirdaş kimi,
Çətinliklər üz verəndə sən möhkəm ol, bir daş kimi.
Gül saralar gün olmasa, parlamasa daş-qaş kimi,
İnsan gərək xeyir versin həmcinsinə qardaş kimi.

Hər bir yana get istəsən, öz haqqını gözətlə dur,
İstər aqil bir qəlb ilə, istər coşsun çılğın şüur.
Vüqarlı ol, əxlaqlı ol, ağıllı din, sakit otur,
Möhkəm ər ol, nə bir üzül, nə özünü odlara vur.

Tərk edirəm mən hələlik bir illiyə göy çəməni,
Gül mövsümü bu yerlərdə göz gəzdirib axtar məni;
Dönnəm geri gül mövsümü, çölün açan yasəməni
Hali etsin gəlişimdən baş qaldırıb bir gün səni.



Öz vaxtında qayıtmasam, sağ deyiləm bil ki, yəqin.
Qara torpaq olmuş yerim, demiş vaxtdır bağrıma sin.
Mən gəlməsəm, sən göz yaşı töküb ağla için-için,
Yox, sən bilən yaxşı olar, istər ağla, istər sevin.

Qəmgin olma sözlərimdən barı axır zamanlarda,
Öləcəyəm bilməyirəm at belində, ümmanlarda?
Dinmək bizim nemətimiz, bu tapılmaz heyvanlarda,
Güləcəkmi, bilməyirəm, baxtım qara dumanlarda...

Başağrısı verməm sənə, yoxdur məndə belə niyyət,
Hər nə qədər çox danışsam, səmər verməz sözüm əlbət.
Dost gəlməsə hüzuruna, sən dur onun dalınca get,
Gizli işlər bir gün olar aydınlaşar, bunu fikr et.

Nələr çəkdim tez bilərsən, inandıqdan sonra buna,
Nə fərqi var çöllər gəzim, ya oturum, yana-yana.
Könül tutar sözlərini olsam belə bir divana.
Nə etməli, bir gün əcəl qıysa əgər şirin cana!.."

And içdilər onlar sadiq olmaq üçün sözlərinə,
Çıxıb çölə ov vurdular dəyən kim gözlərinə.
Dönüb evə ağlaşdılar, əzab verib özlərinə,
Hicran sabah gələr, – deyə hey vurdular dizlərinə.

Ey oxucu, qoy göz yaşın axsın sənin yeyin-yeyin,
Qəlb ayrılsa bir qəlbdən o zavallı neylər, deyin?
Dostdan ayrı düşsən əgər yas saxlayıb qara geyin,
Müsibəti çox böyükdür, yaxşı dostu itirməyin.

Güldü üfüq, dan ağardı, yavaş-yavaş səhər açdı,
Ayrılaraq üç bəxtikəm, atlayaraq vidalaşdı.
Hər birinin yanağında gül qızardı, lalə açdı,
Vəhşiləşən bu aslanlar pələnglərlə yar-yoldaşdı.

Mağaradan ağlaşaraq yönəldilər onlar çölə,
Əsmət dedi: "Kim şirləri təsvir üçün gələr dilə!
Ey ulduzlar, günəş sizi yaxdı atdı mavi gölə,
Vay halıma, başım nələr çəkməlidir bundan belə!"

Pəhləvanlar o gün birgə düz getdilər, dağ aşdılar,
Gəlib axır göy dənizin kənarına yanaşdılar;
Bir gecəni ayrılmayıb bölüşməyə dərd açdılar,
Hicr əlindən dad eyləyib, sübhə kimi ağlaşdılar.

Birdən dedi Avtandil ki: "Gözüm yaşı olmaz carı,
Tərk elədin Firidunu, nədən gözəl havadarı?
Axtarmağa o yerlərdə günəş qızı, nazlı yarı
Getməliyəm, – qalx ayağa, bələdçi ol bir az barı".

Tariyelsə tabe olub yol göstərdi Avtandilə.
Başa saldı öz dostunu varlığilə gəlib dilə.
"Şərqə tərəf yollan, – dedi, – yönəl dəniz sahiliylə,
Əgər tapsan Firidunu əhvalımı ona söylə".

Bir keçini ovladılar qoyulunca ox kamana,
Dərdin imkan verdiyindən yeyib, həmən tez bir yana
Çəkildilər, uzandılar, gah insaflı, gah da cana
Qıyan tale, eləyirəm lənət sana, nifrət sana.

Səhər tezdən oyandılar, öpüşdülər bir də yenə,
Seyr etsəydi kim onları dönərdi bir dərdi minə.
Göz yaşının məcrasıdır qalxan sinə, enən sinə,
Uzun zaman qucaqlaşıb, sarıldılar bir-birinə.

Vidalaşdı onlar yenə, saçlarını yola-yola:
Biri endi yoxuş deyə, dırmanırkən biri yala.
Səsləyərək bir-birini baxırdılar bəzən dala,
Günəş belə qəmgin olar nəzər salsa belə hala.

## AVTANDİLİN FİRİDUNUN YANINA GETMƏSİ VƏ MÜLKİXƏZANZARDA ONA RAST GƏLMƏSİ

Dünya! Nəsən, bir xəbər ver, çox dolanma gəl bir dayan!
Ağlar gəzər mənim kimi hər gün sənə bel bağlayan.
Dolandırıb insanları məhv edərsən, yox bir hayan,
Sən atsan da, Tanrı atmaz, doğar, yaşar belə insan.



Dost ayrısı o söylədi: "Nədir bu dərd, bu ayrılıq?
Axdı yenə göz yaşlarım yanağımdan ılıq-ılıq.
Göydə vəslə yetişməkdən çox ağırdır bu ayrılıq,
İnsan oğlu min rəng olur, müxtəlifdir xasyət, qılıq".

İçmək üçün göz yaşını heyvan doldu sol və sağı,
Çarə yoxdu atəşinə, xatırladar yanar dağı.
Tinatinin fikri onun eyləmişdi qəm ovlağı,
Mərcan içrə bitən büllur gül parladan nur çırağı!

Sərv ağacı əsdi, gülün al yanağı soldu, söndü,
Büllur, yaqut bir göy daşa döndü, bilsən necə döndü.
Kəc ölümə sinə gərib belə dedi gülümsündü:
Günəş, ömrü tərk elədin, mən demərəm bu nə gündü!

Sənin, – dedi, – nazlı yarım Tinatinə var bənzərin,
O, yerlərin çırağıdır, sən də bu sonsuz göylərin.
Şadlanıram görsəm səni, bəlli deyil yurdun-yerin,
Sən yarımla yaxdın məni, qalsın deyə kül əsərin.

Qışda bir ay gün olmasa biz donarıq həsrət yaya,
Mənsə bir cüt gün ayrısı, əməklərim getmiş zaya,
Ölçüsü çox qəmlərimin, ağrı bilməz bircə qaya,
Bıçaq kəsər, dərdə salar, əlac etməz o yaraya.

O, dərd açdı bir günəşə, sözlərinə verdi rəvac:
"Qüvvətlidir hakimindən, günəş səndən umur əlac,
Yalvarıram, insanlara verdin ağ gün həm təxti-tac.
Gəl ayırma sevgilimi, gündüzümü etmə tərac.

Get, ey Zöhl, dərdi çoxalt, göz yaşına göz yaşı qat,
Geydir mənə qəm libası, həmdəm olsun ömrə zülmət.
Qoy daşıyım ulaq kimi, qəm yükünü üstümə çat,
Yar yolunda göz yaşları tökdüyümü yara anlat.

Yalvarıram, sən adilsən, aləm bilir, ey Müştəri!
Bir cüt ürək bəhsə girib, kim haqlıdır ver xəbəri,
Ədalətlə sən işə bax, həqiqətdən durma geri!
Sən odlama gəncliyimi, odlandırmış nazlı pəri!

Mürrix, məni nizənlə dəl, vur qəlbimə min bir yara,
Doğra məni, sən parçala, qərq et məni al qanlara.
Əgər getsən ölkəmizə dərdimi aç nazlı yara,
Sən bilirsən ömrüm düşüb səadətdən çox kənara.

Ah, ey Zöhrə, imdad elə yar ömrümü saldı oda,
İnci dişli, mərcan dodaq, bir nazənin pərizada,
Sən verirsən gözəllərə min bir işvə, min bir əda,
Divanəyə döndərirsən mən kimini bu dünyada.

Ey Utarid, bəxtin durur taleyimlə yan-yanaşı,
Dolandırıb günəş məni, odlandırır addımbaşı.
Dərdimi yaz, mürəkkəbin göl dolusu gözüm yaşı.
Qələm-çöpə dönmüş tənim, yaz dayanma, olma naşı!

Mən soluram ömrün kimi, Qəmər, mənə gəl acı sən,
Bir günəşdir belə məni gah şişirən, gah incəldən.
Huşsuz əzab çəkdiyimi söylə bilsin siminbədən,
Xəbərdar et, yar yolunda müntəzirəm ölməyə mən.

Yeddi ulduz, yeddi qardaş cəm olaraq ta bir yerə,
Utaridlə, Zöhl, Günəş, həm Müştəri birdən-birə
Şahid olur əhvalıma yanlarında Mürrix, Zöhrə,
Qəmər yara söylə ki, mən ondan ayrı düşdüm şərə.

Könül, nədən bəzən axar, bəzən durar bu göz yaşın,
Məhv olmağın nə mənası, şeytanmıdır arxadaşın.
Şüurunu aparmışdır şəvə saçlı qələm qaşın.
Kim nəşədən üz çevirər, desin bunu yar-yoldaşın.

Sağ qalarsam qazancındır, şirin şeydir gözəl həyat.
Bəlkə yenə doğdu günəş, nəyə lazım əfsus, heyhat!"
Ağlayaraq oxuduqca o yol gedir altında at.
Bülbül onun sədasından şax budaqda qalırdı mat.

Heyvanlar da qulaq asır o gəldikcə şirin dilə.
Xoş səsinə dalmaq üçün çıxdı bir-bir daş sahilə.
Onlar belə əhvalına ağlayırdı gilə-gilə,
O gedirdi, oxuyurdu, göz yaşları dönüb selə.



Gəldi bütün alqış üçün istiqanlı, soyuqqanlı
Yırtıcılar, kitlər, quşlar, gəldi bütün adlı-sanlı
Şərqli, qərbli, gürcüstanlı, ərəb oğlu, hindistanlı,
Gəldi Misrin övladları, rus, fransız, həm iranlı.

## AVTANDİLİN TARİYELDƏN AYRILIB NURƏDDİN FİRİDUNUN YANINA GƏLMƏSİ

Yetmiş günlük bir səfəri ağlayaraq başa vurdu,
O dənizdən yaxınlaşan yolçuları görüb durdu:
"Ricam budur, siz kimsiniz, bu torpağı, bu şən yurdu
Hansı hakim dolandırır, xəbər verin" – deyə sordu.

Onlar dedi: "Bu qamətə heyran olar göyün quşu,
Alqış sənə, hörmət sənə, kimin gəlməz səndən xoşu.
Firidunun ölkəsidir, Türkiyəyə sərhəd, qonşu,
Söyləyərdik bizlər kimik, almasaydın ağlı, huşu.

Ölkəmizə bil, Nurəddin Firidundur bir hökmdar,
Şücaətdə, səxavətdə tək yaranmış, igid çapar,
Günəş mənzər padşahımız qorxusuzdur, cürəti var,
Ömrü onun nur kimidir, bərabəri göydən yağar".

İgid dedi: "Hörmət edən çatsın görüm min hörmətə,
Yol göstərin, getməliyəm sizin gözəl səltənətə.
Ölkənizə bu diyardan mən çataram nə müddətə?"
Avtandili ötürdülər başlayaraq xoş söhbətə:

"Xəzanzara sən on günə get bu yolu tuta-tuta,
Sivri oxlu, kəskin qılınc şah Firidun, ömrü buta –
Orda yaşar, ey sərvi boy, rəngi yaqut, ey bixəta,
Neçin bizi yandırdın sən, ömrümüzü saldın oda?"

İgid dedi: "Mənmi təsir etdim könül tellərinə?
Sizin kimi kim vurular qışın solğun güllərinə?
Əzəmətlə at çaparkən gəlib ərəb ellərinə,
Baxaydınız mən saçanda nəşə insan dillərinə".

Bələdçilər qayıtdılar, qəlbi polad, boyu ər-ər,
Səyirdərək öz atını düşdü yola, etdi səfər;
Yol uzunu nəşəsini əks elədi xoş nəğmələr,
Göz yaşları bülluruna, şişəsinə etdi əsər.

Yol uzunu əcnəbilər durdu onun xidmətində,
Sevindilər baxıb onun nur gördülər surətində,
Yalvardılar getməməyə, dözmədilər firqətində,
Bələdçilik elədilər onun uzaq hicrətində.

Gəldi Mülkixəzanzara, öz atını qova-qova,
Çöldə xeyli qoşun gördü, ordu çıxmış çünki ova.
Hər tərəfi halqalayıb edirdilər sanki dava,
Qıy vurduqca səslərindən dağılırdı min bir yuva.

"Kimindir bu qoşun? – deyə, sual verdi bir nəfərə, –
Nə tufandır, yer göylərə qovuşmuşdur, göy də yerə?"
Söylədilər: "Firidun şah ova çıxmış səhra, dərə,
Qamışlıqlar pəncəsində keçirilmiş bir xəncərə".

O, misilsiz əda ilə bu ləşkərə yaxınlaşdı,
Mən nə deyim, cürət edib qələm ondan söhbət açdı.
Hicranına tab gətirən dondu qaldı gözü yaşlı,
Qamətini kim gördüsə huşdan oldu, ağlı çaşdı.

Ovçuların qabağından bir qaraquş hürküb uçdu,
At çaparaq o qəhrəman cürətləndi, qanı coşdu.
Kaman çəkdi, yaman çəkdi, atdı vurdu, çatdı, qoşdu.
Dərhal quşun qanadların kəsdi, yenə yola düşdü.

Görən igid qəhrəmanı ox qoymadı gərgin yaya,
Dairəni dərhal pozub cəm oldular bir araya,
Dalısınca yollandılar kimi atlı, kimi saya,
Bəziləri mat qaldılar, oxşatdılar sal qayaya.

Qırx ovçuyla şah Firidun qalxmış idi bir dikdirə,
Qırx ovçu ki, qüvvətində bir ordudur sanki hərə!
Qoç Avtandil dövrəsində ordu gəldi haman yerə,
Ləşkərini pozğun görüb hirsləndi şah birdən-birə.



O söylədi: "Dairəni pozub ordu gedir hara?"
Qul yollandı xəbər üçün göy təpədən vara-vara,
Rast gəlincə gözlərini qamaşdıran bir çinara,
Yadırğadı qul sözünü, gəlməz oldu ağlı kara.

İgid duydu əhvalatı söylədi ki: "Qayıt geri,
Get, ağana – Firiduna yetir məndən bu xəbəri,
Söylə gəlmiş hüzuruna uzaqlardan bir sərsəri,
Vətənindən qaçıb igid Tariyelin bərabəri".

Xəbər üçün Firiduna dayanmadı, cumdu kölə,
Ərz elədi: "Gələn gündür, işıq salır yurda, elə.
Huşdan olar əgər onu ağıllılar görsə belə,
Söyləyir ki: "Mən qardaşam hindistanlı Tariyelə".

Firidunun qaçdı qəmi eşidincə Tariyeli,
Vəcdə gəldi bu kəlmədən gözlərinin axdı seli,
Kirpiyindən boran qopdu, gül soldurdu dağlar yeli,
Görüşdülər, alqış səsi çulğaladı geniş çölü.

Yaxınlaşdı qəhrəmana, tez təpədən endi düzə.
"Əlbət, – dedi, – bəxtiyarıq, günəş qonaq gəldi bizə".
O bir qulun tərifindən artıq şirin gəldi gözə,
Atdan enib ağlaşdılar onlar sevinc sezə-sezə.

Qardaş kimi qucaqlaşdı mehribanca bu qoşa yad,
Xoş gəldilər bir-birinə, Avtandil şad, Firidun şad.
Kim onları görsə günə nifrət edər azad-azad,
Bələləri satılmadı dünya olan gündən abad.

Firidunun bərabəri yaranmadı bu cahanda,
Avtandilin yoxdur tayı igidlikdə, adda, sanda.
Günəş doğsa, səyyarələr batar gedər asimanda,
Şam gecələr işıq verər, gündüz handa, şölə handa...

Firidunun sarayına yollandılar, uzaşdılar,
Ov dayandı, hər tərəfdən yönəldilər, dağ aşdılar.
Yığıldılar, Avtandili görmək üçün yanaşdılar,
Ordu baxdı, mat kəsildi, sərkərdələr çaşbaşdılar.

O söylədi: "Tələsdirir səni candan hekayətim,
Deyəcəyəm haralıyam, hansı yerdir vilayətim,
Tariyellə nə zamandan başlamışdır rəfaqətim,
Qardaş deyil, qul olmağa yoxdur ona ləyaqətim.

Rostevanın vassalıyam, adlı-sanlı bir insanam,
Avtandiləm, baş sərkərdə, cəngavərəm, qəhrəmanam.
Ərəbistan vətənimdir, kübar, igid pəhləvanam,
Kimsə durmaz qabağımda, aslan oğlu qoç aslanam.

Bir yol çıxdı şah Rostevan ova, gündən aydın üzü,
Tariyeli çöldə gördü, ağlayırdı könlü, gözü.
Biz çağırdıq, o gəlmədi, yerə düşdü şahın sözü,
Acıqlandıq dərdlərini bilməyincə xeyli, düzü.

Şah qəzəblə tutun dedi, əmr elədi ləşkərinə,
Tariyelsə çarpışırdı güvənərək hünərinə.
Qol-qıç çapır, qılıncını o çaldıqca hər birinə,
Geri dönməz ay yolundan, dönsə belə min qərinə.

Məğlub görüb ordusunu, şah yerindən qopdu getdi,
Əzəmətli şah Rostevan qılıncını qapdı getdi,
O görüncə hökmdarı doğru yoldan sapdı getdi,
Şaha qılınc qaldırmadı, öz atını çapdı getdi.

Dalısınca süvarilər cumdu düzə, cumdu yala,
Söz yox, dedik şeytandır o, qərq olaraq min xəyala.
Ziyafəti pozduq həmən, mənsə gizli çıxdım yola,
Atəşində kül olurdum, ondan xəbər ala-ala.

Üç il yuxu mən bilmədim, gəzdim gecə, gəzdim səhər,
Bir gün onu məğlub çıxan xətalılar göstərdilər.
Baxıb gördüm gül saralıb, qalmayıbdır gözlərdə fər,
Yaxınlaşdım oğlu kimi, sevdi məni o cəngavər.

Mağaralar saldırmışdı o divlərlə edib savaş,
Kimsəsizdir, yanında var bircə Əsmət, o qaraqaş,
Tək alışır hicr əlində köhnə aşiq, köhnə ataş,
Qız kimsəsiz, mağarada tökər gizli hey qanlı yaş.



Aslan necə bəsləyərsə öz balası aslanları,
O da elə Əsmətini bəslər, ovlar heyvanları,
Qəniməti verər qıza, durmaz gedər ormanları,
Dağı, düzü tənha gəzər, sevməz əsla insanları.

O yad xoş bir xəbər verdi həyatına məhrəm yada,
Sevgisindən, tarixindən dedi, ağzım gəldi dada,
Necə deyim nələr çəkmiş o zavallı bu dünyada,
Yar həsrəti yaxar onu, qəm dəryadır ömrü ada.

Fərqi yoxdur aydan onun, qəmər kimi süzər gedər,
Sən verdiyin qara atdan enməz yerə, gəzər gedər.
İnsanlardan heyvan kimi hürkər, edib həzər gedər,
Vay o qızın halına ki, yarı qurban, hədər gedər.

Yandım onun atəşinə, pərvanə tək düşdüm dara,
Vurğun oldum əhvalına, min bir yerdən aldım yara,
Quru gəzdim, dəniz gəzdim, tapım dedim bəlkə çara,
Evə döndüm həkimləri düşən gördüm ahu-zara.

İzn istədim, hirsləndi şah, axır qaçdım əllərindən,
Tərk elədim ordumuzu, çıxdım ərəb ellərindən,
Mənliyimi xilas etdim gözün qanlı sellərindən,
Axtarıram çarə ona, sorub səba yellərindən.

Danışmışdı o səninlə necə qardaş olduğundan,
İndi gəlib tapdım səni, təriflərə layiq insan.
O, gözlüyə sevinc verən, gözsüzlərə işıq saçan,
Günəşüzlü pəhləvanı, söylə, tapım indi hardan?"

Dilə gəldi Firidun da açdı söhbət ayrılıqdan,
Tariyelin sözlərini təsdiq etdi o da haman;
Hər ikisi hıçqıraraq ağladılar uzun zaman,
Suvarıldı göz yaşilə kirpik adlı qara orman.

Ağlaşmadan xəbər tutdu ləşkər tamam qan ağladı,
Başlarına, gözlərinə vurub min bir can ağladı,
Yeddi ilin fərağına dözən bir insan ağladı,
"Bu dünyada vəfa yoxmuş" – deyə, pəhləvan ağladı.

Firidun: "Ey insan, dedi, deyil sənə tərif asan.
Sən yerlərin günəşisən, göydəkindən çox ucasan,
Sən həyatın nəşəsisən, səndən ilham alır insan,
Səyyarələr sən doğunca solur, qalır öz nurundan.

Səndən ayrı düşən gündən həyat mənə zindan olur,
Vüsalının həsrətilə könül ahar-büryan olur,
Mənsiz sənə xoş olsa da, sənsiz günüm yaman olur.
Günəşsizdir ömrüm mənim, qaranlıqdır, duman olur".

Firidunun gözlərində vardı böyük bir şikayət,
Xeyli susub dinmədilər, bitdi artıq söz, hekayət,
Avtandil öz hüsnü ilə xəlqə etdi çox sirayət,
Şəvə göllər çevrəsini sərvilər tutdu nəhayət.

Daxil olub bir şəhərə gördülər bir böyük saray,
Burda idi bütün dövlət, divanxana, həm qurultay,
Əl bağlayıb nökər-naib, dayanmışdı o tay-bu tay,
Görən kimi Avtandili sevindilər, qopdu haray.

Sarayda bir iclas vardı, oturmuşdu bütün əyan,
Onlar girib əyləşdilər, ayrı deyil lap yanbayan,
Kimdə qüdrət var eləyə onlardakı hüsnü bəyan,
Büllur kimi parlayırdı o pəhləvan, bu pəhləvan.

Başladılar ziyafətə, məclisə bol gəldi şərab,
Nazladılar Avtandilə əziz qonaq edib hesab;
Xörək gəlirdi cürbəcür, qızıl, gümüş, çiniydi qab,
Hayıf, ona baxanların qəlbi oda etmirdi tab.

Bitdi şənlik, yarı gecə razı saldılar qonağı,
Yuyundurub geydirdilər Avtandili səhər çağı.
İpək, xara, qumaş idi Avtandilin solu, sağı,
Bağladılar nazik belə incə tirmə bir qurşağı.



Ürəyini yeyə-yeyə qaldı orda bir neçə gün,
Firidunla ova çıxıb yaratdılar bir toy, düyün,
Çətin deyildi ov vurmaq yerdə, göydə onun üçün,
Ox ataraq ovçuları qoydu igid heyran bütün.

İgid dedi Firiduna: "Sözlərimə gəl ver qulaq,
Ayrılığın çəkər mənə dağ üstündən çarpazı dağ,
Mən nə yolla gecikim ki, yaxar ömrü başqa fəraq,
Getməliyəm, işim çətin, dərdim ağır, yolum uzaq.

Səndən ayrı yeri vardır kim ağlasa, etsə xəyal!
Neyləyim ki, getməliyəm, gəldi hicran, getdi vüsal.
Yolçu yolda olmalıdır, sən bu sözdən haqqını al,
Yar keçdiyi o sahilə apar məni, gəl yola sal".

Cavab verdi Firidun ki: "Etmək olmaz yoldan səni,
Başqa alov, başqa nizə yaralayıb dildən səni,
Get, yaxşı yol, düşmənlərin sala bilməz əldən səni,
Ancaq hicrə dözüm necə, ötürürkən eldən səni.

Cəsarətlə söyləyirəm, gəl çıxma bu səfərə tək,
Pəhləvanlar verim apar, hər birisi aslan ürək,
Qatır verim, köhlən verim, sözsüz sənə silah gərək,
Sən bunları aparmasan, bil ki, üzün gülməycək".

O dörd nəfər qul ayırdı, qəhrəmana hünər verdi,
Bir nəfərlik hərbi geyim, silah verdi, kəsər verdi,
Altmış girvənkəlik qızıl, yaqut, zümrüd, gövhər verdi,
Bir misilsiz ürgə, bir də gözəl yüyən, yəhər verdi.

Yeyinayaq bir qatıra yüklətdi o yorğan-döşək,
Avtandili yola saldı Firidun da at minərək.
Qarşıdakı ayrılığın atəşinə dözmək gərək,
"Yerdə olsa günəş,– dedi, – qış insana neyləyəcək".

Xəbər tutdu bütün şəhər yola düşür o pəhləvan,
Axışdı bu müsibətə tacir, baqqal, qumaş satan,
Ağlaşmadan sanki qopub guruldayırdı asiman,
"Günəş bizdən üz çevirib, gəlin, – dedi, – edək fəğan".

Şəhər qaldı uzaqlarda, yol çıxdı bir geniş çölə,
Onlar gəlib yetişdilər ləpədöyən bir sahilə,
Firiduna burda Nəstan rast gəlmişdi qullarilə,
Ağlayaraq o günəşin sirrin açdı Avtandilə:

"İki qara qul buraya bir qayıqda gətirdi can,
Dişləri dürr, ağzı yaqut, qara gözlü bir məhtaban,
Məhmizləyib atı cumdum, qızı alım, dedim haman,
Görüb məni əkildilər, qayıq oldu gözdən nəhan".

Qucaqlaşıb öpüşdülər, göz yaşları axdı yenə,
Alovlandı yanaqları, təzələndi, yaxdı yenə,
Ayrılarkən hər iki dost şimşək olub çaxdı yenə.
İgid getdi, Firidun da arxasınca baxdı yenə.

Yol gedirdi pəhləvanım bədirlənmiş bir ay kimi,
Tinatini düşündükcə sevinc axırdı çay kimi,
Deyirdi o: "Fələk məni səndən ayırdı yay kimi,
Yaralıyam, dərmanımı saxla əziz bir pay kimi.

Neçin dözsün könül gərək bu üç dostun hicranına,
Neçin qəlbim dönüb daşa, düşsün eşqin meydanına,
Üç ox dəyib, təsir etmir, səbəb olmur həycanına,
Sənsən məni, ey Tinatin, salan bu qəm ümmanına".



## NƏSTAN-DARECANI AXTARMAQ ÜÇÜN AVTANDİLİN FİRİDUNUN MƏMLƏKƏTİNDƏN GETMƏSİ

Sahil boyu dörd qul ilə yol gedirdi hey Avtandil,
Tariyelə diləyirdi çarə, haqqa açaraq dil,
Dünya onun gözlərində küləşdir, başqa şey deyil,
Gözlərindən gecə-gündüz tökülürdü yaş – sanki sel.

Ala-ala hər səyyahdan o günəşin sorağını,
Belə gəzdi igid yüz gün göy dənizin qırağını.
Bir təpəyə çıxıb gördü duran dəvə karvanını,
Saribanlar sallamışdı sahildə qaşqabağını.

Çox böyükdü bu dənizin qırağında duran karvan,
Nə gedirlər, nə qalırlar, dayanmışlar çox nigaran.
Salam verən qəhrəmana baş əydilər onlar bu an.
"Siz kimsiniz?" – deyə, sordu tacirlərdən o pəhləvan.

Bu karvanın sarvanı çox arif, zəki adam idi,
Nəzakətlə salam verib, Avtandilə əhsən dedi.
"Sən günəşsən, sənsən bizim könlümüzün bil ümidi,
Atından düş, bir danışaq, sən eşit hər nə var!" – dedi.

Atdan endi qoç Avtandil, "bağdadlıyıq", – dedi onlar, –
Biz Məhəmməd dinindənik, içməmişik əsla macar,
Bu dənizlər padşahının şəhərinə biz tüccarlar
Mal gətirdik, bizim malın keyfiyyəti, dəyəri var.

Biz bir bihuş adam tapdıq bu dənizin sahilində.
Ona kömək etdik, bizə o söz dedi öz dilində.
Ondan sorduq: "Qərib, kimsən, neyləyirsən yad elində?"
Qərib dedi: "Yarımcanam, quldurların mən əlində...

Bizim karvan yola çıxdı, Misirdən gəldi bu elə,
İpək parça dolu gəmi çıxdı birbaş üzü yelə.
Döydü dəniz quldurları bizi dəmir dəyənəklə,
Var-yoxumuz getdi bada, özüm xilas oldum belə.

Bil, ey aslan, bil ey günəş, səbəb budur bu duruşa,
Biz gəmiyə minsək əgər, gücümüz çatmaz vuruşa.
Geri dönsək, zərərimiz olar qat-qat, başdan aşar.
Nə gedirik, nə qalırıq, düz bir fikir girməz başa".

İgid dedi: "Bu səhvdir, məyus olmaq yaxşı deyil,
Yuxarıdan gələn əmrin qarşısında daim əyil.
Mən zamınam canınıza, qəlbdən sizə verirəm dil.
Sizinlə cəng edənləri bu qılıncım edər xəcil..."

Karvan əhli çox sevindi, ürəyindən sildi qəmi,
Dedilər: "Bu pəhləvandır, sübut sözü və görkəmi.
Qəm çəkməyin, o özünə çox güvənir aslan kimi!"
Yükləndilər tez gəmiyə, ayrıldı sahildən gəmi.

Gəmi suyu üzüb gedir, yarıb suyu varaq-varaq,
Avtandildi başçı yola, bu gəmidən qorxu uzaq.
Quldurlarla dolu gəmi, üstündə bir uzun bayraq
Qarşı çıxdı birdən-birə, içi dolu toppuz, yaraq.

Yaxınlaşa-yaxınlaşa edirdilər çığır-bağır,
Karvan əhli qorxub gördü vəziyyəti xeyli ağır.
İgid dedi: "Heç qorxmayın, çox da onlar məğrur baxır,
Ya qıraram mən hamını, ya ömrümün axırıdır.

Dünya qarşı çıxsa ölməm, tamam deyilsə əcəlim,
Əcəl tamamsa ölərəm, nizə tutur hələ əlim.
Nə qalalar xilas edər məni, nə dost, nə də elim,
Bunu bilən sarsılmazdır, sarsılmaram, var əməlim.

Siz tacirlər qorxaqsınız, deyilsiniz hərbdə usta,
Onlar sizi qırar oxla, qapıları örtün asta.
Baxarsınız cəng edərkən aslan əlli sizin dosta,
Qərq olacaq onlar qanda, üzəcəkdir gəmi yasda".



Cəld geyindi yar-yarağı o iti pəncəli pələng,
Bir əlində vardı onun böyük dəmir bir dəyənək;
Qorxmaz qəlbə gəlib durdu qırağında gəminin tək,
Qıy vururdu yağıları qılıncıyla öldürərək.

Göylə yeri birləşdirir düşmənlərin zor nərəsi,
Ucu dəmir dirək ilə vurdular ki, batsın səsi.
O titrəmir, o titrəməz hər nə qədər var nəfəsi,
Toppuzuyla vurdu, əzdi, heyran buraxdı hər kəsi.

Dirək sındı, pəhləvansa bu meydanda qaldı sağlam.
Qoşun qorxub gizlənməyə axtarırdı yer biaram.
İgid qılınc çəkib etdi yağıları doğram-doğram,
Pəhləvanın qılıncından çıxmadı heç bir sağ adam.

Qırır düşməni yığaraq keçi kimi bir araya,
Bəzini çırpır gəmiyə, bəzisini atır suya.
Səkkiz-səkkiz, doqquz-doqquz vurur onları dəryaya,
Sağ qalanlar nəfəs çəkməz, səssizmişlər bunlar guya.

O ürəyi istədiyi kimi qalib çıxdı, əlbət,
Bəziləri deyirdi ki: "Sən Allahın, bizi əfv et!"
Beləsini öldürməyir, əsir edir o mərd sifət,
Aqil doğru demişdir ki: "Qorxu yaradar məhəbbət".

Öz gücünə çox güvənmə, sərxoş kimi sən, ey insan,
Qüdrətindən bir şey çıxmaz etməsə yardım yaradan.
Kiçicik bir qığılcımla zor ağaclar yanır haman,
Allah yarın olsa əgər qılıncından süzülər qan.

Avtandil zor sərvət tapdı, çiçəklənib güldü könlü,
Gəmiləri bir-birinə qoşdu, qalxdı karvan əhli.
Usam bunu görən zaman ta ürəkdən güldü xeyli,
Bir mənalı qəsidəylə mədh elədi Avtandili.

Avtandilin tərifinə bir dil deyil, min dil gərək,
Hərbdən sonra gözəlliyi bir dil təsvir edərmi tək!
Karvançılar şükr etdilər əl qaldırıb göylərədək:
"Gecə döndü gündüz oldu, günəş şəfəq saçdı, demək".

Hey öpdülər Avtandilin ayağını, üz-gözünü,
Mədhə layiq qəhrəmana hər kəs dedi öz sözünü.
Aqil dönər divanəyə görsə o mərdin üzünü,
"Bizi xilas etdin şərdən, yaxşı qoru sən özünü".

İgid dedi: "Şükr olsun hər şeyi görən Tanrımıza,
Yer üzündə bir hadisə olmaz, ondan əmr olmasa.
Hər gizlini günəş kimi aşkar edər, deyim qısa,
Aqil gərək bu hikmətə inanaraq qulaq asa.

Yaradanın əmri ilə qaldı sizin canınız sağ,
Mən nə edə bilərdim ki, mən nəyəm bir ovuc torpaq!
Mən sözümə əməl edib düşmənlərə çəkdim bir dağ,
Peşkəş sizə bu mal dolu gəmi, olsun keyfiniz çağ".

Xoşdur qalib gəlsə əgər qoç qəhrəman düşmanlara,
Karvan əhli hara, bizim dönməz, güclü igid hara!
Mədh edərlər, baş əyərlər onlar bizim nəğməkara,
Qəhrəmanın bəzəyidir xəsarət, bir yüngül yara.

Quldurların gəmisinə göz saldıqca hey diqqəti
Cəlb edirdi cavahirat; saymaq güc bu qəniməti.
O gəmidən bu gəmiyə boşaltdılar bu dövləti,
Boş gəmini yandırdılar, çünki onun yox qiyməti.

Tacirlərdən elçi gəldi Avtandilə, budur Usam:
"Çox xəcilik biz yanında, səndən aldıq qüvvət, ilham.
Var-yoxunuz səninkidir, şübhə etməz heç bir adam,
Hər nə versən bizə, ondan qalarıq biz razı tamam".



İgid dedi: "Bu sözləri tacirlərə yaxşı çatdır,
Gözünüzdən axan yaşı Tanrı görmüş, odur qadir,
Mən nəçiyəm, yaman gündə Allah bizə qol-qanaddır,
Mənə heç nə gərək deyil, varım: bir mən, bir də atdır.

Mən sərvətdən göz çəkmişəm, bir vaxt vardı mənim varım,
Yığın-yığın parçalarım, yığın-yığın xalılarım.
Mən sizə yol yoldaşıyam, sərvət mənə deyil lazım,
Vardır məndən fədakarlıq tələb edən başqa karım.

Bu tapdığım sərvətdənsə kim nə qədər istəyirsə,
Sözüm yoxdur, qoy götürsün özü üçün hissə-hissə.
İndi mənim rədd edilməz, vacib sözüm vardır sizə:
Aranızda gizlənirəm, bilməməli bunu kimsə.

Bir neçə vaxt deməyiniz ki, deyiləm sizə ağa,
Deyiniz ki, başçımızdır, heç bir kəlmə bundan başqa.
Geyib tacir paltarını düşəcəyəm lap qabağa.
Əminəm ki, qardaşlarım verməz məni heç ayağa!"

Karvançılar sevindilər, sevildi o bir ər kimi,
Baş əydilər qəhrəmana, ümidləri atəş kimi:
"Başçımızsan, sənə sadiq qalarıq biz qəbrə kimi,
Biz hazırıq qulluğunda, sən bizimsən günəş kimi".

Artıq onlar dayanmayıb, etdilər ordan hərəkət.
Hava xoşdu, dəniz sakit, gedirdilər xeyli rahət.
Yol uzunu Avtandilə söz qoşdular edib hörmət,
Dürr verdilər qəhrəmana, dişi rəngdə, baha qiymət.

## AVTANDİLİN QULANŞAROYA GƏLMƏSİ VƏ DƏNİZ SAHİLİNƏ YETİŞMƏSİ

Keçdi Avtandil dənizi, gəmisini sürə-sürə,
Yaxınlaşdı ağaclıqdan görünməyən bir şəhərə.
Qərq olmuşdu bağ-bağçaya, şux güllərə, çiçəklərə.
Göz gərəkdir bu lövhəyə baxıb doğru qiymət verə.

Üç kəndirlə bağladılar bu sahildə tez gəmini,
Avtandilsə qaftan geyib dəyişdi öz görkəmini.
Söhbətində tacir kimi rəvac verdi səxavətə,
Alıcılar girişdilər Avtandillə ticarətə.

Bağban gəlib qarşıladı Avtandili öz bağında,
İldırımtək işıq saçan bir gənc gördü qabağında.
Qəhrəmansa sual etdi xoş təbəssüm dodağında:
"Kimdir sizin padşahınız bu gözəllik torpağında.

Sualıma cavab verin, nabələdəm sizin yurda.
Ucuz gedən, baha gedən hansı maldır deyin burda".
Bağban dedi: "Zənn edirəm mən günəşlə üzbəüzəm,
Yalanlarla yoxdur işim, aləm bilir dili düzəm.

On ay gəzsən, bu dənizlər səltənəti sona varmaz,
Qulanşaro diyarında nə desən var, inci, almaz...
Gəmilərlə çox mal gəlir bu torpağa, bir qulaq as,
Padşahıdır bu ölkənin məlik Sürxa mehmannəvaz.

Bura hər kim qoca gəlsə, dönüb birdən cavan olur,
Məclislərdə nəğmə, oyun... badələr boşalıb dolur.
Bu diyarın çiçəkləri zənn etmə ki, qışda solur,
Bunu görən düşmənlərin ürəkləri al qan olur.

Bura gələn böyük tacir məncə yaxşı xeyir görməz,
Gah uduzar, gah qazanar, tacirəsə bu əl verməz.
Ağzınacan mal doludur bu torpağın dam-daşında.
Görürsən ki, yoxsul belə varlı olur il başında.

Cavan oğlan, bağbanıyam tacirbaşı Hüseynin mən.
Adlı-sanlı bir adamdır bu şəhərdə, unutma sən.
Onundur bu gördüyün bağ, çiçəklərə, güllərə bax.
Tacirlərin mallarına ilkin ağam baxır ancaq.



Malı ona göstərirlər, hədiyyəsiz olmur bu iş,
Bu qaydayla minir gücə aralıqda alış-veriş.
Yaxşı malı əvvəlcədən padşah üçün seçir ağam,
Bəli, bəli, bundan sonra mətləb üstə keçir ağam.

Sizin kimi tacirləri təntənəylə edər qəbul,
Mehmanxana sahibləri kəsilibdir ona bir qul.
Ağam belə bir adamdır, artıq sözün nə dəyəri,
Məhəbbətlə qarşılayır uzaq yoldan gələnləri.

Fatma xanım – mehmannəvaz xanımımsa mehribandır,
Onu belə tanıyıram gözəl, ülvi bir insandır.
Gəldiyini eşidincə, inan səni burda qoymaz,
Hüzuruna dəvət edər təntənəylə o sərvnaz".

İgid dedi: "Xəbər apar, gəldiyimi bilsin ağan".
Döşündən tər axa-axa, bağban bağdan aldı daban.
Xanımına dedi: "Gözəl oğlan gəlib bu torpağa.
Heyran oldum onun günəş camalına baxa-baxa".

O tacirdir, böyük karvan başçısıdır, saldım nəzər,
Boyu uca sərv ağacı, üzü təzə aya bənzər.
Qaftan geyib, başındasa mərcan rəngli əmmamə var.
Məndən ipək parçaların qiymətini aldı xəbər.

Fatmaxatın sevinərək tez göndərdi on qul ora,
Mallarını hifz etməkçin hazırlatdı karvansara.
O gülüzlü, yaqut, büllur evə girdi bir az sonra,
Bu əl-ayaq onda ki var, pələng hara, bu gənc hara!

Şəhərdəki əhaliyə haray düşdü başdan-başa,
Dedilər ki: "Etməliyik o igidə biz tamaşa".
Ərlərinə nifrət etdi onu görən şux gözəllər,
Bu günəşi seyr edirdi gözlər qamaşa-qamaşa.

## AVTANDİLİN FATMANIN YANINA GETMƏSİ, FATMA TƏRƏFİNDƏN QƏBUL EDİLMƏSİ VƏ FATMANIN ŞADLIĞI

Avtandili görən kimi Fatma bildi öz işini,
Ta qapıdan süzdü əziz qonağının yerişini.
Salamlaşıb etdi təkrar onlar elin vərdişini,
Çox bəyəndi Avtandilin Fatma salam verişini.

Fatmaxatın gənc deyildi, xoşa gələn bir can idi.
Saçı qara, gərdəni saz, çatma qaşı kaman idi.
Gecə-gündüz vərdişiydi kef, əyləncə, eyşi-işrət,
Əynindəki bər-bəzəyə verə bilməz kimsə qiymət.

Fatmaxatın həmin gecə Avtandili etdi qonaq,
O, xanıma bəxşiş verdi, xanım dedi: "Var ol, qoçaq,
Allah etsin pozulmasın bu cah-cəlal, bu təmtəraq".
Yeyib-içdi, sonra yataq otağına getdi qonaq.

Tacir kimi mallarını min həvəslə açdı səhər.
Padşah üçün ayırdı o ən qiymətli hədiyyələr.
Dedi: "Qalan mallarısa gedin satın bazarda siz,
Lakin mənim bu sirrimi qəlbinizdə gizlədiniz".

Hamı tacir zənn edirdi bu qoçu, bu pəhləvanı,
Öz yanına çağırırdı Fatma onu, o Fatmanı.
Məhəbbətin dumanından görürdülər bu dünyanı,
Fatma onu görməyəndə qaralırdı tamam qanı.

## FATMANIN AVTANDİLƏ BƏND OLMASI VƏ ONA MƏKTUB GÖNDƏRMƏSİ

Qadınlardan uzaq olmaq məsləhətdir cavanlara,
Aldandınmı şirin sözə, olacaqsan bəxti qara.
Ürəyini çırpacaqlar ən nəhayət dər-divara;
Qadın hara, de sirr hara, ömründə sirr vermə yara.



Fatmaxatın eşq oduna yandı, amma necə yandı,
Avtandilə qovuşmaqçün gündüz yandı, gecə yandı.
Lakin etmək istəmirdi qəlbindəki sirrini faş,
Həsrətilə gözlərindən gilə-gilə tökürdü yaş.

Düşünürdü: "Necə olar bu sirrimi açsam ona?!
Yox, yox, bəlkə xoş gəlmədi mənim arzum qəhrəmana.
Belə olmaz, deyəm gərək ürəyimdə hər nə ki var,
Xəstə dərdi gizlədərsə təbib necə əlac tapar!"

Sonra ürək yandırıcı məktub yazdı pəhləvana,
Bu məktubda öz eşqini bildirirdi Fatma ona.
Hər sətrində çırpınırdı məhəbbətdən yanan könül,
(Bu məktubu cırıb atmaq bəlkə də heç rəva deyil).

## FATMANIN AVTANDİLƏ YAZDIĞI AŞİQANƏ MƏKTUB

Sən günəşsən, səni Tanrı göndərmişdir bizim yerə,
Qəm ləşkəri hücum çəkir səndən ayrı düşənlərə.
Sənə yaxın düşən yanar atəşinə min bir kərə,
Ulduzlar da camalına göydən baxmır nahaq yerə.

Səni sevən aşiqinin ürəyini yandırırsan,
Bəs bülbülün hanı? Özün qızıl gülü andırırsan.
Sənsiz solar bağçamdakı qucaqlaşan sarmaşıqlar,
Gəl, günəşim, tez gəl mənim üzərimə saç işıqlar.

Bunu sənə yazmadım heç, daha məndə qalmadı tab,
Dərmanımı bilirəm mən, gəl dərdimə bir çarə tap.
Kirpiyinin oxlarına taqətim yox verəm cavab,
Mən ağlımı itirmişəm, kömək etsən olar savab.

Məktubun cavabını gözləyirəm, mənim gülüm,
Ya bir dəfə öldür məni, ya bir dəfə dirilt, gülüm.
Hanı sənin bu zülmünün nəhayəti, ey sevgilim.
Bir sözünlə bəxş et mənə ya bir həyat, ya bir ölüm!

Məktub çatdı Avtandilə, göz gəzdirdi tələsərək,
Bu məktubu oxudu o, bir bacının məktubu tək.
Dedi: "Mənim ürəyimin soltanından xəbərsizdir,
Bu qadını cananımla müqayisə çox yersizdir.

Yox, yox, mənim gülüm hara, bunu yazan qarğa hara!
Hələ bülbül qonmamışdır yar bağında budaqlara.
Xeyirsizdir, bəli, məncə insan üçün bu macəra,
Fatma axmaq sevgisilə acımayıb kağızlara".

Xəyal aldı pəhləvanı, ürəyində bir həyəcan,
Dedi: "Sənsən ürəyim də, diləyim də gözəl canan.
Həsrətinlə çıxıb yola, axıdaram uğrunda qan,
Ayım sənsən, günüm sənsən, nəyə gərək başqa dastan.

Fatmaxatın dünyagörmüş bir qadındır mehmannəvaz,
Bura gələn səyyahlara o hər zaman satıbdır naz.
Üz göstərsəm, ürəyini açar mənə, sirr saxlamaz,
Əminəm ki, uduzmaram yaxın olsam ona bir az.

Bəxt ulduzum parlamasa bil başında bəla çoxdur,
Nəyim varsa gərək deyil, nə gərəksə məndə yoxdur.
Ulduzsuz bir gecə kimi qaranlıqdır qoca dünya,
Sevincin də, qəm-qüssən də bir anlıqdır, qoca dünya!".

## AVTANDİLİN FATMAYA CAVAB MƏKTUBU

Belə yazdı: "Mən oxudum məktubunu, gözəl mələk,
İnan mən də sən haldayam, həsrətinlə yanır ürək.
Nə sən həyat taparsan tək, nə mən həyat taparam tək,
Vüsalındır könlümdəki böyük arzu, nəcib dilək".

Fatmaxatın cilvələndi pəhləvanın sözlərindən,
Yazdı: " Yetər axdı qan-yaş bu nakamın gözlərindən.
Bu gün evdə təkəm, qoçaq, evim sənin öz evindir,
Gözüm sənin yolundadır, ürəyimi gəl sevindir".



Həmin gecə dəvətnamə gəlib çatdı Avtandilə,
Qabağına bir qul çıxdı o gedərkən Fatmagilə.
"Qəbula hazır deyiləm, bizə gəlmə sən bu gecə".
Lakin igid qayıtmadı, qərq olsa da təəccübə.

Dəvət geri alınsa da öz fikrində qaldı qoçaq,
Fatma çox pərt görünürdü... Sərv otağa basdı ayaq.
O gözəlin çox nigaran olduğunu duydu ancaq,
Səy edirdi Fatma, bunu hiss etməsin əziz qonaq.

Oturdular, öpüşdülər, qucuşdular, zaman-zaman,
Qapıdasa birdən-birə peyda oldu qəşəng oğlan.
Dalınca qul... gələn adam müsəlləhdi başdan-başa,
Avtandili görən kimi heyrətindən döndü daşa.

Bu cavanın gəlişindən qorxdu Fatma, qorxdu yaman,
Onlardakı nəvazişə heyran qaldı gələn cavan.
"Söz demirəm, kefə baxın, lakin sabah inan ki, sən
Çox peşiman olacaqsan bu igidlə görüşündən.

Rəzil qadın, zənn etmə ki, belə bədnam qalacağam,
Bundan ötrü sabah səndən mən intiqam alacağam.
Sabah sənə dişlərinlə yedirərəm öz balanı,
Mərd deyiləm sözlərimin olsa əgər bir yalanı..."

Saqqalını tumarlaya-tumarlaya çıxdı evdən,
Üz-gözünü cırmaqlayıb, yazıq Fatma saldı şivən.
Gözlərindən axdı şır-şır göz yaşları bulaq kimi,
"Qoy daş-qalaq edilim mən, ən günahkar dustaq kimi.

Həm özümə, həm ərimə ağır ləkə gətirmişəm,
Ağırımı, yüngülümü, namusumu itirmişəm.
Varlığımı bilə-bilə son mənzilə yetirmişəm,
Məhəbbətin bağçasında qara güllər bitirmişəm".

İgid dedi: "Bir başa sal bu gördüyüm nə hikmətdir,
O oğlanın əməlləri məhəbbətdir, ədavətdir?!
Nədir bu ah, nədir bu qəm, deyil dərdin tanış mənə,
Gəl nə azalt, nə də çoxalt, hər nə varsa danış mənə".

Fatma dedi: "İgid oğlan, boğuluram göz yaşında,
Sənə bir söz demək üçün əqlim deyil öz başımda.
Öz əlimlə öz balamı öldürürəm, anaya bax,
Balamı yox, ondan əvvəl məni udsun qara torpaq.

Zəlil etdi yalan məni, qoy qəlbimi açım sənə,
Sirri açdım, bunun üçün bəla gəldi haqdan mənə.
Rəhmə gəlin, kömək edin, bağrım yandı aman, aman!
Öz qanını içən kəsə necə etsin təbib dərman?

İki şeydən birini et, ya rəhm edib məni güldür,
Ya da gücün varsa əgər gecə gedib onu öldür.
Əsirgəmə, igid oğlan, məndən bu son səxavəti,
Qayıdanda danışıram sənə qəmli hekayəti.

Bu olmasa mallarını eşşəklərə yükləyərək
Yubanmadan lap bu gecə karvanını bu yerdən çək.
O, saraya xəbər versə, buna səndə olmasın şəkk –
Öz balamı diri-diri mən anaya yedirdəcək".

Qoç Avtandil həyəcanla toppuzunu aldı ələ,
Ahı zarı ürək yaxan bu anaya dedi belə:
"Mən hazıram qulluğunda, az deyildir cəsarətim,
Döyüş vaxtı olar əyan məharətim, şücaətim.

Köməkçi yox, bələdçi ver, tapım onun yuvasını,
Gəlişimlə bircə anda zəhərləyim havasını.
Gəlib sənə danışaram necə zəfər çaldığımı,
Qan-qan deyən o gopçunu nə pis günə saldığımı".



Fatmaxatın bələdçitək öz qulunu qoşdu ona,
Dilə gəldi ürəyinin ta içindən yana-yana:
"Yalvarıram, bacarırsan aman vermə, öldür onu.
Üzüyümü alıb gətir, göstər qoçaq olduğunu".

İgid keçib küçələrdən çatdı dəniz qırağına,
Gördü yaşıl və qırmızı rəngə çalan bir daş bina.
Eyvanları bər-bəzəkli bir-birindən yaraşıqlı,
Gəl, gəl deyən bu binanın dörd tərəfi gur işıqlı.

Bələdçi qul yavaşcadan bu sözləri dedi ancaq:
"Axtardığın o adamdı, igid, budur sarayı, bax!
Onunkudur yuxarıda gördüyün ən böyük otaq,
Bəlkə yatıb, bəlkə də sən tapacaqsan onu oyaq".

O bədbəxtin qapısında keşikçiydi iki fərraş,
Avtandilsə səs-səmirsiz üstlərinə cumdu birbaş.
Sərdi yerə kötükləri çürümüş cüt ağac kimi,
Başlarını bir-birinə vurub etdi xaşxaş kimi.

## ÇAÇNAGİRİN VƏ İKİ KEŞİKÇİNİN AVTANDİL TƏRƏFİNDƏN ÖLDÜRÜLMƏSİ

Oğlan məyus, xeyli qəmgin uzanmışdı yatağında,
Əliqanlı Avtandilsə peyda oldu qabağında.
Yatağından cəld ayağa qalxdı birdən o hövlnak
İgid onu sərib yerə, xəncərilə etdi həlak.

O, dostlarçın dönür günə, düşmənlərçin canavara,
Çaçnagirin üzük olan barmağını kəsib, sonra
Meyidini pəncərədən düz dənizə atdı həmən;
Dəniz ona məzar oldu, dalğalarsa soyuq kəfən.

Bu ölümün haqqındasa yayılmadı şayiələr,
Qoç qəhrəman geri döndü ürəyində – həsrət, kədər,
O qan töküb özü isə görmədi bir zərrə xətər.
Qənimətlə qayıdırdı Fatmagilə ər oğlu ər.

Günəş üzlü, şirin söhbət gəldi çatdı Fatmagilə.
Dedi: "Onu həlak etdim, o bir daha gəlməz dilə.
İstəyirsən sən bu haqda öz qulunla söhbət elə.
Bu xəncərim, bu üzüyün... nə sözün var Avtandilə.

De nə üçün çaşbaş oldun o cavanı görəndə sən,
Varlığını unutmuşdun, sarsılmışdın hədəsindən?"
Ayağını qucaqlayıb Fatma dedi: "Eşit məni,
Deyim olub-keçənləri, sirdən agah edim səni".

## FATMA NƏSTAN-DARECANIN ƏHVALATINI AVTANDİLƏ DANIŞIR

Eşit, qoçaq, novruz günü bu şəhərdə budur adət,
Tacir əhli yola çıxmaz, alverçi etməz ticarət.
Gözəl paltar geyinərək özümüzə verib ziynət.
Hakimlərin sarayında düzəldilər xoş ziyafət.

Biz tacirlər apararıq o yerlərə töhfəmizi,
Padşahlar xoş baxışlarla qarşılayar orda bizi.
On gün getməz qulaqlardan rübabların həzin səsi,
Top oyunu, at yarışı canlandırar çölü, düzü.

Tacirlərə başçı olur həm məclisdə tacir ərim,
Qadınların arasında ən başdadır mənim yerim.
Şah arvadı bəxşiş alar həm yoxsuldan, həm zəngindən,
Məclislərdən üzügülər qayıdaram həmişə mən.

Novruz gəldi... Verdik şahın arvadına hədiyyələr,
Əvəzini verdi o da... hər qadına qiymətli zər.
Nəşələndik, çıxdıq ordan gülə-gülə, kefimiz çağ,
Yerə-göyə sığmayırdı sevincimiz, əziz qonaq.



Əylənməkçin axşam üstü qadınlarla getdik bağa,
Mən əlimdən gələn qədər hörmət etdim hər qonağa.
Xanəndələr oxuduqca yayılırdı səs uzağa.
Örtüyümü dəyişirdim hər qalxanda oynamağa.

Bağımdakı imarətin çox gözəldir mənzərəsi,
Düz dənizə açılır o otaqların pəncərəsi.
Getdik ora, dilimizdə şirin sözlər, xoş nəğmələr,
Eyşi-işrət məclisindən çox uzaqdı qüssə, kədər.

Qadınları əyləndirib güldürürdüm bacı kimi,
Mey də içdik... nəsə birdən bir şey sıxdı ürəyimi.
Bunu duyan qonaqlarım getdi bir-bir evimizdən,
Evdə qaldım öz qəmimlə, öz dərdimlə baş-başa mən.

Dağıtmaqçın qəlbimdəki baş qaldıran qəm-qüssəni,
Eşit, qoçaq, ardınacan açdım həmən pəncərəni,
Bu dəm suda bir şey görüb xəyalatdan ayrıldım mən,
Düşünürdüm heyvanmıdır, ya quşmudur suda üzən.

Xeyr, yox, yox, bu gəmiydi, yanılmışdım bəli, bayaq,
İki qara adam vardı o gəmidə çevik, qıvraq,
Ortasında bir qadının görünürdü başı ancaq,
Onlar dəniz kənarına çıxdı, artdı məndə maraq.

Ehtiyatla addımlayıb yetişdilər bizim bağa,
Qorxa-qorxa vahiməylə baxırdılar sola, sağa.
Bağda kimsə yoxdur deyə ürəkləri döndü dağa,
Zövq alırdım gələnlərə mən gizlindən baxa-baxa.

Qayıqdan bir qutu alıb tez açdılar gizli-gizli,
Bir qız çıxdı, gözəllikdə ola bilməz onun misli,
Qara örtük, yaşıl paltar yaraşırdı o ceyrana,
Gözəllikdə tay deyildi nə ay, nə də günəş ona.

Qız baxanda mənə tərəf şövqü düşdü dağa, daşa;
Camalından işıqlanıb yer-göy güldü başdan-başa.
Baxdım ona heyran-heyran, gözüm qamaşa-qamaşa,
Pəncərəni örtüm, onlar düşmədilər bunu başa.

Dörd qulumu səslədim tez, yetişdilər yüyürərək,
"Hindlilərin şux dilbəri – dedim, – bizim olsun gərək.
Səs-səmirsiz gedin ancaq, Tanrı olsun sizə kömək;
Nə desələr verin, burda olmaz para əsirgəmək.

Gər xoşluqla verməsələr, həlak edin hindliləri,
Məhparəni əsir alın, qayıtmayın onsuz geri".
Qullar uçdu, ayaqları görməyirdi sanki yeri,
Baxdım, satmaq istəməyir qaralar o ağ dilbəri.

Pəncərədən baxırdım mən, düşdüm birdən çox təşvişə,
Bağırdım: "Ey mərd qullarım, qılıncları salın işə!"
Hindliləri öldürdülər, məzar oldu dəniz, nəşə,
Endim bağa, xoş gəlmisən demək üçün o günəşə.

Dilim gəlməz, sözüm yetməz mədh etməyə o gözəli,
Günəşdən də gözəl çəkib onu yaradanın əli,
Onun misli-bərabəri yer üzündə yoxdur, bəli,
Dəli baxsa olar aqil, aqil baxsa olar dəli...

Fatma burda ara verdi, gözlərindən axdı yaşlar,
Avtandilin gözləri də yaşla doldu biixtiyar.
Unutdular bir-birini düşündükcə o nigarı.
Tökdükləri göz yaşları yudu yerdən təzə qarı.

Bağrı yanan igid dedi: "Söhbətini kəsmə, danış",
Fatma dedi: "O dilbərlə cani-dildən oldum tanış.
Öpüşlərin üzərinə səpələndi yağış kimi,
Öz taxtıma əyləşdirdim əlli illik tanış kimi.

Dedim, günəş, söylə hansı ölkədənsən, dillən bir an,
Niyə onlar sən pərini ayrı salıb yuvasından?
Dillənmədi heykəl kimi, bu dediyim sözə inan,
Gözlərindən qanlı yaşlar axıdırdı zaman-zaman.

Mənim sonsuz suallarım gətirmişdi onu cana,
İçin-için ağlayırdı ta içindən yana-yana.
Kirpiklərdən süzülürdü qanlı yaşlar dörd bir yana,
Can evimə od düşürdü baxanda mən hərdən ona.



O dilləndi: "Mehriban bir ana oldun bu gün mənə,
Öz başıma gələnləri desəm əzab olar sənə.
Tale mənə zülm eyləyib acı-acı güldü yenə,
Bəsdir, daha sual vermə bu ürəkdən inləyənə".

Baxdım, ona bu dəqiqə qüssə yardır, kədər yardır,
Öz-özümə söylədim ki, hər şeyin öz vaxtı vardır.
Vaxtından tez doğmaz günəş, ay da axşam doğar ancaq.
İnandım ki, bu halımda çox nahaqdır onu yormaq.

## FATMANIN NƏSTAN-DARECANI EVİNƏ GƏTİRMƏSİ VƏ HÜSEYNƏ XƏBƏR VERMƏSİ

O gözəlin gəlişilə evimizdə güldü həyat,
O günəşin işığını güclə örtdüm gərib qanad.
Üzərinə ağır, qalın pərdə çəkdim, mən qatbaqat.
Qızılgülü şaxta vurdu, qan yaş axdı yenə, heyhat...

Otaqların gözəlində yerləşdi o sərvi qamət,
Onun xəlvət otağına, ona nisbət verdim ziynət.
Mən onunla görüşürdüm yaman gözdən gizli, xəlvət,
Bir qulumsa canla-başla eləyirdi ona xidmət.

Qoy o qızın əhvalından söhbət açım, sən qulaq as.
Gecə-gündüz ağlayırdı, bürümüşdü yazığı yas,
Qız ağlama, söyləyəndə, otururdu sakit bir az,
İndi onsuz üzüm gəlməz, dərdli könlüm heç açılmaz.

O göz yaşı axıdanda ev olurdu ümman kimi,
Gözlər qara, kirpiklər ox, qaşlar isə kaman kimi.
O mürəkkəb göllərindən yaş gəlirdi al qan kimi,
Dişlər dürdü, mirvaridi, dodaqlarsa mərcan kimi.

Göz yaşları sirdaş idi, həmdəm idi o gözələ,
"Kimsən, kimsən?" – soruşurdum, o gəlmirdi əsla dilə,
Hər sözümdən çevrilirdi gözlərinin yaşı-selə,
Onun kimi dözəmməzdi dərdə, qəmə daşlar belə.

Ona gərək olmayırdı gecələri yorğan-döşək,
Bir çəpkəndə otururdu, üzündəsə nazik örpək,
Əllərini yastıq edib yuxlayırdı inləyərək,
O yeməzdi, yalvarmasam, o bilməzdi nədir yemək.

İgid oğlan, ürəyimin sözlərini deyirəm mən,
Mən ömrümdə görməmişdim, elə örpək, elə çəpkən.
Deyim sənə əynindəki pal-paltarı nə sayaqdı –
Polad kimi çox möhkəmdi, ipək kimi çox yumşaqdı.

Bu qaydayla uzun müddət bizim evdə qaldı dilbər,
Düşünürdüm ərim bilsə özgələrə verər xəbər.
Yaramazın diliylə bu gedib çatar şaha qədər,
Başımı lap itirmişdim, ürəyimdə qüssə, kədər.

Düşünürdüm, sirr açmasam nə edərəm tək başıma,
Kim bu dərdə çarə qılar, kim son verər göz yaşıma.
Ərim bilsə nələr etməz, buydu səbəb təlaşıma,
Pərdə örtmək mümkün deyil mənim bu qız qardaşıma.

Düşünürdüm, kimsəsizəm, nə köməyim, nə arxam var,
Qərar verdim bu sirri mən, öz ərimə açım naçar.
And içdirəm, kişi kimi Hüseyn pozmaz öz andını.
Bu yaxşıdır satmaz onda nə qızı, nə arvadını.

Min naz ilə öz ərimin hüzuruna getdim birbaş,
Dedim: "Sənə bir sözüm var, bu şərtlə ki, etmə təlaş,
And iç, mənim əziz ərim, olmayacaq sirrimiz faş".
Hüseyn dedi: "Sirr açarsam qoy daşlara dəysin bu baş.

Mən sirrimi söyləmərəm qəbrə qədər bir insana,
Nə bir dosta, nə düşmənə, nə qocaya, nə cavana".
Bundan sonra bildiyimi danışdım mən bir-bir ona.
Dedim: "İndi gedək baxaq günəş üzlü o canana".



Mən və ərim o günəşin otağına olduq rəvan,
Heyrətindən əsdi Hüseyn şux gözəli görən zaman.
Dedi: "Vallah, yerə enmiş mələkdir bu, insan deyil:
Bu günəşi xəlq eləmək çox müşküldür, asan deyil".

Mənsə dedim: "Heç bilmirəm onun nəçi olduğunu,
Sirr açmayır söz deməyir, dindirsən də min yol onu.
Nə olar ki, gəl indi də danışdıraq onu birgə.
Qəlbindəki sirlərini ikimizə açdı bəlkə".

Məhəbbətlə ayaq basdıq o dilbərin otağına,
Dedik: "Günəş, bax, gəlmişik ikimiz də ayağına.
Aç qəlbini danış görək, dərdlərinə tapaq dərman,
Yaqut rəngin zəfəran tək saralıbdır, ey bağrı qan".

O gözələ ayrı-ayrı sual verdik təkrar-təkrar,
Gizli qaldı mirvarilər, açılmadı gül dodaqlar,
İlan saçlar qaynaşdılar, qız başını qaldıranda.
Əjdahalar tutdu günün qabağını bircə anda.

Şirin sözlər, yalvarışlar göstərmədi zərrə kömək,
Səbəbini söyləmədi, çox məyusdu dişi pələng.
Gözlərinin çeşməsindən yaş axıdıb qəmgin, küskün,
Öz dilində dedi: "Məndən, yalvarıram əl götürün".

Baxıb ona gözümüzdən yaş axıtdıq Hüseynlə mən,
Söz demədi, sirr açmadı... Buna səbəb nəydi görən?
İkimiz də istəyirdik dərdlərinə şərik olaq.
Yemək verdik, əl vurmadı, sən ondakı dözümə bax.

Hüseyn dedi: "Mən xoşbəxtəm, dərmanıdır bu qız dərdin".
Söylə Fatma, sən bu gülü hardan, hansı bağdan dərdin?
Min əzab da versə xoşdur mən Hüseynə bu şux mələk,
Nəzərimdə məhəbbəti çox əzizdir övladım tək".

Ondan ayrıldıq, işimiz gecə-gündüz fəğan oldu,
Vüsalı çox gözəldisə, ayrılığı yaman oldu.
Vaxt tapanda görüşürdük, bizə əziz, mehman oldu,
Öz toruna saldı bizi, ürəyimiz al-qan oldu.

## HÜSEYNİN NƏSTAN-DARECAN HAQQINDA PADİŞAHA XƏBƏR VERMƏSİ

Günlər keçdi, aylar keçdi, gəldi bir gün Hüseyn dilə:
"Xeyli vaxtdır görməmişəm, qoy bir gedim padşahgilə,
Razılıq ver padşahıma bir töhfədə aparım mən".
Dedim: "Allah xatirinə, öz işini sən bilərsən".

Hüseyn tökdü bir tabağa daş-qaş, yaqut və mirvarı,
Dedim: "Orda görəcəksən adlı, sanlı adamları.
Qızdan söhbət açmayasan, ağzı bütöv görüm səni".
"Sirr verməreəm qılıncla da doğrasalar əgər məni".

Hüseyn getdi... Saray əhli eyş-işrət içindəydi,
Süfrələrdə min cür yemək, şüşələrə bəzək meydi.
Hüseyn dedi: "Qəbul edin bu töhfəni, hökmü rəvan!
Tərbiyəsiz, sərxoş tacir ehtiyatsız oldu yaman.

Kuzələrdən qədəhlərə qan rəngində şərab axdı,
Padşah ilə tacir Hüseyn havalanıb kefə baxdı.
Hüseyn andı tez unutdu, unuduldu Məkkə, Quran,
Eşşəyə buynuz yaraşmaz, qarğayasa gül heç zaman.

Padşah dedi: "Tacirbaşı, nə olar ki, anlat mənə,
Bu daş-qaşlar, söylə gərək, hardan qismət olub sənə,
Gizlətmə heç, bu gördüyüm özünündür, dövlətindir?!
Əvəzini vermək bu gün mənim üçün çox çətindir.

Baş əyərək Hüseyn dedi: "Mənim ulu hökmdarım,
Həyat verən günəşimsən, səninkidir bütün varım.
Səninkidir daş-qaşlarım, səninkidir qızıllarım,
Sən vermisən mənə dövlət, sən olmusan havadarım.



Bunlar dəyməz təşəkkürə, bu bəxşişlər bir şey deyil,
Bir gülüm var, istərdim ki, oğlumuza versin könül.
Məndən razı qalarsınız o qız sizə gəlin olsa,
Oğlunuzun gül bağında belə nadir gülün olsa".

And olsa da dinə dayaq, yaman pozdu onu nadan,
Məclisdəki adamlara o dilbərdən dedi dastan.
"Qız saraya gətirilsin" – deyə, padşah verdi fərman,
Bu tariflər hökmdarın ürəyini yaxdı yaman.

Evimdəydim qurumuşdu gözlərimin acı yaşı,
Birdən-birə qapımızda peyda oldu nökərbaşı.
Altmış qulla gəlmişdi o... İçəriyə girən kimi
Öz başımı itirdim mən, qorxdum onu görən kimi.

Salam verib ərz etdi ki, günəşin sən əmrinə bax,
Hökmdara peşkəş etdi pərizadı Hüseyn bayaq,
Yubanma, tez günəşlərin günəşini ver aparaq,
Üzərimə çökdü göylər, dağ üstünə qalandı dağ.

"Açıq deyin, məndən tələb edirsiniz hansı qızı?"
"Ərinizin hökmdara vəd etdiyi o ulduzu".
Kimsəsizdim, çarəsizdim, hara çatsın mənim əlim,
Qəzəbimdən zağ-zağ əsdim, məzar kimi susdu dilim.

Girib qızın otağına gördüm onu gözü yaşlı,
Dedim: "Günəş, fəlakət var, neyləyim mən başıdaşlı?
Yerlər düşmən, göylər düşmən, bədbəxt oldum ikibaşlı,
Padşah səni tələb edir, günəş gözlüm, qələm qaşlım!"

Gözəl dedi: "Özünə gəl, səbr elə, qəm çəkmə bacı,
Mən nə bəxti qara qızam, keçib ömrüm, günüm acı.
Belə doğub anam məni, – gözəl, ağ günlər möhtacı.
Fələk qoyubdur başıma kədər tacı, ələm tacı.

Gözlərindən yaqut kimi qanlı yaşlar oldu rəvan,
Qalxdı birdən dedim bu qız ya pələngdir, ya pəhləvan.
O nə şaddır nə qəmgindir, dilim gəlməz deyəm böhtan,
Məndən çadra alıb örtdü, sanki günəş oldu pünhan.

Cavahirat otağına girmədim ki, nahaq yerə,
Ləl, cəvahir, inci gərək bu bədbəxtçin bu səfərə.
Hər birisi bərabərdir bir ölkəyə, bir şəhərə,
Mən belinə bağlayaraq ümid verdim o dilbərə.

Dedim: "Bu ləl, bu cəvahir dar günündə olar gərək,
O dilbəri mən qullara təslim etdim ah çəkərək.
Padşah onu cəlal ilə qarşıladı qurdu büsat,
Dilbər dalğın görünürdü, dəbdəbəyə biganə, yad.

Tamaşaya çıxdı şəhər aparanda onu qullar,
Camaatı sakit edə bilməyirdi yasavullar.
Mah camalı görən kimi donub qaldı o hökmdar:
"Sən günəşsən, gəlişinlə işıqlandı bizim diyar.

Nəzərlərin günəş kimi, həyat verir hər baxana,
Gəlişinlə mən yenidən gəlmiş oldum bu cahana.
Beləsini görmək mümkün olar yaradana,
Sənə aşiq olan kəsi edəcəksən sən divanə".

Padşah onu öz yanında əyləşdirdi ehtişamla,
"Kimlərdənsən və kiminsən" – sual etdi ehtiramla.
Günəş üzlü danışmırdı buna adət etmişdi o,
Dikib yerə öz başını xəyallara getmişdi o.

Padşahın bir sözünü də eşitmirdi qulaqları,
Fikirləri səyyah kimi dolaşırdı uzaqları.
İnciləri qapamışdı qızılgülün yarpaqları.
Heyrətlərə qərq olurdu kim baxsaydı ona sarı.

Padşah dedi: "Zənn edirəm bunun iki səbəbi var,
Bu susmağı ora yozmaq, bura yozmaq nəyə yarar.
Bu dilbər ya hicran çəkir, eşqdəndir ondakı hal,
Xəyalında sevdiyiylə edir bəlkə o həsbi-hal.



Ya da bu qız uzaqgörən bir laçındır, qonub bura,
Hiss edirəm ürəyində qövr eləyir dərin yara.
Şadlıq, matəm görünür ki, birdir onun nəzərində,
Uzaqlarda uçur quştək, fikri deyil öz yerində.

Allah etsin, bu səfərdən zəfərlərə gəlsin oğlum,
O dilbərin camalına məftun olub gülsün oğlum.
Oğlum gəlib bu günəşlə, bir dil tapsın, kam alsın qoy,
Günəşindən ayrı düşən ay hələlik saralsın qoy!"

Bizim əziz şahzadəmiz həm igiddir, həm mehriban,
Xoş rəftarı, gözəlliyi el içində olub dastan.
Çox ləngidi, qayıtmadı, döyüşdədir xeyli zaman.
Padşah qızı saxlamışdı öz oğluna bir ərmağan.

Daş-qaşlarla bəzədilər gül peykəri başdan-başa,
Gözəlliyi üstün gəldi həm atlasa, həm daş-qaşa.
Başınasa o dilbərin yaqutdan bir tac qoydular.
Bər-bəzəyi soldururdu canlı heykəl, gözəl bahar.

Padşah dedi: "Bəzədilsin yataq yeri qoy sərasər".
Qullar daş-qaşla bəzənmiş, qızıl bir taxt gətirdilər.
Padşah qalxıb təzim etdi qarşısında əyilərək,
Ürəklərdə od qalandı günəş taxtda oturan tək.

Doqquz xacə çağırıldı keşik çəksin gündüz-gecə,
Padşah keyfə məşğul oldu əcdadının adətincə,
O dilbərin əvəzində Hüseyn, para, daş-qaş aldı,
Çalğıçılar gəlib vəcdə şeypur çaldı, dumbul çaldı.

Hamı keyfə məşğul ikən qızcığazı sarmışdı qəm,
Günəş dedi: "Bu dünyada bir tək mənəm taleyi kəm.
Kimdən ötrü məcnun oldum, kimə deyim macəramı,
Ürəyimdən keçənlərə biganədir, yaddır hamı.

Yox, yox, razı olmaram ki, gözəlliyim olsun xəzəl,
Gərək buna çarə tapam, düşmənimi yenəm əzəl.
Aqil olan dar günündə istəməz ki, gəlsin əcəl.
Gərək qara günümdə də mənə ağlım uzatsın əl".

Dilbər birdən dilə gəldi, üz tutaraq xacələrə,
"Sözüm budu, keşiyimi çəkirsiniz nahaq yerə.
Bu vurhavur kimə gərək? Çəkinməyin yaxın gəlin.
Məndən sizin hökmdara olmayacaq əsla gəlin.

Mənim yolum bambaşqadır, səhv eləyir padşahınız,
Əgər rəhmə gəlməsəniz, qəzəblənər Allahınız.
Üz vurmayın, məndən sizə gəlin olmaz düşünün bir,
Sizin qızıl sarayınız mənə zindan kəsilibdir.

Mən özümü eləyərəm xəncərimlə qana qəltan,
Padşah onda nəslinizdən yer üzündə qoymaz nişan.
Belimdəki cavahirat, bu daş-qaşlar sizə qurban,
Məni azad etməsəniz olarsınız çox peşiman".

Belindəki daş-qaşları açıb atdı o bir yana,
Yaqut tacı yerə qoydu, belə dedi yana-yana:
"Alın, bunlar sizin olsun, gətirməyin məni cana,
Bu saraydan azad olsam, çox xoş gələr yaradana".

Qullar gördü daş-qaşları, tamahkarlıq oldu bəyan.
Başlarından uçub getdi padşah, buyruq, qorxu-filan.
Qızı gizli qaçırmağa söz verdilər bu yuvadan,
Nə fitnələr yaradırmış qızıl adlı sarı şeytan.

Qızıl onu sevənləri sevindirməz zərrə qədər,
Tamahkarlıq insanları qəbrə qədər gülünc edər.
Ey tamahkar, qızıl ki var, əl çirkidir, gəlib gedər,
Tamahkarlıq bir kimsəni ucaltmayıb, tutqun xəbər.

Xacələr cəld qəbul etdi gülüzlünün ricasını,
Soyunaraq bir qul verdi günəşə öz libasını.
Zal sərxoşdu... Açdı onlar yan qapının arasını.
Ay tam qaldı, udammadı ilan bu ay parçasını.

Qullar dəxi o günəşlə oldu birgə gözdən nəhan,
Qız qapımı döyüb dedi: "Aç qapını aç, Fatmacan".
Qucaqlayıb o dilbəri, görkəminə qaldım heyran,
Onu evə dəvət etdim, dedi lazım deyil, inan.



"Verdiklərin məni böyük bəlalardan xilas etdi,
Əvəzini Tanrı versin, məsləhətin dada yetdi.
Yubanma, tez bir at ver ki, baş götürüm burdan qaçım,
Padşah yəqin axtaracaq mən yazığı, əziz bacım".

Onun üçün yel qanadlı bir at seçdim tövləmizdən,
Gözüm güldü o dilbəri at üstündə görəndə mən.
Bilsən necə gözəl idi aslan üstə minən günəş!
Gözdən itdi, məyus oldum, ürəyimi yaxdı atəş.

Günəş batdı, axşam oldu, gəldi onu axtaranlar,
Şəhərin dörd tərəfini elədilər canlı hasar.
Onu məndən soruşdular, dedim sizin səhviniz var,
Burdan çıxsa, qoy padşahım ölümümə versin qərar.

Tapmadılar, xəcalətli qayıtdılar, nə zamandı,
Padşah, bütün saray əhli, bu itkidən pərişandı.
Bənövşəyi paltar geyir ta o gündən bütün saray,
Günəş getdi, işığına həsrət qaldım, haray, haray!

Ay üzlüdən dedim sənə: "Səbrini bas, ən nəhayət
Öldürdüyün o adamdan edim sənə bir az söhbət.
O təkəydi, mənsə ona dişi keçi, baxtıma bax,
Qadın namus gözləməli, kişi olan mərdlik ancaq.

Ər deyəndə ərimdə bir ərlik yoxdur sözün düzü,
Çaçnagirsə pəhləvandı, bükülməzdi onun dizi.
Sevişirdik, indisə mən o alçağa tutmuram yas,
Al qanını içirtsələr od ürəyim heç soyumaz.

Axmaqlıqdan mən ona da sirri açdım, ağlıma bax,
Günəşimin yanında çox günahkaram, əziz qonaq.
Hər gün məni ifşasilə qorxudurdu, ölürdüm mən,
Sən qurtardın, həyatımı o zalımın hədəsindən.

Səni evə dəvət etdim o səfərdə olan zaman,
Nə biləydim qayıdıbdır mən bədbəxtə qan udduran.
Buna görə mən qulumu göndərdim ki, gəlməyəsən,
"Xilaskarım, səni görüm qüssə nədir bilməyəsən".

Sən nədənsə qayıtmadın, gəldin bizə aslan kimi,
Dərdlərimə şərik oldun bir namuslu insan kimi.
Ölümümü istəyirdi o vicdansız, o bədəməl,
Arzum buydu, ey qəhrəman, uzaq olsun səndən əcəl.

Sağ qalsaydı, düz padşahın hüzuruna gedəcəkdi,
Söylədiyim sirri açıb, məni bədnam edəcəkdi.
Padşah isə xanəmizi odlandırıb, kül edərdi,
Sonra məni övladımı diri-diri yedirərdi.

Gördüyün iş əvəzsizdir, Allah olsun səndən razı;
Bir də gözün görməyəcək ilan dişli yaramazı.
İşim-gücüm bir də günah işləməmək olacaqdır,
Gözlərimdə yoxdur daha qorxu-filan, sözüm haqdır...

Qoç Avtandil dedi: "Bu söz kitablarda dastan olar,
Düşmənin ən dəhşətlisi dost bildiyin insan olar.
Aqil olan düşməninə könül verməz, bel bağlamaz,
Düşmən artıq ölüb gedib, özünə gəl sən də bir az.

Danış, Fatma, o qız getdi söylə hansı səmtə sarı,
O, nakamın dərdlərinin dərmanını tapım barı".
Dərdli Fatma dilə gəldi – axıdaraq göz yaşları:
"İtdi gözdən o gülüzlü, başımızın tacidarı"...

## FATMA NƏSTAN-DARECANIN QACLAR TƏRƏFİNDƏN ƏSİR ALINMASINI AVTANDİLƏ XƏBƏR VERİR

Yalançılıq edib, tale, iblislərə tay oldun sən,
Heç bir kimsə baş açmadı yaratdığın fitnələrdən.
O günəşi haralarda gizlətmisən, söylə görək,
Günəşsiz bu qoca dünya kimə gərək, nəyə gərək?!



Fatma dedi: "Getdi əldən bəxt günəşim, kainatım,
Öz əlimlə qazandığım varım-yoxum, xoş həyatım.
Fikir, xəyal ta o gündən qoymur məni rahat yatım,
Bu dərdlərə ağlamağın daşını mən necə atım?

Günəşsiz mən ailəmi, öz oğlumu sevim necə?
Düşünürəm onu gündüz, düşünürəm onu gecə.
Öz andını pozan Hüseyn nəzərimdə döndü heçə,
Başı batsın, bir ər kimi mən almıram onu vecə.

Dinlə, deyim, Darülyətma qapısında nələr gördüm,
Qarovullar keşikdəydi mən onlara fikir verdim.
Günəşimi xatırladım, fikrə getdim, uzun müddət,
Andlarını pozan alçaq kişilərə dedim lənət.

Haradansa oldu peyda bir səyyah qul üç nəfərlə,
Üçü yüngül geyinmişdi, qullar qultək, elə-belə.
Bir dirhəmə başa gələn kef məclisi dumanlandı,
Piyalələr boşaldıqca axdı gözlər xumarlandı.

Qarovullar danışırdı: "Dərdli deyil, bu gün şadıq,
Nə tanışıq, nə də dostuq, bir-birinə bir az yadıq.
Bir-birini tanımırıq, eybi yoxdur bunun ancaq,
Hər birimiz başımıza gələnlərdən söhbət açaq".

Qəriblərtək danışdı öz həyatından o üç nəfər,
Qul dedi ki: "Tale göydə olan şeydir, tutun xəbər.
Sizlər buğda əkmisiniz, mənsə yaqut toplamışam.
Öz başıma gələnlərdən deyəcəyəm mən bu axşam.

Mən Qaceti padşahının sarayının bir quluyam,
Bir dəhşətli azar gəldi, onlar tələf oldu tamam.
Ölkəmizdə çoxlarının söndü ömür çıraqları,
Bacısının öhdəsində qaldı şahın uşaqları.

Dularduxtun qarşısında muma dönər dəmir, qaya,
Mahir, güclü qulları var, o heç kəsi saymır saya.
Şahzadələr Rodia, Rosan bənzəyirlər günə, aya.
Cəsur qadın, bacarıqlı hökmdardır Qacetiyaya.

Eşitdik ki, bir sahildə həmşirəsi olub candan,
Vəzirlərsə bu xəbəri saxladılar gizli, pünhan.
O günəşin ölümündən, məndə hal yox, deyim bir də,
Qul Roşaksa min-min qulun başçısıdır bizim yerdə.

Roşak dedi: "Yox, getmərəm, ölsəm belə mən bu yasa,
Çıxıb çölə varlanaram karvanları basa-basa.
Günlərimi yaxşı dövlət yığmağa sərf edərəm mən,
Şah xanımla ondan sonra yas yerinə gedərəm mən.

Biz qullara o dedi ki, gəlin, gəlin siz arxamca,
Qanadlanıb arxasınca yola düşdük uça-uça.
Biz gündüzlər yol çapırdıq, gizlənirdik gecələri,
Karvanlardan bac alırdıq qızılları, parçaları.

Çox qaranlıq bir gecəydi, dolaşarkən biz səhranı
Birdən çöldə bir şey gördük, nuru tutdu dörd bir yanı.
Elə bildik günəşdir o, düşüb gecə göydən yerə,
Hamımızı aldı heyrət, cumduq dərin fikirlərə.

Biri dedi: Dan yeridir, biri dedi bənzər aya.
Yaxınlaşdıq... Biri dedi: "Aymı düşüb bu səhraya?.."
Biz uzaqdan dövrə vurub qarşısına çəkdik çəpər,
Bu işıqdan bir səs gəldi, vəcdə gəldi yerlər, göylər.

"Kimlərsiniz, ey atlılar, – deyin, rica edirəm mən,
Yoldan çıxın, Qulanşardan Qacetiyə gedirəm mən".
Bu sözlərdən sonra, bəli, əhatəyə aldıq onu.
Şək-şübhəsiz bu atlının sandıq günəş olduğunu.

İldırımtək işıq saçan camalından olmaz doymaq,
Hər adamın işi deyil ona baxmaq, onu duymaq.
Kefimizi çağ eləyən çox qəribə qonaq idi,
Kirpiklərə şəfəq saçan dürr dişləri dümağ idi.

Suallara cavab verdi: "Bir kimsəsiz qulam" dedi.
Roşak isə: "Düz deyildir dediyin bu kəlam, – dedi. –
Kişi deyil, bu qadındır", bu hikmətə heyran qaldıq,
Bir qırpımda o günəşi, o pərini əsir aldıq.



Dedik: "Danış macəranı, sən ey günəş gözlü məxluq,
Haralısan, dinməmişdən biz hamımız sənə quluq".

O dinmədi, yavaş-yavaş gözlərindən axıtdı çay,
Nə yazıqdı, ilanların tərəfindən udulmuş ay.
Sirr açmadı, bildiyindən o vermədi bizə xəbər.
Hardan gəlib, hara gedir, kimdən dəymiş ona xətər?

Gözlərindən oxunurdu gizli qəzəb, gizli kədər,
Baxanları qorxudurdu ilan kimi salıb nəzər.
Roşak dedi: "Gəlin kəsək bu sualı, bu söhbəti,
O sirr verməz, görünür ki, müəmmadır hekayəti.

Məxluqatın fikri, zikri xanım şahın yanındadır,
Tanrımızın hər neməti bəxşiş kimi ona çatır.
Bu gözəli baxtımıza Allah özü yetiribdir,
Şah xanıma çatsın deyə yer üzünə gətiribdir".

Mən o qulu alıb evə – Nə bilirsən danış – dedim, –
Danış, sənin dərdlərinlə olum bir az tanış, dedim.
Bildiyini təkrar etdi, xəyalıma qanad verdi,
Onun bu xoş hekayəti mən ölmüşə həyat verdi.

Mənim iki qulum vardı, cadu bilən və canfəşan,
İkisi də görünmədən gedər pünhan, gələr pünhan.
Əmr etdim ki, yubanmayın Qacetiyə gedin bu an
O günəşdən xəbər tutun, nigaranam ondan yaman.

Üç gün sonra qullar döndü baş vuraraq dörd bir yana,
Dedilər ki, Kraliça cəlal açıb o mehmana.
Biz günəşi seyrə daldıq əhvalına yana-yana,
Kraliça o pərini nişanlayıb gənc Rosana.

Dularduxtun əmri budur, tez evlənsin ona Rosan,
Rosan dedi: "Toyumuzçun yetişməyib hələ zaman.
Evlənərik mən zəfərlə qayıdarsam bu səfərdən,
Əmr elədi xacəsinə: "Ona yaxşı baxarsan sən!"

Öz başına cəm elədi hər nə qədər sehrbaz var,
Düşmənlərin qüdrətini bilirdi o gənc hökmdar.
İgidlərin sarayında qalmasına verdi qərar,
Yas yerinə getmək üçün özü ata oldu süvar.

Düşmən üçün qorxuludur Qacetiya adlı diyar,
Qalasını bürümüşdür ərşə qalxan sərt qayalar.
Aşağıdan bu qayaya qaya içi uzun yol var,
Kəlləsində bir ulduz var, əl vurarsa hər kim yanar.

O tunelin qapısında gözə çarpan gözəl-göyçək
On min qoçaq keşik çəkir, cərgə-cərgə düzülərək.
Üç qapıda üç min əsgər dayanmışdır qayalartək.
(Nədir səni bu dünyaya bağlayan, ey yazıq ürək...)

Razı saldı ər oğlu ər Avtandili bu son xəbər,
Bilirdi ki, çox da asan olmayacaq ora səfər.
Fərəhləndi, Tanrısına şükr elədi bu xoş xilqət,
Faydalıydı bu gözəldən eşitdiyi gözəl söhbət.

Dedi: "Fatma, doğrudan da sən layiqsən sevilməyə,
Ürəyimdə yoxdur artıq nə bir yara, nə bir ləkə.
Qacetidən danış bir az, o diyara hələ yadam,
Aç bu sirri qac cismimiz necə dönüb olur adam?

Düşündükcə od tuturam bədbəxt Nəstan-Darecanı,
O cin qaclar heç bilmirəm neyləyirlər şux cananı".
Fatma dedi: "Qac adlanan insanları yaxşı tanı,
Məskənləri qayalardır, onların da vardır canı.

Yığnaq həyat sürdüyüçün ad veriblər onlara qac,
Sehrdə çox mahirdirlər, düşmən olmaz onlarla ləc.
Zərər verər, zərər verməz, hünərin var, bu sirri aç,
Onlarla hərb edənlərə yalnız qaçmaq olur əlac.

Onlar bütün düşmənləri gözsüz qoyub salır dərdə,
Gəmiləri batırırlar küləklərlə dənizlərdə.
Onlar suda yeriyirlər gəzər kimi quru yerdə.
Qaranlığı nurlandırır, nura çəkir qara pərdə.



Buna görə hər ölkədə qac verilib onlara ad,
Adam kimi paltar geyir, olsalar da bizlərə yad"
İgid dedi: "Su çiləyib sən qəlbimi elədin şad,
Çox xoşuma gəldi mənim danışdığın bu əhvalat.

Ulu Tanrı, mən həyatda gül yerinə tikan dərdim.
Sən köməyə çatan kimi güldü üzüm, qaçdı dərdim.
Bu dünyada adil təkcə səni bildim, səni gördüm,
Sən mərhəmət sahibisən, bircə sənə könül verdim".

Sevincindən ağlayaraq Allahına etdi xitab,
Fatmanısa qısqanclığın odu yaxıb etdi kabab.
Avtandil bu dəli eşqə, çox könülsüz verdi cavab,
Fatma onu qucub öpdü, gətirmədi bu dərdə tab.

Nəşələndi görən dəmdə yatağında Avtandili,
Çox könülsüz qucaqladı igidsə o şirin dili.
Tinatini düşündükcə gəldi ona ölüm təri,
Məcnun könlü vüsal üçün dolaşırdı səhraları.

Dənizləri doldurmaqçın, gözlərinin axdı nəmi,
O mürəkkəb girdabına dalğaları yardı gəmi.
O deyirdi: "Tinatinin nə haldadır baxın yarı,
Bülbül könlüm, qarğa kimi peyinliyə qonma barı".

Daşı belə əridərdi gözlərinin axan qanı,
Şəvə çanaq yaş sıxdıqca sellər basdı gülüstanı.
Nəşə tamam məst etmişdi ehtiraslı şux Fatmanı,
Qarğa gülə qonub deyir: "Mən bülbüləm, məni tanı".

Səhər, üzü yanıq günəş çimib oldu bir az rahət,
Fatma onun qabağına məhəbbətlə tökdü xələt,
İpək köynək, qəşəng çalma və ətriyyat, açdı söhbət:
"Səninkidir bunlar bütün, geyin, çəkmə heç xəcalət".

İgid dedi: "Son gərəkdir bu düyünlü, sirli işə,
Bəli, mənə bu tacirlik əzəl gündən deyil peşə".
Qonaq igid paltarını geydi, ona gəldi nəşə,
Gözəlliyi artdı qat-qat, aslan oldu tay günəşə.

Sonra Fatma Avtandilin şərəfinə verdi nahar,
Avtandilin gəlişiylə gəldi evə sanki bahar.
Onu tamam dəyişmişdi əynindəki təzə paltar,
Fatma dedi: "Nə xoşbəxtdir sənə candan vurulanlar!"

Baxdı onun camalına Fatma xeyli, heyran-heyran,
İgid isə duyub bunu gülümsədi pünhan-pünhan.
Dedi: "Məni tanımayır bu görkəmdə afət bəlkə,
Bəli, qulaq asmalıyam eşqə düşən bu mələkə".

Nahar edib ayrıldılar, igid getdi mənzilinə,
İçib yatdı, röyasında qovuşmaqçın gözəlinə.
Axşam qalxdı, öz nurunu bu yad elə yaydı tamam.
O Fatmanı dəvət etdi: "Yanıma gəl, təkəm axşam".

Fatma gəlib qan ağladı, rəvac verdi o ah-zara,
Dedi: "İgid, sərv boyun çəkəcəkdir, məni dara".
Oturdular... Avtandil bir balış verdi o nigara,
Kirpiklərin kölgəsində gülüstan oldu qapqara.

İgid dedi: "İnan, yaxşı tanıyıram, Fatma, səni,
İlan udmuş adam kimi titrəyərsən, bilsən məni,
Yox, bildiyin deyiləm mən, tamam başqa bir adamam,
Qara, şəvə kirpiklərçin qövr eləyir mənim yaram.

Baş taciri sanırdın sən məni böyük bir karvanın,
Tanı, mənəm sərkərdəsi ulu padşah Rostevanın.
Padşahımın ləşkəridir, dünyada ən güclü ləşkər,
Mən o yerdə bir həkiməm, mənə baxır xəzinələr.

Mehribansan, vəfalısan, açmaq olar sənə ürək,
Rostevanın bir qızı var günəş qədər gözəl, göyçək.
Odur məni yaxan günəş, odur məni yaxan çiçək.
Mən bu elə atasının xahişilə gəlmişəm tək.

Mən, sənin o tanıdığın gözəl qızı arayıram,
Dünyaları dolaşaraq o ulduzu arayıram.
Qanadlanıb uçam gərək, ata minib çapam gərək,
Göydə olsa, yerdə olsa o dilbəri tapam gərək".



Başdan-başa o Fatmaya danışdı bu macəranı,
Tanıtdırdı ona pələng dərili qoç pəhləvanı.
"Sənsən yalnız Tariyelin baş həkimi, can dərmanı,
Sən kəsərsən sıx kirpikli gözlərindən axan qanı.

Gəl bu yolda, gözəl Fatma, qıza, ona sən ol kömək,
Əlbir olub hicran çəkən ulduzları birləşdirək.
İnsanlar da baxıb bizə afərinlər desin ancaq,
Köməyini əsirgəmə aşiqləri qovuşduraq.

O sehrbaz qulunu sən tez yanına çağır gəlsin,
Qacetiyə gedib qıza xəbər versin, xəbər bilsin.
Dadımıza yetsin onun hər sözü, hər məsləhəti,
Qoy Allahın köməyilə viran olsun o Qaceti".

Fatma dedi: "Tanrı, nələr eşidirəm, nələr, nələr,
Həqiqətdir bütün bunlar, belə olmaz əfsanələr".
Tez çağırıb əmr verdi qarğa biçim qara qula,
İgid dedi: "Qacetiyə düşməlisən indi yola.

Gərək sənin sehrlərin kömək etsin bizim işə,
Sönsün deyə, barı su səp bağrımdakı bu atəşə.
Tez ol, məndən xəbər yetir əsir düşmüş o günəşə".
Qul dedi ki: "Sabah xəbər gətirərəm sən dərdkeşə".

## FATMANIN NƏSTAN-DARECANA YAZDIĞI MƏKTUB

Fatma yazdı: "Sən ey günəş, bil ki, sənsiz gülməz cahan,
Səndən uzaq düşənləri qüssə, kədər yaxar yaman.
Sənin şirin söhbətindən doya bilməz qulaq asan,
Sən yaqutdan və büllurdan yaradılmış bir çıraqsan.

Gizlədin öz macəranı mən Fatmadan sən həmişə,
Hər nə varsa öyrənmişəm, düşməz daha can təşvişə.
Tariyelə xəbər çatdır, sona yetsin bu əndişə,
Çatsın gərək arzusuna o qızılgül, sən bənövşə.

Sorağınla gəlib bura sevgilinin can qardaşı,
Avtandildir o mərd ərəb, çox ucadır onun başı.
Rostevana sərkərdədir, kimsə çıxmaz ona qarşı,
Özündən bir xəbər yetir, bitsin daha bu göz yaşı.

Göndərdiyim qara qula çəkinmədən ver məlumat!
Qaclar geri qayıdıbmı? Necə keçir orda həyat.
Əsgərlərin sayından yaz, azmı, yaxud çoxmu sursat,
Keşiyini kimlər çəkir, başçı kimdir? – Ona anlat.

Nə bilirsən ətraflı yaz, gözləyirik səndən xəbər,
Bir təsəlli olsun deyə sevgilinçin nişan göndər.
Qəmlə keçən bu gününü bir fərəhli günə döndər,
Sevgilinə qovuşarsan, qəlbinizdə qalmaz kədər.

Sən ey kağız, qanadlan, uç, bu səfər də hünər göstər,
Şəvə kirpik, yaqut ağız, büllur gözlər səni gözlər.
Bu gün sənə baxacaqdır, dünən mənə baxan gözlər,
Əhvalıma acı sən də, bu kağızı alan dilbər!"

Fatma verdi məktubunu cadugərə, sehrbaza:
"Bu naməni sən əlbəəl yetirirsən o ulduza".
Cadugərin yaşıl əba geyinməsi çəkdi bir an,
Sanki onu uddu fəza damlar üstə uçan zaman.

O, yol getdi, yaydan çıxmış bir ox kimi dağa sarı.
Qacetiyə yetişəndə olmamışdı gecə yarı.
Gördü bütün qapıları qoruyurlar qoç igidlər,
Salam deyib, o günəşdən bu günəşə verdi xəbər.

Keçdi bağlı qapılardan söz olmaz bu möcüzəyə,
Uzun tüklü qara zənci bənzəyirdi əcuzəyə.
Görən kimi günəş qorxdu bədheybətdən, döndü həmən –
Qızılgülü zəfərana, bənövşəsi firuzəyə.



Zənci dedi: "Məni kimə bənzədirsən? Özünə gəl, etmə fəğan,
Mən Fatmanın elçisiyəm, yad deyiləm, mənə inan.
Al, bu məktub sübut edər, dediklərim deyil yalan,
Günəş nuru vüsalına çox tələsir, ey bağrıqan".

Çox xoş gəldi günəş qıza şux Fatmadan gələn soraq,
Əsdi iki badam şəvə göz giləsi, şəvə budaq.
Qul naməni təqdim edib bir kənarda durdu həmən,
Qız məktubu göz yaşıyla islatdı öz sevincindən.

Soruşdu ki, "Məndən ötrü kimdir belə zillət çəkən,
Kim bilib ki, salamatam, ölməmişəm hələ də mən!"
Qul söylədi: "Dostlarının işi sənsiz xiffət olub,
Sən gedəli günəş batıb, yer-göy bütün zülmət olub.

Ta o gündən sən Fatmanın ürəyini oxlamısan,
Gözlərindən dəryalara çaylar kimi axıdır qan.
Mən bir kərə ona səndən xəbər verdim, güldü bir an,
Allah bilir, sənin üçün gecə-gündüz edir fəğan.

İndi ora bir qəribə igid gəlib – günəş camal,
Fatma sənin dərdlərini deyib ona tamam-kamal.
O qəhrəman səni gəzir şəhər-şəhər, diyar-diyar,
Yalvarıblar tez qayıdım, hər nə qədər imkanım var".

Qız dedi ki: "Duyuram mən dediklərin həqiqətdir.
Harda əsir olduğumu Fatma bilir, bu hikmətdir.
İndi yəqin məni gəzir can sirdaşım, qanıram mən,
Kağız yazım ver Fatmaya, bilsin necə yanıram mən".

## NƏSTAN-DARECANIN FATMAYA YAZDIĞI MƏKTUB

Fatma, mənə həm anasan, həm bacısan, ey sirdaşım,
Sən bilirsən bu dünyada nələr çəkib mənim başım.
Dərdim üstə dərd calandı, bunu mənə fələk verdi,
Kağızınsa sevindirib, mən bədbəxtə ürək verdi.

Sehrbazdan xilas edib, oldun mənə dərd ortağı,
İndi isə saxlayırlar zalım qaclar bu dustağı.
Minlər ilə igid, qoçaq tutub solu, tutub sağı,
Nə fikrimin, nə arzumun yox bir yerdə duracağı.

Qoy yetirsin bu məktubum sizə məndən bu xəbəri:
Səfərdədir padşah, qaclar dönməyiblər hələ geri.
Gecə-gündüz keşiyimi çəkir mənim xeyli əsgər,
Daha məni axtarmayın, toxunmasın sizə xətər.

Məni sevən aramasın mən bədbəxti bu çağımda,
Bu da mənə məlumdur ki, əzab çəkir fərağımda.
Ona həsəd aparıram, o günəşdir donmayacaq,
Onsuz mənim ömrüm-günüm qara zindan olub ancaq.

Sənə necə sirr açaydım o vaxtımda, yas içində?
Evinizdə qusduğum qan laxtalandı tas içində.
Dildarıma məktub yazın, artırmasın ağrımı qoy,
Bu qorxulu səfərilə qanatmasın bağrımı qoy.

Yetər məni incitdiyi, qoy çəkməsin sinəmə dağ,
Ölümünü istəmirəm, o ölərsə qalmaram sağ.
Çox müşküldür, mümkün deyil qurtuluşum bu qaladan,
Sənə qulaq asmasa o, qoy edilim mən daşqalaq.

Məndən nişan istəmişdin məni sevən mərdə, qoça,
Budur ipək örpəyimdən göndərirəm ona parça.
Təsəllimsə bu örpəkdir, hədiyyədir ondan mənə,
Bəxtim kimi qarasa da, onu yada salır yenə...

## NƏSTAN-DARECANIN SEVGİLİSİNƏ YAZDIĞI MƏKTUB

Ağlayırdı, hıçqırırdı Nəstan kağız yaza-yaza,
Odlarını söndürməkçin yaş tökürdü ağ kağıza.
Oxuyanın ürəyini yaxan məktub yazdı ona,
Qızılgülü böldü, şəffaf büllur çıxdı tez meydana.



"Bu məktubu yazanadək həddən aşdı əziyyətim,
Öz-özümə batan iti bir qələmdir öz qamətim.
İkimizin ürəyidir bu yazılar doğru, gerçək.
(Sən bağlısan, bağlı da qal, açılma, ey dərdli ürək.)

Nələr çəkmir o fələkdən, nələr çəkmir mənim başım,
Zülmətdəyəm, qapamışdır gözlərimi qanlı yaşım.
Ariflər çox yaxşı bilir bu dünyanın vəfasını,
Mən çəkirəm dərdlərini, mən çəkirəm cəfasını.

Məni səndən, səni məndən ayrı saldı məlun fələk,
Bəlkə qismət deyil mənə camalını bir də görmək.
O gündən ki, mən əzabla vüsalından aralandım,
Gizli deyil, oxlarınla ürəyimdən yaralandım.

Həyatına and olsun ki, sağlığını bilmirdim mən,
Sanırdım ki, mən özüm də köçəcəyəm yer üzündən.
Şükr elədim yaradana səndən xəbər eşidincə,
Deyim bəlkə bu xəbərdən bütün qəmlər dönər heçə.

Sağ olmağın mən bədbəxtə ümid verdi, ilham verdi,
Bəli, yanıq bağrımdakı ağrılarım aram verdi.
İtirdiyin bu bədbəxti yadına sal, gülüm, bir dəm,
Mən əkdiyim məhəbbəti məhəbbətlə becərirəm.

Çox çətindir bu dərdləri qələm ilə yazmaq, ey yar,
Mən yazsam da kim dinləyər, bu sözlərə kim inanar?
Gözəl Fatma cadulardan eləmişdi məni xilas,
Bəs nə üçün tale məndən nahaq yerə alır qisas?

İndi tale bir dərdimə min dərd qatıb, dağdan ağır,
Bu kifayət deyilmidir, niyə mənə o gəc baxır?!
Məni qorxunc bu qacların əllərinə verdi axır,
Tale bizə yaman gülür, tale bizi oda yaxır.

Əl yetişməz bir qalada dustaqdayam, tutun xəbər,
Tunel boyu keşiyimi çəkir saysız növbətçilər.
Gözlərinə yuxu getmir, heç bilmirlər qorxu nədir,
Bu qaclara üstün gəlmək bəlkə də bir əfsanədir.

Ürəyinə xal düşməsin, ey sevgilim, sən bunu bil,
Başqasına uymaz könül özgəsinə vermərəm dil.
Sənsiz mənə heçdir həyat, ürəyimdə sızlar yaram,
Ya xəncərlə bitər ömrüm, ya qayadan atılaram.

Günəşinə and olsun ki, səninkidir bu gözəl ay,
Üç günəş də yaxın gəlsə, ola bilməz heç ona tay.
Qayalardan atılaram, gərək deyil həyat mənə,
Rəhmət oxu ruhuma ki, göylər versin qanad mənə.

Dua elə Allahına, bəlkə mənə nicat versin,
Oda, suya və torpağa çevirməsin həyat versin.
Qoy öz bədbəxt bəndəsinə uçmaq üçün qanad versin,
Gecə-gündüz camalına baxmaq üçün səbat versin.

Sən bir günəş parçasısan, sənsiz günəş doğa bilməz,
Sən günəşə qovuşmasan işıqlanmaz, vecə gəlməz.
Gül, ey günəş, bitsin dərdim, bitsin qəmim, mən də gülüm,
Acı həyat sürməkdənsə şərəflidir məncə ölüm.

Ölümlərə ölüm deyib, həsrətini çəkmişəm mən,
Ürəyimdə eşqimizin yuvasını tikmişəm mən.
Bu ayrılıq yaralayır ürəyimi dönə-dönə,
At daşını ağlamağın eşqimizin xatirinə.

Durma, birbaş get atama kömək üçün Hindistana,
Köməksizdir, dörd bir yandan hücum çəkir yadlar ona.
Təsəlli ver, de ki, hələ sağam, bir az könlünü al,
Qürbətdəki gözüyaşlı mən nakamı yadına sal.

Nəhayəti olacaqmı bir bu qədər şikayətin?!
Ürəklərdən ürəklərə yolları var ədalətin.
Bir əzabdır sağ qalmağım, qoy yolunda ölüm, ey yar,
Qonub dərdli sinəm üstə, söhbət etsin qoy qarğalar.

Başındakı o çalmadan məndə əziz nişanə var,
Mən kəsmişdim o parçadan özüm üçün bir yadigar.
Ümidim də, təsəllim də bu olubdur inan ancaq,
Niyə çəkir çərxi-fələk sinəmizə dağ üstdən dağ".



Dildarına yazdı indi nə halətdə olduğunu,
Örpəyindən parça kəsib məktubuna bükdü onu.
Baş açıqdı, yerə qədər uzanmışdı hörükləri,
Sərv ağacı heyran qoydu öz ətrilə çiçəkləri.

Dayanmadan Qulanşaro şəhərinə yollandı qul,
O, Fatmaya tez yetişdi, ondan ötrü heçdi bu yol.
Beləliklə qoç Avtandil yetdi böyük arzusuna,
Əllərini qaldıraraq dua etdi Tanrısına.

Dedi: "Fatma, iş düzəldi, ürəyimdən yox oldu qəm,
Bu yaxşılıq əvəzinə söz deməyə çox acizəm.
Yaxşı olmaz mən özümü öz dostuma yetirməsəm,
Qac nəslinin qənimini Qacetiyə gətirməsəm".

Xanım dedi: "Aman, yaman yandırırsan oda məni,
Qəlbimdə bir işıq vardı, tərk eləyir o da məni.
Divanənin birisiyəm, məndən ötrü qəm yemə heç,
Səfər xeyli çətinləşər, sən gəlsənə qaclardan keç".

İgid dedi: "Firidunun qullarını toplayaraq,
Qara idi, oldu artıq üzümüz ağ, günümüz ağ.
Qaclar haqda nə lazımsa, nə gərəksə öyrənmişik,
Mərd deyiləm qəlblərini eləməsəm dəlik-deşik.

Gedin deyin söylədiyim hekayəti Firiduna,
Mən gedirəm, çatmayacaq bu yaxında əlim, ona.
Gərək yenə öz dostumun xatirinə çalam zəfər,
Sizin olsun bu davada ələ keçmiş qənimətlər.

Borcunuzu vermək mənim borcum olsun tamam-kamal,
Kefinizi açacağam, Firidunla olsa vüsal.
Quldurlardan aldığımı alın məndən, budur sözüm,
Məni xəsis tanımayın, bu dünyada toxdur gözüm.

Burda evim, filanım yox, bəxşiş verim sizə, heyhat!
Qoy o içi qızıl dolu gəmi olsun bir mükafat.
Bəxşişimi alıb gedin, sürətiniz yeldən betər,
Bu kağızla Firiduna tez yetirin məndən xəbər".

## AVTANDİLİN FİRİDUNA YAZDIĞI MƏKTUB

Belə yazdı: "Padşahların padşahısan bilir cahan,
Bəxtəvərsən, qüdrətlisən, üzün günəş, qəlbin aslan.
Düşmənlərlə cəngə girsən axıdırsan sel kimi qan,
Qardaşının salamını qəbul elə uzaqlardan.

Min bir əzab çəkdimsə də, hasil oldu axır dilək,
Arzularım puç olmadı, gülümsəyib açdı çiçək.
O günəşin tarixini öyrəndim mən doğru, gerçək,
Yel altdakı Tariyelə o günəşdir arxa, kömək.

Günəş qaclar padşahının əsiridir, oldu bəlli,
Getməliyik, çatmasa da o qalaya insan əli.
Nərgizlərin yağışları hey isladır qızılgülü,
Qız ordadır, qaclar isə qayıtmayıb cəngdən, bəli.

Bəxtim gülür, könlüm gülür, daha axmaz gözümdən yaş,
Çətinliklər unudular, görüşərsək bir də, qardaş.
Sənin təkcə qalib adın yağıları edər çaşbaş.
İnsan nədir, səni görüb dönər muma qaya, dağ-daş.

Səni görə bilmədim mən, əfv et düşdüm səndən uzaq,
Sevin bizim halımıza, yenə oldu kefimiz çağ.
Cəfakeşəm nə qədər ki, ay qaclarda qalır dustaq,
Heç qəm yemə, sevin, dostum, dönəcəyik vətənə sağ.

Layiqincə verməmişəm qullarının xələtini,
Sağ ol, qardaş, mən onların unutmaram xidmətini.
Onlar səndən öyrəniblər bu mərdliyi, bu xisləti,
Səxavəti, mətanəti, dəyanəti, şücaəti..."

Firidunun qullarına dedi: "Alın, bu da kağız,
Əhvalatı yetirməkdir ona sizdən ricam yalnız.
Könlüm quşu pərvazlanmaz olmayınca xilas o qız".
(Göründü saf inci dişlər açılınca mərcan ağız.)



Avtandil bir gəmi tapıb mindi onu aslan kimi,
Gəmi sanki qıvrılırdı dalğalarda ilan kimi.
Bu macəra həm acıdır, həm şirindir hicran kimi,
Fatma isə yaş tökürdü gözlərindən ümman kimi.

Ağlayırdı için-için Fatma, Hüseyn, qullar belə,
Deyirdilər: "Qəlbimizin odu söndü gedişinlə.
Sən ey günəş, getdin tamam zülmət oldu bu yer üzü,
Torpaqlara gömdün bizi əllərinlə, sözün düzü".

## AVTANDİLİN QULANŞARODAN GETMƏSİ VƏ TARİYELLƏ GÖRÜŞMƏSİ

İgid keçdi dənizlərdən, bir sahildə durdu gəmi,
At üstündə yol gedirdi, bambaşqaydı bu görkəmi.
Tariyellə görüşsəydi yoxalardı dərdi, qəmi,
Əl qaldırıb göyə dedi: "Gəl hardasan vüsal dəmi!"

Yay girirdi, yaşıl otlar boylanırdı torpaqlardan,
Açılmışdı qızılgüllər, səfalıydı bütün hər yan.
Dəyişmişdi öz seyrini göydə yanan günəş belə,
Baxdı igid ürəyini oda yaxan qızılgülə.

Göy gurlayır, buludlardan tökülürdü büllur şəbnəm.
O, qızılgül dodağiylə öpdü qızılgülü bu dəm.
Dedi: "Sizə baxdıqca mən düşünürəm Tinatini,
Seyr edirəm sanki onun sizə bənzər həyatını".

Dilbərini xatırladı, gözlərinin axdı qanı,
Qorxunc yollar zərrə qədər qorxutmurdu qəhrəmanı.
Seyr edirdi vahiməli, macəralı bu diyarı,
Qamışlıqda öldürürdü pələngləri, aslanları.

İgid birdən dilə gəldi görüb tanış mağaranı,
"Həsrətilə gözlərimdən yaş tökdüyüm dostum hanı?
Hər nə varsa indi ona tamam-kamal danışaram,
Bəs gəlməsə, onda necə?! Od tutaram, alışaram.

Yəqinimdir, o səfərdən qayıdıbsa evdə durmaz,
Bəlkə vəhşi heyvanlartək bu çöllərdə atır o vaz.
Yaxşı olar, qamışlıqda axtararsan vəfadarı,
Həsrətilə yandığımı gözlərimlə görüm barı".

Mərd, atını yeyin sürüb oxuyurdu yavaş-yavaş,
Səsləyəndə Tariyeli səs verirdi ona dağ-daş.
Birdən göyün işıqları yer üzünə şabaş oldu,
Yalın qılınc Tariyeli görən kimi çaşbaş oldu.

Qılınc qanlı, qamışlıqda qarşısında ölü aslan,
Piyadaydı, o ətrafda görünmürdü atdan nişan.
Avtandilin səsi ona tanış gəldi, həyat verdi,
Göylər isə Tariyelə uçmaq üçün qanad verdi.

Tariyel öz qılıncını tovlayaraq cumdu həmən,
Avtandil də atdan endi, bütün ətraf oldu gülşən...
Qucaqlaşıb öpüşdülər, gülüşdülər çəmən-çəmən,
Şəkər kimi şirin sözlər saçırdı o qönçə dəhən.

Danışdıqca qoç Tariyel ağlayırdı həzin-həzin,
Qanlı yaşdan qızarmışdı rəngi qara kirpiklərin,
Yavaş-yavaş su içirdi sərv ağacı göz yaşından,
"Görüb səni mən qurtardım səkkiz dərdin əlindən can".

Tariyel hey ağlayırdı, Avtandilsə dedi iş var,
Mərcanları açan kimi çaxdı sanki ildırımlar.
"Məndə elə xəbər var ki, ürəyini yəqin açar,
Bu xəbərlə bahar gələr, güllər gülər, xəzan qaçar".



Tariyelsə belə dedi: "Laləzardır hər yer bütün,
Həyat tapdım bu görüşdən, qəhrəmansan, qardaş, öyün.
Başqa dərman nəyə gərək, Tanrı edib bizi ağgün,
Göylərdəndir bu yaxşılıq, sən ey ürək, döyün, döyün!"

Az qalırdı inanmasın Avtandilin dediyinə,
Qoç Avtandil bütün sirri, hər düyünü açdı yenə.
Tariyelsə günəşinin örtüyünü görüb həmən,
Təkrar öpdü öz dostunun o üzündən, bu üzündən.

O, örtüyü və məktubu öz əlinə alan zaman,
Öpüb birdən qəşş elədi, bahar üzü oldu xəzan.
Gözlərinin qapaqları qapanarkən axıtdı qan,
Bu əzaba dözə bilməz nə Qabil, nə Süleyman.

Mərd Avtandil bu halətdə görən zaman Tariyeli,
Cumdu onun köməyinə, elə bil ki, sındı beli.
Heç bilmirdi öz dostunun köməyinə nədir dərman,
Darecanın nişanıydı Tariyeli edən candan.

Qarşısında diz çöküb o başladı hey ağlamağa,
Saç yolaraq qoymadı ki, kölgə salsın ay qabağa.
Burdu almaz çəkiciylə yaqut adlı o dodağa,
Mərcan kimi qanlar axıb rəvan oldu sola, sağa.

Üz-gözünü qanadırdı, baxıb dostu Tariyelə,
"Bu nə işdir, divanə də öz canına qıymaz belə.
Təqsirkaram, niyə oda su çilədim bilə-bilə,
Könül duymaz gözlənilməz şad xəbəri gülə-gülə.

Mən öldürdüm öz dostumu, məndən dəydi ona xətər,
Axmaq mənəm, bəli mənəm, başıma daş töksün göylər.
Ehtiyatı gözləməyib bir fəlakət doğurdum mən,
Düz deyiblər tələsməmək çox yaxşıdır tələsməkdən".

Tariyeldə nəfəs hanı, sanki çoxdan çıxıb canı,
Avtandil tez qalxıb gəzdi sudan ötrü dörd bir yanı.
Yanan odu söndürməkçin tapdı yalnız aslan qanı,
Səpdi onun sinəsinə su yerinə bu dərmanı.

Aslan qanı məlhəm oldu yarasına bu aslanın,
Gözlərini açıb gördü işığını bu dünyanın.
Var gücünü yığıb çıxdı fələkətin pəncəsindən,
Sönməz daha, yanar daim o günəşdən işıq əmən.

Qış dondurur qızılgülü, yer bürünür yarpaqlara,
Yay günəşi qurudaraq edir onu günü qara.
Lakin yenə qonub gülə nəğmə deyər bülbül yara,
İsti yaxar, soyuq kəsər, heç sağalmaz lakin yara.

Heç bir şeydən razı qalmaz dəli könül bu dünyada.
Həm sevincdən, həm qüssədən varlığını verər bada.
Adam var ki, həyat sürər, qəlbi yara, bəxti qara,
Yalnız mərdlər sinə gərib, üstün gələr hər qubara.

Tariyel öz afətinin məktubunu alıb ələ,
Oxuyurdu ürəyini yaralayan bir həvəslə.
Neçə müddət göz yaşları qoydu onu günə həsrət,
Avtandil öz qardaşına dedi: "Yetər bu şikayət.

Qan ağlamaq yaraşarmı sənin kimi bir qoçağa,
Gəl sevinib gülək, dostum, ürəyimiz dönsün dağa.
Gəl birlikdə gedək sənin günəşini axtarmağa,
Qoy birləşsin iki könül, qonsun bülbül şah budağa.

Sevinc bizim haqqımızdır, gəl dərdlərə xitam verək!
Atımızı ümidlərlə Qacetiyə tərəf sürək.
Bəxtimizə gedən yolu qılıncımız açsın gərək,
Zəfər çalıb, ana vətən torpağını sonra görək".

Tariyel də belə dedi: "Yerindədir huşum artıq,
Gözlərindən ildırımlar çaxdı qara-ağ bir işıq".
Gün altdakı yaqut kimi oldu onun bu ziynəti,
Bəli, buydu qəhrəmana göy üzünün mərhəməti.



Çox razılıq eləyərək öz dostuna açdı ürək:
"Mən kiməm ki, cəlalını tərif üçün arif gərək,
Sən – dağlardan axan çeşmə, mən – bu sudan içən çiçək,
Göz yaşımı dayandırdın, sənsən mənə arxa, kömək.

Heç bilmirəm borcundan mən necə çıxım, necə, heyhat!
Mən acizəm, qoy o göylər versin sənə bir mükafat".
Onlar minib atlarını qayıtdılar evə, çox şad,
Budur, tale doyuzdurdu ac Əsməti, güldü həyat.

Yarı çılpaq dayanmışdı mağaranın qabağında,
İgidləri görən kimi bahar güldü dodağında.
İki bülbül nəğmə dedi, qızılgülün budağında,
İgidləri bir köynəkdə qarşıladı bu çağında.

Əsmət gördü qoç Tariyel etmir daha nalə, fəğan,
O dərdkeşin mahnısına, gülüşünə qaldı heyran.
Fərəhindən, sevincindən itirmişdi lap özünü,
Həyəcanla gözləyirdi igidlərin ilk sözünü.

İkisi də gülüşərək dedilər ki, etmə xiffət,
Mərhəmətlər yağıb göydən bizim üçün, gözəl Əsmət.
Yaxşı tədbir görmüşük biz, ay da çıxıb buludlardan,
Qismətimiz kədər deyil, sevinc olub artıq, inan.

Atdan endi igid oğlan qucmaq üçün şux Əsməti,
Əsmət onu qabaqladı, əyildi sərvin qaməti.
"Nə görmüsən, nə etmisən, danış mənə hekayəti"
Öpdü mərdin üz-gözündən coşdu eşqin hərarəti.

Avtandilsə verdi ona məktubunu solan gülün,
O şux ayın, şux ulduzun, yad ellərdə olan gülün.
İgid dedi: "Məktubunu oxu dərdə dolan gülün,
Yoxalacaq dərdi, qəmi bizi dərdə salan gülün".

Bu yazını tanımaqda o çəkmədi artıq əmək,
Əsmət əsdi əsim-əsim, baxdı mat-mat, divanətək.
Sinəsindən uçmaq üçün vurnuxurdu sanki ürək,
Dedi: "Bunlar gerçəkmidir?! Yandı bağrım, dinin görək".

Qoç Avtandil dedi: "Bəli, həqiqətdir bu şad xəbər,
Könül açan bu xəbərdən qaçaq düşdü qüssə, kədər.
Günəş bizə yaxınlaşıb, daha qalmaz zülmət, kədər,
Qoy var olsun ulu qüvvət, xeyir şərə çaldı zəfər".

Hind padşahı, Əsmət ilə şirin-şirin söhbət etdi.
Qucaqlaşıb öpüşdülər, hər ikisi kama yetdi.
Damcı-damcı yaşlar axdı kirpiklərdən yanaqlara,
Tanrı aqil adamları qoymaz düşə dərdə, dara.

Şükr edərək deyirdilər: çox böyüksən, ey yaradan,
Sənsən bizi xilas edən hər bəladan, hər yaradan.
Hind padşahı təkrar etdi bu sözləri hərarətlə,
Mağarada süfrə açdı Əsmət böyük məharətlə.

Tariyelsə yenə dedi: "Deməmişdim sənə bayaq,
Dostum, sənin kefini mən edəcəyəm nağıldan çağ.
Mağaranı tutan gündən burda bir div qoymadım sağ,
Cavahirat əldə etdim, mümkün deyil onu saymaq.

Hələ yaxşı baxmamışam, bəlkə orda xəzinə var,
Gəl birlikdə dəfinəni açmaq üçün verək qərar".
Xoşa gəldi, oldu bu söz hər üçünün könlünə yar,
Sındıraraq mağarada üç qapıdan keçdi onlar.

Dedilər ki, bu xəzinə yer üzündə bəlkə təkdir,
Koma-koma qızılları tamaşaya göz gərəkdir.
Mirvarının hər dənəsi bir top boyda, hikmətə bax,
Vaxt hardadır, qızılları, xeyir, mümkün deyil saymaq.

Dopdoluydu həm gövhərlə, həm daş-qaşla bu qırx otaq,
Zirehxana bir aləmdi, silah götür qucaq-qucaq.
Göz gəzdirsən tapammazsan otaqlarda bir boş bucaq,
Hələ ağzı açılmamış o möhürlü sandığa bax.



Üzərində yazılmışdı: "Çoxlu silah yatır burda,
Dəmir papaq, dəmir geyim, misri qılınc... qalmaz darda –
Məğlub edər divlər yəqin hücum çəkən o qacları,
Kim tez açsa o yetirər qətlə bütün padşahları.

Açıb onlar bu sandığı... Tapdılar üç dəmir geyim,
Üç igidin bəzəyiydi sandıqdakı hər bir geyim.
Dəmir papaq, dəmir dizlik, misri qılınc, heyrət, heyrət...
Təbərrüktək gözəl yaqut – qutudaydı bu qənimət.

Silahlanıb başladılar özlərini sınamağa,
Heç nə təsir eləmirdi nə geyimə, nə papağa.
Qılınc kəsir dəmir də, işlətdikcə sola, sağa,
Qoç igidlər dünyalarca qiymət verdi hər yarağa.

Dedilər ki: Yetər bizə bu xoşbəxtlik əlaməti,
Vəsfə gəlməz göylərdəki Tanrımızın kəraməti.
Qaydasınca, lazımınca silahlandı bu iki ər,
Bir dəst geyim öz dostları Firidunçun götürdülər.

Götürdülər, mirvaridən, qızıldan da bir az nişan.
Möhürləyib qırx sandığı, onlar çıxdı mağaradan.
Avtandilsə belə dedi: "Vuruşarıq aslan kimi,
Qacetiyə getməliyik səhər günəş doğan kimi".

Rəsmini çək iki mərdin, rəssam, əgər bacarırsan,
Ulduzların məcnunutək hər ikisi çəkir hicran.
Bir orduya bərabərdir silahlanmış hər pəhləvan,
Qacetidə baxarsınız qılıncları tökəndə qan.

## TARİYELLƏ AVTANDİLİN FİRİDUNUN YANINA GETMƏSİ

Səhər tezdən hazırlaşıb onlar oldu yola rəvan,
Növbə ilə aldı qızı öz tərkinə hər pəhləvan.
Fil yerişli, yel qanadlı at aldılar qızıl pula,
Üç yoldaşdan Avtandildi bu səfərdə bələd yola.

Az getdilər, üz getdilər, rast gəldilər çobanlara,
Firidunun çobanları mat qaldı pəhləvanlara.
Hindli dedi: "Çobanlara sataşmaqla sən necəsən?
Firidunun ilxısını salaq burdan pərən-pərən.

Biz ilxını aparарsaq, o gətirməz buna davam,
Qan-qan deyib üstümüzə qoşun çəkər, buna varam.
Sonra bizi tanıyanda donub qalar, baxar mat-mat,
Qaraqabaq adamı da sevindirər bu zarafat".

Firidunun ən dəyərli atlarını tutdu onlar,
Çobanlarsa daban aldı tələm-tələs yaxıb fanar.
Deyirdilər: "Siz kimsiniz? Dolaşmayın burda nahaq,
Bu ilxının mərd sahibi gəlib sizə toy tutacaq".

Qoç igidlər çobanları qovaladı əldə kaman,
Qaçışanlar var səsilə qoparırdı nalə, fəğan:
"Basqın vardır, kömək edin, qırdı bizi bu namərdlər".
Bu hay-küydən, mərəkədən Firiduna çatdı xəbər.

Bir qırpımda ata minib çapa-çapa tədbir tökdü,
Yanındakı igidlərlə "düşmən" üstə hücum çəkdi.
Əldə qılınc iki günəş, qoşun səmtə cumdu bir də,
İki mərdin üzərinə dəmir qalpaq çəkdi pərdə.

Firidunu görüb güldü Tariyelin qaşqabağı,
Qalpağını atan kimi güllər açdı gül dodağı,
Dedi: "Nədir, bu vurharay! Üzün bizdən niyə döndü,
Sən duz-çörək əvəzinə bizə qılınc çəkdin indi?!"

Atdan düşüb qoç Firidun qucaqladı qonaqları,
Öpdü təkrar pıçıldadı məhəbbətlə dodaqları.
Tanrısına şükr elədi, qanadlandı şirin söhbət,
Əyanlar da qonaqlara layiqincə etdi hörmət.

Firidunsa dedi: "Çoxdan gözləyirdim yolunuzu,
Gəlişiniz sevindirdi dostunuzu, qulunuzu".
İki günəş, bir ay idi bu üç kişi sözün düzü,
Yola düşüb bəzədilər özlərilə çölü, düzü.



Firidunun sarayına gəldi sönməz iki günəş.
Avtandilə dedi: "Qardaş, gəl yanımda rahat əyləş".
Tariyelə zərxaralı taxt üstündə yer göstərdi,
İgidlər də Firiduna peşkəş deyə yaraq verdi.

Dedilər ki: "Bundan qeyri yoxdur gözəl hədiyyəmiz,
Başqa yerdə çox qiymətli şeylər qoyub gəlmişik biz".
Bircə anda o alnını yerə qoydu diz çökərək:
"Çox razıyam, belə yaraq qara gündə olar gərək".

Bu gecəni sayıldılar Firiduna əziz mehman,
Bəxşiş alıb mərd igidlər, çimməyə də tapdı imkan.
Gözəl libas geyindilər ən qiymətli bir parçadan,
Sonra qızıl kasalarda daş-qaş verdi o hökmran.

"Heç vaxt evin sahibini usandırmaz əziz qonaq,
Əzizlərim, bir söz deyim toxunmasın sizə ancaq.
Yola düşmək zamanıdır, olmaz daha burda qalmaq,
Qaclar gəlib bizə çatsa ola bilməz kefimiz çağ.

Böyük ləşkər nəyə gərək, düşək yola hər üçümüz,
Üç yüz əsgər götürərik kifayətdir bu gücümüz.
Qılıncımız dəstəyədək işlər orda ürəklərə,
O sərv boylu gözəl qızı bürüyərik çiçəklərə.

Dəhşət saçan Qacetidə mən olmuşam bircə kərə,
O sıldırım qayalardan çox müşküldür baxmaq yerə,
Biz üçümüz keçək xəlvət, qoşun qalsın bir kənarda,
Beləliklə arzumuza yetək bəlkə o diyarda".

Firidunun bu ağıllı məsləhəti gəldi xoşa,
Hədiyyələr verdi onlar Əsmət adlı azad quşa.
Üç yüz atlı götürdülər, səs saldılar dağa-daşa,
Allah etsin mərd igidlər bu səfəri vursun başa.

Yola çıxıb dənizləri asan keçdi bu üç qardaş,
Gecə-gündüz yol getdilər, nə bir qorxu, nə bir təlaş.
Qoç Firidun: "Yetişərik Qacetiyə yavaş-yavaş,
Gecələr yol getməliyik, olunmasın sirrimiz faş".

Hər üçünü ruhlandırdı, Firidunun məsləhəti,
Bu karvanın yalnız gecə başlanırdı hərəkəti.
Budur, artıq gözlərinin qarşısında durur şəhər,
Keşiyini çəkir onun saya gəlməz qoşun, ləşkər.

Daş qapının qabağında dayanmışdır on min əsgər,
Ay nuruna boyanmışdı bizim bu üç igid nəfər.
Dedilər ki: "Durmaq olmaz, gəlin verək qəti qərar,
Yüz ərimiz min nəfəri qırıb çatar qalib çıxar".

## QACETİ QALASINI ALMAQ HAQDA TARİYELLƏ AVTANDİLİN MƏSLƏHƏTLƏŞMƏSİ

Belə dedi mərd Firidun: "Mənim sözüm deyil nahaq,
Biz çox azıq, bu azlıqla asan deyil şəhər almaq.
Hücum üçün qoşun lazım, lovğalanmaq nəyə gərək,
Qapıları açammasaq, bəs şəhərə necə girək?

Uşaqlıqda kəndirbazlıq öyrənmişdim mən də bir az,
Məşq edərdim, cəld tərpənib, sıçrayardım mən kefi saz.
Mən kəndirdə yeriyəndə ildırım da mənə çatmaz,
Dostlarım çox istərdi ki, olsun mən tək bir kəndirbaz.

Deyin görüm, sizlərdən kim ata bilər yaxşı kəmənd?
Kəndir atıb edək onun bir ucunu qalaya bənd.
İp üstündə yol gedərəm tale edər mənə kömək,
Yağıları doğrayaram siz içəri girənədək.

Mən gedərəm ip üstündə yaraq ilə, qalxan ilə,
Tez aşağı tullanaraq cəng edərəm tufan ilə.
Qapıları açanadək hər yer dolar al qan ilə.
Cəng yerinə gələrsiniz, gecikmədən bir an belə".



Avtandil də belə dedi: "Dostlar bəslər hörmət sənə,
Min yaradan uf deməzsən, güvənirsən şir pəncənə.
Bu tədbirin bilirəm ki, qan uddurar hər düşmənə,
(Növbətçilər hay-küy salıb, səs yaxından gəlir mənə.)

Yarağının cingiltisin eşidərsə əgər biri,
Görüb səni onlar kəsər birdən-birə bu kəndiri.
Tədbirinsə çiçəklənməz, tutularsan diri-diri,
Gəl başqa bir çarə tapaq, bəyənmirəm bu tədbiri.

Qoy mən də bir tədbir deyim, daldalanın siz bu yerdə,
Eşitmişəm tacirlərə toxunmurlar bu şəhərdə.
Bu səbəbdən yenə tacir paltarını geyəm gərək,
Qatırasa yükləyərik bir az yaraq, bir az yemək.

Gözə çarpar qaclar görər cumsa ora üç pəhləvan,
Mən tək getsəm tacir kimi tez keçərəm o qapıdan.
Yarağımı gizlədərəm paltarımın altında mən,
Hər zərbəmdən üzər qanda, Allah qoysa, qarı düşmən.

İçəridə hər növbətçi qılıncımla gedər gora,
Aslan kimi cumarsınız bayırdakı qapılara.
Qapıları sındıraraq eləyərəm para-para,
Məsləhətim budur mənim, dərdimizə budur çara".

Tariyel də dedi: "Dostum, igidlərin igidisən,
Məsləhətin, mətanətin əvəzsizdir, sənə əhsən.
Qılıncını boş-boşuna oynatmazsan döyüşdə sən,
Deyirəm ki, vuruş çağı kaş yanında olaydım mən.

Mənə də bir iş tapşırın, istəmirəm qalam bekar,
Bilirəm ki, çıxar səsə mən məcnunu gəzən nigar.
Onda məni harda görər, onda məni harda tapar,
Bağışlayın gendə durmaq gəlir mənim adıma ar.

Təklif mənim təklifimdir, gün doğmamış səhər çağı,
Özümüzlə apararıq hücumlara yüz qoçağı.
Yel qanadlı atlarımız qayaları aşıb keçər,
Qaclar bizə yetişəndə qılıncımız kəsər, biçər.

Vuruşarıq qoymarıq ki, onlar çatsın qapılara,
Birimizsə keçər ora, dalğaları yara-yara.
İçəriyə keçən cumar düşmənləri qıra-qıra,
Gəlin, gəlin hücum edək, dərdimizə budur çara".

Firidunsa dedi: "Bəli, bu mətləbi düşdüm başa,
Heç at qaçmaz verdiyim o altındakı atla qoşa.
Düşünməzdim bu hədiyyəm layiq imiş bu vuruşa.
Xəsislikdən verdim onu mən bir dosta, bir tanışa".

O, zarafat eləyirdi dostlarıyla gülə-gülə,
Ağızlardan çıxan hər söz bərabərdir qızılgülə.
Ağ günlərin şərəfinə aqil kimi deyişdilər.
Həm atları dəyişdilər, həm paltarı dəyişdilər.

Bu zarafat zərrə qədər toxunmadı ürəklərə,
Səs verdilər Tariyelin könlündəki diləklərə.
Süvar oldu öz atına hər igidin yüz əsgəri.
Dəmir qalpaq geyindilər qazanmaqçın bu zəfəri.

## QACETİ QALASININ ALINMASI VƏ NƏSTAN-DARECANIN AZAD EDİLMƏSİ

Bu igidlər görünürdü günəşdən də qat-qat parlaq,
Yeddi ulduz nur səpirdi üçünə də qucaq-qucaq.
Tariyeldi düm qara bir at üstündə qılınc çalan,
Baxışlardı, silahlardı yağılardan qisas alan.

Bu xoş sözlər igidlərə doğrudan da çox yaraşır,
Buludlardan yağış yağır, təpələrdən sellər aşır.
Gurultuyla dərələrin sinəsindən aşıb daşır,
Ən nəhayət, dənizlərin ağuşunda sakitləşir.



Firidunun, Avtandilin əvəzi yox bu dünyada,
Tariyelin qarşısına kimsə çıxmaz bu davada.
Gün gizləyir ulduzları qoymayır ki, işıq saçsın,
Qulaq asın, şair sözü bu davadan söhbət açsın:

Üç qapıdan özü üçün bir qapını seçdi hərə,
Üç yüz igid ayrı-ayrı bənzəyirdi bir əjdərə.
Etdi onlar düşmənləri gecə yarı mühasirə,
Qapıların qabağında göründülər birdən-birə.

Onlar əvvəl gedirdilər səyyah kimi yavaş-yavaş,
Qarovullar çaşıb qaldı, bu yürüşdən açmadı baş.
Qaclar yaman mat-qut oldu, qaldırmadı yarağını,
İgidlərsə geydi bu dəm öz sehrli qalpağını.

Atlarını çapdı onlar düşmən üstə lap nagahan,
Şəhərdə bir şuriş qopdu qapıları açan zaman.
Üç tərəfdən hücum etdi bu üç igid, üç qəhrəman,
Qalxdı şeypur, təbil səsi, üstəliksə çalındı çan.

Tanrımızın Qacetiyə son qəzəbi keçdi bu gün,
Yerəbaxan Qronosçün günəş özü heçdir bu gün.
Bu ölkəyə endi sanki göyün dibi, çərxi-fələk,
Meyitlərdən dağ yarandı, deyil mümkün sözlə demək.

Tariyelin nərəsindən bihuş düşür yerə qaclar,
Kömək etmir yağılara geydikləri dəmir paltar.
Hücum etdi üç qapıya üç tərəfdən qəhrəmanlar,
Şəhərinsə qalasını elədilər tez tar-mar.

Firidunla qoç Avtandil içəridə görüşdülər,
Qan-qan deyib düşmənləri etmişdilər ziri-zəbər.
Sevindilər, öpüşdülər, iki dostu heyrət aldı,
Göz gəzdirib dedilər ki: "Bəs Tariyel harda qaldı?!

Baxdılar ki, bu tərəfdə Tariyeldən yoxdur əsər,
Çapıb atı birbaş qala qapısına yönəldilər.
Qılınc, qalxan qırıntısı yığılmışdı qalaq-qalaq,
On min qacın cəsədindən yaranmışdı o yerdə dağ.

Xəstələrtək uzanmışdı qəsrin növbə çəkənləri,
Geyimləri parça-parça, para-para bədənləri.
Açılmışdı qapıları, dağılmışdı tamam qala,
Dedilər ki, bu qalaya Tariyeldən gəlib bəla.

Növbə ilə çıxdı onlar başyuxarı yubanmadan,
Gördülər ki, xilas edib günəş üçün ayı ilan.
İslanmışdı sevincindən o dilbərin kirpikləri,
Tariyelin ay üzünə sarılmışdı hörükləri.

Qucaqlaşıb, torpaq üstə tökürdülər göz yaşını,
Müştəriylə Zöhl sayağı tapdı yoldaş yoldaşını.
Günəş gülü qucan zaman gülün hüsnü vəsfə gəlməz,
Bundan belə iki cavan nə ayrılıq, nə qəm bilməz.

Öpüşdülər, sevişdilər, unutdular bu dünyanı,
Dodaqların birləşməsi xatırlatdı gülüstanı.
Avtandilgil təbrik etdi günəş Nəstan-Darecanı,
Şad görərək sevindilər o cananı, bu cananı.

İgidləri qarşıladı günəş gözlü gülərüzlə,
Tariyelin dostlarını öpdü incə, nəcib hisslə.
Etdi yerdən göyə qədər minnətdarlıq şirin sözlə,
(Avtandillə Firidunsa danışırdı qaşla-gözlə.)

İkisi də salamladı sərvə bənzər Tariyeli,
Bir-birini möhkəm sıxdı üç igidin vuran əli.
Bərk ayaqda kimdə güc var, üç igidin gücü kimi,
Üçündən də qaçdı düşmən ceyran kimi, keçi kimi.

Üç yüz nəfər qoşundansa, qalmışdı yüz altmış nəfər,
Bu itkidən Firidunun varlığını sardı kədər,
Düşmənləri axtararaq qırırdılar birər-birər.
Gəlməz saya ələ keçən qənimətlər, xəzinələr.

Dəvələrə, qatırlara yüklədildi cavahirat,
Yaqutları, daş-qaşları daşıyırdı düz üç min at.
Yer üzündə bundan artıq kimdə belə xəzinə var?
Günəşisə dəvə üstə kəcavəyə oturtdular.



Altmış adam qaldı orda qorumaqçın bu qalanı,
Yox, igidlər verməz əldən bir də Nəstan-Darecanı.
Düz dənizlər şəhərinə çəkdi onlar bu karvanı,
Təbrik etmək borclarıydı bəxşişlərlə şux Fatmanı.

## TARİYELİN DƏNİZLƏR PADŞAHININ YANINA GETMƏSİ

Qasidini göndərdi o padşahına dənizlərin,
Desin qalib Tariyeldir müsafiri bu şəhərin.
Desin günəş gətirmişəm Qacetidən özümlə mən,
Sizi görmək istəyirəm şadu-xürrəm, gözümlə mən.

Bollu sərvət qazanmışam qırıb orda min-min qacı.
Bu səfərdə səndin, inan, başımdakı zəfər tacı.
Fatma bizə kömək etdi, günəşimə oldu bacı,
Əvəzini verə bilsəm keçməz ömrüm, günüm acı.

Gəl, igidlər torpağına basmamışdan ayağını,
Gəl, gəl, məndən qəbul elə bu qacların torpağını.
Qalasını özün tapşır inandığın adamlara,
Gəl məni gör, tələsirəm, igid hara, qaldı hara.

Siz Fatmanın özünəsə adından bu sözü deyin.
Nazlı günəş onu gəzir, qoy tərpənsin bir az yeyin.
Deyirəm ki, Tanrı versin mətləbini hər ürəyin,
Yolda qalıb o günəşin, o büllurun göz deyin...

Tariyelin qasidinə şah göstərdi yaxşı hörmət,
Qasidin xoş xəbərindən aldı şahı böyük heyrət.
O, öz adil Tanrısına etdi dua və itaət,
Tez atına minib dedi: “Uğurludur bu xoş dəvət”.

Düşünərək o, tədarük gördü toyçun səhər-səhər,
Çox qiymətli şeylər aldı, bir qədər də şəvə, gövhər,
Fatmanı da götürdü o, bəli on gün etdi səfər,
Həm aslanla, həm günəşlə görüşməyə tələsdilər.

Atdan endi hökmdarın qarşısında üç pəhləvan,
Hökmdarsa qalibləri qucaqlayıb öpdü bu an.
Şairlərsə Tariyelin şərəfinə dedi dastan,
Padşah baxdı Darecanın camalına heyran-heyran.

Fatma baxıb yavaş-yavaş yandı qızın atəşinə,
Məhəbbətlə, hərarətlə basdı onu öz döşünə.
Dedi: "Tanrı bir qulunam, sən can verdin günəşinə,
Şər bu gün var, sabah yoxdur, xeyir qalır bizə yenə".

Qız Fatmanı qucaqlayıb dedi: "Ölüm uzaqdadır,
Köməyimiz Allah oldu, ağ günümüz qabaqdadır.
Dünən bədbəxt, bu gün xoşbəxt, azad ötən bir bülbüləm,
Mən günəşin sayəsində şaxta vurmaz qızılgüləm".

Dənizlərin şahı qurdu təntənəli, gözəl düyün,
Tariyeli təriflədi, təriflədi... Düz yeddi gün
Kef elədi, bəxşiş verdi, məclis əhli razı qaldı,
Fərəhindən bu məclisdə qızıl puldan körpü saldı.

Bir dağ kimi qalanmışdı ipək parça, xara, atlas,
Tariyelə bir tac verdi, qiymətini qoymaq olmaz.
Bu tac bütöv yaqutdandı, üzərində daş-qaş, almaz,
Xalis qızıl taxt da gəldi, nəylə edək onu qiyas!

Tamam daş-qaş bir arxalıq düşdü gözəl Darecana,
Yaraşıqdı qıpqırmızı bədəxşanla yaqut ona.
İki gözəl, iki işıq çox gözəldi, çox mehriban,
Yanar tamam, iki gəncin camalına bir an baxan.

Avtandilə, Firiduna çatdı hədsiz hədiyyələr,
Hərəsinə bir at düşdü, üstlərində nadir yəhər.
Bir qaftan da verildi ki, daş-qaşları dünya bəzər,
Dedilər ki, əvəz olmaz min təşəkkür etsək əgər.

Tariyelsə sevincindən belə dedi aram-aram:
"Ey padşahım, bu gün səni gördüyümçün yaman şadam.
Qəlbimizi dindirdiniz hədiyyələr verib bizə,
Yaxşı ki, biz yol keçməyib nəsib olduq lütfünüzə".



Dənizlərin padşahısa dedi: "Ey şah, igid aslan,
Baxışından dostun gülər, düşməninsə tapmaz aman.
Hədiyyələr şöhrətinə layiq deyil, ey mərd insan,
Ey gözümün nuru, söylə, neyləsin səndən ayrılan?"

Tariyel də dedi: "Fatma, mənim əziz bacımsan sən,
Çox çətindir verə billəm ürəyinin borcunu mən.
Sənin olsun Qacetidən gətirdiyim cavahirat,
Mən satıcı deyiləm, yox, yaraşarmı mənə bu ad?!"

Baş əyərək Fatma dedi: "Səni görüm var olasan,
Şahım, budur qılınc çalır başım üstdə yenə hicran.
Mən divanə olacağam sən olanda məndən uzaq,
Hər kim sənə həmdəm olsa, xoşbəxt adam odur ancaq.

Dişləri dürr, dodaqları mirvarıya bənzəyənlər
Dənizlərin padşahına dedilər ki: "Artıq yetər,
Bu ziyafət, bu ney, arfa, təbil, sürməz toy bu qədər,
Vaxt yetişib, izin verin, tələsirik, edək səfər.

Sən ki, bizim ümidimiz, böyüyümüz, atamızsan,
Gəl, bizlərə bir gəmi ver, çətin yollar olsun asan".
Padşah dedi: "Gəmi nədir, sizə mənim canım qurban.
Gedirsiniz, uğurlu yol, qarşınıza olmaz çıxan".

Padşah həmən hazırlatdı sahildə bir gözəl gəmi,
Qoç Tariyel ayrılarkən basdı eli hicran qəmi.
Saç yolan kim, ağlayan kim, ağırdı bu vida çağı,
Mümkün deyil sinələrdə söndürmək bu yanar dağı.

Bu üç igid, and qardaşı, dənizləri aşdı artıq,
Söz qoydular qoy əbədi pozulmasın bu qardaşlıq.
Bülbül kimi ötürdülər, kim görübdür belə şadlıq,
Dodaqların nuru büllur lövhələrə saldı işıq.

Bu xəbəri bilsin Əsmət, fərəhlənsin indi o da,
Firidunun igidləri zəfər çaldı bu davada.
O qız bilsin günəş gəlir ulduzları uda-uda,
Danmaq olmaz bu günəşin varlığını bu dünyada.

Günəşisə kəcavədə apardılar sahil ilə,
Oynayırdı qəm-qüssəsiz uşaqlartək bu qafilə.
Birdən-birə karvan gördü Nurəddinin ölkəsini,
Eşitdilər pişivaza gələnlərin xoş səsini.

Firidunun adamları ucaldanda avazını.
Əsmət qucub Darecanı unutdu öz yarasını.
Balta belə kəsə bilməz bu dostluğun arasını,
Nazlı Əsmət burda təkrar göstərdi öz vəfasını.

Qucaqlayıb öpdü onun üz-gözündən gözəl Nəstan,
Dedi: "Mənəm sənin xoşbəxt həyatına qəmlər qatan,
Qara gündə əl uzatdı bizə yalnız o yaradan,
Sənin böyük ürəyinin necə çıxım mən borcundan".

Əsmət dedi: "Şükr olsun ki, gülür güllər, gülür bahar,
Şüur gizli şey saxlamaz, edər onu tez aşikar.
Ölümləri unutdurdu mənə sənin bu vüsalın,
Ən mötəbər dostluğudur suverenlə bir vassalın".

Gələn mənsəb sahibləri gözəl, şirin dil tökdülər,
Dərdi, qəmi unudaraq başlarına gül tökdülər.
Dedilər ki, nə böyükmüş Tanrımızın kəraməti,
O bəxş etdi dərdlilərə bu vəsli, bu səadəti.

Öpdü onlar igidlərin əlindən, həm dodağından:
"Bizdən ötrü sizin gözəl dostlarınız getdi qurban.
Bu döyüşdə ölməzlərə əbədiyyət oldu məkan,
Allaha çox yavuqlaşıb, qazandılar şərəf və şan.

Bu həyatdan getsələr də, onlar ölü deyil ancaq,
Hər birisi o dünyada əbədiyyət qazanacaq".
Belə deyib gözlərindən qar üstünə tökdü seli,
Nərgizlərə əsdi boran, şaxta vurdu qızılgülü.

Onu ağlar görüb hamı rəvan etdi göz yaşını,
Xatırladı həlak olmuş qohumunu, qardaşını.
Sonra gülüb dedilər ki, tapdıq günün yoldaşını,
Səni görən hər bəladan qoruyacaq öz başını.



Uzun müddət yas saxlamaq, yaş axıtmaq nəyə gərək,
Xoşdur sizin yolunuzda döyüşlərdə bu cür ölmək.
Firidunsa dedi: "Şahım, yas saxladı bu bəsdir daha,
Dua edək gəlin, bizə şadlıq verən o Allaha".

Avtandil də çox ağladı, hamı dedi: "Yetər, yetər,
Sevinməyin vaxtı çatıb, nəyə gərək qüssə, kədər.
Şənlik qurmaq məqamıdır, günəşini tapıb aslan,
Nəyə gərək çay yaransın gözümüzün qan yaşından.

Gəlib çatdı onlar axır Mülkixəzanzar şəhrinə,
Şeypur səsi, təbil səsi qarışmışdı bir-birinə.
Nə zaman ki, qoç igidlər ta mərkəzə gəldi yaxın,
Bazar əhli o tərəfə daban aldı axın-axın.

Küçələrə doluşdular tacirlər, həm seyrçilər,
Sərbazlarsa tamaşaçı görməmişdi heç bu qədər.
Sərbazları dəng edirdi ana, bacı, oğul, ata,
Hamı baxmaq istəyirdi görünməmiş bu büsata.

Atdan düşüb onlar saray qapısından keçdilər yol,
Qonaqları qarşıladı bir çox qızıl kəmərli qul.
Yola ipək döşənmişdi, görünməyib bu cür qəbul,
İzdihamın üzərinə səpdi onlar bol qızıl pul.

## FİRİDUNUN TARİYELLƏ NƏSTAN-DARECANA TOY ETMƏSİ

Nəstan üçün Firidun bir taxt qoydurdu rəngi dümağ,
Üstündəki qıpqırmızı, bir də sarı daş-qaşa bax.
Yanındasa, Tariyelçin taxt düzəldi sarımtraq,
Onlar gəlib əyləşəndə seyrə daldı yaxın-uzaq.

Xanəndələr oxudular könülləri aça-aça,
Qonaqpərvər Firidunsa paylayırdı ipək-parça.
Məclisdə o alnıaçıq başı uca görünürdü,
Darecanın gülüşündən saray nura bürünürdü.

Firidunun töhfəsinin kəsilmirdi heç arası,
Gələn doqquz mirvarının hər biri qaz yumurtası.
Bir qiymətli daş gəldi ki, günəşdən çox işıq çilər,
Bu şeyləri zülmətdə də rəssam görüb çəkə bilər.

Hər birinə boyunbağı bağışladı gülə-gülə,
Yaqutdandı, beləsini görməmişdi kimsə hələ.
Bir tabaq da gətirildi Firidundan Tariyelə,
İgid istər bu tabağı asanlıqla alsın ələ.

Çox iriydi tabaqdakı bu qiymətli mirvarılar.
Qoç igidə verib yenə alqışladı onu təkrar.
İncə, zərif ipəklərlə bəzənmişdi ev, dər-divar,
Tariyelsə cavabında min təşəkkür etdi izhar.

Düz səkkiz gün, səkkiz gecə təntənəylə keçdi düyün,
Çox qiymətli hədiyyələr paylanırdı orda hər gün.
Hər tərəfi çırtıq səsi, arfa səsi tutdu bütün,
Qovuşdular sevişənlər buyruğuyla yerin, göyün.

Tariyelsə Firiduna dedi bir gün, dinlə, Aslan,
Qəlbin qardaş qəlbindən də çox yaxındır mənə, inan.
Fəda olsa əvəz olmaz uğurunda bu baş, bu can,
Mən xəstəni sən sağaltdın, dərdlərimə tapıb dərman.

Mənim üçün Avtandil də varlığını atdı oda,
Gərək məndən yaxşılığın əvəzini görsün o da.
Soruş onun arzusunu, çəkinməsin, salsın yada,
O çilədi oduma su, qoy indi mən yetim dada.

Ona de ki, mən borcluyam ömrüm boyu sənə, qardaş,
O uğurlu əllərindən Tanrı özü tutaydı kaş.
Arzusunu mən yerinə yetirməsəm əgər onun,
Qoy dağılsın yurdum, yuvam, qoy başıma tökülsün daş.

Ürəyinin mətləbini gizlətməsin desin mənə,
Qoy çağırsın bu dostunu Ərəbistan çöllərinə.
İşə keçər qılıncımız, həm sözümüz, çəkməsin qəm,
Mən toyunu eləməsəm, öz toyumu eləmərəm.



O yetirdi Tariyelin sözlərini Avtandilə,
Avtandilsə məhəbbətlə qulaq asdı gülə-gülə.
Dedi: "Kömək deyil gərək, yoxdur bircə yaram belə,
Qaclar gözəl günəşimi almayıbdır məndən hələ.

Yenə doğdu öz günəşim, taxt üstündə parlayaraq,
Mənim əziz sevgilimin üstündəki daş-qaşa bax.
Daha ona bata bilməz qaclar, min bir cadukün də,
Mənə kömək nəyə gərək bu şərəfli, bu şad gündə.

Əgər Tanrı istəyərsə, əgər əmr gəlsə göydən,
Onda mənim yanğım sönər, dincələrəm, gülərəm mən.
Taleyimə günəş doğar, bir gündüzə dönər gecə,
Bilirəm ki, bunsuz mənim bütün səyim gedər heçə.

Get, mənim bu cavabımı Tariyelə belə yetir:
"Ey padşahım, mehribansan, bunca minnətdarlıq nədir,
Bu dünyaya göz açmışam sənə sadiq qul olmağa,
Əmr eləsən mən hazıram yolunda lap kül olmağa".

Deyirsən ki, istəyirsən sevgilimlə vüsalımı,
Mən duyuram, mərhəmətli qəlbin duyub bu halımı.
Orda qılınc oynatmağa bir ehtiyac görmürəm mən,
Nə xoş olar, əmr gəlsə əgər mənə o göylərdən.

Budur mənim könlümdəki çiçəklənən gözəl arzum,
Hindistanda taxt üstündə görmək istər səni gözüm.
Günəşimə baxsam bir də gülər könlüm, gülər üzüm,
Qoy xar olsun düşmənlərin, budur mənim ürək sözüm.

Qəlbimdəki bu arzular öz yerinə yetsə əgər,
Vurğun könül günəşimçin Ərəbistan deyib gedər.
O söndürər ürəyimdə baş qaldıran alovları,
Mən yaltaqlıq bacarmıram, yaxşı dinlə, məni barı".

Bu sözləri Tariyelə tez yetirdi qoç Firidun,
Osa dedi: "Burda artıq lazım deyil heç cadukün.
Darecanı tapdı mənə, qəlb evimdə qurdu düyün,
Qoy bilinsin ki, qulluğunda səfərbərəm mən də bu gün.

Artıq söhbət nəyə gərək, yetir ona sözlərimi,
Sözüm sözdür, mən sabaha qoymaram bu səfərimi.
Ərəbistan padşahından bu mərd mənfi cavab almaz,
Qızı ondan istəyərəm, o sözümü yerə salmaz".

Tariyelin cavabını o yetirdi Avtandilə,
Dedi: "Gedir, nahaq işdir fal söyləmək Tariyelə".
Avtandilin qəlbində yağ əriyirdi gilə-gilə,
Lazım bildi təzim etsin həm padşaha, həm də elə.

O diz çökdü birdən igid Tariyelin qabağında,
Öpülməmiş yer qoymadı qəhrəmanın ayağında:
"Rostevançün nə etmədim, istəmirəm salam yada,
Məcbur etmə sədaqəti pozum vəfasız dünyada.

Sənin bütün istəyini etməz Tanrı sənə qismət,
Mürəbbimə olmayacaq mən tərəfdən bir xəyanət.
Məndən nəcib kəsə qarşı sadir olmaz pis hərəkət,
Necə qılınc çəkə bilər ağasına bir rəiyyət?

Belə bir iş sevgilimlə aramızda salar nifaq,
Vay halıma hirsləndimi, salladımı o qaş-qabaq.
Məndən tamam üz çevirər, onda məni yaxar fəraq,
Dağılmış bir yuvanısa tikə bilməz heç bir qoçaq".

Mərd Tariyel Avtandili tez qaldırdı ayaq üstə,
Qəhrəmanı alqışlayıb yenə gəldi damaq üstə:
Buna inan, ömrüm boyu unutmaram köməyini,
Kitab kimi oxuyuram sənin sevən ürəyini.

Dosta qarşı nəyə lazım həddən artıq bu nəzakət,
Arzumdur ki, səndən ötrü mən də çəkim bir əziyyət.
Kim sevirsə qoy dalımca gəlsin mənim bu səfərdə,
Sevən könül hicran çəksə nalə edib düşər dərdə.

Bilirəm ki, sevgilinin könlü yalnız səni istər,
Gəlişinlə duman kimi başı üstdən köçər kədər.
Mən padşahdan gizli bir şey saxlamaram zərrə qədər,
Könlümdəki bu görüşmək arzusu da deyil hədər.



Təzim edib yalvarıram, öpərəm mən üz-gözünü,
Bəlkə onda o xoşluqla verər sənə öz qızını.
Qəlbinizdən silərsiniz tamam bu hicran sözünü,
Hər ikiniz taparsınız bəxtinizin ulduzunu".

Səmimiydi Tariyelin ürəyindən gələn sözlər,
İkisi də bu səfərə gedəcəkdi, verək xəbər.
Firidun da bu dəstəyə qoşdu xeyli qoçaq əsgər,
O özü də dostlarıyla o diyara etdi səfər.

## TARİYELİN MAĞARAYA YOLLANMASI VƏ XƏZİNƏNİ GÖRMƏSİ

Müdrik, aqil Divnos açır bu gizlində qalan sirri,
Kərim Allah xeyirxahdır, uzaq elər bizdən şəri.
O istəyir yer üzündə uzun olsun xeyrin ömrü,
Qüdrətiylə, hikmətiylə hifz eləyir göyü, yeri.

Çıxdı Firidun elindən bu günəşlər, bu aslanlar,
Özlərilə günəş qızı aparırdı pəhləvanlar.
Büllur üstdən sallanmışdı hörük-hörük qara saçlar.
Bu nəciblik, bu bədəxşan yaquta da işıq saçar.

Oturmuşdu kəcavədə sönməz günəş, başlar tacı,
Ov görəndə qoç igidlər olurdular mahir ovçu.
Bir ölkəyə çatdılarmı, toplaşırdı tamaşaçı.
Hədiyyələr verirdilər kimin varsa ehtiyacı.

Günəş durub sanki aylar arasından yerə baxır,
Gülə-gülə gedirdilər olsa da yol çətin, ağır.
İnsan üzü görməyən bu səhralardan qorxu yağır,
Çatdı onlar Tariyelin yaşadığı yerə axır.

O dedi ki, yorulsaq da xanəmizə çatdıq, nə qəm,
Məcnun kimi sizə bir az həyatımdan deyəcəyəm.
Əsmət bizi qonaq saxlar, ət də vardır, mən bildiyim,
Sizə bəxşiş verəcəyəm ipək parça, gözəl geyim...

Bir mağara qabağında onlar atdan yerə düşdü,
Maral əti doğradılar, çox çəkmədi yemək bişdi.
Gözəl süfrə arxasında keçən günlər yada düşdü,
Dedilər ki, şükr Allaha, qara günlər ötüb keçdi.

Onlar gördü, gəzən zaman mağaranı, bu məskəni,
Tariyelin tapıb möhür vurduğu bir xəzinəni.
Saymaq olmaz köməyinə çağırsan da bir ölkəni,
Ürəkləri döndü dağa seyr edərkən dəfinəni.

Tariyel öz dostlarına hədiyyələr verdi həmən,
Firidunun adamları razı qaldı hədiyyədən.
Başçılar da, əsgərlər də varlandılar bircə anda,
Bu sərvətin bərabəri ola bilməz bu cahanda.

Firiduna dedi: "Bunlar borclarımı etməz əvəz,
Deyirlər ki, xeyir verən bu aləmdə bada getməz.
Əziz dostum, bu gördüyün xəzinədə hər nə ki var,
Haqq sözümdür, düz sözümdür, sənin olsun, götür apar".

Firidunsa təşəkkürlər etdi ona baş əyərək,
"Ey padşahım, bu nə sözdür, artıq nemət nəyə gərək.
Bir çöp sanar ən hiyləgər düşmənləri nəzərlərin,
Pənahımsan, həmişəlik qəlbimdədir sənin yerin".

Əsgərlərə əmr elədi dəvələri gətirin siz,
Xəzinəni xəzinəmin qapısına yetirin siz.
Ərəbistan sövdasilə onlar yola düşdü yenə,
Qoç Avtandil tələsirdi qovuşmaqçın Tinatinə.

Yol gedərək çatdı dostlar Ərəbistan sərhədinə,
Çox baxdılar yaxın, uzaq qalasına, həm bəndinə.
Əhalinin görkəminə, geyiminə, təkbəndinə,
Yerliləri Avtandilçin ağlayırdı bu gün yenə.

Elçi getdi Tariyeldən belə desin Rostevana:
"Sevin, padşah, arzum budur arzuların gəlsin cana.
İzn ver ki, hind padşahı gəlsin indi hüzuruna,
Dərilməmiş gül göstərsin sənin kimi bir bağbana.



Bizim o ilk görüşümüz yaman oldu, bilirəm mən,
Məni əsir almaq üçün atlıları çapdırdın sən.
Onda sənin əsgərlərin aldı məndən ağır yara,
Sarayında dəydi zərbəm nökərlərə və qullara.

Yol keçirdim, tələsirdim, hüzuruna gəldim yenə,
Müqəssirəm, hirsini boğ, gəl səxavət göstər mənə.
Firidunla əsgərləri, töhfəm yoxdur, bilir, bəli,
Sənə töhfə gətirmişəm ancaq igid Avtandili".

Bu xəbərdən təbəssümlər qondu şahın dodağına,
Sevincləri sığmayırdı geniş saray otağına,
Nur səpildi qızılgülə – Tinatinin yanağına,
Gözlə kirpik xitam verdi məhəbbətin fərağına.

Guruldadı təbil yenə, car çəkərək verdi xəbər,
Qonaqların pişvazına çıxdı saysız igid əsgər.
At çapdılar, könüllərdə böyük maraq, böyük həvəs,
Dörd bir tərəf adam dolu, iynə atsan yerə düşməz.

Padşah, bütün sərkərdələr, qoşun yola düzəldi tez,
Saya gəlməz tamaşaçı toplamışdı uğurlu səs,
Əl qaldırıb, Tanrısına şükr edirdi burda hər kəs.
Deyirdilər, xeyirlisən, yanında şər çəkməz nəfəs.

İki dəstə yaxınlaşıb bir-birini görən zaman,
Tariyelə qoç Avtandil dedi: "Gəldi gözəl dövran.
Bir yaxşı bax, yeri, göyü tutub örtən bu toz, duman,
Qəlbimdəki oddan qalxan tüstülərə bənzər inan.

Mürəbbim lap qabaqdadır, gəlir sənin qabağına,
Xəcalətdən necə gedim mən onların ayağına.
Sözün düzü, görünməyə üzüm yoxdur gözlərinə,
Sən Tariyel, sən Firidun bir məsləhət verin mənə".

Tariyelsə dedi: "Nədən utanırsan, söylə, nədən?
Qoy onda mən özüm gedim, hələliksə qal burda sən.
Padşahına deyərəm, onda qaçıb gizlənərsən.
Allah qoysa yetirərəm sən aslanı günəşə mən.

Qoç Avtandil həmin yerdə bir balaca çadır qurdu,
Gözəl Nəstan o çadırın qapısında gəlib durdu.
Kirpiklərdən hər tərəfi xoşa gələn bir meh vurdu.
Padşah özü yorulmadı, altındakı atı yordu.

Firidungil yol getdilər, keçib düzü, keçib çölü,
Padşah dedi: "Gələn odur, tanıyıram Tariyeli.
Tariyelsə atdan düşdü, təbəssümlər dodağında,
Ehtiramla gəlib durdu hind şahının qabağında.

Salam verdi nəzakətlə, baş əydi o məhəbbətlə,
Padşah onu qucaqlayıb öpdü qızğın hərarətlə.
Dedi: "Bizim bu diyara xoş gəlibsən, ey hünərvər,
Sən günəşsən, sən olmasan açılarmı, söylə, səhər?"

Sonra onun camalını seyrə daldı heyran-heyran,
Dedi: "Belə igid bir ər yetirməyib hələ zaman".
Hökmdara baş endirdi Firidun, o mərd pəhləvan,
Hind padşahı Avtandili görmək üçün atırdı can.

Padşah susdu Tariyelin hörmətindən utanaraq,
Qoç Tariyel dedi: "İnan hüzurunda qulam ancaq.
Mən kiməm ki, gərək bilsin, bunu böyük padşahımız,
Sizin qoçaq Avtandildir köməyimiz, pənahımız.

Onun burda olmaması dərd olmasın sizə gərək,
Bilirəm ki, sevir onu sinənizdə vuran ürək.
İzn verin bu çəməndə ondan deyim sizə bir az,
Gəlin birgə tədbir tökək, edək onun kefini saz".

Əyləşdi bu iki padşah, ətrafdasa qoşun, ləşkər,
Tariyelin camalından şəfəq doğub, salın nəzər.
Dodağından çıxan kəlmə xoş nəfəsli bir quş olur,
Padşah ilə söhbətini eşidənlər bihuş olur.

"Bu sözləri söyləməyə deyilsəm də layiq adam,
Lakin onun tərəfindən gəlib sizə yalvarıram.
Günəş özü xahiş edir, çarə tapın, budur ricam.
O günəşli səhərimdir, odur mənə verən ilham.



İkimiz də yalvarırıq, siz bu işə əncam qılın,
Avtandildir mənə dayaq, vurğunuyam o aqilin.
Dost yolunda öz dərdini dərd bilmədi, mərdə baxın,
Başağrısı verdim sizə, yeri deyil bu nağılın.

Sizinkilər aşiqdirlər, oğlan qıza, qız oğlana,
Ayrılığın sitəmindən kül olurlar yana-yana.
Yalvarıram, qoymayın ki, ürəkləri dönsün qana,
Verin qızı şir biləkli, daş sinəli pəhləvana.

Budur mənim sözüm, arzum, bilin onun əhvalını,
(Bunu deyib tez boynuna bağladı öz dəsmalını.)
Qalxdı bir də diz çökdü o, dedi: "Şahım, rəhmə gəlin,
Bu macəra heyrətinə səbəb oldu bütün elin".

Tariyelin diz çökməsi hind şahına yaman dəydi,
Bircə anda onun dəxi iki dizi yerə dəydi.
Dedi: "Mənim gözlərimdə bir cənnətdir bütün aləm,
Sənin belə alçalmağın ürəyimə gətirdi qəm.

Rədd etmərəm, çünki birdir sənin arzun, mənim arzum,
Ağlamaram əllərinlə ölsə əgər mənim qızım.
Onu kəniz etsən belə, yaş axıtmaz iki gözüm,
Avtandiltək göylərdə də oğul tapmaz dan ulduzum.

Bilirəm ki, ola bilməz Avtandil tək yaxşı yeznə,
Səltənətim qızımındır, tək onundur bu xəzinə.
Gülüm solur, qızımınsa gülür gülü gül üzünə,
Avtandili rədd etmərəm, sözüm çatsın qoy özünə.

Sən qızımı qula versən söz demərəm sənə, bəli,
Sənin kimi bir aqili rədd eləyər yalnız dəli.
Mən heç görmək istərdimmi sevməsəydim Avtandili?
Tanrı, sənin hüzurunda bunu deyir ata dili".

Çox xoş gəldi Tariyelə padşahın bu xoş avazı,
Baş əyərək səcdə etdi, ürəyindən sildi yası.
Padşah təkrar baş endirdi, ikisi də qaldı razı,
İki şahın bir-birindən yoxdu başqa təmənnası.

Firidun bir qasid kimi, gözləmədən ata mindi,
Avtandilin sevincinə Avtandildən çox sevindi.
Çapdı atı yellər kimi, bir qırpımda keçdi çölü,
Gülümsəyib göz vurdu o, utandırdı Avtandili.

İki padşah endi atdan, gəlib çatdı Avtandilə,
Avtandilsə üz-gözünü örtdü birdən yaylıq ilə.
Göy üzündə qara bulud sanki tutdu gün üzünü,
Aləm bilir donsa belə, gizli qalmaz gülün hüsnü.

Padşah öpmək istəyəndə qəhrəmanın yanağını,
Avtandil tez qucaqladı Tariyelin ayağını.
Nurlandırdı öz hüsnilə Ərəbistan torpağını.
Padşah dedi: "Qalx, utanma yarının al sorağını".

Padşah onu qucaqlayıb məhəbbətlə öpdü yenə:
"Ürəyimdə yanan odun su səpmisən sən üstünə.
Arzum budur Tinatinlə çıxasınız bir ağ günə,
Tinatini təntənəylə yetirərəm düyününə".

Padşah öpüb təkrar-təkrar əhsən dedi pəhləvana,
Lap yanında əyləşərək şirin dillər tökdü ona.
Bu padşahlıq və Tinatin Avtandilə tac olacaq,
Sevinc nədir, bu dünyada qəm çəkənlər bilər ancaq.

İgid dedi padşaha ki, başqa söhbət nəyə yarar,
Niyə görmək istəmirsən günəşini, söylə nə var?
Darecanı götür apar, şahım, yaxşı dinlə məni,
Onun hüsnü nurlandırar həm evini, həm də səni.

Ata minib çapdı onlar Darecanın qabağına,
Sanki günəş qonmuş idi üç igidin yanağına.
Tapdı onlar gül camalı, düşüb onun sorağına,
Hər birisi güvənirdi qılıncına, yarağına.

Atdan enən cavan şahın, qız artırdı qürurunu,
Baxan gözlər qamaşırdı saçanda o öz nurunu.
Kim sevməz ki, kəcavədən yerə enmiş bu hürünü?
Onu tərif edən padşah itirdi öz şüurunu.



Dedi: "Ey buludsuz işıq, hanı sənə tay, bərabər,
Vallah nə gün sənə bənzər, billah nə ay sənə bənzər.
Hüsnün nələr çəkdirməyib ən şüurlu adamlara,
Qızılgüllər, bənövşələr gözlərində dönüb xara.

Əqli çaşar göylərdəki şimşəkləri görənlərin,
Üzü gülər bu günəş tək mələkləri görənlərin.
Atəşinə yananların nə sayı var, nə hesabı,
Ondan ilham alanların coşar könlünün rübabı.

Yolçu yolda gərək deyib onlar oldu ata süvar,
Günəşinsə yeddi qardaş ulduzuna bənzəri var...
Deyin görək, yer üzündə varmı belə gözəl məkan?
Təntənəylə şahın böyük sarayına çatdı onlar.

Gördü onlar Tinatini başında tac, taxt üstündə,
Həsrətilə yananları çox qoymuşdu o dar gündə.
Şəfəqləri qonaqların surətinə işıq verdi,
Hind padşahı gəlib çıxdı, sanki evə günəş girdi.

Həm Tariyel, həm cananı təzim etdi dönə-dönə,
Öpüşdülər, baldan şirin söz dedilər bir-birinə,
İşıq saçıb bu saraya döndərdilər bu gün yenə,
Büllur yaqutu yanağa, şəvəni sıx kirpiyinə.

Tinatinsə ehtiramla taxt göstərdi qonaqlara,
Tariyel də ona dedi: "Sən layiqsən ancaq ora.
Şübhəsiz ki, çox yaraşır bu tac sənə, bu taxt sənə,
Günəşini yanındaca oturdaram, inan mənə".

Onu taxta oturtdular qoç Tariyel, mərd Rostevan,
Yanındaca yer verdilər Avtandilə, bitdi hicran.
Gözlədilər, bu cür gözəl görməmişdir yəqin cahan,
Bunlar kimi deyildi heç Vis və Ramin, deyil yalan.

Avtandilə baxan kimi qaçdı qızın rəngi bir az,
Sevən könlü istəyirdi quşlar kimi etsin pərvaz.
Padşah dedi: "Utanma gəl, qızım, gəlin belə olmaz,
Arif deyib, doğru aşiq sevdiyinə həsrət qalmaz.

Övladlarım, Tanrı özü rəvac versin bu növrağa,
Başınızdan hər bəlanı görüm qovsun lap uzağa.
Özü kimi izn versin əbədilik yaşamağa,
Mənsə sizin əlinizlə tapşırılım bu torpağa".

Qoşuna əmr etdi padşah: "Baş əyiniz Avtandilə
Bundan sonra padşah budur həm orduya, həm də elə.
Qocalmışam taxtım, tacım bu mərdindir indən belə,
Vəsiyyətim budur, ona qulluq edin can-baş ilə".

Bütün əyan, bütün ləşkər ikram ilə baş əydi, bax,
Dedi: "Bizi bu rütbəyə yetirənə torpaq olaq.
Müti kəslər ucaldılar, inadçılar qalmadı sağ,
Hamımıza cürət verən qaliblərə bizik torpaq".

Şah Tariyel tərif edib qıza dedi: "Taxtım, tacım,
Birləşdiniz, bitdi hicran, şirinləşdi mənim acım.
Qoçaq ərin qardaşımdır, gəl sən də ol, əziz bacım,
Sənə xain çıxanları xəcil etmək olsun borcum".

## ƏRƏB PADŞAHININ AVTANDİLLƏ TİNATİNƏ TOY ETMƏSİ

Oturmuşdu padşah kimi qoç Avtandil, mərd hökmran,
Tariyelin nəcabəti bu məclisə verirdi can.
Bir yandasa əyləşmişdi şux Tinatin, gözəl Nəstan,
Sanki göydən enmişdi bu iki günəş, iki canan.

Qoşun üçün yemək gəldi olsun deyə gözləri tox,
Qonaqlarçın kəsilirdi, inək, qoyun çoxdan da çox,
Bu məclisdə paylanılan bəxşişlərin hesabı yox,
Gülər üzlər bir günəşdi, baxışlarsa bir iti ox.

Gəzir əldə yaqut badə, sünbül çiçəkli fincanlar,
Ariflərdən qiymət alır eşqə layiq gözəl canlar.
Süfrələrdə saya gəlməz bər-bəzəkli qab-qacaq var,
(Yaxşı olar, sən ey könül, bu məclisdə tutsan qərar.)



Çalğıçılar gəlib çıxdı, mis səsilə doldu otaq,
Tökülmüşdü bu məclisdə qızıl, yaqut qalaq-qalaq.
İncilərçin çeşmələrdən şərab axır, dəsgaha bax,
Məclis əhli kefə baxdı, sübhə qədər qalıb oyaq.

Hədiyyəsiz qayıtmadı bu qapıdan nə kor, nə şil,
Səxavətə mirvarilər, incilərdi sübut, dəlil.
Atlas, qızıl daşıyanlar haldan düşüb çıxartdı dil,
Hind padşahı toyda üç gün başçı oldu, yalan deyil.

Ertəsi gün məclis qurdu ərəblərin padşahı, bax,
Tariyelə dedi: "Xoşdur günəşinə tez-tez baxmaq.
Sən padşahlar padşahısan, osa sənə arxa, dayaq,
Biz də sənin qulaqları deşilmiş bir qulun olaq.

Səninlə bir oturmağa deyilik heç layiq, inan"
Padşah taxtı gətirtdirdi onlar üçün mərd Rostevan,
Avtandillə arvadına yer verdilər bu ayaqdan,
Tariyelin hədiyyəsi uca idi uca dağdan.

Ərəblərin padşahından çox razıydı bu qonaqlar,
O, çox sadə görünürdü, nə bir təmkin, nə bir vüqar,
Hədiyyələr payladıqca deyirdilər sağ ol, ona,
Oturublar qoşa, baxın Avtandilə, Firiduna.

Tariyelə və Nəstana şah göstərdi hədsiz hörmət,
Verdi yaxın bir dost kimi hər birinə gözəl xələt.
Adlarına layiq olan əba verdi, bir tac verdi,
Əllərində tutmaq üçün başı daş-qaş ağac verdi.

İki gəncin başına hey hədiyyələr oldu şabaş,
Rim toyuğu yumurtası boyda nadir min iri daş.
Min mirvari, nə boydasa göyərçinin yumurtası,
Dağ gövdəli min at verdi, qonaqları saldı razı.

Mirvarilər bağışladı Firiduna doqquz tabaq,
Doqquz nadir yəhərli at, yerişi yel, özü qıvraq.
Hind padşahı kefliydisə, ayıqdan da ayıqdı çox.
Hamı onu mədh edirdi, çünki əli açıqdı çox.

Artıq sözə nə ehtiyac, bir ay gəlib çatdı başa,
Şənliklərdə içirdilər badələri daşa-daşa.
Qərq etdilər Tariyeli həm yaquta, həm daş-qaşa,
Baxdı onun cəlalına gözlər qamaşa-qamaşa.

Qızılgülə bənzəyirdi, yağdırırdı qar Tariyel:
"Rostevandan get mənimçün icazə al, qoç Avtandil.
De ki, mənə xoşdur, bəli, burda qalsam əgər min il,
Vətənimdə yağılar var, bu səbəbdən dözmür könül.

Bacaranın ustalığı nadanları tez məhv edər,
Bilirəm ki, dərdə düşsəm, qəlbinizi didər kədər.
Getməliyəm, dəyməməkçün vətənimə ziyan, xətər.
Allah qoysa görüşərik, alnıaçıq, üzügülər".

Rostevansa dedi: "Şahım, sıxılarmı söylə aqil,
Yaxşıdan tut, yamanı at, ömrün boyu olma qafil.
Ordu götür, yanınca da getsin igid, qoç Avtandil,
Düşmənləri məğlub edib, arzunuza olun nail".

Mərd Avtandil tez yetirdi Tariyelə bu xəbəri,
Tariyelsə dedi: "Dinmə, ört o büllur cərgələri.
Ey ayını tapan günəş, təxirə sal bu səfəri".
Avtandil də dedi: "Çəkmə bu əzmimdən məni geri.

İstəyirsən ayrılasan, sıxacaqdır kədər səni,
Deyəcəksən atdı dostum arvadına görə məni.
Tək qalarsam olacağam, öz-özümün düşməni mən,
Bu dünyada dost itirmək böyük dərddir, unutma sən".

Qızılgüldü və büllurdu Tariyelin təbəssümü,
Dedi: "Daha betər sıxar bu ayrılıq ürəyimi.
Məzəmmətin yeri deyil, mənim kimi gəl yola çıx".
Avtandilsə qoşunlara əmr etdi ki, vaxtdır artıq.

Ərəblərin ordusuna uca səslə verdi fərman,
Səksən mindi qoşun əhli, müsəlləhdi hamı yaman.
Adamlar, həm atlar, Xarəzm zirehinə bürünmüşdü.
Bu ayrılıq çağındasa Rostevan min dərdə düşdü.



Həsrət ilə ayrılarkən, bacılaşan bu iki qız,
Ürəkləri andla bağlı iki sirdaş, iki ulduz
Qucaqlaşıb dinmirdilər... gözlər idi dinən yalnız,
Sinələrə dağlar çəkib ağladılar ağız-ağız.

Ay şəfəqlə görüşəndə yer üzünə nur tökdülər,
İkisi də bir görünər, ikisi də bir çəkilər.
Biri getmək istəməzsə göylər onu məcbur edər,
Seyrçilər ağırlıqda olmalıdır dağlar qədər.

Həm ay idi, həm də şəfəq Tinatinlə gözəl Nəstan,
Onlar razı olmasa da, ayıracaq o yaradan,
İkisi də güllərini birləşdirib etdi fəğan.
Günəşlərdən ayrılanlar lovğalanmaz heç bir zaman.

Nəstan dedi: "Doğulaydıq əzəldən kaş, bir can kimi,
Söylə, günəş, bu dünyada bir dərd varmı hicran kimi?
Xəbər tutun, kağız yazın, o mənzilə varan kimi,
Sən də burda odlara yan, mən səninçin yanan kimi".

Tinatinsə dedi: "Günəş, hamımıza sən verdin can,
Hicranına tab etsəm də düşəcəyəm xəstə, inan,
Mən Tanrımdan yalnız ölüm istəyirəm, deyil ömür.
Tökəcəyəm qan-yaş qədər yaşa, gözəl bir dövran sür".

Qucaqlaşıb öpüşdülər, gedən xanım düşdü yola,
Qalan xanım süzdü yolu gözü yaşla dola-dola.
Gedən xanım baxdı geri ürəyində dərin yara,
Gördüyümün onda biri yazılmayıb varaqlara.

Onlar getdi, Rostevansa dəlidən də dəli oldu,
Min dəfə: "Vay dərdim", – dedi, bircə anda rəngi soldu.
Gözdən qaynar qazan kimi yaş axıtdı, yerlər doldu,
Yavaş-yavaş əridi qar, Tariyelin dərdi boldu.

Tariyelin padşah qızılgüllərini öpdü həmin,
Dedi: "Gəldin xəyal kimi, gedirsən bir xəyaltək sən.
Ayrılırıq, ürəyimdə artacaqdır yəqin məlal,
Bizə həyat verən də sən, alan da sən, nədir bu hal?"

Padşah ilə qucaqlaşıb çapdı atı qoç Tariyel,
Qoşun elə ağladı ki, göz yaşıyla doldu bu çöl.
Dedilər ki: "Uzaq olma, günəş səni görmək istər".
Dedi: "Mən də ağlayıram, daş deyiləm bilsin ləşkər".

Mərd Tariyel, qoç Firidun, şir Avtandil, bu üç qoçaq,
Ordusuyla yol gedirdi qaldıraraq toz, tozanaq.
Bir-birindən cəngavərdi səksən minlik atlı qoşun,
Üç igidin cəlalını seyrə dalsan, gələr xoşun.

Yollardakı əzablara qoç igidlər gətirdi tab,
Hər qarşıya çıxan adam igidlərə deyildi bab.
Nahar vaxtı aran yerdə dincəlməkçin dayandılar,
Şərab içib gülüşdülər, tamam nura boyandılar.

## TARİYEL HİND PADŞAHININ ÖLÜM XƏBƏRİNİ ALIR

Böyük karvan sığınmışdı təpəsinə böyük dağın,
Adamları, atları da qapqaraydı bu yığnağın.
Karvan əhli dolamışdı öz başına saçlarını,
"Karvan bura gəlsin" deyib, verdi padşah qərarını.

Tacirləri və başçını tez hüzura gətirdilər,
Padşah dedi: "Niyə qara geymisiniz, yasdır məgər?"
"Misirliyik, Hindistandan yol almışıq bu diyara,
O torpaqda qara geymək bir adətdir insanlara".

Eşidincə Hindistandan gələnlərin sözlərini,
Sevindilər, lakin gizli, vermədilər özlərini.
Tariyelsə usta kimi özgə dildə açdı söhbət,
Onlar da öz dillərində danışdılar ən nəhayət.

Bunlar dedi: "Hinddən bizə xəbər verin, danışın bir".
Onlar dedi: "O diyara Tanrı bəla göndərmişdir,
Fəlakətdir, qan ağlayır böyüklər də, kiçiklər də,
Ariflərsə olub dəli, bütün ölkə düşüb dərdə".



Tacirbaşı bəlağətlə başladı bir belə kalam:
"Sayılırdı hind padşahı Farsadan çox xoşbəxt adam.
Qızı kimi sönməz günəş görməmişdir hələ əyyam,
Dişlər dürdü, yanaq yaqut, saçlar qara, mərmər əndam.

Sərkərdəylə həmən gözəl sevişirdi... keçdi zaman,
Vaxt yetişdi həmin adam yeznəsini etdi candan,
Körpəlikdən qızı bibi böyütmüşdü, aman-aman,
Ondan gələn bu bəlalar Hindistanı qoydu viran.

Bibisi tez gözdən itdi, sehrbazdı xeyli usta,
Günəşindən məhrum edib, yer üzünü qoydu yasda.
Bibi öldü, kimsə ona acımadı zərrə qədər,
Sərv ağacı o qız getdi, bəlkə ömrü olub hədər.

Sərkərdəsə günəşiyçin döndü mahir bir səyyada,
Hindistanda günəş batdı, ay tutuldu, itdi o da.
Yox oldular kim tapacaq onu, qızı bu dünyada.
(Tariyel dedi öz-özünə: "Tanrı, məni yaxma oda".)

Qaçanları aramaqda aciz qaldı padşah yaman,
Rübabların əvəzinə işə düşdü nalə, fəğan.
Padşah buna dözəmmədi, ömrü-günü oldu qısa,
Öldü bədbəxt, bu xəbərdən bütün ölkə batdı yasa".

Tacirbaşı dedi təkrar, hind xalqının xiffətindən,
Qışqıraraq açdı Nəstan öz başına hiddətindən.
Çəkdi nalə, etdi fəryad Tariyeltək igid belə,
Qar əridi, nərgizlərdən axan yaşlar döndü selə.

Ağzı nədir günəşin ki, baş əyməsin bu gözələ,
Ətri qızılgül ətridir, açıq başı qızıl lalə.
Dişlərisə bənzər büllur qutudakı ekiz lələ,
Onu tərif edə bilməz, aqil arzu etsə belə.

Bu qadın bir bülbül kimi atasını ağlayırdı,
Saç yolaraq, yaş tökərək sinələri dağlayırdı.
Yaqutu bir yosun otdu, qızılgülü bir zəfəran,
Bu günəşə qara bulud qanad gərdi bir gün yaman.

O, üzünü cırmaqlayıb qoparırdı nalə, fəğan,
Dörd bir yana gözlərindən sellər kimi axırdı qan:
"Bu yaramaz övladının canı sənə qurban, ata,
Arxan kimi sənə xidmət etməmişəm bu dünyada.

Yazıq ata, mənim görən gözlərimə səndin işıq,
Daha bədbəxt övladından sənə xəbər çatmaz artıq...
Günəş! Sənə deyil gərək nə gur işıq, nə yaraşıq,
Dünya, yenə dağılırsan, nədir səndə bu bəd qılıq!

Tariyel də ağlayırdı: "Ey mürəbbim, de, bu nədir?
Heç bilmirəm günəş niyə işığını hərrac edir.
Sən ey günəş, ölümünlə dünya mənə əfsanədir,
And verirəm, əfv et məni, könlüm evi viranədir".

Dedilər ki: "Daha nə var, nəql eyləyin o məkanda";
Tacirbaşı cavab verdi: "Dava gedir Hindistanda.
Çin ordusu hücumdadır, şəhər əhli üzür qanda,
Başçıları Ramaz şahdır, vicdan yoxdur bu insanda.

Nə ölüdür, nə də diri şah arvadı – o binəva,
Hind qoşunu qalıb başsız, çox ümidsiz edir dava,
Şəhərlərdə, qalalarda Çin ordusu salıb yuva,
(Sən ey günəş, nurunu saç, qaranlıqdır çünki hava.)

Bu səbəbdən hamılıqda bürünmüşük qara dona,
Yolda gördük biz Ramazı, Misirliyik dedik ona.
Sözümüzə inanaraq toxunmadı bu karvana.
Hörmət etdi, bu yazılsın şahımızın ünvanına".

Tariyel bu sözdən sonra həyəcanla yola düşdü,
Üç günlük bir uzun yolu, o bir gündə ötüb keçdi.
Bu bayraqdar qəhrəmanın nəzərində yağı heçdi,
Bu pəhləvan ürəyində zəfər adlı bir yol seçdi.



## TARİYELİN HİNDİSTANA GƏLMƏSİ VƏ ÇİNLİLƏRİ MƏĞLUB ETMƏSİ

Hind elində Tariyelin nəzərinə çarpdı dağlar,
Dağ ətəyi çinlilərin qoşunları tutub qərar.
İgid dedi: "Ey qoçaqlar, olun mənə arxa, dayaq,
And içirəm bircəsi də əlimdən sağ çıxmayacaq.

Mən bir dəfə qılıncımı göstərmişəm bu qoşuna,
Zireh cırıb, ordu qırıb bənzəmişəm dağ quşuna".
Avtandil də belə dedi: "Nə durmuşuq boş-boşuna,
Biz onları kül eləsək gələr haqqın da xoşuna".

Hamı cəngə hazırlaşdı, deyildilər zərrə yorğun,
Bu yürüşdə mindikləri atlar belə oldu quzğun.
Ayaqları toz qaldırdı yollar boyu sütun-sütun,
Seyr edənlər bu atların yerişinə olar vurğun.

Bir təpədə pusqudaydı süvari yad qarovulu,
Tariyelin atlıları çapa-çapa kəsdi yolu.
Çinliləri əsir alıb soruşdular: "Kimsiniz siz,
Nəçisiniz, bu torpaqda, Hind elində nə işiniz?"

Onlar dedi: "Ramaz padşah göndərmişdi bizi bura,
Aldanmışıq, günahımız varsa əgər çəkin dara".
Qoç Tariyel əmr elədi: "Ay axmaqlar, o yaramaz
Ağanıza yetirin ki, öz ipini yığsın bir az.

Deyin, gələn böyük padşah Tariyeldir, tutsun xəbər,
Belə deyir, ürəklərə lərzə salan bu cəngavər.
Görürsənmi öz əsgərin gəlib məndən elçi sənə,
Ölümlə də öz canını qurtarmazsan, inan mənə.

Kəramətli insanları dəli edər ancaq hücum,
Nə cürətlə Hində gəldin, bəlli ikən sənə gücüm.
Mən atəşəm, ürəyini yandırmaqdır mənim borcum,
Bilirəm ki, bədənində kütləşəcək bu qılıncım.

Mən qəfildən hücum etmək istəmirəm, ol xəbərdar,
Qoşunla gəl, gen dünyanı edim sənin başına dar.
Ağzı yava! Üzərimə gəlmək üçün gücünmü var,
Toz edərəm o zirehli papağını, olarsan xar".

Keşikçilər çaşbaş olub uça-uça döndü geri,
Necə varsa yetirdilər Ramal şaha bu xəbəri:
"Ey şah, gələn Hind şahıdır, saya gəlməz heç əsgəri,
Kim onlardan qaça bilsə, deməк onun var hünəri.

Hindlilərin bayraqları yardı göyü üzə-üzə,
Ərəblər də gətirdi öz bayrağını həmin düzə.
Hamı bilir ərəblərin yarağıdır iti nizə,
Çevirən qoç Firidundur çölü qanlı bir dənizə".

Onlar birdən yol üstündə atlı gördü – beş yüz nəfər,
Bir qırpımda mərd ərəblər hücum etmək istədilər.
Şah Tariyel: "Qoy amana gəlsin yağı, durun bir az".
Çox çəkmədi, dəstəsiylə yalın əllə gəldi Ramaz.

Ramaz atın ayağını qucaqladı diz çökərək:
– "Ey Tariyel, əfv et məni, olsun Tanrı sənə kömək.
Durma, öldür, meyidimi itlərə at, vermə aman,
Mən ki, sənə qul olası bir bəndəyəm, ey hökmran.

Siz gedəli bu ölkədən on il olar, şahım mənim
Aləm bilir padşah öldü, rəiyyətsə qaldı yetim.
Bu səbəbdən xoş niyyətlə bu diyara basdım ayaq,
Mən ağılsız bununçün də ömrümə son qoydum ancaq.

Yalvarıram, öldür məni, qəmlər yükü məni əzir,
Müqəssirik həm mən özüm, həm də ki, bu beş yüz vəzir.
Kəs onların başlarını, qoy çöllərə axsın qanı,
Ləşkərimə acıyıram, əsgərlərdə günah hanı".

Hamı birdən Tariyelin qarşısında çökdü dizə:
"Sən, o sənə güc verənin xatirinə rəhm et bizə".
Qoç Tariyel fikrə getdi, Ramaz qaldı diz üstündə,
Günahkarı bağışlarlar, o peşiman olan gündə.

Bir günahkar əfv edilər, candan tövbə etsə əgər,
Ninəvilər kimi onlar başlarına kül səpdilər.
Göydən gələn qəzəb dəxi bağışlandı bu cür ancaq,
Lazım gəlsə açdığını fələk yenə bağlayacaq.



Aqilləri oxuyarkən mən yetirdim buna diqqət,
Kişidəki cəsarətə budur verən bəzək, ziynət.
Düşmənini məğlub etsən, aman desə, onu əfv et.
Arzun cəsur olmaqdırsa, bu kəlama sən qiymət ver.

Tariyelin oldu bu dəm Tanrı qədər mərhəməti,
Dedi: "Məğlub olanları öldürməyin nə şöhrəti.
Bağışlaram, keçməz elə bir də onun xəyanəti,
Düzəlməyən iş düzəldi, yox etdim bu fəlakəti".

Əl qaldırıb verdi onlar duaya həm anda rəvac,
Dedilər ki: "Yarəb, bizim bəxtimizə özün yol aç".
Tariyeldən aldı hamı öz dərdinə çarə, əlac.
Tariyelin, bu döyüşdə qaldı misri qılıncı ac.

Tariyeli görmək üçün Müştəri də oldu əyan,
Qəzəbinin atəşini söndürdü o xeyli asan.
Ramazınsa qoşunları baxdı buna heyran-heyran,
Sütun-sütun işıq gəldi göydən, güldü bu Hindistan.

Bir qasidlə xəbər çatdı Tariyeldən yad qoşuna,
Gəldi onun əfv etməsi bu qoşunun çox xoşuna.
Çan çalındı, orda yoldaş belə dedi yoldaşına:
"Bu igidmiş bir vaxt qıran bir ordunu tək başına".

Tariyeli ta uzaqdan salamladı o Hind eli:
"Budur yenə bayrağımız öpür bayraq tutan əli.
Bəlkə bu da bir tələdir, bunlar kimdir, deyil bəlli",
Ağladılar, çünki onlar gözləmirdi Tariyeli.

Qoç Tariyel: "Gələn mənəm, bəli, sizin padşahınız,
Tanrı verdi bizə qanad, gəlməmişəm fəqət yalqız.
Mənimlədir öz dildarım, ildırım tək çaxan ulduz,
Yaxın gəlin, əzizlərim, yaxdı məni hicranınız".

Tariyeli tanıyan tək qaçışdılar ora-bura,
İşıq dolu dörd bir yana, eyvanlara, həm damlara,
Bağırdılar: "Səni gördük bağrımızdan getdi yara,
Tanrı bizə rəhm eləyib, həyat verdi bu diyara..."

Açarçılar açar salıb qapıları açdı bu dəm,
Şəhər əhli qara paltar geyinmişdi tutub matəm.
İgid və qız ağlayanda gülüstanda göründü nəm,
Bu vaveyla, bu saç yolmaq baxanlara verirdi qəm.

Bir məcnuna döndü şagird ustadını salıb yada,
Gözlərindən tökülən yaş bənzəyirdi qızmar oda.
Bayaq yada qan udduran ağlayırdı uşaq kimi,
Öz başından saç yolurdu yarpaq tökən budaq kimi.

Yas paltarı geyinmişdi vəzirlərlə əhli-saray,
İgid bunu görüb yenə çəkdi nalə, çəkdi haray.
Gözlərindən axan qan-yaş sellər kimi coşub daşdı,
Qoç Tariyel yas içində vəzirlərlə qucaqlaşdı.

Bütün mənsəb sahibləri baş sağlığı etdi izhar,
Qəşş elədi, ağlamağı bacarmayan nazlı nigar.
Qızılgülün kolundansa qırılıb düşdü qıçalar,
Hamı matəm içindədir, nə sevinən, nə gülən var.

Kraliça həyəcanla gəlib dedi: " Bəsdir daha,
Daha bəsdir ağladınız, xitam verin dərdə, aha.
Bu xoş gəlməz pənahımız mərhəmətli o Allaha,
Çevirdiniz kifayətdir bu diyarı matəmgaha".

Hətta özü ağlayaraq qucaqladı Tariyeli:
"Sönmüş odun közü göynər, qınamıram heç taleyi.
Sakit olub əhval soruş, güldür məni, güldür eli.
Sizi mənə Tanrı verdi, deməк əsir şadlıq yeli".

Ağlayaraq qız dedi ki: "Ana, söylə nədir bu yas,
Sən qırmızı geyinərdin, neçindir bu qara libas?
Atam öldü, bir də o taxt görməyəcək, həqiqətdir".
Ana dedi: "Əziz balam, ağladığın kifayətdir".

Öpdü qızı, elə bil ki, qızılgülü öpdü bülbül,
Yıxıldı o sərv ağacı, bu öpüşdən əzildi gül.
Dedi: "Nəstan, neçin gərək sitəmlərlə yansın könül,
Bu nemətdən vəcdə gələk, həm mən gülüm, həm də sən gül".



Bir az keçdi, azalmadı bu məhəbbət, bu ehtiram,
Saray əhli igidlərə hörmətlə baş əydi tamam.
Günəşləri qucaqlayıb başlarına gül səpdilər,
Hər birini məhəbbətlə, hərarətlə nə öpdülər!

Avtandillə Firidunsa: "Xanım, olsun başınız sağ"
Tariyelsə: "Padşah xanım, budur həmin iki qoçaq,
Bizi bunlar etdi xilas, dar gündəsə oldu dayaq,
Bax bunların sayəsində ömr edirik üzümüz ağ".

Onlar keçib küçələrdən bu saraya basdı ayaq,
Belə dedi gələnlərə kraliça üz tutaraq:
"Tanrı qarı düşmənləri bəlalara etdi düçar,
Qəmlər getdi, ürəyimdə artıq şadlıq, təntənə var!"

O buyurdu: "Daha bəsdir, unudun bu dərdi, yası,
Qoy sinc təbil gəlsin dilə, tez dəyişin bu libası:
Hamı zəngin paltar geysin, qoy bağlasın qızıl kəmər,
Qoy kəsilsin göz yaşları, könül açsın xoş nəğmələr".

## TARİYEL İLƏ NƏSTAN-DARECANIN TOYU

Xanım padşah sevənlərə uzadaraq öz əlini,
Taxt üstündə əyləşdirdi həm igidi, həm gəlini.
Ürəyini alıb ələ, dərdlərini unutdu o,
Rəftarilə, gülüşüylə könülləri şad etdi o.

Şah taxtının üstündəki Tariyeli və dilbəri –
Görən deyər harda vardır belə bir ər, bu cür pəri.
Aqil də vəsf edə bilməz gördüyünüz gözəlləri,
Yox, tapılmaz yer üzündə heç birinin bərabəri.

Padşah xanım tez geyindi gözəşirin, zəngin libas,
Hər bir mənsəb sahibinə bəxşiş verdi rəngin libas.
O, hamını bəzəndirdi, dedi olsun kefiniz çağ,
Bundan belə keçsin gərək ömrümüz xoş, günümüz ağ.

Tariyellə Nəstan aldı bu həyatdan doyunca kam,
Yeddi padşah taxtı-tacı iki gəncə verdi ilham.
Bu şadlıqlar könüllərdən əzabları sildi tamam,
Heç duyarmı sevinc nədir, qəm çəkməzsə əgər adam.

Gün onlara tayam desə inanmayın, bu düz deyil,
Onu padşah elədilər, düşdü işə şeypur, təbil.
Xəzinənin açarını tapşırdılar bu igidə,
Bütün saray bağırırdı – Padşahımız, var ol, – deyə.

İki taxt da düzəltdilər Firidunla Avtandilə,
Padşah kimi oturdular taxt üstündə gülə-gülə.
Yer üzündə belə canlar xalq etməyib xaliq hələ,
Əyanlara açdı onlar öz qəlbini gəlib dilə.

Yeyirdilər, içirdilər, toy çatarmı heç bu toya?!
Gülmək, çalmaq, rəqs eləmək can gətirdi bu saraya.
Daş-qaşlardı dördünün də hədiyyəsi tabaq-tabaq,
Dilənçilik edənlərə pay toplandı qalaq-qalaq.

Xanım padşah buyurdu ki, yetimləri və dulları,
Hədiyyələr almaq üçün tez toplayın bura, barı.
Hədiyyələr sahibinə çatdırıldı bundan sonra,
Verdilər gözaydınlığı bu igidə, o dildara.

Tariyelsə dedi: "Səndən xahişim var, xanım padşah,
Ramazı da bağışlasan, razı qalar səndən Allah.
Qorxub mənim qılıncımdan çəkdi bayaq dərindən ah,
Tövbə edib ağlayana bağışlanar məncə günah".

Xanım padşah verdi cavab: "Əfv etməsəm yaxşı olmaz".
Gətirdilər, padşahlara təzim etdi padşah Ramaz.
Xanəndələr oxudular, ürək açdı bu xoş avaz,
Çalğıçılar elədilər dərdlilərin kefini saz.

Budur, yenə yağış kimi qızıl yağır, daş-qaş yağır,
Sanki çölü suvarırlar, bu nemətlər sudur, axır.
Kimin könlü, nə istəsə aparırdı yüngül, ağır,
Zənn etməyin fərraşbaşı bu işlərə əyri baxır.



Padşah dedi ordusuna Firidunla Avtandilin:
"Qoy götürsün özü üçün nə xoşuna getsə elin.
Ləl verin hərəyə bir qatır yükü, yubanmayın,
Hesabı yox, qədəri yox, cavahirdən axan çayın".

Firidunun, Avtandilin sonsuz oldu hədiyyəsi,
Saymaq üçün igidlərin nə vaxtı var, nə həvəsi.
Xanım padşah igidlərə xilaskartək baxır yalnız,
Bu məclisdə bir nəfər də tapılmaz ki, olsun paysız.

Hindlilərsə sağ ol dedi, Firiduna, Avtandilə:
"Etdiyiniz yaxşılıqlar hesabsızdır, gəlməz dilə".
Hazırdılar igidlərə xidmət üçün sədaqətlə,
Onlara bir hökmdartək baxırdılar məhəbbətlə.

Mərd Tariyel Ramaza da bəxşiş verdi ətək-ətək,
Buyurdu ki, sən də vergi verməlisən əcdadın tək.
Dünən mənəm-mənəm deyən Ramaz, diqqət yetirin siz,
Getdi dua eləyərək bu məclisdən təkəbbürsüz.

Hind padşahı dedi: "Əsmət, ey dar gündə mənə hayan,
Etdiyini nə mürəbbi, nə də şagird edib, inan.
Hindistanın sən yeddinci diyarında ol hökmran,
Taxta otur, o torpaqda olsun sənin hökmün rəvan.

Səltənətə sahib olub, özünə bir yaxşı ər tap,
Xidmət göstər yenə bizə, gətir yenə əzaba tab".
Əsmət öpüb ayağını iftixarla verdi cavab:
"Qulun olmaq şərəfini eyləyirəm mən intixab".

Sonra Əsmət yenə dedi: "Bir sözüm var, ey hökmdar,
Bütün dünya verilsə də, bu ayrılıq məni yaxar.
Günəşimi qoyub burda, necə gəzim diyar-diyar,
O günəşin həsrətilə qəlbim yenə bağlar qubar".

Belə dedi qoç Tariyel: "At qəlbindən bu təlaşı,
Yadımdadır bizdən ötrü axıtdığın o göz yaşı.
Bundan sonra kimsə sənə zərrə ziyan vura bilməz,
Bir ordun var, qarşısında qarı düşmən dura bilməz".

Əsmət dedi: "İnsan ancaq bircə kərə bəla çəkər",
Məclisə bir igid gəldi, o adlandı Əsmətə ər.
Tərifləyib dedilər ki, padşahıdır bir ölkənin,
Əsmət dəxi kama yetdi, təntənəylə getdi gəlin.

Bu üç qardaş bir neçə gün bu sarayda məskən saldı,
Şənlik yenə davam etdi, yenə hərə bəxşiş aldı.
Yenə nadir mirvarilər, yenə yeltək cuman atlar,
Avtandilin ürəyində Tinatindən ağrılar var.

Mərd Tariyel hiss etdi ki, dostu həsrət çəkir yara,
Belə dedi: "Yar ucundan olub yəqin qanın qara,
Tinatinçin yeddi yaran dönüb oldu səkkiz yara,
Tale bizə yar olmadı, mən neylərəm bundan sonra".

Firidunsa dedi: "Dostum, iznimi ver, getməliyəm,
Fəqət tez-tez bu ölkəni mən ziyarət etməliyəm.
Dostun sənin kiçiyindir, istəyirsən al canını,
Maral bulaq axtarantək çəkəcəyəm hicranını".

İzn verdi: "Get, qardaşım, unutma sən bizi ancaq,
Tez-tez gəl, get, hamı sənə bu sarayda açar qucaq".
Avtandilə belə dedi: "Sənsiz qalmaq olar qolay,
Nə edim ki sən aslanı məhəbbətlə gözləyir ay".

Gözəl kürklər, başqa şeylər ayırdı o Rostevana,
Üz tutaraq belə dedi Avtandilə – pəhləvana:
"Verdiyim bu hədiyyəni yetir onun qulluğuna",
Avtandilsə dedi: "Qəlbim dözməyəcək bu hicrana".

Tinatinçin Nəstan verdi bəzəkli kürk, ipək yaylıq,
Bu bəxşişlər o gözəldən qeyrisinə deyil layiq.
Bir qiymətli daş gətirdi görən olar ona aşıq,
Bu daş, gecə işıq saçır günəşdən də qat-qat artıq.

Minib ata qoç Avtandil vida etdi Tariyelə,
Hicran yaman dağlar çəkdi igidlərə, bütün elə.
Hindlilərin göz yaşları döndü çaya, döndü selə.
Padşah dedi: "Zəhər dəydi qəlbimdəki incə telə".



Qoç Avtandil, mərd Firidun düşdü yola at çaparaq,
Sonra onlar yol getdilər bir-birindən xeyli uzaq,
Əvvəlkitək yandırırdı ürəkləri yenə fəraq,
Ərəbistan torpağına çatdı Avtandil üzüağ.

Ərəblərsə təntənəylə çıxdı onun qabağına,
Avtandil öz günəşini tapıb basdı od bağrına.
Taxt üstündə oturdu o, növraq çatmaz növrağına,
Ulu Tanrı rəvac verdi tacına, həm bayrağına.

Bir-birini çox sevirdi bu üç igid, üç hökmdar,
Onlar tez-tez görüşürdü, heç günləri keçmirdi dar.
Kim qanundan çıxsa onlar dəmir qollar qılınc vurar,
Onların bu səltənəti durduqca bu dünya durar.

Öz lütfünü, kərəmini onlar yağan qartək səpər,
Dilənçilik nədir bilməz dul qadınlar və yetimlər.
Bu diyarda yaramazlar heç kimdən üz görməyəcək,
Qurd qoyunla gəzir qoşa, bunu aləm bilsin gərək.

## NƏTİCƏ

İgidlərin şikayəti bitdi gecə yuxusutək,
Onlar köçdü bu dünyadan, vəfasızmış zalım fələk.
Kim əbədi zənn edirsə gödək ömrü, xamdır demək,
Rustaveli adlı şair yazır bunu doğru, gerçək.

Gürcüstanın Tanrısı o David üçün bu dastanı –
Bu tarixi yazdım; odur tanıtdıran Gürcüstanı.
O, məşriqdən məğribədək əmr eləyir bu cahana,
Doğrulara qaynar qanı, əyriləri salar qana.

Mən acizəm tərif yazam Daviddəki böyük əzmə,
Hekayəmdə yad elləri mən gətirdim bu xoş bəzmə.
Dünyaları dolaşdım çox, bir borc bilib mən özümə,
Padşahları, bütün qədim adətləri çəkdim nəzmə.

Dünya belə qurulubdur, etmə ona heç etibar,
Dəqiqə yox, bir andır o, bir qırpımda səndən qaçar.
Tale deyib, axtarma çox, onda böyük xəyanət var,
Xoşbəxt odur, tale ona olsa iki dünyada yar.

O Amiran Darecana qoşdu gözəl söz Xoneli,
Dedi Əbdülməsiahdan şeri məşhur o Şavteli.
Tərif etdi Dilarqeti gəlib vəcdə Timoqveli,
Göz yaşını qurutmayan Rustaveli Tariyeli.



# MÜNDƏRİCAT

*Şota Rustaveli və onun "Pələng dərisi geymiş pəhləvan" poeması* (Dilarə Əliyeva) .......... 4

Pələng dərisi geymiş pəhləvan .......... 9

| | |
|---|---|
| Buraxılışa məsul: | *Umud Rəhimoğlu* |
| Texniki redaktor: | *Mübariz Piriyev* |
| Kompyuter səhifələyicisi: | *Azər Quliyev* |
| Yığıcılar: | *Maral Quliyeva*<br>*Asifə Əfəndi* |
| Korrektor: | *Tofiq Qaraqaya* |

Yığılmağa verilmişdir 21.04.2006. Çapa imzalanmışdır 22.05.2006.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 14,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 60.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.

1 m. 72q.

1116(2)
R88